**AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI**
**AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI**

**Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş**

# “İnsan kapitalına investisiya qoyuluşu və onun səmərəliliyinin qiymətləndirilməsi” mövzusunda

**Respublika elmi-praktik konfransın**
**MATERİALLARI**
**27 APREL 2023**

**BAKI-2023**

**Elmi redaktor:** dos. Zeynəddin Şabanov

"İnsan kapitalına investisiya qoyuluşu və onun səmərəliliyinin qiymətləndirilməsi" mövzusunda Respublika elmi-praktik konfransın materialları. Bakı, 2023, 234 səh.

## KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

A.Ə.Bağırzadə - AƏSMA TEC-in sədri
H.Ə.Mirzəyeva- AƏSMA Maliyyə-iqtisad fakültəsinin dekanı, dosent, üzv
S.O.Məmmədova – AƏSMA Sosial iş fakültəsinin dekanı, üzv
N.Y.Mikayılova - AƏSMA Maliyyə-iqtisad fakültəsinin TEC-in sədri, üzv
K.C.Abbasov - AƏSMA Sosial iş fakültəsinin, TEC-in sədri, üzv
H.Q.Mirzəyev - AƏSMA İnnovasiya və karyera şöbəsinin müdiri, üzv

## KONFRANSDA İŞTİRAK EDƏN UNİVERSİTETLƏR

1. Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
2. Sumqayıt Dövlət Universiteti
3. Azərbaycan Kooperasiya Universiteti
4. Xəzər Universiteti
5. Bakı Biznes Universiteti
6. Bakı Avrasiya Universiteti
7. Azərbaycan Universiteti
8. Azərbaycan Dillər Universiteti
9. Azərbaycan Tibb Universiteti

# MÜNDƏRİCAT

## PLENAR

1. Əlirza Abdullayev - **İQTİSADİ YÜKSƏLİŞİN DAYAQ NÖQTƏSİ--------------------4**
2. Niftiyev Mir İlham - **AZƏRBAYCANDA HÜQUQI DÖVLƏT QURUCULUĞUNDA HEYDƏR ƏLIYEV FENOMENİ------------------------------------------------------------9**
3. Rüstəmova Aynur - **HEYDƏR ƏLİYEV – DİLİMİZİN HİMAYƏDARI KİMİ------12**


## I BÖLMƏ

## İQTİSADİYYAT

4. Mülayim Salmanzadə - **İQTİSADİ SİYASƏTİN MƏQSƏDLƏRİ VƏ ONUN REALLAŞDIRILMASI MƏRHƏLƏLƏRİ ----------------------------------------------16**
5. Osmanova Nübar - **AZƏRBAYCANDA İNSAN RESURSLARININ İDARƏ EDİLMƏSİNİN TARİXİ İNKİŞAF XƏTTİ----------------------------------------------20**
6. Balışova Ləman - **AZƏRBAYCAN VƏ TÜRKİYƏDƏ İNSAN RESURSLARININ İDARƏ EDİLMƏSİ TƏCRÜBƏLƏRİNİN MÜQAYİSƏSİ -----------------------------22**
7. Balışova Rəvanə - **İNKİŞAFDA İNSAN KAPİTALININ ƏHƏMİYYƏTİ ------------24**
8. Kərimzadə Songül - **İNSAN KAPİTALI-----------------------------------------------------26**
9. Zülfüqarlı Məleykə - **İNSAN KAPİTALININ FORMALAŞMASI ---------------------28**
10. Babazadə Jalə - **İNSAN KAPİTALINA QOYULAN İNVESTİSİYA -------------------30**
11. Nəsirova Naibə - **İNSAN KAPİTALINA İNVESTİSİYA QOYULUŞU----------------33**
12. Şəkiyev İmran - **CƏMİYYƏTİN İNKİŞAFININ MÜASİR MƏRHƏLƏSİNDƏ YARADICI ƏMƏK --------------------------------------------------------------------------36**
13. Adıgözəlova Nigar - **İNSAN KAPİTALININ MƏDƏNİ MÜHİTDƏ İNKİŞAFI-----39**
14. Hüseynova Dilarə - **İNSAN POTENSİALININ İNKİŞAFİNA TƏSİR EDƏN AMİLLƏR ---------------------------------------------------------------------------------42**
15. Süleymanova Lalə - **ÖLKƏNİN DAVAMLI SOSİAL-İQTİSADİ İNKİŞAFININ PERSPEKTİVLƏRİ VƏ İMKANLARI-----------------------------------------------45**
16. Rəcəbli Nurlanə - **İNSAN KAPİTALININ FORMALAŞDIRILMASI MƏSƏLƏSİ 47**
17. Qasımlı Şamxal - **HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN RESPUBLİKASININ NEFT RESURSLARININ İNKİŞAFININ İNSAN AMİLİNƏ TƏSİRİ---------------51**
18. Məmmədov Fuad - **İNSAN KAPİTALI: İNKİŞAF VƏ İSTİFADƏ PROBLEMLƏ-Rİ-------------------------------------------------------------------------------------55**
19. Məmmədzadə Yusif - **RƏQƏMSAL İQTİSADİYYAT MÜASİR DÖVRÜN ƏSAS TƏLƏBİ KİMİ ---------------------------------------------------------------------------57**
20. Xəlilli Elşən - **TƏŞKİLATIN EFFEKTİV İDARƏETMƏ STRATEGİYASININ HAZIRLANMASI FORMALARI ---------------------------------------------------62**
21. Rzai Naqulu Ayhann - **İNSAN KAPİTALININ İNKİŞAF AMİLLƏRİ ----------------65**
22. Xəmmədov Yusif - **SOSIAL MARKETINQ. MARKETINQIN MÜASIR KONSEPSIYASI KIMI ---------------------------------------------------------------------69**
23. Əsədova Nəzrin - **ŞƏKİ-ZAQATALA REGİONUNDA TURİZMİN İNKİŞAFINDA KADR PROBLEMİ ---------------------------------------------------------------------71**
24. Həsənov İlqar - **MÜASİR ŞƏRAİTDƏ VERGİ NƏZARƏTİNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ YOLLARI ---------------------------------74**

25. Aslanov Cəlal - **KREDİT TƏŞKİLATLARINDA İNFİLYASİYANIN İDARƏ OLUNMASINDA MALİYYƏ MENECMENTİNİN ROLU**-----------------------------**76**
26. İbrahimov Vüqar - **BANKLARIN KAPİTALLAŞMASI-İQTİSADİ ARTIMIM SÜRƏTLƏNDİRİLMƏSİ AMİLİ KİMİ**---------------------------------------------------**78**

## II BÖLMƏ
## MALİYYƏ

27. Nurullayeva Nuranə - **AZƏRBAYCANDA ELM SAHƏSİNİN İNKİŞAFI VƏ MALİYYƏLƏŞDİRİLMƏSİ DİNAMİKASININ TƏHLİLİ**----------------------------**81**
28. Qələndərli Lalə - **BANKLARIN MAHİYYƏTİ, ƏSAS VƏZİFƏLƏRİ VƏ ÖLKƏ İQTİSADİYYATINDAKI ROLU**---------------------------------------------------------**87**
29. Xəlilov Rüfət - **MALİYYƏ BAZARININ ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA ROLU VƏ ƏHƏMİYYƏTİ** ----------------------------------------------**91**
30. Xəlilli Lalə - **MÜƏSSİSƏDƏ İŞÇİLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ ÜSULLARI, QİYMƏTLƏNDİRMƏDƏ YARANAN PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ YOLLARI**-------------------------------------------------------------------------------**96**
31. Məmmədova Rəqsanə - **AZƏRBAYCAN RESPUBLİKASI İLƏ MOLDOVA RESPUBLİKASININ VERGİ SİSTEMİNİN FƏRQLİ VƏ OXŞAR CƏHƏTLƏRİ99**
32. Hüseynli Əli - **AZƏRBAYCANDA XARCİ TİCARƏT ƏMƏLİYYATLARININ PERSPEKTİV İNKİŞAF TENDENSİYALARI** -----------------------------------------**102**
33. Mustafayeva Nazənin - **BÜDCƏLƏRARASI MÜNASİBƏTLƏR**---------------------**105**
34. İsmayilova Arzu - **İLHAM ƏLİYEVİN VERGİ SİSTEMİNİN İNKİŞAFINDA ROLU** -------------------------------------------------------------------------------------**110**
35. Hüseynova Günəş - **İNSAN KAPİTALINA İNVESTİSİYA QOYULUŞU VƏ ONUN SƏMƏRƏLİLİYİN QİYMƏTLƏNDİRİLMƏSİ**---------------------------------------**114**
36. Məmmədova Röya - **BEYNƏLXALQ MALİYYƏ SİSTEMİNDƏ MALİYYƏ İNSTİTUTLARI**-----------------------------------------------------------------------**118**
37. Məmmədova Fatimə - **HEYDƏR ƏLİYEVİN VERGİ SİSTEMİNİN FORMALAŞMASINDA ROLU**---------------------------------------------------------**121**
38. Qurbanova Aysel - **TİCARƏT VƏ YA İAŞƏ OBYEKTLƏRİNDƏN ALINMIŞ MALLARA GÖRƏ ÖDƏNİLMİŞ ƏDV'NİN QAYTARILMASI**--------------------**126**
39. Cavadov Elnur - **MÜASİR DÖVRDƏ MÜƏSSİSƏNİN İNVESTİSİYA SİYASƏTİ VƏ ONUN XÜSUSİYYƏTLƏRİ** -----------------------------------------------------------**129**
40. Abbasova Cəhanə - **İNSAN KAPİTALINA İNVESTİSİYA QOYULUŞU VƏ ONUN SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ** ------------------------------------**134**
41. Məmmədov Emil - **NEFTQAZÇİXARMA MÜƏSSİSƏLƏRİNDƏ İNVESTİSİYA QOYULUŞU VƏ ONUN İDARƏ EDİLMƏSİ** ------------------------------------------**137**
42. Əliyeva Çinarə - **AZƏRBAYCANDA GÖMRÜK SİSTEMİNİN BEYNƏLXALQ İNTEQRASİYASI**-------------------------------------------------------------------**140**
43. Əmirxanova Səidə - **DAYANIQLI İQTİSADİ İNKİŞAFIN VƏ İNVESTİSİYA FƏALİYYƏTİNİN ELMİ-NƏZƏRİ ƏSASLARININ BƏZİ MƏSƏLƏLƏRİ**-----**145**

44. Vəliyev Kazım - **İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ İNFRASTRUKTUR İŞLƏRİNİN TƏŞKİL OLUNMASININ MALİYYƏ TƏMİNATININ İQTİSADİ TƏHLİLİ**---148

## III BÖLMƏ
## HUMANİTAR VƏ SOSİAL ELMLƏR

45. İbrahim Nuri, Nigar Zehelova- **THE USAGE OF PREPOSİTİONS İN ENGLİSH İNGİLİS DİLİNDƏ SÖZÖNÜLƏRİNNİN İŞLƏNMƏSİ**---152
46. Dəmirova Gülnarə - **DAUN SİNDROMLU UŞAQLAR SOSİAL İŞİN ƏSAS TƏDQİQAT OBYEKTİ KİMİ**---157
47. Ələkbərli Rubina - **AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ MÜASİR GƏNCLƏRİN ROLU**---160
48. Şükürova Aytən - **İNSAN KAPİTALININ İNKİŞAFINDA SOSİAL İŞİN ROLU** 162
49. Kazımova Nuranə - **HEYDƏR ƏLİYEVİN ELM VƏ TƏHSİL SAHƏSİNDƏ GÖRDÜYÜ İŞLƏR**---165
50. Həsənova Aytac - **CƏMİYYƏTDƏ SOSİALLAŞMA**---167
51. Hüseynov Rəsul - **AZƏRBAYCANDA TƏHSİL SİYASƏTİ VƏ ONUN SOSİAL İNKİŞAF İSTİQAMƏTLƏRİ**---170
52. Musayeva Dinar - **AUTİZMLİ ŞƏXSLƏR SOSİAL QRUP KİMİ**---173
53. Cavadova Minurə - **İSLAM ÖNCƏSİ ƏRƏBİSTAN**---176
54. İmanova Xədicə - **UŞAQLARDA AQRESSİYANIN SƏBƏBLƏRİ VƏ ONUN QARŞISININ ALINMASI ÜSULLARI**---185
55. Məmmədova Fatimə - **QADIN HÜQUQLARI**---189
56. Həsənova Nərmin - **HETT / HET DÖVLƏTİ, ÇARLIĞI, DİLİ, XALQI HƏRBİ SİYASİ, İCTİMAİ – İQTİSADİ MUNASİBƏTLƏRİ**---193
57. Qasımova Nuranə - **QƏDİM DÜNYANIN KOLONİYA SİSTEMİ**---199
58. Zəhra Əhmədzadə - **HƏRBİÇİ AİLƏLƏRİ İLƏ SOSİAL İŞİN XÜSUSİYYƏTLƏ-Rİ**---203
59. Enes Emre - **AZƏRBAYCAN VƏ TÜRKİYƏ TÜRKCƏSİNDƏ İSTİFADƏ OLUNAN DƏRMAN BİTKİLƏRİNİN ADLARININ MÜQAYİSƏLİ TƏHLİLİ**---206
60. Orucova Vəfa - **ƏQLİ MÜLKİYYƏT HÜQUQİ**---210
61. Cavadzadə Nərgiz - **BALKAN ÖLKƏLƏRİNDƏ TİBBİ GENETİKA TƏHSİLİ PROBLEMLƏRİ**---215

## IV BÖLMƏ
## İKT VƏ TƏBİƏT ELMLƏRİ

62. Əzizov Kənan - **ELEKTRON TƏHSİL**---218
63. Nərmin İsmayılova - **MÜASİR EKOLOGİYANIN QLOBAL EKOLOJİ PROBLEMLƏRİ**---225
64. Hacıyeva Vəfa - **CƏMİYYƏTDƏ İNFORMASİYA EMALI TEXNOLOGİYALA-RI**---229

## İqtisadi yüksəlişin dayaq nöqtəsi

**Abdullayev Əlirza**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Elmi rəhbər: dos  Mikayılova Nurəngiz**

### 1. Heydər Əliyevin Azərbaycana rəhbərliyin I dövrü

XX əsrdə Azərbaycan xalqının yetişdirdiyi ən böyük tarixi şəxsiyyət - müstəqil respublikamızın banisi ümummilli liderimiz Heydər Əliyev müasir dövlətimizin ideoloji-siyasi əsaslarını tarixi irs və milli-mənəvi dəyərlər zəminində yaradaraq, praktik surətdə gerçəkləşdirmiş dahi strateq kimi xalqımızın əbədi və tükənməz sevgisini qazanmışdır. Ümummilli liderə layiq olduğu qiyməti vermək, onun vətən və xalq naminə göstərdiyi misilsiz xidmətləri və fədakarlıqları obyektiv dəyərləndirmək böyük məsuliyyət tələb edən məsələdir.

Bu gün Heydər Əliyev dühası həyatının mənasını xalqa və dövlətə təmənnasız xidmətdə görən, bu müqəddəs amal uğrunda ən çətin maneələrə mərdliklə sinə gərən Millət Atası kimi hər bir azərbaycanlının qəlbində yaşayır və dərin rəğbətlə yad edilir.

1969-cu ilin avqustun 5-də Azərbaycan KP MK-nın plenumu keçirildi və üç həftə əvvəl respublikanın siyasi rəhbəri vəzifəsinə seçilmiş 46 yaşlı Heydər Əliyev həmin plenumdakı proqram səciyyəli məruzəsində  maddi və mənəvi tənəzzül içərisində olan Azərbaycan cəmiyyətinin tərəqqiyə dönüş, keyfiyyətcə irəliyə, milli özünüdərkə, soykökə qayıdış mərhələsinin aydın konturlarını bəyan etdi, özünün siyasi-təşkilatçılıq fəaliyyətinin bütün sonrakı illərini, coşğun enerjisini, bilik və bacarığını, idarəçilik məharətini həmin məruzədə əksini tapan və xalqımız üçün taleyüklü olan strateji problemlərin həllinə, Azərbaycanın gələcək dövlət müstəqilliyinin möhkəm təməlini qoyulmasına həsr etdi.

1969-cu ilin iyul ayında hakimiyyətə gələn Heydər Əliyev ölkədə emal müəssisələrinin yaradılmasına nail olaraq, respublikanın müəyyən qədər xammal ixracatçısından hazır məhsul ixracatçısına çevirməyə nail oldu. 1970-1985-ci illərdə, tarixən qısa bir dövr ərzində, bütövlükdə respublika ərazisində yüzlərlə zavod, fabrik, istehsalat sahələri yaradıldı. 250 iri sənaye müəssisəsi işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu.

### 2. Azərbaycana rəhbərliyin II dövrü

1990-cı ilin əvvələrində yenidən dövlət müstəqilliyini əldə edən Azərbaycanın qarşısında duran əsas məsələlərdən biri də özünün iqtisadi inkişaf doktrinasını yaratmaqdan ibarət idi. Bu, həm də qazanılmış müstəqilliyin davamlı olması və daha da möhkəmləndirilməsi baxımından zəruri şərt kimi çıxış edirdi. Həmin dövrdə isə SSRİ-dən Azərbaycana dağılmış sənaye, məhv olmuş təsərrüfat miras qalmışdı. Həmçinin Azərbaycan iqtisadiyyatı ilk illərdə tamamilə tənəzzülə uğradı. Belə ki, iqtisadi əlaqələrin qırılması, qanunvericilik bazasının yoxluğu, müharibə şəraiti, çoxsaylı qaçqın və köçkünlərin olması müstəqillik qazanılan illərin ən böyük problemlərinə çevrilmişdir.

Beləliklə, xalqını sonsuz məhəbbətlə sevmiş və bu məhəbbət dünya şöhrətli siyasi xadimi yenidən öz ana vətəni Azərbaycana ikinci dəfə ölkə rəhbərliyinə qaytarmışdır. 1993-cü ilin keşməkeşli iyun günlərində xalqın təkidli tələbi ilə və xahişi ilə yenidən hakimiyyətə qayıdan böyük və bənzərsiz şəxsiyyət Heydər Əliyev xalqın başının üstünü almış bütün bəlalardan millətini hifz edib qorudu, respublikada ictimai-siyasi sabitliyi təmin etdi, vətəndaş

qarşıdurmasını aradan qaldırdı, ölkəni parçalanmaq təhlükəsindən xilas etməklə, milli qurtuluşu təmin etdi. Ölkəmiz demokratiya, hüquqi dövlət quruculuğu yolu ilə irəlilədi, xalq birliyi yarandı.

1993-cü ilin yayında 30 ildən çox idarəçilik təcrübəsi olan Heydər Əliyev cənablarının Azərbaycan Respublikasının prezidenti seçilməsi Azərbaycan idarəçiliyində nəzərə çarpacaq dəyişikliklərə səbəb olmuşdur. Ulu öndər iqtisadi yüksəlişin dayaq nöqtəsi kimi ölkəmizin sosial, siyasi və iqtisadi həyatında stabilliyi əldə etməyə imkan verməklə yanaşı, digər sahələrdə qarşıda duran və həlli kifayət qədər vacib olan məsələləri yenidən dirçəltmək və onu inkişaf relsinə salmaq idi. Belə bir vəziyyətdə isə Azərbaycan iqtisadiyyatının gələcək inkişafına gətirib çıxara biləcək və burada əsas təkanverici mexanizm rolunu oynayacaq yeganə sahə neft təsərrüfatı və neft ehtiyatları idi.

1994-cü il sentyabrın 20-də Bakıda öz müstəsna əhəmiyyətinə görə “Əsrin müqaviləsi” adını almış, dünyanın aparıcı transmilli neft şirkətlərinin iştirakı ilə yeni kontraktın təntənəli imzalanması həyata keçrildi. Bununla da Azərbaycan MDB məkanında Qərbin iri neft şirkətləri ilə böyük miqyasda saziş imzalayan ilk dövlət olmaqla, Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsasını yaratdı. Bakıda Gülüstan sarayında imzalanan müqaviləyə əsasən “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında dəyəri 7.4 mlrd dollar olan “Məhsulun pay bölgüsü” tipli müqavilə imzalandı. Qeyd edək ki, müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə “Əsrin müqaviləsi” adlanmış, təxminən 400 səhvə həcmində və 4 dildə öz əksini tapmışdır. “Əsrin müqaviləsi” Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edilərək və 12 dekabr 1994-cü ildə qüvvəyə mindi.

1994-cü ildə “Əsrin Müqaviləsi”nin imzalanması və 12 noyabr 1995-ci ildə Konstitusiyanın qəbul edilməsi bazar iqtisadiyyatının hüquqi normativ strukturunun sürətlənməsi ilə birlikdə ölkəyə böyük həcmdə sərmayə daxil olmasına gətirib çıxardı. Yeni Konstitusiya dövlət idarəçiliyinin formalaşdırılması, vətəndaşaların və dövlətin hüquq və vəzifələrinin müəyyən edilməsi ilə yanaşı ilk dəfə demokratik dəyərlərə sahib liberal bazar qurulma labüdlüyünü qəbul etdi. Konstitusiya ilə özəl mülkiyyətin, özəl sahibkarlığın dünya iqtisadiyyatına inteqrasiyasının hüquqi əsası müəyyən edildi. Bu baxımdan Azərbaycanda geniş mənada iqtisadi tənzimləmələrin başlanğıc ili 1995-ci il qəbul edilə bilər. Bundan əlavə qeyd edək ki, növbəti illərdə iqtisadi yüksəlişin əsası kimi qanunvericilikdə müxtəlif sahələri əhatə edəcək islahatlar barəsində qanunlar qüvvəyə minmişdir. Bu qanunlara, “Aqrar islahatın əsaları haqqında”, “Torpaq islahatı haqqında” Azərbaycan Respublikasının Qanunu, 1999-cu ildə “Azərbaycan Respublikasının Torpaq Məcəlləsi” və “Bələdiyyə mülkiyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu, 2001-ci ildə “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmiş və qanunlardan irəli gələn fəaliyyət mexanizmləri müəyyənləşdirilmişdir.

Keçən əsrin sonunda güclənən qloballaşma prosesi informasiya, texnologiya, işçi qüvvəsi və kapitalın hərəkəti sahəsində ölkələr arasında mövcud maneələrin azaldılmasına şərait yaratmışdır. Əlbəttə, belə bir şəraitdə ehtiyatların artırılması və eləcə də, dünyanın iqtisadi ehtiyatlarının cəlb olunması məqsədilə milli rəqabət qabiliyyətliliyin gücləndirilməsi Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edirdi. Buna görə də, Ulu öndər tərəfindən ölkədə

investisiya mühitinin yaxşılaşdırılması və yüksək texnologiyaları mənimsəməyə qadir olan iqtisadi sistemin formalaşdırılması sahəsində işlər daha fəal şəkildə həyata keçirilmişdir.

Uzaqgörən siyasətçi Heydər Əliyev yaxşı başa düşürdü ki, iqtisadi sahədə yüksəliş əldə etmək üçün yuxarıda qeyd etdiyimiz sahələrlə kifayətlənmək lazım deyildi, digər sahələrdə də islahatlar etmək gərəkdir. Məsələn "Aqrar islahatlarla" bağlı ümumilli liderin rəhbərliyi və təşəbbüsü ilə aqrar bölmənin problemlərinə dair mütəmadi olaraq müşavirələr keçrilməsinə başlandı. 1993-2000-ci illərdə tez-tez keçrilən belə müşavirələrin nəticəsi olaraq, ölkədə özəlləşdirmə və torpaq islahatları, həmçinin qanunverici bazanın təkmilləşdirilməsi, icra strikturlarının düzgün koordinasiya edilməsinə nail olundu. Bundan başqa Sahibkarlığın sürətli inkişafını, Ərzaq təhlükəsizliyi problemini, Əhalinin sosial müdafiəsini və Regionların sosial-iqtisadi inkişafını şərtləndirən dövlət proqramaları müvəffəqiyyətlə həyata keçrilmişdir. Beləliklə ardıcıl aparılan iqtisadi irəlləyişlər ölkənin regionda və MDB ölkələri sırasında söz sahibi etmiş, gələcəkdə İEOÖ sırasıına çıxmasına zəmin yaratmışdır. Məhz Ulu öndərin səyi nəticəsində 1994-cü ildən etibarən Azərbaycana xarici investisiyaların axını hər il artaraq 2002-ci ildə 2,2 milyard dollara çatmışdır. Bu illər ərzində birgə və tamamilə xarici investisiyalar hesabına Azərbaycan iqtisadiyyatına 1,6 milyard ABŞ dolları məbləğində vəsait qoyulmuşdur.

Ulu öndər Heydər Əliyevin demokratik inkişafla bağlı müəyyənləşdirdiyi yol, onun fikirləri, ideyaları dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla və böyük yaradıcılıqla davam etdirilir. Əgər biz möhtərəm Prezidentimiz cənab İlham Əliyevin çıxışlarını nəzərdən keçirsək, onun demokratiya və iqtisadiyyat barəsində fikirlərində çox maraqlı məqamların, yeniliklərin olduğunu, demokratik proseslərə baxışının dünyanın tələblərilə tam uzlaşdığını görərik. Cənab Prezident göstərir ki, əsil demokratik cəmiyyət formalaşdırmaq üçün, birinci növbədə, maddi baza olmalıdır. Yəni, demokratik inkişaf möhkəm iqtisadi təmələ əsaslanmalıdır. Güclü iqtisadiyyat olmasa, səmərəli iqtisadi islahatlar keçirilməsə, şübhəsiz, demokratiyanın inkişafı üçün lazımi şərait ola bilməz. Çünki iqtisadiyyatı zəif olan ölkələrdə demokratiya da zəifdir. İqtisadi cəhətdən inkişaf edən ölkələrdə isə demokratik proseslər sürətlə gedir. Prezident İlham Əliyevin fikirlərindəki bir cəhət də çox maraqlıdır. Cənab Prezident doğru olaraq qeyd edir ki, iqtisadi islahatlar siyasi islahatlarla paralel getməlidir və bu iki amil bir-birini tamamlamalıdır. Əgər iqtisadi islahatlarla siyasi islahatlar bir-birinə paralel getməsə, əldə olunan uğurlar da müvəqqəti olacaq. Ölkəmizdə çox böyük iqtisadi islahatlar həyata keçirilir. Azərbaycan iqtisadi inkişaf səviyyəsinə görə dünyanın ən qabaqcıl dövlətlərindəndir. Sözsüz ki, hazırda aparılan və uğurla davam etdirilən demokratikləşmə xətti, məhz ümummilli lider Heydər Əliyev siyasi irsinə, düşüncə və baxışlarına əsaslanır.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi müddət xalqın azadlıq, müstəqillik arzularının gerçəkləşməsinə yönələn real hüquqi, siyasi və iqtisadi əsasların yaradılmasını, bu möhkəm baza üzərində qazanılmış dövlət müstəqilliyinin möhkəmləndirilməsini, xalqın konstitusion hüquqlarına sahib çıxmasını, milli-mənəvi yüksəlişə nail olmasını, fərdin özünü vətəndaş kimi dərk etməsi kimi iftixar doğuran tarixi prosesi əhatələyir. Xalqımız tarix boyu əxz etdiyi dövlətçilik ənənələrini, milli dəyərləri, nailiyyətləri, ali keyfiyyətləri, məhz Heydər Əliyev epoxasında təkmilləşdirərək, dayanıqlı müstəqil dövlətini qurmuş, millət kimi mövcudluğunu, özünü idarə etmək bacarığını yüksək səviyyədə nümayiş etdirmişdir. Ulu öndərimiz ictimai fikri hər zaman dövrün keyfiyyətcə yeni və pozitiv dəyişikliklərinə hazırlamaqla, yaranmış tarixi şəraitə uyğun strateji qərarlar qəbul

etməklə yanaşı, fəaliyyətində daim milli maraq və mənafeləri önə çəkmiş, uzaq hədəflərə hesablanmış inkişaf strategiyası həyata keçirmişdir.

Azərbaycanın iqtisadi inikşafının səviyyəsi onun beynəlxalq aləmdə yerini müəyyən edir və ölkənin müstəqil xarici siyasətinin həyata keçirilməsinə təsir göstərir.

Müasir Azərbaycanın qurucu memarı, ölkəmizi ağır vəziyytindən xilas edən Heydər Əliyev gələcək üçün qurduğu siyasi-iqtisadi xətt bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçrilir. 2003-2023-cü illəri əhatə edən ölkəmizin iqtisadi qüdrətini cənab prezidentin çıxışı ilə şərh edək. “Azərbaycan iqtisadi cəhətdən artıq oturmuş dövlət kimi tanınır. Mən hesab edirəm ki, biz iqtisadi sahədə keçid dövrünü başa vurmuşuq. Nəzərə alsaq ki, dünyanın aparıcı maliyyə qurumları Azərbaycanda aparılan islahatları yüksk qiymətləndirir. Müxtəlif hesablamalara görə, Azərbaycan postsovet məkanında iqtisadi islahatlar və iqtisadi inkişaf baxımından birinci yerdədir.”

İqtisadi yüksəliş dövrü. “Ancaq iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilərlər” – fikri səsləndirən Prezident İlham Əliyev davamlı olaraq iqtisadiyyat sahəsində islahatların təşəbbüskarı kimi çıxış edir. 2003-2018-ci illər tariximizə möhtəşəm iqtisadi yüksəliş dövrü kimi daxil olmuşdur. . On beş il ölkə iqtisadiyyatında qazanılan misilsiz uğurlarla da xarakterikdir. Bu illər ərzində Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artıb, qeyri-neft ixracı 4,1 dəfə çoxalıb. Azərbaycanın 2004-cü ildə 1,8 milyard dollar olan valyuta ehtiyatları bu gün 46 milyard dollara çatdırılıb. Bu dövrdə büdcə gəlirləri 13,5 dəfə artıb. Ölkənin strateji valyuta ehtiyatları 26.6 dəfə artıb, maliyyə imkanlarımız əsaslı şəkildə yaxşılaşıb. Xarici ticarət dövriyyəsi 4,6 dəfə, ixracın həcmi altı dəfə artıb. Regionlarda ümumi məhsul buraxılışının artımı 3,6 dəfəyə bərabər olub. Əhalinin nominal gəlirləri 8.6 dəfə, minimum əməkhaqqı 12.9 dəfə, xaricə səfər edən vətəndaşların sayı 2,2 dəfə, əhalinin banklardakı əmanəti 30 dəfə artıb. 1 958 400 yeni iş yeri açılıb, 326.6 min nəfərə ünvanlı dövlət sosial yardımı verilib. İşsizliyin səviyyəsi 9.2 faizdən 5 faizə, yoxsulluğun səviyyəsi 44.7 faizdən 5.4 faizə enmiş, 245 min nəfər məcburi köçkün mənzillə təmin olunub.

2003-2018-ci illərdə Azərbaycan qlobal rəqabətlilik indeksində dünyadakı mövqeyini xeyli gücləndirmişdir. Davos Dünya İqtisadi Forumunun “2017-2018 Qlobal Rəqabətlilik Hesabatı”nda Azərbaycan 35-ci pillədə qərarlaşıb və MDB məkanında liderliyini qoruyub saxlayıb. Azərbaycan dünyada ən çox islahat aparan 10 ölkədən biri kimi tanınıb. Həmçinin, ölkəmiz innovasiya potensialına görə dünyada 44-cü, dövlət orqanlarında İKT-nin tətbiqi üzrə 14-cü olub.

Dövlətimizin başçısı İlham Əliyevin 20 illik prezidentlik fəaliyyətinin əsas qayəsində xalqa ləyaqətlə xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq, dövlətçiliyimizi və iqtisadiyyatımızı hər vasitə ilə möhkəmləndirmək dayanır. Tam əminliklə demək olar ki, Azərbaycanın bütün sahələrdə qazandığı bu misilsiz uğurlar Heydər Əliyev siyasətinin nəticəsidir.

Bu gün Azərbaycan Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan, çox böyük potensiala malik Şimal-Cənub dəhlizinin keçdiyi ölkədir. Həm Cənub-Qərb, həm də Şimal-Qərb dəhlizlərinin potensialını genişləndirmək üçün imkanlar var. Əsasən, mövcud hazırkı, vəziyyətdə Azərbaycan region və xarici respublikalar üçün ən yaxın və ən təhlükəsiz dünyaya açılan pəncərə rolunu oynayan tərəfdaş qardaş respublikadır.

**ƏDƏBİYYAT:**

1. Mikayılova N.Y. Azərbaycan İqtisadiyyatı*(dərslik).* Bakı: “Müəllim” nəşriyyatı, 2018.-312s.
2. İnkişafın Azərbaycan Modeli ISBN 5-86874-223-0 “Azərbaycan”qəzeti, 204 səh.
3. “Əmək və Sosial Münasibətlər” Elmi-Praktiki Jurnal №1 2023
4. Novruzov T.V. İnkişaf və tərəqqinin Heydər Əliyev Modeli-B., Azərnəşr, 2004.-288 səh.
5. Əlirza Abdullayev “Heydər Əliyevin  Neft və Qaz Sektorunun İnkişafinda Rolu” Məqalə, Beynəlxalq elmi-konfrans

**Azərbaycanın hüquqi dövlət quruculuğunda Heydər Əliyev fenomeni.**

**Niftiyev Mir İlham**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Elmi rəhbər: dos.Şabanov Zeynəddin**

**Giriş.**

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan–Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu

Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

**Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

Heydər Əliyev həyatı böyu qurucusu olduğu Azərbaycanın tarixi məsuliyyətini öz çiyinlərində daşımış, onu bir dövlət, xalqımızı bir millət kimi tarixin ağır və sərt sınaqlarından çıxarmış, müasir Azərbaycanın işıqlı sabahının etibarlı bünövrəsini yaratmışdır. Azərbaycan Respublikası dövlət müstəqilliyini qazandıqdan sonra ölkəmizin ictimai həyatında və dövlət quruculuğu sahəsində xalıqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə aparılmış köklü islahatlar nəticəsində dövlətimiz beynəlxalq aləmin bərabərhüquqlu üzvünə çevrilmişdir.

**Bu gün xalqımız Heydər Əliyev siyasətin uğurlarını gündəlik həyatında hiss edir, onunla yaşayır və onun irsindən faydalanır.** Bu siyasətin icraçısı ulu öndərimizin alternativsiz siyasi varisi cənab İlham Əliyevdir. Onun rəhbərliyi ilə Heydər Əliyev siyasəti yaşayır və uğurla davam etdirilir. Heydər Əliyev siyasəti Azərbaycanın uğurlarının əsasıdır, gələcəyə istiqamətlənmişdir. Onun siyasi kursu dövlət müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi, sosial-iqtisadi tərəqqiyə nail olunması kimi ağır və taleyüklü məsələlərdə sınaqdan çıxmışdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın sabaha olan inamını qat-qat artırmış, Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycanın etibarlı əllərdə olduğuna möhkəm əminlik yaratmışdır. Cənab İlham Əliyev ulu öndərin siyasi kursunu keyfiyyətcə yeni müstəvidə davam etdirməklə, xalqımızın və dövlətçiliyimizin bu kursun mahiyyətindən doğan milli maraqlarını beynəlxalq miqyasda təmin edir. Heydər Əliyev siyasətinin uğurla həyata keçirilməsi müstəqilliyimizi möhkəmləndirir, dövlətçiliyimizi qüdrətləndirir və nəticədə beynəlxalq aləmdə Azərbaycan Respublikasının rol və nüfuzunu artırır. Xalqımız bu siyasəti yüksək dəyərləndirir. Ölkəmizdə 11 aprel 2018-ci ildə keçirilən prezident seçkiləri dövlət-xalq birliyini, respublika əhalisinin böyük əksəriyyətinin Prezident İlham Əliyevə dərin inam və məhəbbət bəslədiyini bir daha təsdiq etdi. Xalqımız qətiyyətlə inanır və görür ki, ölkəmizin sürətli, hərtərəfli və dinamik inkişafı Heydər Əliyev siyasi kursu və bu kursu inamla irəli aparan Prezident İlham Əliyevin düşünülmüş və yaradıcı fəaliyyəti ilə bağlıdır. İqtidarla xalq arasında qarşılıqlı inam daha da artıb, bu münasibətlər gələcək iqtisadi inkişafın təməl prinsipinə çevrilib. Bütün bu uğurların əldə olunmasında Birinci Vitse-Prezident Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin

də xüsusi payı var. Azərbaycanın Birinci xanımı milli-mənəvi dəyərlərin qorunması, mədəniyyətimizin geniş təbliği, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrin dəstəklənməsi, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişməsi, Azərbaycanın beynəlxalq nüfuzunun artmasına yönələn tədbirlər həyata keçirməklə böyük layihələrin müəllifinə çevrilib.

Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunun artmasından, milli-mənəvi dəyərlərimizin, adət-ənələrimizin daha yaxından tanınmasından söhbət düşəndə bu sahədə xüsusi rolu olan Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın əməyini xüsusi qeyd etmək istərdim. Onun təşkilatçılığı, bilavasitə rəhbərliyi ilə Azərbaycan musiqisi, mədəniyyəti, incəsənəti artıq bütün dünyada tanınır.

Bu günlərdə Bakıda keçirilən Beynəlxalq Muğam festivalı Azərbaycan musiqisini, xüsusilə muğamını beynəlxalq aləmdə daha yaxından tanıtdı. Dünyanın 17 ölkəsindən Bakıya gəlmiş qonaqlar Mehriban xanım Əliyevanın birbaşa himayəsi ilə son illər Azərbaycanda muğam sənətinin qorunması, inkişafı və təbliği sahəsində görülən böyük işlərlə yaxından tanış olmuşlar.

Ulu öndərin siyasi məktəbinin ən layiqli yetirmələri olan möhtərəm Prezidentimiz cənab İlham Əliyev və Mehriban xanım Əliyeva ölkəmizin adının daha yüksəkliklərə qaldırılması üçün bilik və bacarıqlarını əsirgəmirlər. İnanırıq ki, yaxın gələcəkdə Azərbaycan dünyanın inkişaf etmiş ən qüdrətli dövlətləri ilə bir cərgədə olacaq.

**ƏDƏBİYYAT:**


1. ”Heydər Əliyev dünyanın gözü ilə.”Bakı,”Təhsil”,2003.S.17-120
2. www.president.az
3. https://az.m.wikipedia.org/wiki/Heyd%C9%99r_%C6%8Fliyev._Az%C9%99rbaycan_elminin_ke%C5%9Fiyind%C9%99_(kitab)
4. Prezident İlham Əliyev fevralın 2-də “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında sərəncamı.
5. www.stat.gov.a

## Heydər Əliyev – dilimizin himayədarı kimi

**Rüstəmova Aynur**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Elmi rəhbər: Bağırzadə Aygün**

Müstəqil Azərbaycanın bir dövlət kimi qurulmasında, inkişafında, dünyaya tanıdılması istiqamətində görülən işlərdə ulu öndərimiz Heydər Əliyevin rolu, xidmətləri müstəsna əhəmiyyətə malikdir. Respublikamızda elə bir sahə yoxdur ki, həmin sahə ümummilli liderimizin diqqət va qayğısından kənarda qalsın.O cümlədən, ulu öndərimiz hom dilimizin,həm də Vətən tariximizin böyük himayədanı olmuşdur. Onun tarix elmimizin, dilimizin Azarbaycan dili kimi formalaşması, təbliği istiqamətində atdığı addımlar, gördüyü yüksək səviyyəli işlər mühüm əhəmiyyət kəsb edir.

Ümummilli liderimiz qeyd edirdi ki, tarixin dəfələrlə sübut etdiyi kimi, bütün sərvətlərini saxlayıb, dilini itirən xalq məhvə məhkumdur. Ana dili yalnız sadəcə ünsiyyət vasitəsi deyil, xalqın dünyagörüşünün, düşüncə tərzinin, ümumən mənəvi varlığının ifadə vasitəsidir. Buna görə də müasir beynəlxalq inteqrasiya şəraitində ana dilimizin qorunması, asas mənəvi dəyər kimi onun toxunulmazlığının və işləkliyinin təmin edilməsi bir millət və dövlət olaraq bizim on başlıca vəzifəmizdir.

Sovet dövründə-milli xüsusiyyətlərin önə çəkilməsi mümükün olmayan o illərdə Heydər Əliyev dilimizlə əlaqədar xüsusi fallıq göstərmişdir. Lakin, 60-cı illərin sonu Heydər Əliyev hakimiyyətə gəldiyi illərdə Azərbaycanda milli mədəni dirçəlişlə yanaşı, dilimizin çiçəklənməsi istiqamətində də bir çox işlər görülmüşdü. Rus dilinin SSRİ-nin vahid ünsiyyət dili elan olunduğu bu dövürdə Heydər Əliyevin təklifi ila 1978-ci ildə Azərbaycan Konstitusiyasının 73-cü maddəsində "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir" yazılmışdır.

Ulu öndər yüksək səviyyəli yığıncaqlarda ana dilində parlaq çıxışlar edərək özünə böyük hörmət və məhəbbət qazanmışdı. Heydər Əliyev deyirdi ki, dil xalqın böyük sərvətidir, ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir. Ümumiyyələ milli dil, ana dili problemi onun nəzəri görüşlərində əsas yer tuturdu. O, ana dilini "dövlət müstəqilliyimizin ramzi, milli varlığımızın ifadəsi, milli ideologiyamızın məxəzi" hesab edirdi. (1. s.147)

Ulu öndər qeyd edirdi ki "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir". Məhz bu qüdrətinə görə dil milli siyasət konsepsiyasında önomli yer tutur. "Dili yaşatmaq xalqı yaşatmaqdır" devizi ila faaliyyət göstərən Heydər Əliyev bütün partiya plenumlarında isə rus dilində danışmaq məcburiyyətində idi.

Ulu öndər rus dili ilə yanaşı Azərbaycan dilinin də işlədilməsinini təmin etmiş və onun hərtərəfli inkişafına dövlət qayğısı göstərmişdir. 1995-ci il Konsititusiyasının 21-ci maddəsində də "Azərbaycan Respublikasının Dövlət dili Azərbaycan dilidir" qeyd olunmuşdur..

"Millətin milliliyini saxlayan onun dilidir" ifadəsini ulu öndər dəfələrlə vurğulayırdı.Lakin vaxtilə ana dilimizə münasibət heç də həmişə bir mənalı olmamışdır. Hələ yaxın keçmişimizdə 1980- " ci illərin sonu 1990-cı illərin ovvəllərində Ana dilimizi "Azərbaycan türkcasi", "Azəri türkcəsi "Azərbaycan türk dili" adlandıranlar var idi.1995-ci ilda Heydər Əliyevin bilavasitə iştirakı ilə keçirilən müzakirələrdə bunlara son qoyuldu.Dil

adının "Azərbaycan dili" kimi tasbit edilmasi qərarlaşdırıldı.Bundan sonra isə dilimizlə bağlı müəyyən fərmanlar imzalandı.

Dilimizin inkişafı, qorunmasına xüsusi qayğı göstərən ümummilli liderimiz 2001-ci il iyunun 18-də Dövlət dilinin tətbiqi işinin tkmilləşdirilməsi barədə möhtəşəm bir fərman imzaladı. Ana dilinin tətbiqi işinin təkmilləşdirilməsi məqsədi ilə Azərbaycan Prezidentinin 2001-ci il 4 iyul formanı ilə dil komissiyası yaradıldı.Prezidentin 2001-ci il 9 avqust tarixli fərmanı ilə hər il avqustun 1-i Ana dili vo Əlifba günü kimi tasis edildi. 2002-ci il 30 sentyabr tarixli fərmanla Respublikasında Dövlət Dili haqqında qanun qüvvəyə mindi. Həmçinin Azərbaycan Respublikasının Dövlət dili haqqında Azərbaycan Respublikası qanunu tətbiq edilməsi barədə "2003- cü il yanvarın 2-də Azərbaycan Respublikası Prezidentinin formanı verilmişdir. Dilin inkişafına dövlət qayğısının davamı kimi 2012-ci il 23 may tarixli "Azərbaycan dilinin " qloballaşma şəraitində zamanın tələbinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət proqramı haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı imzalanmışdır.

Zamanın siyasi təzadlarına öz iradəsi, qətiyyəti ilə qalib gələn ulu öndər, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusunu reallaşdırmağa nail olmuşdur. Ulu öndər Heydər Əliyev görkəmli siyasi və dövlət xadimi olmaqla yanaşı, həm də tarix, fəlsəfə, ədəbiyyat və incəsənətin çox gözəl və dərindən bilicisi, dilimizin, vətən elminin, mədəniyyətinin hərtərəfli himayədanı idi.

Ümummilli liderimizin unudulmaz xidmətlərindən biri də, onun Azərbaycan xalqının tarixinə böyük övladlılıq məhəbbəti olmuşdur. O, qeyd edirdi ki, "Tariximiz zəngindir, eyni zamanda azab - əziyyətli tarixdir.Xalqımız əsrlər boyu böyük sınaqlardan çətinliklərdən keçmiş,ancaq öz mənliyini. milliliyini, öz dilini itirməmişdir". (2) Məruzə və çıxışlarında, ayrı-ayrı elm adamları ilə görüş və söhbətlərinda ulu öndərin humanitar elmləri xüsusi ilə yaxşı bildiyi nəzəri cəlb edirdi.Ulu öndər ixtisasca trixçi olduğundan, şübhəsiz tarix elmini və onun problemlərini digər elmlərdən yaxşı bilirdi. Ulu öndərimiz ölkəmizin tarixinin tərisinə ciddi fikir verməyi tövsiyyə edirdi. O qeyd edirdi ki, Azərbaycan tarixi gərək orta məktəblərimizdə gənclərimizə yaxşı aşılansın. Gənclərimiz öz tarixini, öz tarixi köklərini və öz keçmişini gərək yaxşı bilsinlər. Çünki, mənəviyyatımız, gənclərin bugünkü və gələcək mənəviyyatı bununla bağlıdır." (3.s.169)

Məlum olduğu kimi Azərbaycan öz müstəqilliyini əldə edənə qədər Azərbaycanda tarixi tadqiqatlar SSRI-nin digər respublikalarında olduğu kimi marksist-leninçi metodologiya əsasında istiqamətləndirilmişdir. Bu səbəbdən də tarixi tədqiqatlarda birtərəflik hököm sürmüş, repressiyalar və təzyiqlər ört-basdır edilmişdir. Xalqımızın tarixi qeyri-obyektiv işığlandırılmış, vaxtilə tariximiz hakim ideologiyanın təsiri altında düzgün olmayan bir tarzda yazılmışdır. Lakin, Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra tarix elmimizda yeni bir dirçəliş, asl həqiqətlərin üzə çıxarılması, tariximizin obyektiv tədqiqinə geniş imkanlar açılmışdır.

Heydər Əliyev tariximizin yazılmasında populizma, diletantçılığa, nihlizimə yol verənlərə qarşı mübarizə aparırdı. Onun Azərbaycan Respublikası gonclərinin birinci forumundakı nitqi bu cəhətdən bir növ proqram sənədidir. Ulu öndər tariximizin hər bir mərhələsini eyni dərəcədə obyektiv işıqlandırmağı tövsiyə edirdi: O, tariximizin hər mərhələsinin ən qədim dövrün də, orta əsirlərin də sonrakı dövrün də bizim üçün qiymətli

olmasını qeyd etmişdir.Ona görə də ulu öndərimiz Vətən tariximizin düzgün araşdırılması və təbliğ olunmasına, onun bütün səhifələrinin təhriflərdən təmizlənməsinə böyük diqqət yetirmişdir. Azərbaycan tarix elminin metodoloji əsaslarının müəyyənləşdirilməsi, çox dəyərli ümumiləşdirmələr edilməsi sahəsində onun xidmətləri misilsizdir. 1997-ci ilin 31 yanvarında Azərbaycan Elmlər Akademiyasının 50 illik yubley mərasimində dərin məzmunlu nitq söyləyən böyük strateq Heydər Əliyev ictimai və humanitar elm sahələrində yeni dövrün tələblərinə uyğun yeniləşmənin, eləcə də sovetlər birliyi dövründən qalmış, köhnəlmiş stereoitlərdən, səmərəsiz tədqiqat metodlarından uzaqlaşmağın vacibliyini xüsusi diqqətə çatdırmiş, xüsusən də tarixçiləri Azərbaycanın keçmişi ilə bağlı həqiqətləri daha obyektiv araşdırmağa dövlətçilik maraqları baxımından bu sahəyə xüsusi həssaslıqla yanaşmağa çağırmış və xalqımızın tarixinin yazılması işini diqqət mərkəzində saxlamağı tövsiyyə etmişdir.

Ümummilli liderimiz vətənimizin tarixinin öyrənilməsini, xüsusila orta məktəblərdə onun tədrisinə xüsusi fikir verməyi vacib hesab edirdi. Çünki bu gənclərin vətənpərvərliyi, mənəviyyatı ilə bağlı məsələ idi. Ulu öndər qeyd edirdi ki, "... bizim tarixi, mədəni ənənələrimiz gərək orta məktəblərdə tədris olunsun. Çünki, tariximizi, tarixi köklərimizi yaxşı bilmədən, onlara hörmət etmədən müstəqil dövlətimizi gələcəkdə yaxşı qura bilmərik. Ona görə də gənclər öz köklərini, respublikamızın, xalqımızın tarixini bilərək bu gün də, gələcəkdə də vətənpərvərlik, Vətənə xidmət, Vətənə qayğı hissila yaşasınlar" (4.s.171)

Heydər Əliyevi Azərbaycan tarix elminin banisi və himayəçisi adlandırılan tam haqlıdırlar. Onun bütün nitq və yazılarında tarix elminin on aktual problemlərinin tədqiqi qarşıya qoyulurdu. O, dəfələrlə M.K.Atatürkün belə bir fikrinə diqqəti cəlb edirdi ki, tarixi yazmaq, onu yaratmaqdan daha çətindir. Tarix elm olmaqla heç bir təhrifə və ideyalaşdırmaya məruz qalmamalıdır. Ulu öndərimiz tariximizin obyektiv, daqiq düzgün yazılmasına, öyrənilməsinə böyük əhəmiyyət vermişdir. O, "Yeni 2001- ci il, XXI asr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti" nda bela bir konsepsiya irəli sürmüşdür. Xalqın tarixini dərindən bilən, onun ənənələrinə ehtiramla yanaşan ulu öndərin həmvətənlərinə "tariximizi, tarixi ənənələrimizi yaxşı bilmədən, onlara hörmət etmədən müstəqil dövlətimizi gələcəkdə qura bilmərik" tövsiyəsi xüsusi aktuallıq kəsb edir. Tarixi şəxsiyyət və lider kimi bu ideyanın həyata keçirilməsi üçün o, nəhəng işlər görmüşdü. Xüsusi ilə, son alli ildən artıq müddətdə Azərbaycan tarixinin ən vaciib problemlərinin tadqiq olunması, fundamental asərlərin, monoqrafiyalarin və dərsliklərin nəşr edilməsi ulu öndər Heydər Əliyevin məqsədəyönlü fəliyyətinin nəticəsidir. Ulu öndər "tarix nəsillərin varisliyi, onların bir-birini avaz etməsi deməkdir" konsepsiyasını əsas götürərək çağdaş hadisələri keçmişdə baş verənlərlə əlaqələndirmək, düzgün nəticələr çıxarmaq qabliyyətinə malik idi.

Ulu öndərimiz nəinki vətənimizin tarixini, eləcə də digər xalqların tarixlərini də bilməyi, onlara hörmət etməyi tövsiyə edirdi. O, qeyd edirdi ki, "Şəxsən mən, ümumiyyətlə tarixə, eləcə də öz xalqımın və başqa xalqların tarixinə hörmətlə yanaşıram".(5) Ümummilli liderin "Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında" adlı xalqa müraciəti tarix elminə böyük və qiymətli töhfədir. Ulu öndərin həmin müraciətində Azərbaycanın qədim sivilizasiyasının mərkəzlərindən biri olduğunu, xalqımızın beş min ildən artıq dövlətçilik tarixnə malik olmasını nəzərə çatdırır. Həm də tarix və müasirlik arasında sıx və qırılmaz vəhdət olduğunu əsaslandırır. Ulu öndərimiz tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirməyi. Azərbaycan tarixnin yeni dövrün tələbləri səviyyəsində yazılmasını da çox

vacib hesab edirdi. 21 sentyabr 1993-cü ildə Elmlər Akademiyasında ziyalılarla keçirdiyi görüşdə o, bu məsələ üzərinə qayıdaraq onun Azərbaycanda işlədiyi dövrdə- 70-ci illərdə və 80-ci illərin əvvəllərində dəfələrlə bizim tariximizin -həm qədim, həm orta əsrlər, həm də son dövrlərin, yəni XVIII, XIX, XX əsrlərin tarixinin istənilən səviyyədə yazılmadığını tarixçilərimizin nəzərinə çatdırmışdır. Ötən 70 illik dövrdə taiximiz- həm XX əsrin, həm XIX əsrin, həm də ondan əvvəlki dövrlərin tarixi təhrif olunmuşdur. Düzdür, həmin dövr tarixləri tamam təhrif edilməmiş, lakin tarixə dair əsərlərimizdə təhrif ünsürləri olmuşdur.

Ulu öndər tariximizin bütün dövrlərinin bizim üçün əziz olduğunu və ona görə də heç bir dövrü, heç bir şəxsi ideallaşdırmaq lazım olmadığını dəfələrlə qeyd etmişdir. eda dra ya ca Ümummilli liderimiz tarixçi alimlərə heç vaxt göstərmiş vermir, o, daha çox öz təkliflərini, məsləhət və tövsiyələrini bölüşürdü. Ulu öndər bir çox tarixi məsələlərin yenidən, həm də dövrün tələbləri səviyyəsində yazılmasını tövsiyə edir və alimlərimizin, tarixçilərimizin günahından yox, o vaxtki ümumi ideologiyanın təsiri və yaxud da ideologiyanın tələbi ilə yazılan Azərbaycan tarixinin yenidən obyektiv yazılması fikrini irəli sürürdü. Ulu öndər müstəqillik dövrünün tələblərinə uyğun dərsliklər yazılması işinə də xüsusi önəm verirdi. O, məktəbə gedən bütün gənclərin dilimizi, Azərbaycan tarixini bilməsini vacib sayırdı. Ona görə də Heydər Əliyev Azərbaycan tarixinin ən müxtəlif problemlərinin öyrənilməsinə, milli tarixi təfəkkürün oyadılmasına xüsusi əhəmiyyət verirdi. Heydər Əliyev milli dil, ədəbiyyat, mədəniyyət və s. tarixinin problemləri ilə də maraqlanır, mütəxəssisləri səfərbər edirdi. (6,s.33) Buna görə də ulu öndərin dilimizin, tarix elmimizin inkişafında xidmətləri əvəzsizdir.

**ƏDƏBİYYAT:**


1. Əhmədova S. Heydər Əliyev və ədəbi-tarixi proses.Bakı.Elm 2013
2. "Azərbaycan müəllimi" qəzeti 15 iyun 2012-ci il
3. Heydər Əliyev Təhsil bilik məktəb. Bakı 2006-cı il
4. Heydər Əliyev Müstəqilliyimiz əbədidir. İkinci kitab Bakı 1997-ci il
5. "Xalq" qəzeti 21 aprel 2013-cü il
6. Müdriklik zirvəsi. Bakı 2011-ci il

## İqtisadi siyasətin məqsədləri və onun reallaşdırılması mərhələləri

**Mülayim Salmanzadə**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Elmi rəhbər: dos.Mirzəyeva Hicran**

**Giriş**

1994-cü ildə Ümumilli liderimiz Heydər Əliyevin uzaq görən iqtisadi siyasətinin nəticəsi olaraq "Əsrin Müqaviləsinin" imzalanması və dünyanın 11 ən iri neft şirkətinin investisiyalarının ölkə iqtisadiyyatına cəlb edilməsi müstəqil Azərbaycanın iqtisadiyyatında neft sektorunun inkişaf etdirilməsi ölkə iqtisadiyyatında bir dönüm nöqtəsi oldu.Azərbaycan neft sənayesinin inkişafı üçün nəzərdə tutulmuş 64 milyard ABŞ dolları qoyuluşunun 57,6 milayrdı dəniz yataqlarının mənimsənilməsinə və prespektivli sturukturlarda axtarış-kəşfiyyat işlərinin aparılmasına yönəlmişdi.Bundan sonra Bakı-Tiblisi-Ceyhan neft kəməri, Bakı-Subsa neft kəməri,Bakı-Novorossiysk neft kəmərləri vasiti ilə Azərbaycan neftinin Avropa bazarlarına nəql edilməsi həyata keçirildi. Azərbaycan neftinin nəql edilməsində BP, SOCAR, Statoil, Total, TPAO və s iri neft şirkətləri tərəfdaşlıq edirdi.Azərbaycan neftinin dünya bazarına çıxması ölkənin neft sənayesinin inkişafı və ölkə iqtisadiyyatında neft sektorunun əsas gəlir mənbəyi olmasına şərait yaratdı.Dünya bazarına çıxarılan "Azəri Lıght" markalı neft texniki göstəticiləri və üstünlükləri ilə fərqlənən Azərbaycan markası dünya neft bazarına 1999-cu ilin Aprel ayında Bakı-Subsa neft kəməri ilə dünya neft bazarına çıxarıldı.

Covid-19 virusu dünyaya sürətlə yayılmasından sonra ölkələrdə hava,su və avtomabil nəqliyyatının hərəkətində məhdudiyyətlərin yaranması, yanacağa olan tələbin aşağı düşməsi "Azəri Light" kimi yüksək keyfiyyətli neft markasına təlabatı azaltdı və 2020-ci il Fevral ayının 1-də dəyəri 63 dollar olan Azərbaycan neftinin qiyməti 22-23 dollar olaraq açıqlandı.{1}

Ölkə neftinin qiymətinin son dərəcə aşağı düşməsi ölkənin iqtisadi gəlirlərinin azalmasına səbəb oldu.Səmərəli iqtisadi siyasətlə neft sektorunun əhəmiyyətli dərəcədə inkişafı ölkə iqtisadiyyatında əsas yeri tutduğundan neftin qiymətində baş verən dəyişikliklərin ölkə iqtisadiyyatına bir başa təsir etməsi və ölkə iqtisadiyyatının neftdən asılı olması dövlətin iqtisadi siyasətində əsas istiqamətlərdən biri olan qeyri-neft sektorunun inkişaf etdirilməsini labüd etdi.

Neft gəlirlərinin iqtisadiyyatın şaxələndirilməsinə hesablanmış xərclənmə strategiyası özünü doğruldub. Keçid dövrünü yaşamış hər bir ölkə kimi Azərbaycan da güclü iqtisadiyyat qurmaq üçün öz təbii resurslarından faydalanıb, ancaq bu resurslardan əldə etdiyi gəlirlər hesabına iqtisadiyyatını uğurla şaxələndirə və onun neftdən asılılığını minimuma endirə bilib. Bu strategiya nəticəsində ölkədə tikinti, turizm, kənd təsərrüfatı, nəqliyyat, informasiya və kommunikasiya texnologiyaları sektorlarında davamlı artım tendensiyası hökm sürməkdədir.{2}

Kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları, emal sənayesi Azərbaycanda qeyri-neft sektorunun inkişafında əsas prioritet sahələr hesab edilir.

Qeyri-neft sektorunun inkişafını daha da sürətləndirmək üçün bu sahəyə birbaşa xarici investisiyalar cəlb etməklə daxili istehsalın rəqabət qabiliyyətinin gücləndirilməsi, idxalın əvəzlənməsi fəaliyyətinin dəstəklənməsi və yerli məhsullarla özünü təminetmə səviyyəsinin daha da yüksəldilməsi, qeyri-neft sektorunun ixrac imkanlarının artırılması Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş

milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrində strateji məqsədlər olaraq müəyyən edilmişdir.

Azərbaycan Respublikasında qeyri-neft sektorunun sürətli və rəqabətədavamlı inkişafının təmin olunması istiqamətində həyata keçirilən iqtisadi islahatlar nəticəsində bu sektorun potensial imkanları genişlənmiş, yeni istehsal sahələri yaradılmış, idxalı əvəz edən məhsulların yerli istehsalı hesabına qeyri-neft məhsulları ilə təminolunma səviyyəsi yüksəlmiş, ixrac qabiliyyəti artmışdır.{2.1}

Burada yaradıcı insanlara, onların fəaliyyətlərinə xüsusi qayğı göstərilir. Buna uyğun olaraq, Norveç də kitab yazan və onu çap etdirən şəxslər üçün yaradılmış imkanları misal göstərə bilərik. Bu ölkədə bir kitab çap etmiş vətəndaşına həmin kitabı ölkə ərazisində ki, digər kitabxanalara göndərmək üçün imkanlar yaradılır və hətta dövlət həmin kitabın 1000 nüsxəsini satın almış olur. Həmçinin internetin insanlar tərəfindən istifadəsi üçündə geniş imkanlar mövcuddur, ən yüksək sürətli internet də məhz elə Norveçdədir. Bu ölkədə dilənçilərlə qarşılaşmağın özü belə az ehtimal təşkil edir. Norveç vətəndaşları öz həyatlarını ideal şəkildə bir neçə il öncədən planlaya bilirlər.

Buna səbəb ölkə ərazisində yerləşən yerli banklarda vətəndaşların ən yüksək kreditləri belə 3-4% təşkil edən hüquqlarla almaq imkanlarının yaradılmasıdır. Həmçinin qeyd etməliyik ki , iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin də sırasında Norveç ön planda dayanır. Düzdü buna səbəb daha çox ölkənin ixrac etdiyi neft-qaz sahəsindən əldə edilən gəlirlərdir. Məhz bu gəlirlərin hesabına bu gün Norveç yüksək səviyyədə inkişaf etmişdir. Lakin bununla belə burada hökumət əhali yönümlü siyasəti özünə bir istiqamət olaraq seçmişdir və insan kapitalı bu ölkədə ön planda dayanır.

Bu gün respublikamızda da "insan kapitalını" inkişaf etdirmək üçün önəmli addımlar atılır. Beləki ölkəmizdə bu sahəni inkişaf etdirmək üçün nəzərdə tutulan istiqamətlərin başlıcası elm və təhsil yönümlüdür .

Hələ Ümumilli Liderimiz Heydər Əliyevin dövründən başlayaraq ölkəmizdə təhsil sahəsində xeyli önəmli işlər görülmüşdür. Məhz bu gün ki, müstəqil respublikamızın inkişaf etməsinə səbəb həmin addımlardır. Buna uyğun olaraq, 1969 – cu ildə 244 ixtisas üzrə xaricə 47 tələbə göndərildiyi halda , 1980- ci ildə bu say 1400 nəfərə çatmışdır[ Mahir Hümbətov; "İnsan kapitalına qoyulan investisiyalar" 2013 ].

Hətta Heydər Əliyevin dövründən etibarən məktəblərdə şagirdlər üçün kitablar pulsuz olaraq paylanılmasına dair sərəncam imzalamışdı ki , bu da o dövr üçün çox mühüm və eyni zamanda maddi cəhətdən böyük vəsait tələb edən addımlardan biri kimi hesab olunur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövründə də məhz təhsil sahəsində xeyli uğurlu addımlar atılmışdır. Məhz bu dövrdə ali təhsil müəssisələrinin şəbəkəsi daha da inkişaf etdirilərək genişləndirilmiş, onların sayı 2003-cü ildəki 46-dan hazırda 51-ə, təhsilalanların sayı isə 120 mindən 171 minə çatdırılıb. [Mahirə Hüseynova; "Prezident İlham Əliyevin uğurlu təhsil siyasəti", 2021].

Eyni zamanda ölkəmizdə dünya üzrə tanınmış və böyük nüfuza malik olan M.L.Lomonosov adına Moskva Dövlət Universiteti, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti kimi ali təhsil ocaqlarının Bakıda filalı da fəaliyyət göstərməkdədir .

Eyni zamanda Azərbaycan bir çox universitetləri bu gün dünya miqyasında tanınmış və öz sözünü deyən universitetlərdən biri hesab olunur. İlham Əliyevin təhsil siyasəti sahəsində 5 may 2020-ci il tarixində imzaladığı sənəd də mühüm əhəmiyyət kəsb edir.

Sənədə əsasən, Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.17.1-ci yarımbəndində göstərilmiş 20,0 (iyirmi) milyon manat

Bakı Şəhər İcra Hakimiyyətinə ayrılıb.[yeni azerbaycan.com ; "İlham Əliyevin təhsil siyasəti"].

Həmçinin " insan kapitalı" sahəsində gəlirin tənzimlənməsi mühüm rol oynayır. Bu eyni zamanda sahibkarlar üçündə önəmli faktordur. Beləki insan kapitalına investisiyaların qoyulması nəticəsində şirkətlərdə öz işçilərinin maraqlarını təmin etmiş olurlar. Məhz bu sahəyə investisiya qoyuluşu özündə bir çox faydalı və müsbət cəhətləri birləşdirmiş olur. Əgər hər hansı müəssisələrin birində investisiya qoyuluşu olarsa, bu ilk növbədə işçilərin daha məsuliyyətli, həvəslə və öz işlərini sevərək etmələrinə böyük bir yol açır; müəssisənin nüfuzunu artırmış olur;işçilərin başqa yerlərdə işləməyə olan maraqları da azalmış olar. Çünki qoyulmuş investisiya nəticəsində işçi istədiyi kimi özünü təmin edə bilərki, buda başqa bir yerdə işləmək marağına olan məcburiyyətdən onu qurtarmış olar . [Becker G. and Tomes N. Human Capital and the Rise and Fall of Families. — "Journal of Labor Economics", 1986, v. 4].

**ƏDƏBİYYAT :**


1. Asəf Şirəliyev "İnsan kapitalının reallaşdırılmasının əsas prinsipləri" :5
2. Becker G. and Tomes N. Human Capital and the Rise and Fall of Families. — "Journal of Labor Economics", 1986, v. 4,
3. Fərid Mehralızadə "Azərbaycan da insan kapitalı haqqında"
4. Mahir Hümbətov "İnsan kapitalına qoyulan investisiyalar" 2013
5. Mahirə Hüseynova "Prezident İlham Əliyevin uğurlu təhsil siyasəti" 2021
6. Yeni azerbaycan. com "İlham Əliyevin təhsil siyasəti".

## Cəmiyyətin inkişafının müasir mərhələsində yaradıcı əmək

**Şəkiyev İmran**
Sumqayit Dövlət Universiteti,
**Elmi rəhbər b.m.Süleymanlı Dilşad**

İnsan kapitalı – şəxsin gələcəkdə peşə fəaliyyəti zamanı gəlir gətirə biləcək istedad və qabiliyyətlərinə hazırda qoyulan sərmayələrin cəmidir. Məsələn, bir neçə misal göstərək. Kiminsə elmə həvəsi vardırsa, o şəxs təhsilini davam etdirməli, ona sərmayə yatırmalıdır. Hətta, onun hər hansı bir kitaba sərf etdiyi maliyyə də insan kapitalına yönəldilən sərmayədir. Yeri gəlmişkən qeyd edək ki, dövlət qabiliyyətli olan şəxslərin obyektiv imtahanlardan keçməsindən sonra müəyyən tələb olunan həddi keçmələri nəticəsində onların təhsillərini davam etməsinə şərait yaradır. Bu təhsilin bütün mərhələlərində mümkündür. Bəzən deyirlər ki, "insan kapitalı" yalnız təhsillə bağlıdır. Amma zənnimizcə, bu fikir düzgün deyildir. Düzdür, "insan kapitalı" özünü daha çox təhsildə göstərir, amma bu o demək deyildir ki, o yalnız təhsillə bağlıdır. Belə bir misala nəzər yetirsək bunu daha aydın görərik. Kimsə təhsilini hər hansı bir səbəbdən davam etdirmək istəmir və onun idmana daha çox marağı var. O şəxs gələcəkdə bu sahədən pul qazanmaq istəyir. Deməli, həmin şəxsin daha az yaşlarından idmana sərf etdiyi hər bir saatı ona gələcəkdə gəlir gətirəcəksə, bu onun "insan kapitalı"na qoyduğu sərmayədir. Hətta həmin şəxsin idman paltarı almaq üçün xərclədiyi pul da insan kapitalına yönəldilən sərmayədir. Düzdür, daha yaxşı olardı ki, idmanla məşğul olan şəxs müvafiq sahə ilə bağlı təhsil alsın, amma təhsil almadan da idmanda uğur qazanan yüzlərlə insanlar vardır. Bu rəssama da aiddir, yazıçıya da, tərcüməçiyə də, müasir dövrdə ən çox tələb olunan peşələrdən biri olan "kömpüter ustası"na da… Yuxarıdakı, misallardan görürük ki, "insan kapitalı" yalnız təhsillə bağlı deyil. Kiminsə təhsil almağa həvəsi, marağı, qabiliyyəti yoxdursa, o icbari təhsilini başa vurduqdan sonra konkret peşəyə yiyələnərsə, daha səmərəli olar. Səmərəli, bəli, səmərəli.. Lakin etiraf etmək lazımdır ki, təhsil alanların sayı nə qədər çox olarsa, bu həmin ölkə üçün daha effektlidir. Bəli, effektlidir. Səmərəli insanlar vaxtlarını hədər yerə sərf etməyən, hər dəqiqələrinin qiymətini bilən və bu vaxtdan daha çox faydalanmağa çalışanlardır. Bütün bunların effekti isə özünü qarşıya qoyulmuş məqsədin, son nəticənin hansı dərəcədə uğurlu alınmasından ibarətdir. Məhz, həmin insanların çox olduğu ölkələr daha tez və hərtərəfli inkişaf edir, onların iqtisadiyyatı daha da canlanır və insanlarının həyat şəraiti daha da yaxşılaşır. Nəzərə alsaq ki, keçid dövrünün çətinlikləri ilə əlaqədar uzun müddət kitabxanalar yeni ədəbiyyatlarla təmin edilməyib, alimlərimiz elmi konfranslardan təcrid olunublar, onda internet informasiya blokadasından çıxışın yeganə yoludur. İnsan potensialı, təbii ki, belə şəraitdə yetişib inkişaf edə bilməz. Mövcud elmi potensialı qoruya bilməsək, gələcək nəsillər üçün yeni intellektual (insan) potensialını bəs kim yetişdirəcək? Digər tərəfdən yeni nəsildə elmə marağın az olmasını nəzərə alsaq və ömrünü elmə həsr edən nisbətən yaşlı alimlərin davamlı maddi çətinliklərlə yaşadığını görən tələbələr, magistrlər, təbii ki, elm dalınca getmək barəsində düşünməyəcəklər. Gələcəyin insan potensialının yaradıcısı olan bu günün alimi, universitet müəllimi indiki maddi və mənəvi durumla nə özü, nə də yaşadığı cəmiyyət İnformasiya cəmiyyətinə keçə bilməz. Gələcək milli inkişaf naminə bu problemlər təcili həll edilməlidir. Bu gün alimin, universitet müəlliminin bəzi peşə sahibləri kimi sosial müdafiəsinin ciddi şəkildə gücləndirilməsinə kəskin ehtiyacı var, professor-müəllim heyətinin sosial müdafiəsini gücləndirmək istiqamətində addımlar atmağın zamanı yetişib. Axı bütün digər sahələr üzrə insan resurslarının inkişafını, xalqın gələcəyini, onun beynəlxalq səviyyədə rəqabətədavamlığını məhz bu zümrə-insan potensialının mühəndisləri olan professor – müəllim heyəti formalaşdırır. Bir az da vaxt itkisinə yol versək, yaxın gələcəkdə alimlər ordusunu tədricən itirə bilərik, sonra isə bu boşluğu doldurmaq üçün xaricdən mütəxəssis gətirməli olacağıq (milli futbol komandasında olduğu kimi). Bu halda elmin ayrı-ayrı sahələri üzrə yeni nəsil bəlkə də yaxın onilliklərdə daha yaranmayacaq. Bu gələcək milli inkişaf baxımından çox böyük təhlükə deməkdir. Bu problemlərin yaxın gələcəkdə həlli isə elmi

kadrların yaradıcı potensialının inkişafına, onların beynəlxalq əlaqələrinin qurulmasına, bu sahəyə yeni qabiliyyətli gənclərin cəlb edilməsinə kömək edə bilər. Nəticədə, respublikanın insan potensialı həqiqi mənada yüksələr, elmtutumlu sahələr üçün müasir tələblərə cavab verən milli kadrların səviyyəsi daha da artar. Bu tip problemlərin həllində Çin XR, Qazaxıstan v.s. ölkələrin təcrübəsi bizə nümumə ola bilər. Çin XR-da səmərəli fəaliyyət göstərən alimlərə dövlət normal maaş verməklə yanaşı, onların bir çoxuna hər il xüsusi qaydada qrant da verir (25.000 ABŞ dolları və daha çox), qonşu Qazaxıstanda da dövlət ildə 200 alimə (obyektiv təhlil əsasında) 15000 ABŞ dolları həcmində qrant verir. Bu problemlərin mətbuatda müzakirəsi zamanı bəzi məmurlar bəhanə gətirirlər ki, dünyanın çox ölkələrində müəllimlərin məvacibi azdır. Ola bilsin ki, bu belədir, orada müəllimin, alimin maaşı menecerin, hüquqşünasın maaşından az olsa da, bu maaş həmin ölkədəki minimum istehlak səbətindən dəfələrlə yüksəkdir. Digər qrup məmurlar bəhanə gətirirlər ki, professor-müəllim heyətinin, alimlərin sayı çoxdur, bu qədər insanın məvacibi ciddi səviyyədə qalxarsa, inflyasiya ola bilər. Təbii ki, bunlar səbəb ola bilməz. Dövlətin iqtisadi siyasəti düz qurulubsa, belə problemlər olmamalıdır, əksinə alimlərin məvacibinin artması gələcəkdə büdcənin elmtutumlu, texnoloji inkişaf hesabına artmasına, büdcənin neftdən asılılığının azalmasına imkan verə bilər. Bu dünyanın hər yerində belədir. Müəllim vəzifəsi bir çox ölkələrdə dövlət qulluğu hesab edilir, müəllimlər xeyli imtiyaz və güzəştlərə malikdirlər (vaxtilə bizdə olduğu kimi). Dahi Çin filosofu Konfutsi söyləmişdir: "Elm və təhsildən faydalanmağı bacaran xalq həmişə firavan yaşayar". Xalq olaraq firavan yaşamaq üçün bilməliyik ki, müstəqil respublikanın davamlı inkişafı insan potensialının inkişafından, insan potensialının inkişafı keyfiyyətli təhsil sistemindən, təhsil sisteminin inkişafı isə professor-müəllim heyətinin normal fəaliyyətinin təmin edilməsindən asılıdır. İnkişaf etmiş ölkələr insan potensialının mühəndisləri – professor-müəllim heyətinin bazar iqtisadiyyatı şəraitində normal fəaliyyətinə şərait yaradaraq, artıq çoxdan keyfiyyətli milli təhsil sistemi qurmuş, qiymətli insan potensialı formalaşdırmışlar. Gəlin biz də bu yolu seçək. İnsan kapitalı anlayışı, inkişaf etmiş məhsuldarlıq və ya performans ilə insan resurslarının inkişafına davamlı və uzunmüddətli investisiyaların qoyulması zərurətini vurğulayan "insan resursları kapitalizminin" iqtisadi modelindən irəli gəlir. Bu model insan kapitalına yönəldilən investisiyaların milli və qlobal iqtisadi göstəricilərə təsir göstərdiyi və ya daha dar şəkildə insanlara yatırılan investisiyaların müəssisə performansı üçün həlledici hesab edildiyi anlayışdır. İnsan resursları kapitalizmi modeli, istər iqtisadiyyatda, istərsə də fərdi təsərrüfatda məhsuldarlığın əsas mənbəyinin insanların potensialına dayandığını iddia edir. Buna görə də ölkəmizdə insan kapitalının gələcəkdə böyüməsinə səbəb olacaq tədris sistemləri inkişaf etdirilərək bu mənbənin potensialından tam istifadə etmək üçün strategiyalar hazırlanmalıdır. İnkişaf etmiş ölkələr iqtisadi inkişafın birinci mərhələsi kimi səciyyələnən xammal-resurs iqtisadiyyatından insan kapitalının inkişafına nail olmaqla innovasiya yönümlü iqtisadiyyata keçə biliblər. ABŞ və aparıcı Avropa ölkələri inkişaflarını insan kapitalı nəzəriyyəsi əsasında müvəffəqiyyətlə təkmilləşdirir və özlərinin rəqabətqabiliyyətli milli iqtisadiyyatlarını yaratmağa nail ola bilirlər. Beynəlxalq nüfuzlu maliyyə qurumlarının mütəxəssislərinin hesablamalarına görə inkişaf etmiş ölkələrin milli insan kapitalı onların milli sərvətinin 70-80%-dən çoxunu təşkil edir. Bu ölkələr dövlət büdcələrindən insan kapitalınaın inkişafına digər inkişaf etməkdə olan ölkələrlə müqayisədə 2,5-3 dəfədən çox vəsait yönəldirlər. Bütün bunlar onu göstərir ki, iqtisadi inkişafın müasir mərhələsində cəmiyyətin inkişafında həlledici rolu təbii resurslar, sənaye kapitalı və ümumiyyətlə əmək, fiziki kapital deyil, yüksək məhsuldarlığa malik olan, intelektual və yaradıcı əməyi formalaşdıran insan kapitalı oynayır. Qəbul olunan milli prioritetlər də bu iqtisadi inkişaf yanaşması cəhətdən çox vacib məsələləri əhatə edir.İnsan kapitalı konsepsiyasına görə müasir cəmiyyətin əsas dominantı yaradıcı insandır və insan kapitalı davamlı rəqabət qabiliyyətliliyin, sabit inkişafın və həyat səviyyəsinin yüksəldilməsinin əsas təminatçısıdır. O, kreativ kapital olduğundan onun nəzəriyyəsinin əsasında ənənəvi klassik nəzəriyyədəki "iqtisadi insan" modelindən və

paradiqmasından tamamilə fərqli olan “kreativ insan” modeli və yeni iqtisadi paradiqma və davranış prinsipi durur. Modelin əsas müddəası müasir insanın öz yaradıcı imkanlarını reallaşdırmaq, şəxsi keyfiyyətlərini inkişaf etdirməkdən ibarətdir. Bu müddəa kreativ iqtisadiyyatın paradiqmasını və prinsiplərini əks etdirir. Bu konsepsiyada fərdin ictimai rolu onun sərvəti ilə deyil, şəxsi keyfiyyətləri ilə müəyyənləşir. O, sosiallaşır və ictimai insana çevrilir. Kreativ iqtisadi nəzəriyyədə yaradıcı insan mikroiqtisadiyyatın yeganə subyekti kimi qəbul olunur və onun məqsədi özünün kreativ rifahını maksimallaşdırmaqdan ibarətdir. Cəmiyyətin inkişafının müasir mərhələsində yaradıcı əmək, onun məhsulları və onların mübadiləsi əsas yer tutur. Cəmiyyətin bu mərhələsində insanlararası qarşılıqlı fəaliyyət sistemində daha çox sosial əlaqələr və sosioloji metodlardan istifadə üstünlük təşkil edir. İnsan kapitalı dominant olan iqtisadiyyat sosial iqtisadiyyat kimi çıxış etdiyindən ilk əvvəllər insan kapitalına inkişafın sosial amili və insana qoyulan sərmayələrin məcmusu kimi baxılmışdır. Bu cür yanaşma iqtisadi artım nəzəriyyələri baxımından insan kapitalı məsrəf amili hesab olunmuşdur. Lakin sonradan ona iqtisadi yanaşma formalaşmış və hal-hazırda insan kapitalına iqtisadi inkişafın və əmək fəaliyyətinin sosioloji və həm də ən intensiv və məhsuldar iqtisadi amili kimi baxılır. İnsan kapitalı müasir innovativ iqtisadi inkişafın əsası və hərəkətverici qüvvəsidir. İnsan kapitalının inkişaf səviyyəsi bilik ehtiyatları və biliklərin alınmasına və mənimsənilməsinə çəkilən sərmayələrlə müəyyən olunur. İnsan kapitalı digər kapitallardan fərqli xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər onun yığılan və təkrar istehsal oluna bilməsi, öz sahibindən ayrılmaz olması və yalnız onun bilavasitə iştirakı ilə fəaliyyət göstərə bilməsi, onun nə satıla, nə də vərəsəlik qaydasında verilə bilməməsi, onun xidmət müddəti insanın əmək fəaliyyətinin müddəti ilə müəyyənləşməsidir. Bunlardan başqa digər xüsusiyyəti isə ona daim yüksək sərmayə qoyulması lüzumunun olması və bu sərmayənin geri qayıtmasında xeyli vaxt müddətinin olmasıdır. İnsan kapitalı istər əlavə dəyər yaratmaq, istər faydalılıq əmsalı və istərsə də sosial yönümlülük baxımından ən səmərəli kapital növüdür. O, təkcə müasir cəmiyyətin və iqtisadiyyatın hərəkətverici qüvvəsi və əsası olmamış, həm də sənaye cəmiyyətində inkişafın və iqtisadi artımın əsas məhsuldar amili olmuşdur. Bu müasir dövrdə mövcud olan endogen və neoklassik iqtisadi artım nəzəriyyə və modellərin əksəriyyətində öz əksini tapmışdır.

**ƏDƏBİYYAT**


1. Banker. Az.
2. Report İnformasiya agentliyi.(2021).
3. The Human Capital.( 2018.)

**İnsan kapitalının mədəni mühitdə inkişafı**

**Adıgözəlova Nigar**
**Sumqayıt Dövlət Universiteti, magistrant**
**Elmi rəhbər: b.m.Süleymanlı Dilşad**

İnsan kapitalı dedikdə ,əsasən,insanın cəmiyyətdə özünü dogrultmaq,cəmiyyətin irəli sürdüyü imkanlardan istifadə etmək üçün insanın biliyinin ,bacarığının əlaqələrinin cəmidir.Bu keyfiyyətli əmək və keyfiyyətli həyat şəraitidir.İlk dəfə insan kapitalı termini Teodor Şuls tərəfindən işlədilib.Teodor Şulsdan sonra insan kapitalının inkişafında Heri Bekkerin böyük rolu olmuşdur.

Əvvəllər insan kapitalı dedikdə ilk növbədə insana sərf edilən investisiya ağıla gəlirdi. İnvestisiya -gəlir,mənfəət əldə etmək məqsədilə sahibkarlığ və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən ibarətdir. Bunlara əsasən pul vəsaiti,kreditlər və s.aiddir.

Sonradan insan kapitalı anlayışı daha da genişləndirildi. Artıq buraya istehlak xərcləri-təhsil,səhiyyə xərcləri aid edilməyə başlandı. Hətta qeyd etmək lazımdır ki,bu sahəyə dövlətin xərclərinidə əlavə etmək olar.

Dünya Bankı tərəfindən hazırlanmış ,Millətlər sərvətlərinin dəyişməsi adlı hesabatından məlum olur ki,insan kapitalı əsasən qlobal sərvətlərin 64,yüksək gəlirli ölkələrin sərvətlərinin 70,aşağı gəlirli ölkələrin sərvətlərinin isə 41 faizini təşkil edir. Lakin bundan fərqli okaraq,Azərbaycanda sərvətlərin formalaşmasında insan kapitalının payı cəmi 14 faizə bərabərdir. Buradan belə nəticəyə gəlmək olar ki, Azərbaycanda insan kapitalının payı,aşağı gəlirli ölkələrin göstəricilərindən belə aşağıdır. Azərbaycanda sərvətlərin formalaşmasında insan kapitalının payının az olnasının səbəblərinin müəyyənləşdirilməsi və insan kapitalının formalaşmasına təsir edən sahələrdəki mövcud vəziyyətin dəyərləndirilməsi ölkədə dayanıqlı iqtisadi inkişafa mane olan problemlərin müəyyən edilməsi baxımından vacib amildir. Adambaşına düşən sərvət göstəricisi dörd komponentin cəmindən ibarətdir: təbii resurslar,fiziki kapital, insan kapitalı və xalis xarici aktivlər. Təbii resursların dəyəri ölkədə mövcud olan təbii ehtiyatların dəyərlərini əhatə edir. Fiziki kapital dedikdə yaradılmış əsas fondlar-bina,qurğu,avadanlıq,cihaz və s.başa düşülür.

Azərbaycanda təbii resursların ,sərvətlərin formalaşasında payı 54 faiz,fiziki kapitalın payı 23.6 faiz,insan kapitalının payı 14 faiz ,xalis xarici aktivlərin payı isə 8.4 faizdir. İnsan kapitalının sərvətlərinin formalaşmasındakı payı baxımından Azərbaycan ölkələri arasında ən aşağı nəticələrin birinə malik olsada ,təbii resursların ümumi sərvətdə payına görə dünyada 16 cı yerdədir. İnsan kapitalının formalaşmasında təhsil də həlledici rola malikdir. Bu gün təhsil əmək bazarında təsərrüfat subyektinin uğurunun, ölkənin iqtisadi artımının və elmi texniki potensialının artırılmasının mühüm amilidir. Buna əsasən deyə bilərik ki,insanların həyatlarındakı uğurunu təhsilə bağlamaq mümkündür. Burdan da belə nəticəyə gələ bilərik ki, ölkəmizdə ali və orta təhsil alanların sayı, həmçinin xarici ölkələrdə təhsil alanların sayı ildən ilə artmaqdadır. Tədrisin gedişində yığılmış insan kapitalı, həmçinin işin gedişində qazanılmış vərdişlər özündə əmək haqqının potensial artımı yaxud daha prestijli işin əldə edilməsi üçün dəyəri təşkil edir. İnsan kapitalı nəzəriyyəsi nəzərdə tutur ki, əmək haqqı səviyyəsindəki fərqlər müxtəlif işçilərin əmək məhsuldarlığındakı fərqləri əks etdirir. Təcrübəli işçilər daha yüksək son məhsuldarlığa malikdir və daha çox qazanırlar. İnsan kapitalının aksioması, təhsilin

alınmasına böyük investisiyalar əmək haqqının böyük həcmini təmin etdiyi təqdirdə məqsədəuyğun olan vəziyyətdir. 1974-cü ildə C.Minser "Təhsil: təcrübə və gəlir" kitabında göstərirdi: "Yüksək təhsilli mütəxəssislər tərəfindən qazanılan gəlir yaxud əmək haqqı, faiz dərəcəsinin nəzərə alınması ilə ali məktəbdə bütün tədris dövrü ərzində yığılmış və toplanmış ali təhsilə investisiyalarda "kapitallaşmış mənfəətdir". Beləliklə, mütəxəssisin əmək haqqının iki hissədən toplanması haqqında danışmaq olar: Əsas əmək haqqı - bu ildə edilmiş əmək sərfinə görə mütəxəssisin mükafatlandırılmasıdır. Əlavə əmək haqqı - bu keçmişdə həyata keçirilmiş tədris əməyinin sərfinə görə mükafatlandırmaqdır. Adətən, "insan kapitalı" ancaq qazanılmış vərdiş və biliyin əsasında təyin edilir və ölçülür, halbuki insanın təbii xüsusiyyətlərini və xarakteristikalarını birləşdirən insan kapitalının daha geniş anlayışı müxtəlif dərk edilməmiş vərdiş və digər xüsusiyyətlərin rifahın yaradılmasında necə iştirak etdiyini daha adekvat göstərir və tədrisi də daxil etməklə ətraf mühitin təsiri altında öz şəklini dəyişə bilər. İnsan kapitalı xüsusilə mədəni mühitdə inkişaf edir. Vərdişin və biliyin öyrənilməsi və qazanılması anadan olandan ölənədək olur. Bütün həyatı müddətində fasiləsiz təhsil almaq konsepsiyası sadəcə yaşlıların təhsil alma və peşəkar hazırlığın vacibliyini nəzərə çarpdırmır, həm də həyatın bütün mərhələlərində təhsil almanı nəzərdə tutur. İnsan kapitalı aşağıdakı daxil edilən kontekstdə inkişaf edir:

- Erkən uşaqlıq dövründə ailədə öyrətmə.
- Erkən uşaqlığı daxil etməklə, formal təhsili və peşəkar hazırlıq, məcburi məktəb təhsili, peşəkar yaxud ümumi təhsilin əlavə məcburi səviyyəsi, ali təhsil, əmək bazarında peşəkar təhsil, yaşlıların təhsil alması və s.
- İş yerində peşəkar hazırlama, həmçinin tədqiqat və innovasiya, yaxud, müxtəlif peşəkar birliklərdə iştirak etmək kimi xüsusi fəaliyyət vasitəsilə işdə təhsilinin artırılması.
- İş yerində, gündəlik həyatda və mülki fəaliyyətdə qeyri-formal olaraq bacarığının təkmilləşdirilməsi.

İnsan kapitalına belə geniş yanaşma insanı dehumanizmləşdirir, onu primitiv mexanizm səviyyəsinədək salmaqda olan məzəmmətlərə qarşı durmağa kömək edir. Qeyd edək ki, 1988-ci il insan kapitalı haqqında İƏİT-nin məruzəsində təsdiq olunur ki, insan kapitalı konsepsiyası biliklərdə və kompetensiyalarda əsası qoyulmuş iqtisadiyyatda insanın rolunu və əhəmiyyətini inandırıcı surətdə qeyd edir.İnsan kapitalı öz təbiətinə görə müxtəlifdir. Vərdiş və kompetensiya müxtəlif hadisə və vəziyyətlər üçün ümumi (məsələn, oxumaq, yazmaq və danışmaq qabiliyyəti) yaxud yüksək spesifikli və qismən yararlı ola bilər. Lundvall və Cohnson (1994) biliyi dörd kateqoriya üzrə təsnifləşdirirlər:

1. Bilmək - nə: biliklərə faktlar aiddir.
2. Bilmək - nə üçün: biliklərə təbiətin prinsipləri və qanunları, insan şüuru və cəmiyyət aiddir.
3. Bilmək - necə: vərdişlərə aiddir (yəni, bacarıqla nə isə etmək).
4. Bilmək - kim: sosial qabiliyyətə müxtəlif insan tipləri ilə qarşılıqlı təsir və əməkdaşlıq aiddir.

Fiziki kapitaldan fərqli olaraq insan kapitalı insanlarda təcəssüm olunur. İnsan kapitalının fiziki kapital ilə analogiyası ondan ibarətdir: 1) investisiya qoyulması və fayda alınması arasında vaxta görə uyğunsuzluq olur; 2) müəyyən müddət ərzində fayda olur. Hər halda fiziki

kapitaldan fərqli olması ondan ibarətdir ki, özgəninkiləşdirmənin və istehlakçı müstəqilliyinin adi qaydaları tətbiq edilə bilmir, o vaxt istehlakçı hansısa neməti ala və ona sahib ola bilmir. Təyin etməyə görə insan kapitalı fərddə təcəssüm olunur, bazarda onun xidməti satıla bilər, amma əslində insan kapitalına malik olma, qul halı istisna olmaqla, satıla yaxud ötürülə bilməz.İnsan kapitalı formal və qeyri-formal təhsil almaq ilə istər işgüzar fəaliyyət prosesində, istərsə də ondan kənarda tətbiq etmə və təcrübə ilə artır, amma insan kapitalı əgər az istifadə olunarsa, qiymətdən düşmə tendensiyasına da malik olur. Bəzi vərdişlər yaşla əlaqədar yox olur və səylər müəyyən yaşa çatandan sonra insan kapitalının müşahidə olunan azalmasını qismən izah edir. Beləliklə, insan kapitalı həmişəlik fərdin qazandığı vərdiş və biliyinin oxşar və davamlı toplumu kimi təyin edilə bilməz.

**ƏDƏBİYYAT**


1. ”Əqli mülkiyyət və insan kapitalı”.Bakı.2016
2. Azərbaycanın statistik göstəriciləri-2016. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri. Bakı, 2016
3. M.Əliyev,H.Həmidov.”Biznesdə insan resurslarının idarə edilməsi”.Bakı.2013
4. Quliyev T.Ə. Əməyin sosiologiyası. Bakı, 1998
5. Quliyev A. Sosial təminat məsələləri haqqında qanunvericilik toplusu. Bakı, 2006

## İnsan potensialının inkişafina təsir edən amillər

**Hüseynova Dilarə**
**Sumqayit Dövlət Universiteti, magistrant**
**Elmi rəhbər: b.m.Süleymanlı Dilşad**

İstehsal prosesinin əsas hərəkətverici qüvvəsi insan kapitalı amilidir, ictimai təkrar istehsal isə xalq təsərrüfatı baxımından məhsul istehsalının yenidən başlanılması və bu kapitalın özünün təkrar istehsalıdır. Adam Smit hesab edirdi ki, əsas resurslar maşın və tikililərdən, torpaqdan və cəmiyyət üzvlərinin əldəedilmiş faydalı bacarıqlarından ibarətdir. Mürəkkəb bir sxem olan insan inkişafı və bu inkişafın əsası ümumi ictimai yüksəlişə əsaslanır. İnsan probleminin öyrənilməsi qloballaşma prosesində bütün elmlər üçün xüsusi əhəmiyyət kəsb edir. Bu ondan irəli gəlir ki, iqtisadi dirçəliş, yeni texnologiyaların istifadəsi, insan-təbiət münasibətlərinin gərginləşməsi, təhsil, səhiyyə, sosial təminat sisteminin təkmilləşdirilməsi zərurəti insana aid problemlərin iqtisadi aspektdə işlənib hazırlanmasını tələb edir. Cəmiyyət üzvlərinin əməyə qarşı bacarıqlarının yığılması, fərdi işçi qüvvəsinin inkişafı xeyli canlı və maddiləşdirilmiş zəhmət xərci tələb edir. Bu, insanda maddiləşdirilmiş əməyin spesifik növü hələ ki, nisbətən az tədqiq edilmiş olaraq qalır. V.S.Qoylonun yazdığı kimi, “ictimaiyyətin əsas istehsalat gücünün inkişafı və yaranma texnologiyası iqtisadi elm tərəfindən az öyrənilib”. Bu istiqamətdə aparılan tədqiqatlardan aydın olur ki, 1960-cı illərdən başlayaraq, əməyin keyfiyyətinə, xüsusilə işçi qüvvəsinin təhsil səviyyəsinə və peşəkar hazırlığına güclü maraq yönəlmişdir. Məhz həmin illərdə fərdi iqtisadi və sosial fayda verən insanların biliyini, vərdişini və digər xüsusiyyətlərini təcəssüm etdirən insan kapitalı konsepsiyası meydana çıxmışdır. Çikaqo alimi Fukuyama qeyd edir ki, bütün iqtisadi fəaliyyət fərd tərəfindən deyil, təşkilatlar tərəfindən həyata keçirilir. Bu da sosial kooperasiyanın yüksək dərəcəsini tələb edir. “Təşkilatı kapital” biliyin, komandada işin, həmçinin davranış normalarının və təşkilat daxilində qarşılıqlı əlaqələrin yayılmasını əks etdirir, bu əslində təşkilat səviyyəsində sosial kapitaldır. Həyat səviyyəsinin qiymətləndirilməsi insan potensialının inkişafı səviyyəsini müəyyənləşdirən əsas konponentlərdən biridir.

Həyat səviyyəsi cəmiyyətin tələbatlarının ödənilməsi və inkişafını özündə birləşdirir. Beynəlxalq əmək təşkilatının konvensiyasının 25-ci maddəsinin “sosial siyasətin əsas istiqamətləri və normaları haqqında” bəndinə müvafiq olaraq, insan ailəsinin və özünün sağlamlığnı qorumaq üçün zəruri olan qida, paltar, mənzil, tibbi yardım və sosial xidmət də daxil olmaqla yaşayış səviyyəsini təmin etmək hüququna malikdir. BMT-nin zəmanətinə əsasən insanın sağlamlığını, istehlak səviyyəsini, məşğulluğunu, təhsilini, mənzil və sosial təminatını xarakterizə edən göstəricilər sistemi ilə ölçülür

Hazırda cəmiyyətin bütün sahələrində informasiya texnologiyasının genişlənməsi mühüm rol oynayır. Lakin mövcud informasiya texnologiyasının hansı istiqamətdə xidmət etməsi bilavasitə insanlardan asılıdır. Mürəkkəb informasiya cəmiyyətində həyat fəaliyyətinin bütün sahələrində kiminsə iradəsini yerinə yetirən sadə icraçı əvəzinə təbiətlə cəmiyyətin tarazlığı kontekstində insan inkişafının qlobal mahiyyətini dərk edərək, cəmiyyətin ümumi tərəqqisinə çalışan mənəvi-psixoloji cəhətdən yetkin, geniş dünya görüşünə malik şəxsiyyətlərin olması daha zəruridir. Bu inkişafa xidmət edən faktorlardan biri də mənəvi-psixoloji amillərin formalaşmasıdır. İnsan potensialının inkişafı səviyyəsinin qiymətləndirilməsi üçün istifadə olunan göstəricilərdən biri də gözlənilən ömür müddəti

indeksidir. Bütün ömrü boyu əhalinin sağlamlığının hər bir sahəsini əhatə edən səhiyyə proqramlarının işlənilməsi və həyata keçirilməsi əhalinin sağlamlığının qorunması və işçi qüvvəsinin keyfiyyətli işini təmin etməklə bərabər ömür müddətinin uzadılmasına təkan verir. Bildiririk ki, ömür müddətinin uzadılmasına olan maneələrə ana və uşaq ölümü, o cümlədən QİÇS və digər cinsi- reproduktiv və endemik yoluxucu xəstəliklər olan malyariya, vərəm, mədə-bağırsaq xəstəlikləri aiddir.. Bəzi ölkələrdə bir növ endemic və yoluxucu xəstəliklər insanların həyatlarına zərbə vurur, digər ölkələrdə isə yoluxucu olmayan ürək-damar, hipertoniya və degenerativ xəstəliklər insanların xəstələnmə və ölüm hallarına əsas səbəblər olaraq qalır.

Təhsilin səviyyəsi müasir dünyada hər bir ölkənin uğurlu gələcəyi kimi müəyyən olunur. Aparılan araşdırmalar göstərir ki, təbii sərvətlərin bolluğu dövlətin inkişafının əsas göstəricisi deyil, bu sərvətlərin cəmiyyətin hərəkətverici qüvvəsi olan insan kapitalına çevrilməsini təmin etməkdir. Bu, hazırkı mərhələdə təhsil sisteminin ən zəruri vəzifəsidir. ABŞ, Yaponiya, Cənubi Koreya və digər inkişaf etmiş ölkələr malik olduqları maddi resurslardan daha çox təhsil sisteminin yetişdirdiyi insan kapitalından böyük gəlirlər əldə etmişlər. İntellektual mülkiyyətin maddi mülkiyyətdən üstünlüyü ondan ibarətdir ki, xərcləndikcə çoxalır.

Yoxulluq indeksi insan potensialının inkişafına təsir edən amillər sırasındadır. Yoxsulluq istənilən ölkənin rast gəldiyi, iqtisadi-sosial inkişaf səviyyəsindən asılı olaraq müxtəlif cür təzahür edən problemdir. Yoxsulluq ölkədə istehlak səviyyəsi və orta gəlirdən asılıdır. Konkret cəmiyyətdə heç olmazsa bir vətəndaşın həmin cəmiyyətin standartlarına uyğun qəbul olunmuş minimumdan aşağı səviyyədə yaşadığı təqdirdə yoxsulluqdan danışmaq olar. Yoxsulluğun sərhədlərinin müəyyənləşdirilməsi üçün onu qiymətləndirən göstəricilər sistemi müəyyənləşdirilməlidir. Adətən pul göstəricilərindən, yəni gəlir və istehlak göstəricilərindən istifadə edilir. Yoxsulluğun qiymətləndirilməsi üçün istehlak göstəricilərinə üstünlük vermək məqsədəuyğun hesab olunur və aşağıdakı amillərlə bağlıdır:

1. Gəlirdən fərqli olaraq istehlak nəticə göstəricisidir. Başqa sözlə desək, gəlir istehlakı təmin edən elementlərdən biridir, çünki istehlak üçün əldəetmə imkanı, məhsulun varlığı və s. amillər də vacibdir;

2. İstehlak həyat səviyyəsinin və imkanların faktiki standartlarını əks etdirir. Bütün bu göstəricilərə uyğun verilənlər toplanır və təsnifatlaşdırılır.

Qeyd olunan bu göstəricilərin təhlili ölkədə insan potensialının inkişafı səviyyəsinin qiymətləndirilməsinə və bu sahədə olan problemlərin həlli istiqamətində müəyyən fikirlərin müzakirəsinə zəmin verir. Hazırda ölkələrin əsas iqtisadi hədəflərindən biri dayanıqlı iqtisadi inkişafa nail olmaqdır. Azərbaycan iqtisadiyyatının qarşısında duran ən böyük problemlərdən biri iqtisadiyyatın şaxələndirilməsi və resurs asılılığının azaldılması məsələsidir. Bu problemin aradan qaldırılması baxımından Azərbaycanın ən böyük resursu məhz insan kapitalı ola bilər. Ancaq o şərtlə ki, insanların potensialının formalaşması və bu potensialın reallaşdırılması üçün münbit şərait yaradılsın. Hazırda Azərbaycanda sərvətlərin formalaşmasında insan kapitalının payının cəmi 14% olması və bu gün Azərbaycanda doğulan uşaqların tam təhsil və sağlamlıqdan faydalandıqları halda, cəmi 60% məhsuldar ola biləcəkləri kimi göstəricilər ölkədə insan kapitalı məsələsi ilə bağlı ciddi problemlərin olduğunun göstəricisidir. Bu problemləri aradan qaldırmaq və dayanıqlı iqtisadi inkişafa nail olmaq baxımından insan

kapitalının formalaşmasına təsir edən sahələrdə hökumətin fəaliyyətinin təhlilinə və daha effektiv yanaşmaların hazırlanmasına ehtiyac var.

Azərbaycan üçün insan kapitalının inkişafı ilə bağlı fəaliyyətin olmamasının əvəzi ağırlaşmaqdadır. Ölkələrin iqtisadi inkişafın dayanıqlığının təmin olunması, gələcəyin daha yüksək bacarıq tələb edən iş yerləri üçün işçi qüvvəsinin hazırlanması və qlobal iqtisadiyyatda səmərəliliklə rəqabət aparmaq məqsədilə insan kapitalına daha çox investisiya yatırması ilə bağlı qlobal sübutlar artmaqdadır. Sürətlə təkamül edən bilik iqtisadiyyatı inkişaf etmiş və Azərbaycan kimi inkişaf etməkdə olan iqtisadiyyatlarda yüksək tələbatlı bacarıqlara ödənişi yüksəldir. Lakin ölkənin bacarıqsız və bacarıqları uyğun gəlməyən işçi qüvvəsi və xroniki xəstəliklərin payının artması insan kapitalının formalaşdırılması səviyyəsinin yüksəldilməsi məqsədilə hər hansı islahat olmadıqda orta – uzun müddətli dövrdə mühüm çağırışlar yaradır. Nəticə etibarilə, Azərbaycan hazırda dönüş nöqtəsindədir. İnsan kapitalına investisiyalar imkanların qeyri-bərabərliyini azaltma, iqtisadi şoklar zamanı tələbatı, fasiləsiz istehlakı stabilləşdirmə və struktur dəyişiklikləri zamanı həssas insanları müdafiə etmə yollarından biri ola bilər. İsayevlər kimi ailələr üçün bu günün keyfiyyətli səhiyyə, öyrənmə imkanları, sosial müdafiə və əmək bazarı ilə bağlı müdaxilələrə əlçatanlığa investisiyaların yatırılmasına dair qərarı sabah qlobal bazarda onların rəqabət aparma potensialını müəyyən edəcək.

**ƏDƏBİYYAT**

**1.** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu-İnsan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası, Bakı 2017

**2.** Sağ qal, öyrən, inkişaf et , 2020 Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı / Dünya Bankı

**Ölkənin davamlı sosial-iqtisadi inkişafının perspektivləri və imkanları**

**Süleymanova Lalə**
**Sumqayıt Dövlət Universiteti**
**Elmi rəhbər: Süleymanlı Dilşad**

Əsasən insan kapitalının formalaşması prosesləri, onun ictimai istehsalda həyata keçirilmə dərəcəsi, insan kapitalının qorunması, toplanması və səmərəli istifadəsi üçün şəraitin yaradılması ilə müəyyən edilir. Müasir nəzəriyyədə insan kapitalı sosial təkrar istehsalın aparıcı elementi kimi sosial yönümlü bazar iqtisadiyyatı sisteminə daxil olan şəxsin ixtiyari qüvvələrinin (keyfiyyətləri, xassələri, qabiliyyətləri, funksiyaları, rolları) təşkili və fəaliyyət göstərməsinin adekvat forması kimi qəbul edilir və əsas həlledici amil iqtisadi artımdır. Müasirliyin fundamental iqtisadi kateqoriyası kimi insan kapitalı məhsuldar qüvvələrdə və iqtisadi münasibətlərdə dərin dəyişiklikləri əks etdirir və bütün iqtisadi sistemin ahəngdar fəaliyyətini təmin etməklə müasir innovativ inkişaf edən istehsal şəraitində insanın yeni sosial əhəmiyyətli xüsusiyyətlərini ortaya qoyur. İqtisadiyyatın bu xarakteri ilə insan kapitalının toplanması ölkənin gələcək davamlı sosial-iqtisadi inkişafı üçün aktuallaşır ki, bu da əhalinin sağlamlığının vəziyyətini, onun elmi, təhsil, peşə, mədəni səviyyələrini iqtisadi baxımdan səciyyələndirir. İnsan kapitalının ən mühüm aktivlərinə insan sağlamlığına, doğuş və tərbiyəsinə, ümumi və xüsusi təhsilə, miqrasiyaya, iqtisadi əhəmiyyətli məlumatların axtarışına, insanın mənəvi sabitliyinə və intellektual mobilliyinə və s. investisiyaların əsas formalarına uyğun gələn bütün elementlər daxildir. "İnsan kapitalı" anlayışını xarakterizə edərkən onun aşağıdakı xüsusiyyətlərini nəzərə almaq lazımdır: İnsan kapitalı sistemə daxil olan və bazar iqtisadiyyatında sosial yönümlü olan və ictimai istehsalın aparıcı elementi kimi insanın məhsuldar qüvvələrinin (keyfiyyətlərinin, xassələrinin, qabiliyyətlərinin, funksiyalarının, rollarının) ifadə formasıdır. Əmək məhsuldarlığının və istehsalın səmərəliliyinin artması, insan kapitalı ictimai istehsalın müəyyən bir sahəsində bir insanın məqsədyönlü şəkildə istifadə etdiyi belə bir bacarıq, bilik, qabiliyyət ehtiyatıdır.

Dolanışıq, əmək məhsuldarlığının və istehsalın səmərəliliyinin artmasına kömək edir, insan kapitalının formalaşması və inkişafı insanın özündən və ətrafdakı mühitdən asılıdır. Həcmcə əhəmiyyətli, uzunmüddətli və inteqral xarakter daşıyan iqtisadi və sosial təsir təmin edə bilən əhəmiyyətli xərc cəmiyyətləri İnsan kapitalının formalaşmasında gələcəkdə daha yüksək gəlirləri təmin edən ikitərəfli multiplikator effekti mövcuddur ki, bu da sərmayələr vasitəsilə insanı artırmaq, gələcəkdə onu yenidən səmərəli şəkildə tətbiq etmək üçün yeni bacarıqlar, adlar və motivasiyalar ehtiyatı toplamaq, stimullaşdırmaq və maraq göstərilməsini təmin edir. Eyni zamanda, motivasiya insan kapitalının ən mühüm elementi olmaqla, insan kapitalının təkrar istehsalı (formalaşdırılması, toplanması, istifadəsi, doldurulması, investisiya qoyuluşu) prosesinin tam başa çatdırılmasına kömək etməlidir. İnsan kapitalı təkcə fiziki və mənəvi aşınmaya məruz qalmır, həm də toplaya və çoxalmağa qadirdir, insan kapitalı toplandıqca onun rentabelliyi aktiv əmək fəaliyyətinin məhdud yuxarı həddi ilə müəyyən həddə yüksəlir. İnsana qoyulan bütün investisiyalar və insan kapitalı kimi tanımaq olmaz, yalnız sosial məqsədəuyğun və iqtisadi cəhətdən zəruridir. Təşəkkül mənbələrindən asılı olmayaraq, dövlət, ailə, və s. ola bilər, insan kapitalından istifadəyə və birbaşa gəlirin əldə edilməsinə şəxsin özü nəzarət edir. İnsan kapitanının fəaliyyət göstərməsi və işləməsi və tətbiqi subyektin azad iradəsi, onun yazı maraqları və üstünlükləri, maddi və mənəvi marağı, məsuliyyəti, dünyagörüşü və ümumi mədəniyyət səviyyəsi inkişaf edir. Milli sərvətin tərkib hissəsi kimi insan kapitalının təkrar istehsalı prosesi ölkələr müvafiq investisiyalar olmadan mümkün deyil. Mikro səviyyədə investisiya və insanlar sosial kapital işçilərin ixtisasının artırılması kimi xərc maddələri ilə təmsil olunur; xəstəlik məzuniyyəti arayışlarının, əməyin mühafizəsi xərclərinin ödənilməsi; şirkət tərəfindən ödənilən könüllü tibbi sığorta, şirkətin işçisi üçün tibbi və digər sosial

xidmətlərə görə ödəniş: sosial qurumlara xeyriyyə yardımı və s. Makro səviyyədə investisiyanın rolunu, ilk növbədə, ev təsərrüfatlarının xərcləri oynayır insan kapitalının qorunması və bərpası, ikincisi, dövlət sosial köçürmələr və sosial vergi güzəştləri. Aktiv dövlətlərin parlaq nümunəsi ny investisiya Amerika Birləşmiş Ştatları göstərir.Sosial sahənin sahələri sivil dünyada milli sərvətin tərkib hissəsi və iqtisadi artımın ən mühüm amili kimi tanınan insan kapitalının təkrar istehsalı və köhnəlməsi mexanizmi kimi çıxış edir. İnsan kapitalına qoyulan sərmayələr, sosial təsirlərdən əlavə, onları həyata keçirən şəxs üçün həmişə xərc effektini nəzərdə tutur. Bir işçi üçün sağlamlığı qorumaq və təhsil almaq və peşəkar bacarıqların formalaşdırılması üçün motivasiya onun gəlirinin diferensiallaşdırılmasıdır.Kadrların inkişafına sərmayə qoyan şirkət üçün söhbət əmək məhsuldarlığının artırılmasından gedir. Bütövlükdə cəmiyyət üçün təsir həm də milli iqtisadiyyatın rəqabət qabiliyyətinin saxlanmasında və ÜDM-in artımında ifadə olunur.

**ƏDƏBİYYAT**


1. Slonimsky, A.A. Belarus iqtisadiyyatının elmi potensialı və texnoloji quruluşu: inkişaf strategiyası / A.A. Slonimsky // Belarusiya İqtisadiyyat Jurnalı. - 2007. - No 1. səh. 41–42.
2. 2. Sokolova, G.M. Belarus Respublikasında insan kapitalı / G.M. Sokolova, V.E. Yermakova. - Minsk: Amalfeya, 2003. - 270 s.

## İnsan kapitalının formalaşdırılması məsələsi

**Rəcəbli Nurlanə**
**Sumqayıt Dövlət Universiteti , magisrtant**
**Elmi rəhbər: b.m.Süleymanlı Dilşad**

Müasir dövrün ən aktual mövzularından biri insan kapitalının formalaşdırılması məsələsidir. Bu, ölkənin davamlı sosial-iqtisadi inkşafına,rifahının yüksəlməsinə,təhsilin,mədəniyyətin müsbət keyfiyyətlərin artımına səbəb olur. Gəlin, insan kapitalı nədir və necə yaranıb suallarına aydınlıq gətirək. İlk dəfə bu termin keçən əsrdə amerikalı kənd təsərrüfatı iqtisadçısı Teodor Uliyam Şults tərəfindən işlədilmişdir. O deyirdi: ”Bilik və bacarıq kapitalın bir formasıdır.İnsan kapitalına investisyalar həm iqtisadi məhsulun, həm də işçilərin qazanclarının artmasına səbəb olmuşdur”. Özünə nə qədər çox yatırım etsən , o qədər çox qazanarsan prinsipi ilə çıxış edirdi. İnsanın əldə edə biləcəyi müsbət keyfiyyətlər , özünə (şəxsiyyətinin inkşafına) qoyduğu yatırımlar insan kapitalı adlanır. Daha dəqiq desək, insanın əldə etdiyi bilik, bacarıq,təhsil, sağlamlıq, praktiki fəaliyyət prosesi,həyat keyfiyyətləri bura daxildir. T.Şultsə görə onun nəzəriyyəsi insanlığı rədd etmir,əksinə fərdləri özünə sərmayə qoymağa təşviq edir. O insanların sağlamlığına, daxili miqrasiyasına və iş yerində təlimə sərmayə qoymasını müdafiə edir, məhsuldarlıq səviyyəsini artırmaq üçün fərdlərin təhsillərinin yaxşılaşdırmağı həvəsləndirməyə diqqət yetirirdi. Fikir versək istər dünya ölkələrində, istərsə də Azərbaycanda insanların əksəriyyətinin təhsili üçün digər ölkələrə üz tutduqlarının şahidi ola bilərik. Bu məsələyə biz iki prizmadan yanaşa bilərik: Birincisi, insanların dünyanın ən yaxşı universitetlərində təhsil alması təqdirəlayiqdir. İkincisi, bu imkanların əksər ölkədə məhdud səviyyədə inkşafı mənfi haldır.Ölkəmizdə son zamanlar təhsil üçün insanların ən çox axışdığı ölkələr Avropa və Amerika ölkələridir. Təhsilin bəzi sahələrinin inkşafdan geridə qalması insan kapitalının formalaşdırılması prosesini ləngidir. Bu bir sıra problemlərə (maddi durumun xaricdəki təhsilə çatmamsı, insanların xarici ölkədə oxumağa öyrəşə bilməməsi, təhsilin beynəlxalq dillərdə olması,valideynlərdən uzaq düşməsi v.s) səbəb olur. Məhz bu istiqamətdə müəyyən addımların atılması vacibdir. Dünya ölkələrinin qarşısında duran ümdə vəzifə insan kapitalının səmərəliliyini artırmaqdır. Gəlin araşdiraq; Hansı addımlar bu məqsədə nail olmağımıza kömək edə bilər? Analiz etsək görərik ki, bu problemin mənbəyi təhsilə (elmə) və bu sisteminin düzgün qurulmasına dayanır. Əgər təhsil ( elm) və yaxud sistem təhlükədədirsə orda heç bir inkşafdan söhbət gedə bilməz. Məhz buna görə də təhsil və peşə hazırlıq səviyyələrinin yüksəldilməsi, təhsil xərclərinin nisbətən aşağı salınması,müxtəlif sahələri əhatə edən peşəkar təcrübə proqramlarının keçirilməsi, seminar və təlimlərin təşkili, insanların maariflənmə prosesinin hər sahəyə aşılanması, bütün sahələrdə maksimum rəqabətin formalaşdırılması,idarəetmə və təşkilatlarda peşəkar, ixtisaslı kadrların yerləşdirilməsi, yüksək həyat səviyyəsi və keyfiyyəti, fundamental və tətbiqi elm sahələrinin inkşafı, yeni iqtisadi sektorların inkşafı, inteqrasiyanın genişlənməsi və.s bizə yardımçı ola bilər. İnsan həyatı boyu əldə etdiyi keyfiyyətləri istifadə edərək ixtisaslaşdığı sahənin standartlarına cavab verirsə və onu düzgün şəkildə aşılamağı (nümunə olmağı) bacarırsa demək o ən bariz insan kapitalı nümunəsidir.

Dünya ölkələrində insan kapitalının miqdarını müəyyən etmək üçün ümumi İnsan İnkşaf İndeksindən (İİİ) standart kimi istifadə olunur.Bu standart BMT tərəfindən 1990 -cı ildə “İnsan İnkşafi Hesabatı” adı altında dünya ölkələrinin rifağını əks etdirən proqram hazırlandı.İİİ

özündə 3 aspekti birləşdirir: uzun və sağlam ömür,təhsil səviyyələri,yaşayış standartları. Doğrudur,bu İİİ müfəssəl ölçü vasitəsi deyil, amma İİİ və gəlirlə rifah arasında qarşılıqlı mürəkkəb münasibətlərin nəzərdən keçirilməsi üçün daha geniş prizmani təmin edir. Hal-hazırda dünyanın inkşaf etmiş ölkələrində insan kapitalı yüksək səviyyədədir. Gəlin,Azərbaycanımızın dünya ölkələri ilə bu mövzuda necə uyğunlaşdığını analiz edək. İnsan kapitalı ölkəmizdə nə səviyyədə inkşaf edir? Əvvəlki illərə nisbətən təhsil son zamanlarda tərəqqidədir. Xüsusilə Bakı və Sumqayıt şəhərində yüksək səviyyəli özəl və dövlət təhsil ocaqları vardır. Son dövrlərdə bu istiqamətdə müəyyən tədbirlər görülür, təlimlərin,seminarların , təcrübə proqramlarının (müxtəlif sahələrdə) təşkili artmışdır. Xarici ölkələrdən peşəkar insanların dəvət edilməsi, təhsil, elm , mədəniyyət və tərəqqinin dərinləşməsi prosesi surətlənmişdir. Doğrudur, bunlar təqdirəlayiqdir. Lakin məhdud cəhəti odur ki, bəzi şəhərlərimizdə (Lənkəran, Naxçıvan, Gəncə) universitet olsa da digər şəhərlərimiz diqqət mərkəzindən uzaq qalmışdır. Bu da ölkə ərazisində insan kapitalının qeyri-bərabər paylanmasına(əksəriyyət Bakıda cəmlənib: paytaxt amili, ixtisaslı kadrların burda cəmlənməsi, inkşaf apektlərinin genişliyi və.s) səbəb olur. Bu nisbət daha digər problemlərə də yol açır. (Mərkəz şəhərlərdən savayı digərlərinə lazımı diqqətin ayrılmamsı, inkşaf səviyyəsinin aşağı düşməsi, işsizlik, savadsızlıq və.s) Əgər insan kapitaını formalaşdırmaq, səmərəli istifadə etmək istəyiriksə bu yöndə addım atmalıyıq. İlk öncə hər bölgəmizdə təhsil , elm, mədəniyyətin sahələrini inkşaf etdirmək, təlim və seminarlar təşkil etmək, ixtisaslı kadrları bərabər surətdə yerləşdirmək, sağlamlıq və həyat fəaliyyətini yüksəltmək üçün lazımı tədbirlər görmək çox vacibdir. Düzdür, insan kapitalının fəaliyyəti və inkşafı , gerilik dərəcəsi və tətbiqi subyektin azad iradəsi, onun fərdi maraqları ilə bağlıdır. Lakin onun üstünlükləri, onun maddi və mənəvi maraqları onu iqtisadi-sosial tərəqqiyə gətirib çıxarır.Bu istiqamətləri seçmək isə yalnız ona məxsusdur. Rəqabət dolu dünyada səhv seçim daha doğrusu, heç birini seçməmək çox azlıq təşkil edir. Xüsusilə geridəqalmış ölkələrdə aktiv məsələdir ki,bu hallara qarşı tədbirlər görülür və nisbət azalmaqdadır.

Qeyd edək ki, insan kapitalının təkrar istehsalı ölkələr tərəfindən investisya qoymadan mümkün deyildir. Gəlin,buna aydınlıq gətirək. Belə ki mikro səviyyədə investisya xərc maddələri ilə təmsil olunur. Bunlara misal olaraq əmək qabiliyyətinin itirməyə görə xəstəlik vərəqlərinin ödənilməsi,əməyin mühafizəsi xərcləri,tibbi sığorta,şirkət tərəfindən edilən xərclər,sosial qrumlara xeyriyyə yardımları və.s göstərmək olar.İnsan kapitalına investisya sosial təsirlərdən əlavə həmişə bir insan üçün bir xərc təsirini nəzərdə tutub həyata keçirir.Bir işçi üçün sağlamlığı qorumaq və təlim almaq motivasiyası təhsil və peşə bacarıqlarının formalaşdırılması onun ayrica differensiallaşdırılmasıdır. Kadrların inkşafına sərmayə qoyan bir şirkət üçün bu artım deməkdir. Bildiyimiz kimi ölkəmizin işğal altında olan torpaqlarımız azad edildi. Bəs bu torpaqlarda insan kapitalı formasiyasını necə yarada bilərik? Bu haqda düşünək. Əvvəl mövcud olmuş Şuşa Dövlət Universitetini bərpa etməklə, ixtisaslı kadr yetişdirməklə başlaya bilərik. Bu ərazilərdə iqtisadiyyatın müxtəlif sahələrini inkşaf etdirmək üçün prespektivlər ( fiziki və iqtisadi amillərin birgə bağlılığı sayəsində)vardır. Coğrafiyası, təbii şəraiti, ehtiyatları və.s buna imkan yaradır. Əsas istiqamət ixtisaslı kadrları düzgün şəkildə yerləşdirməkdən və yetişdirməkdən ibarətdir. Azərbaycan Respublikasının intensiv tədbirlər sayəsində maksimum surətdə inkşafına nail ola bilərik. İnsan kapitalının artması təsərrüfatın müxtəlif sahələrinin inkişafına təkan verəck , o da ölkə büdcəsinin artmasına, həyat

səviyyəsinin yüksəlməsinə , inkşaf etməkdə olan ölkədən inkşaf etmiş ölkəsinə çevrilməyə gətirib çıxaracaqdır. Doğrudur ki,hazırda olan iqtisadiyyat mütəxəssisləri üçün tələb olunan təlim cəmiyyətin innovativ modernləşməsinin ön sıralarında iştirak etmək və beləliklə gənc nəslə müsbət təsir göstərmək, onları formlaşdırmaq işidir. Lakin düzgün işlənmiş universitet strategiyası,korporativ mədəniyyətin inkşafı bu problemi həll etməyə kömək edər.Sadəcə olaraq insan kapitaının səmərəliliyi və keyfiyyətinə düzgün nəzarət etmək lazımdır. Bu məsələyə ixtisasımız cəhətdən yanaşsaq, əlbəttə ki, iqtisadi amillərin fiziki amillərlə bağlı olduğunu görə bilərik.İnsan kapitalını formalaşdırmaq üçün hansı fiziki amillər lazımdır? Gəlin Azərbaycan üzrə bu məsələni araşdıraq. Fiziki amillər deyərkən biz hər hansı bir ərazinin coğrafi xüsusiyyətləri -iqlim,relyef,torpaq,təbii ehtiyatlar(faydalı qazıntılar) və.s cəhətdən qiymətləndirilməsi kimi məsələlər nəzərdə tutulur.Deyək ki, bir insan kənd təsərrüfatı üzrə mütəxəssis olmaq istəyirsə şəhər deyil də ətraf rayonlara üz tutacaqdır. Bu onun ixisaslaşdırmaq istədiyi sahə ilə də bağlıdır (hansı ərazidə inkişaf imkanı varsa ). Bütün sahələr bu istiqamət üzrə yerləşdirilsə ölkənin inkşaf surəti o qədər də artar. Ölkəmizdə neft sektorundan başqa digər sahələrdə ixtisaslaşma demək olar ki yoxdur. Qeyri-neft sektorlarının inkşafını artırmaq üçün ölkəmizin fiziki şəraitinin düzgün qiymətləndirilməsi ən birinci faktordur.Nə üçün bu qədər imkanımız varkən xarici dövlətlərdən mal idxal edək? Lazımı diqqətin artırılması, bu sahələr üzrə universitetlərdə yeni ixtisasların açılması, xaricdən mütəxəssislərin dəvəti, yeni texnologiyaların tətbiqi, innonativ yeniliklərin yaradılması və.s dirçəlməyə səbəb olar. Təklif edərdim ki,hansı sahə harda ixtisaslaşırsa, orda o sahəyə uyğun universitet və ya institutlar yaradılsın.Bu da həmin sahənin daimi inkşafına, yeniliklərin tətbiqinə, ixtisaslı kadrların yaranmasına səbəb olar.

İqlim cəhətdən qiymətləndirsək ərazimizin 50%-dən çox hissəsi yarımsəhra və quru çöl iqlimidir. Bu ərazilərdə təsərrüfatın müxtəlif sahələrini inkşaf etdirə bilərik(hal-hazırda bu ərazilərdən otlaq kimi istifadə edilir və bu da səhralaşmaya səbəb olur). Təklif edirəm ki, bu ərazilərdə( məsələn Ceyrançöl) iqlimə uyğun olan kənd təsərrüfatı sahələri- qarğıdalı, arpa, bostançılıq,üzümçülük, meyvə bağları və.s genişlənsin. Nə qədər çox istehsal etsək o qədər də ixrac edə bilərik, bu da gəlirlərimizin artımına, ixtisaslaşmaya gətirib çıxaracaq.Alternativ enerji kimi Günəş Elektrik Stansiyalarının( HelioEs)-günəş panellərinin qurulması enerji ehtiyatlarımızın formalaşmasına kömək olar. Yaxud da bu ərazilərdə arid meşələrin salınması,xüsusilə də relikt və endemik ağac növlərinin , dərman bitkilərinin genişləndirilməsi daha məqsədəuyğun hesab oluna bilər. Başqa məqsədlər də ola bilər ,Candargölün ətrafına meşələr salmaqla rekreasiya ehtiyatları qura bilərik. Biz bilirik ki, bu məqsədlər üçün maliyyə bazası və güclü insan kapitalı formalaşmalıdır ki, qeyd etdiyimiz prespektivlər inkşaf edə bilsin.Bu da danılmazdır ki, hər bir sahə bir-biri ilə əlaqəlidir, biri inkşaf etsə digərində də təsir hiss olunacaqdır.

Sonda belə nəticəyə gəlirik ki, insan kapitalı hələ ilk formalaşma mərhələsindədir. Lazımı diqqət artdıqca ən mükəməll səviyyəsinə çata bilər.

**ƏDƏBİYYAT:**

1. İnternet mənbələri

2. T.Şults Beynəlxalq Sosial Elmlər Ensklopediyasında İnsan Kapitalı , London,1968, cild 6

3. T.Şults İnsan kapitalına İnvestisya , London, 1971, səh 26-28

4. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitu İnsan kapitalının inkşafı nəzəri aspektləri və qiymətləndirmə metodologiyası , Bakı 2017

**Heydər Əliyev və Azərbaycan Respublikasının neft resurslarının inkişafının insan amilinə təsiri**

**Qasımlı Şamxal**
**Sumqayıt Dövlət Universiteti**
**Elmi rəhbər: Adıgözəlova Günel**

Azərbaycan dövlətinin iqtisadi siyasətinin prioritet istiqamətlərindən biri milli sahibkarlığın inkişaf etdirilməsi idi. Müstəqilliyin ikinci ilində 1992-ci ilin 15 dekabrında sahibkarlıq fəaliyyəti haqqında qanun qəbul olundu ki, burada sahibkarlğığın prinsipləri, sahibkarın hüquqları və vəzifələri, onun dövlət tərəfindən tənzim və idarə olunmasının forma və üsulları öz əksini tapdı. Kiçik və orta sahibkarlığa Dövlət Köməyi Proqramında (1997-2000-ci illər) nəzərdə tutulan tədbirlər nəticəsində ölkədə sahibkarlara xidmət edən infrastrukturlar yaradılmışdır. Dövlətin tənzimləyici və müəyyəmn vasitələrlə kömək etmək funksiyalarını yerinə yetirən bir sıra qurumlar var: İqtisadi İnkişaf Nazirliyi, Sahibkarlığa Kömək Fondu, Kiçik və Orta sahibkarlığın İnkişaf Fondu. BMT-nin İnkişaf Proqramının Azərbaycanda həyata keçirdiyi layihə çərçivəsində Azərbaycanda Sahibkarlığa Kömək Mərkəzi yaradılmışdır. Bu proqram sahibkarlığın, biznesin müxtəlif sahələrinə aid məsləhət xidmətinin göstərilməsinin, seminarlar keçirilməsinin, onlar üçün investisiya layihələrinin hazırlanmasının əsası olmuşdur. Elə bütün bunlardan çıxış edərək 2000-ci ildə sahibkarların fəaliyyətini əlaqələndirmək, onların hüquqi –iqtisadi mənafelərini qorumaq və ictimai statusda saxlamaq məqsədilə Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası yaradıldı. [1 , 32]

Sosial müdafiə sistemi bu günlərdə ictimaiyyətin həyatında çox əlamətdar rol oynayır. Sosial müdafiə problemlərinin ön plana çəkilməsi zərurəti iqtisadi məsələlərə toxunduqda daha çox qabarır. Bütün ölkəllərdə sosial güzəştlərdən asılı olan bir sıra insan qruplarının problemlərinin həll olunduğu bir şəraitdə, büdcə kəsirlərinin mövcud olduğu bir vəziyyət yarandıqda hökümət təcili olaraq,sosial müdafiə xərclərinin bir hissəsini öz üzərinə götürür. Bundan da belə bir nəticə ortaya çıxır ki, sosial müdafiə sistemi və bu sistemin sosial müdafiə sistemlərinin inzibati idarəolunması və tənzimlənməsi ilə bağlı öz üzərinə götürdüyü öhdəliklər cəmiyyətin əsas problemlərinə istiqamətlənməlidir və həllini tapmalıdır.

Bir məşvərətçi orqan kimi tərkibinə sosial, iqtisadi, dini və digər qruplar daxil olan bu qurum inzibati idarəolunmada iştirak etməsə də, onun bir üzvü kimi sosial müdafiə məsələlərinə həsr olunmuş bütün tədbirlərdə iştirak edir və bu sistemi cəmiyyətə çatdırmaqda yaxından iştirak edir. Beləliklə, sosial müdafiə təminatı dedikdə, vətəndaşların və onların ailə üzvlərinin yaşayış vasitələri mənbəyini itirdiyi və ya yaşayış minimumu olmadığı hallarda sosial əhəmiyyətli xərclər çəkməyi, tibbi yardım göstərilməsi, ailəyə-uşaqların saxlanılmasına köməklik edilməsi və tərbiyə edilməsinə köməklik göstərilməsivə digər sosial xidmətlər göstərmək, sosial təyinatlı vəsaitlərin bölüşdürülməsi üzrə ictimai münasibətlərin cəmi başa düşülür.

Sosial tələbatların ödənilməsinin aşağıdakı formaları var:

-dövlətin istehlakçılara minimum standartlar həcmində, qalan hissəsini isə pulsuz sosial xidmətlər formasında müəyyən etməsi;

-güzəştlərin qarşılıqlı ekvivalentsiz formada həyata keçirilməsi;

-pul ödənişlərinin (pensiya, müavinət) əvəzsiz, normalar əsasında, əmək fəaliyyəti və üzvlük haqqının ödənilməsi nəzərə alınmaqla həyata keçirilməsi; [2, 34]

Dövlət bütün bu məsələlərin həllində maraqlıdır və onların inzibati-hüquqi tənzimlənməsini həyata keçirir. Dövlətin zəmanətləri dedikdə, sosial müdafiə və sosial təminatla yanaşı əməyin, sağlamlığın və ətraf təbii mühitin mühafizəsi, insanın minimum normal həyat tərzi, həyat fəaliyyəti və işləməsi üçün tədbirlər başa düşülür. Əslində sosial müdafiə sistemi həm də qazanc imkanları olmayan və xüsusi məsrəflərlə üzləşən əhali qrupları üçün həmrəylik sistemi yaradan bir anlayışdır.

Eyni zamanda sosial müdafiəyə ehtiyacları olan, sosial riskli hallardan zərər çəkən insan qruplarının da müəyyənləşməsi ehtiyacları da daxildir. Buna görə də bütün səyləri problemlərin həll olunmasına yönəlmiş sistem daha mükəmməl sistem hesab olunur. Sosial müdafiə tədbirlərinin bir şəxs üçün tətbiq olunma ölçüləri, ümumi tətbiq olunma miqyasları sosial müdafiənin ümumi tətbiq miqyasından fərqlənir. Sosial yardım sistemləri ümumi və kateqoriyalı yardım sistemlərinə bölünür. Elə dpvlətlər var ki, orada insanların sərvətlərini müəyyənləşdirməkdə müəyyən çətinliklər yaranır. Təbii ki bu da həmin ölkələrin vergi sistemlərinin səmərəli və düzgün fəaliyyət göstərməməsindən irəli gəlir.

Bu cür ölkələrdə ümumi sosial yardım sistemlərinin yaradılmasına cəhd edilmir, üstəlik, öz gəlirlərini gizlətmək iqtidarında olmayan insan qruplarına kateqoriyalı sosial yardımlar göstərilir. Yəni əsas məqsəd budur ki, ölkədə yaşayan bütün vətəndaşlar öz milli mənsubiyyətindən asılı olmayaraq, sosial təminat ala biləcək sosial sistemlərə malik olsunlar və hətta lazım gələrsə, ölkə xaricində çalışan vətəndaşların da sosial müdafiə problemlərinin həll olunmasında yaxından köməklik göstərsin.

Burada milli-etnik  mənsubiyyət əsas rol oynamır, yalnız bu və ya digər milli mənsubiyyətə məxsus şəxsin bilavasitə yaşadığı ölkənin vətəndaşı olması şərtdir. Təbii ki, evsiz-eşiksiz insanların, öz yaşayış yerlərini müvəqqəti tərk edənlərin sosial xidmətdən yararlanmaq fürsəti çox zaman məhdudlaşdırılır. Belə problemlər yaşayan dövətlər bu kateqoriyadan olan insanlara elə yaşadıqları yerdə onlara ərazi xidmətləri göstərərək məsələni həll edə bilirlər. Əsasən yaşayış yeri prinsipi hökümətin inzibati orqnları tərəfindən müəyyən edilmiş müvəqqəti yaşayış hüququ prinsipləri əsasında, ya da şəxslərin doğulduqları ərazini yaşayış yeri kimi qəbul etmə yolu ilə müəyyənləşir. [3, 41]

Bələdiyyələr də bu məsələlərin həllində köməklik göstərə bilər. Belə ki, yerli bələdiyyə orqanları vasitəsilə yerlərdə müəyyənləşmiş xüsusi məntəqələrin köməyilə evsiz-eşiksizlərə və yaxud müvəqqəti yaşayış yerini itirmişlərə yardımlar göstərilir. Sosial yardım bu hüquqa malik olan şəxsə onun ailə tərkibindən asılı olmayaraq təyin edilməlidir. Yalnız istisna hallarda sosial yardıma ailələrin təmin olunması növü kimi baxılır. Bu adətən hüququ statusu olmayan ailələrə aid edilir. Ümumiyyətlə, qeyri-müəyyən əhali anlayışının hələ də mövcud olması anlayışı bir çox ölkələrdə problemlərlə üzləşir. Ona görə də bu qrupdan olan insanlar sosial problemlərinin həll olunması üçün sosial sığorta sistemlərinin yaradılması zərurəti yaranır. Sosial riskli hallar yaranmamışdan öncə sosial müdafiə sistemləri sosial sığorta hüquqları olan şəxslər barəsində müəyyən biliklərə malik olmalıdır. Bundan nəticə çıxaran digər soial müdafiə sistemləri zərər çəkmiş əhali təbəqələrinin  müəyyənləşdirilməsi problemi üzərində daha məsuliyyətli olacaqlar.

Sosial müdafiə şəxslər arasında sosial riskli hallarla üzləşmiş insanların problemlərinin həll olunması məqsədilə həmrəylik prinsiplərinin yerinə yetirilməsinə riayət edir ki, bu prinsiplər də bir və ya bir neçə zümrədən olan insanlar arasında, misal üçün, xəstəliyə düçar olmuş və ya işsizlər, eləcə də məşğul əhali üzərində də tətbiq oluna bilər. Müxtəlif zümrəli həmrəylik prinsipi bugünün müasir tələblərinə uyğun olaraq, müxtəlif zümrədən olanlar arasında mövcud olan həmrəylik prinsipi deməkdir. Şübhəsiz ki, müxtəlif zümrəli həmrəylik prinsipi ahıl yaşlı vətəndaşların pensiya problemlərdə və təqaüdə çıxmış vətəndaşlara müavinətlərin verilməsində mühüm rol oynayır. Müxtəlif zümrəli həmrəylik prinsipi özündə əhalinin daha fəal hissəsini təmsil edən, gənc nəsil tərəfindən bütün sosial müdafiə ehtiyaclarının qavranılması və bu ehtiyacların ödənilməsi üçün hazır olduqlarını əks etdirən əsas amillərdən biridir. [4, 21]

1997-ci ilə qədər Azərbaycan Respublikasında bazar iqtisadiyyatına keçidin və dünya iqtisadiyyatına inteqrasiyanın yalnız nəzəri əsasları yaranmışdır. Məhsul istehsalında özəl sektorun xüsusi çəkisi ancaq 50%-ə, sənayedə isə daha az 25%-ə çatırdı. Bu o demək idi ki, bazar iqtisadiyyatına keçidi davam etdirmək lazım idi. Belə ki, 1996-1997-ci illərdə iqtisadiyyat bütövlükdə böhrandan çıxıb daxili ümumi məhsul artmağa başlasa da, onun bir çox əsas sahələrində istehsal həcmi hələ artmır, aşağı düşmə zəif də olsa davam edirdi. Sabitləşmə meylləri yenicə başlanmışdı. Belə ki, neft hasilatı 1995-ci ildə 9.2 mln ton, 1996-1997-ci illərdə 9.1 mln ton, təbii qaz hasilatı 1995-ci ildə 6.6 mlrd.m, 1996-cı ildə 6.3, 1997-ci ildə 6mlrd kub metr olsa da, hələ tam stabilləşməmişdir. Bir çox mühüm ərzaq məhsulları (ət, süd və.s) , əksər yüngül sənaye məhsulları, toxuculuq məmulatları istehsalı azalmaqda davam edirdi. Ən başlıcı məqamlardan biri də o idi ki, ziyan və zərərlə işləyən müəssisə və təşkilatların xüsusi çəkisi yüksək idi. Sənaye müəssisələrinin və təşkilatlarının 1990-cı ildə 9%, 1995-ci ildə 14.3 və 1997-ci ildə 40%-i zərərə işləyirdi. Kənd təsərrüffatı müəssisə və təşkilatlarının 1990-cı ildə 7%-i, 1995-ci ildə 45.9 və 1997-ci ildə 75.9%, o cümlədən kənd təsərrüfatı istehsal müəssisələrinin müvafiq olaraq 7.9, 47 və 64.4%-i zərərlə işləyirdi. [5 , 23]

Bu strateji vəzifələri yerinə yetirmək üçün dövlət ilk dəfə olaraq idarəetmənin təşkilati mexanizmi kimi qeyri-neft sektorunun ayrı-ayrı sahələrinin qısa və orta müddətli məqsədli inkişaf proqralarını hazırladı və icrasını təmin etdi. Bu səbəblə “Azərbaycan Respublikasında iqtisadi yüksəliş və struktur yenidən qurması üzrə orta müddətli proqram”, “Dövlət sektoruna investisiya qoyuluşunun orta müddətli proqramı”, “1997-2000-ci illərdə kiçik və orta sahibkarlığa kömək Dövlət Proqramı” və digər proqramlar qəbul edilir. Sahibkarlığın inkişafına maliyyə-kredit dəstəyi vermək üçün “Sahibkarlara Kömək Milli Fondu” təsis olunur, Kiçik və Orta sahibkarlığın inkişafı agentliyi yaradılmışdır. Bu illərdə ölkəmizdə neft hasilatı və ixracı artırdı. Buna misal olaraq, 1996-cı ildə nefti ixrac etmək üçün Bakı-Novorossiysk Neft kəmərinin Azərbaycana aid hissəsi yenidən quruldu, 1999-cu ildə Bakı – Supsa neft kəməri çəkilərək Azərbaycan neft Qara dənizə çıxarıldı. Neft ixracından daxil olan vəsaitlərdən istifadə etmək üçün 1999-cu il dekabrın 25-də Neft Fondu təsis edildi, 2000-ci ildə bu fonddan qeyri-neft sektorunun inkişafında istifadə etmək qaydaları-əsasnaməsi təsdiq edildi. [6, 22]

Ölkəmizin iqtisadi qüdrətinin artırılması, ərazi bütövlüyünün təmin edilməsi ilk növbədə onun malik olduğu başlıca məhsuldar qüvvələrdən – insan potensialından hansı

səviyyədə düzgün və səmərəli istifadə olunmasından asılıdır. Bu zaman ölkədə mövcud olan əmək qabiliyyətli əhalinin indi və gələcəkdə tam və səmərəli məşğulluğun təmin edilməsinin nə qədər əhəmiyyətli və keyfiyyətli bir məsələ olduğunu göstərmək heç də çətin olmur. Ölkə iqtisadiyyatının tamamilə yenidən qurulmasında insan amilinin aparıcı rol oynaması müasir cəmiyyətin iqtisadi və sosial inkişafının əsası kimi əmək potensialının tədqiqində böyük rol oynayır. Bu cəhətdən bu amillər yeni sahələrdə ciddi yeniləşdirmə aparılmasına, bazar münasibətlərinə əsaslanan yeni cəmiyyətin obyektiv iqtisadi qanunlarının tələbləri nəzərə alınmaqla, hər bir cəmiyyət üzvünün malik olduğu qabiliyyət və imkanlar onların inkişaf potensialının aşkara çıxarıılmasında , daha tam reallaşmasında, səmərəli tətbiqində, insanın şəxsiyyət olaraq təkmilləşdirilməsində böyük ehtiyac yaradaraq əhəmiyyət kəsb edir. Son dövrlərə qədər bəzi sovet ədbiyyatlarında, sosial –iqtisadi ədəbiyyatlarda, dövlət sənədlərində belə bir yalnış fikir var idi ki, SSRİ qurulandan sonra işsizlik bir problem kimi ləğv olunmuş, iş qüvvəsi bazarı, işsizlik anlayışı isə burjuaziya termini olduğuna görə sosializmlə heç bir əlaqəsi yoxdur. Əhalinin səmərəli və optimal məşğulluğundan söhbət gedərkən, onların mahiyyət və məzmunu şərh edilərkən, əsas diqqət məşğulluğun əsl iqtisadi məzmununun açılmasına deyil, onun siyasi məzmunun izahına verilmiş və hər vasitə ilə sübut edilməyə cəhd göstərilmişdi ki, işsizlik problemi birdəfəlik həllini tapmışdır. Həm də göstərilirdi ki, əhalinin səmərəli məşğulluğunun təmin edilməsi yalnız kommunizm rejimində mümükündür. Bu da yalnız o vasitə ilə həyata keçirilə bilər ki, əmək qabiliyyətli əhali ictimailəşdirilmiş istehsal dairəsinə və istehsalatdan ayrılmaqla təhsilə cəlb edilsin.Azərbaycanda bazar münasibətlərinin formalaşması istiqamətində aparılan iqtisadi islahatlar, dünyanın aparıcı şirkətləri ilə imzalanmış kontraktlar, aparılan iqtisadi islahatlar, sosial proqramlar, beynəlxalq normalara uyğun olaraq, miqrasiya axınlarının idarə edilməsi kimi mühüm vəzifələr və amillər bugünkü dövrün ən aktual məsələlərdən biridir.

**ƏDƏBİYYAT:**


1.Həsənov. Ə.M. Heydər Əliyev və Azərbaycanın xarici siyasət prioritetlərinin müəyyənləşdirilməsi. Heydər Əliyev irsi və Azərbaycan dövlətçiliyi. Bakı, 2005. S. 571-582.

2. Hüseynova H. Azərbaycan Avropaya inteqrasiya prosesləri sistemində (1991-1997). Bakı, 1998.s 345.

3. Xələfov X. "Neft və qaz beynəlxalq konfransda çıxış". Bakı, 4 iyun 2003. AR XİN Arxivi; Xəzər dənizinin hüquqi statusu ilə bağlı çıxışlar qovluğu, 2003.s 346.

4. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı, 1996.s 987.

5. Quluzadə V. Gələcəyin üfüqləri ( Azərbaycan Respublikasının xarici siyasəti barədə mülahizələr, müsahibələr, şərhlər). Bakı. 1999.s 231.

6. Mirzəyev R. Əsrin müqaviləsindən başlayan yol. Bakı, 2000. (Azərbaycan və ingilis dillərində).s 654.

7. Nadirov A.A., Əliyev Q.M. "Azərbaycan neft strategiyasının bayraqdarı" Bakı, "Dirçəliş-XXI əsr", (2004, №3 ) s 341.

**İnsan kapitalı: inkişaf və istifadə problemləri**

**Məmmədov Fuad**
**Sumqayıt Dövlət Universiteti**
**Elmi rəhbər: Süleymanlı Dilşad**

Ölkənin davamlı sosial-iqtisadi inkişafının perspektivləri və imkanları daha çox insan kapitalının formalaşması prosesləri, onun ictimai istehsalda həyata keçirilmə dərəcəsi, insan kapitalının qorunması, toplanması və səmərəli istifadəsi üçün şəraitin yaradılması ilə müəyyən edilir. Müasir nəzəriyyədə insan kapitalı adekvat reallıq kimi qəbul edilir. Cəmiyyətin inkişafının sənaye mərhələsi, sosial təkrar istehsalın aparıcı elementi kimi sosial yönümlü bazar iqtisadiyyatı sisteminə daxil olan şəxsin məhsuldar qüvvələrinin (keyfiyyətləri, xassələri, qabiliyyətləri, funksiyaları, rolları) təşkili və fəaliyyət forması və iqtisadi artımın həlledici amilidir. Müasirliyin fundamental iqtisadi kateqoriyası kimi insan kapitalı məhsuldar qüvvələrdə və iqtisadi münasibətlərdə dərin dəyişiklikləri əks etdirir və bütün iqtisadi sistemin ahəngdar fəaliyyətini təmin etməklə müasir innovativ inkişaf edən istehsal şəraitində insanın yeni sosial əhəmiyyətli xüsusiyyətlərini ortaya qoyur. İqtisadiyyatın bu xarakteri ilə insan kapitalının toplanması ölkənin gələcək davamlı sosial-iqtisadi inkişafı üçün aktuallaşır ki, bu da əhalinin sağlamlığının vəziyyətini, onun elmi, təhsil, peşə, mədəni səviyyəsini iqtisadi baxımdan səciyyələndirir. baxış, yəni onun sosial kapitalı təkrar istehsal etmək qabiliyyətinin mövqeyi. İnsan kapitalının ən vacib aktivlərinə insana investisiya qoyuluşunun əsas formalarına uyğun gələn bütün elementlər daxildir: sağlamlıq, doğuş və tərbiyə, ümumi və xüsusi təhsil, miqrasiya, iqtisadi əhəmiyyətli məlumatların axtarışı, insanın mənəvi sabitliyi və intellektual mobilliyi. və s. [1, s. 41-42].

"İnsan kapitalı" anlayışını xarakterizə edərkən onun aşağıdakı xüsusiyyətlərini nəzərə almaq lazımdır. İnsan kapitalı əməyin artmasına töhfə verən ictimai istehsalın aparıcı elementi kimi sosial yönümlü bazar iqtisadiyyatı sisteminə daxil olan şəxsin məhsuldar qüvvələrinin (keyfiyyətlərinin, xassələrinin, qabiliyyətlərinin, funksiyalarının, rollarının) ifadə formasıdır. məhsuldarlıq və istehsal səmərəliliyi. İnsan kapitalı sosial istehsalın müəyyən bir sahəsində bir insanın məqsədyönlü şəkildə istifadə etdiyi bacarıqlar, biliklər, qabiliyyətlər fondudur. idarəetmə, əmək məhsuldarlığının və istehsalın səmərəliliyinin artmasına kömək edir. İnsan kapitalının formalaşması və inkişafı insanın özündən və hər şeydən tələb edir əhəmiyyətli həcmdə uzunmüddətli təmin edə bilən əhəmiyyətli xərcləri olan şirkətlər müvəqqəti və inteqral xarakterli iqtisadi və sosial təsir. İnsan kapitalının formalaşmasında gələcəkdə daha yüksək gəlirləri təmin edən ikitərəfli multiplikator effekti mövcuddur ki, bu da öz növbəsində, məqsədə uyğun olaraq yeni bacarıq, bilik və motivasiya ehtiyatını artırmaq, toplamaq üçün investisiya qoymaqla insanı stimullaşdırır və maraqlandırır. gələcəkdə onu yenidən səmərəli şəkildə tətbiq etmək. Eyni zamanda, motivasiya insan kapitalının ən mühüm elementi olmaqla, insan kapitalının təkrar istehsalı (formalaşdırılması, toplanması, istifadəsi, doldurulması, investisiya qoyuluşu) prosesinin tam başa çatdırılmasına kömək etməlidir.İnsan kapitalı təkcə fiziki və mənəvi aşınmaya məruz qalmır.

İnsan kapitalı toplandıqca, üstəlik, toplaya və çoxalmağa qadirdir, bəli, onun rentabelliyi aktiv əmək fəaliyyətinin məhdud yuxarı həddi ilə müəyyən həddə yüksəlir. İnsana edilən hər sərmayəni insana sərmayə kimi qəbul etmək olmaz.

Kapital, ancaq sosial cəhətdən məqsədəuyğun və iqtisadi cəhətdən zəruri olanlar. Təşəkkül mənbələrindən asılı olmayaraq, dövlət, ailə, özəl və s. ola bilər, insan kapitalından istifadəyə və birbaşa gəlirin əldə edilməsinə şəxsin özü nəzarət edir [2, s. 148]. İnsan kapitalının fəaliyyəti və inkişafı, gəlirlilik dərəcəsi və tətbiqi subyektin azad iradəsi, onun fərdi maraq və üstünlükləri, maddi və mənəvi marağı, məsuliyyəti, dünyagörüşü, ümumi mədəniyyət səviyyəsi, o cümlədən iqtisadi. Ölkənin milli sərvətinin tərkib hissəsi kimi insan kapitalının təkrar istehsalı prosesi müvafiq investisiyalar olmadan mümkün deyil. Mikro səviyyədə insan kapitalına investisiya işçilərin təlimi kimi xərc maddələri ilə təmsil olunur; əmək qabiliyyətini itirməyə görə xəstəlik vərəqələrinin ödənilməsi; əməyin mühafizəsi xərcləri: şirkət tərəfindən ödənilən könüllü tibbi sığorta; şirkətin işçisi üçün tibbi və digər sosial xidmətlərə görə ödəniş: sosial institutlara xeyriyyə yardımı və s. Makro səviyyədə investisiyaların rolunu, ilk növbədə, ev təsərrüfatlarının xərcləri oynayır. insan kapitalının qorunması və bərpası üzrə, ikincisi, dövlət sosial köçürmələr və sosial vergi güzəştləri. Aktiv dövlət investisiyalarının parlaq nümunəsi ABŞ-dır. Sosial sahənin sahələri insanın təkrar istehsalı və köhnəlməsi mexanizmi kimi çıxış edir.

Sivil dünyada milli sərvətin bir hissəsi və iqtisadi artımın ən mühüm amili kimi tanınan insan kapitalı. İnsan kapitalına qoyulan sərmayələr, sosial təsirlərdən əlavə, onları həyata keçirən şəxs üçün həmişə xərc effektini nəzərdə tutur. Bir işçi üçün sağlamlığı qorumaq, təhsil almaq və peşə bacarıqlarını inkişaf etdirmək motivasiyası onun gəlirinin diferensiallaşdırılmasıdır. İşçi heyətinin inkişafına sərmayə qoyan şirkət üçün bu, məhsuldarlığı artırmaqdır. Bütövlükdə cəmiyyət üçün təsir milli iqtisadiyyatın rəqabət qabiliyyətinin qorunmasında və ÜDM-in artımında ifadə olunur.

**ƏDƏBİYYAT:**

1. Slonimski, A.A. Belarusiya iqtisadiyyatının elmi potensial texnoloji strukturu: inkişaf strategiyası / A.A. Slonimsky // Belarusiya İqtisadiyyat Jurnalı. 2007. № 1. C.. 41-42.

2. Sokolova, G.M. Belarus Respublikasında insan kapitalı / G.M. Sokolova, V.E. Ermakova. - Minsk: Amalfeya, 2003. 270 s.

**Rəqəmsal iqtisadiyyat müasir dövrün əsas tələbi kimi**

**Məmmədzadə Yusif**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Elmi rəhbər: Ağayeva Aytən**

## GİRİŞ

Niyə Rəqəmsal iqtisadiyyat? sualına cavab verməzdən öncə başınızı qaldırıb ətrafa baxın. Əlinizdə və ya yaxınlığınızda nə var? Smartfon və onu xarici həyatla birləşdirən şəbəkə (mobil şəbəkə, internet). Uşağdan böyüyə hər birimiz mobil telefon olmadıqda elə bilirik həyat donub, hətta təlaş keçiririk. Uşaqlar də smartfonlardan sərbəst istifadə edirlər. Hətta oxumağı bacarmayan uşaqlar da internetdən özünə lazım olan cizgi filmini, oyunu tapır və istifadə edir. Ofisdə və ya evdə internet və ya şəbəkə olmadıqda ofis iş həyatı donur, bilmirsən nə edəsən. Bu gün bizi xarici mühitlə birləşdirən rəqəmsal texnologiyalardı. Biz otaqdan çıxmadan, əsasən də pademiya dövründə, rəqəmsal texnologiya üzərindən iş görüşləri, qohumlarla görüş keçirir, alış-veriş edir, uşaqlara nəzarət edirik, məişət əşyalarını məsafən idarə edirik, səhətimizi nəzarət altında saxlayırıq, maliyyə əməliyyatları aparırıq, qərarlar qəbul edirik, təhsil alırıq, müqavilələr bağlayırıq.

Müasir cəmiyyətin inkişafının əsas tendensiyası onun bütün sahələrinin rəqəmsallaşmasıdır. Müasir informasiya texnologiyaları həyatımızın ayrılmaz hissəsidir və davamlı olaraq müxtəlif iqtisadi, sosial, texniki və idarəetmə sistemlərinə təsir göstərir. Rəqəmsallaşma prosesləri iqtisadi fəaliyyətin inkişafında və milli iqtisadiyyatların inkişafında və onların təhlükəsizliyində mühüm rol oynayır. Nəticədə, bu gün dünya iqtisadiyyatının qlobal tendensiyası rəqəmsal iqtisadiyyatın formalaşması və sürətli inkişafıdır ki, bu da istisnasız olaraq iqtisadi həyatın bütün sahələrində yeni informasiya texnologiyalarının hərtərəfli tətbiqi ilə xarakterizə olunur. Bütün bunların fonunda unutmaq olmaz ki, inkişafında qaçılmaz olan rəqəmsallaşma prosesləri istisnasız olaraq bütün təsərrüfat vahidlərinin fəaliyyətində müsbət dəyişikliklərə gətirib çıxarır. [1]

Tədricən rəqəmsallaşmanın təsiri altında metod və vasitələrin transformasiyası təkcə biliyin deyil, həm də ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün həyati əhəmiyyət kəsb edir, çünki bu növ müdafiə həm də davamlı inkişaf üçün ilk növbədə sahibkarlıq subyektlərinin müasir texnologiyaların istifadəsi ilə birbaşa bağlıdır.[2]

"Rəqəmsal iqtisadiyyat" anlayışı ilk dəfə biznes strategiyaları və təşkilati dəyişikliklər üzrə ixtisaslaşmış kanadalı natiq, yazıçı və məsləhətçi Don Tapskott tərəfindən 1995-ci ildə ("The Digital Economy: Promise and Peril in the Age of NetworkedIntelligence") adlı kitabında təqdim edilmişdir.[3] Rəqəmsal İqtisadiyyat informasiya və kommunikasiya texnologiyaları tərəfindən təmin edilən iqtisadi fəaliyyətlərin, biznes əməliyyatlarının və peşəkar qarşılıqlı əlaqələrin dünya səviyyəsində yaratdığı şəbəkədir.[4] Rəqəmsal iqtisadiyyat rəqəmsal texnologiyaların istifadəsinə əsaslanan iqtisadiyyat növüdür.

Öz növbəsində, Avstraliyanın Rabitə və Rəqəmsal İqtisadiyyat Departamenti rəqəmsal iqtisadiyyatı İnternet kimi platformalar, həmçinin mobil və toxunma şəbəkələri vasitəsilə həyata keçirilən iqtisadi və sosial fəaliyyətlərin qlobal şəbəkəsi kimi müəyyən edir.[5]

XX əsrin 70-ci illərində ilk dəfə olaraq inkişaf etmiş ölkələrin ÜDM-də xidmətin payı digər fəaliyyət sahələrini üstələmiş və 50%-dən çox olmuşdur. O vaxtdan Qərb ölkələrində artıq rəqəmsal və ya informasiya adlandırılan postindustrial iqtisadiyyat erası başlamışdır.

Rəqəmsal iqtisadiyyat İnternet, ağıllı telefonlar, mobil və simsiz şəbəkələr, optik şəbəkələr, Əşyaların İnterneti (IoT), bulud saxlama və bulud hesablamaları, paylaşma xidmətləri, kriptovalyutalar, tətbiqlər kimi İnformasiya və Kommunikasiya Texnologiyalarına (İKT) əsaslanan iqtisadiyyatdır.

Rəqəmsal iqtisadiyyatın ölçüsü və təsiri insanların bu texnologiyaları mənimsəməsi ilə müəyyən edilir.




Şəkil 1. **Dünya miqyasında internetə, mobil və genişzolaqlı rabitəyə çıxış imkanları**

Şəkil -1 2005-2017-ci illər ərzində dünya üzrə İnternet istifadəçilərinin sayını və (2) 2007-2017-ci illər ərzində dünya üzrə hər 100 sakinə düşən mobil və genişzolaqlı mobil abunəçilərin sayını göstərir (2017-ci ildən rəqəmlər proqnozlardır). 2005-ci ildə dünya əhalisinin yalnız 15%-nin internetə çıxışı var idi. On iki il sonra, 2017-ci ildə dünya əhalisinin təxminən yarısı internetə çıxış əldə etdi. Son on iki ildə dünyanın bütün regionlarında internetə çıxış artıb. Bununla belə, ölkələr, regionlar və ölkələr arasında İnternetin qəbulunda fərqlər var - rəqəmsal uçurum. Qərb dünyasının əksər hissəsi internetə qoşulsa da, Afrikanın böyük hissələri geridə qalır.

Rəqəmsal gələcəyə necə hazırlaşmalı?

İnsan üçün:

1.Vizionu hazırlamalı. Aparıcı forsayt-tədqiqatları öyrənin və həyatınızın vaçib sahələrinin gələcəyini ətraflı təsvir edin: işdə, şəxsi münasibətlərdə və s. Gələcəyin ssenari əsaslı olduğunu anlamaq vacibdir - hər istiqamətdə bir neçə inkişaf vektoru ola bilər.

2. Başlanğıc nöqtəsini təyin edin. istiqmətlərin hər biri üzrə harada yerləşdiyinizi müəyyən edin. Hansı aktivlərə (sərmayə, bacarıq, səriştələr) sahib olduğunuzu və texnologiyanın onları artırmağa necə kömək edə biləcəyini qiymətləndirin.

3. Marşurutu müəyyən edin. Hər istiqamətdə çatmaq istədiyiniz nöqtəni tapın. Sonda şəxsi inkişaf yol xəritəniz alınmalıdır.

4. Strategiyanı qurun. Bütün mümkün ssenariləri və alternativləri nəzərə alaraq, gələcəyə necə addım atacağınızı addım -addım müəyyənləşdirin.

5. Mütəmadi olaraq məqsədinizə çatma dərəcənizi yoxlayın və onları yeniliyin.

Şirkət üçün:

1. Rəqəmsal transformasiyanın fərdi forsayt ssenarisi hazırlayın: qloal və lokal meyllər qiymətləndirin, audit və beçmarkinq aparmın, perspektivli bazarların, məhsulların və texnologiyaların, inkişaf ssenarilərinin radarını tərtib edin.

2. Mövcud biznes ekosistemini və imkanlarını qiymətləndirin, hədəf ekosistem modelini təyin edin.

3. şirkətlərin orta və uzun müddətdə inkiÇafı üçün üstünlükləri müəyyənləşdirin.

4. Forsayt bazasında biznesin rəqəmsal transformasiya texnoloji yol xəritəsini işləyin.

5. Mütəmadi böyük məlumatların təhlilindən istifadə edərək meyillərin forsayt nəticələrini monitorinqini aparın.

Mütəxəssislər Rəqəmsal dünyada düzgün işləmək istəyən üçün çevik olmağı və iterativ yanaşma istifadə etməyi məsləhət görürlər.

İnternetə çıxış əsas insan hüququ kimi təklif edilib və 2016-cı ildə Birləşmiş Millətlər Təşkilatı (BMT) hökumətlərin bu cür çıxışın qəsdən pozulmasını pisləyən qeyri-məcburi qətnamə qəbul edib. Aydındır ki, İnternetə çıxış insanların həyatını və müəssisələrin fəaliyyət tərzini dəyişib və dünya əhalisinin digər yarısı internetə qoşulduqca bunu getdikcə daha da artıracaq.[6]

Rəqəmsal iqtisadiyyatda digər mühüm təkamül ictimai dar və genişzolaqlı mobil texnologiyalardan istifadə edən insanların sayıdır. Mobil dar zolaqlı mobil sistemlər (2G) telefon zəngləri və SMS kimi qlobal xidmətlər təklif edir. Mobil genişzolaqlı mobil sistemlər (3G, 4G və 5G) İnternetə daxil olmaq üçün smartfonlardan istifadəni dəstəkləyir. Bu texnologiyalar həmçinin 2G sistemlərinin istifadəsini mərhələli şəkildə dayandıraraq telefoniya və SMS-i dəstəkləyir. İctimai mobil şəbəkələrin istifadəçilərinin sayı dünyadakı insanların sayını ötüb. Bunun səbəbi, bir çox insanın birdən çox cihaza çıxışı olmasıdır, məsələn, bir şəxsi smartfon və bir iş üçün. Bundan əlavə, mobil rabitə yerli marşrutlaşdırıcılar kimi və Əşyaların İnterneti (IoT) və ictimai infrastrukturlarda sensorları və digər cihazları birləşdirmək üçün istifadə olunur.[7]

2018-ci ilin əvvəlinə bazar kapitallaşmasına görə dünyanın ən böyük beş korporasiyası (azalan qaydada) bunlardır: Apple, Alphabet (Google), Microsoft, Amazon və Facebook. Bu şirkətlərin hamısı rəqəmsal əmtəə və xidmətlər istehsal edir, eyni zamanda öz bizneslərini rəqəmsal iqtisadiyyatda aparırlar. Onların ümumi bazar dəyəri 3,400 milyard dollardan çoxdur. Şəkil-2 bu şirkətlərin 2008-2018-ci illər üzrə bazar dəyərini göstərir. Qeyd edək ki, Facebook NASDAQ birjasına 18 may 2012-ci ildə daxil olub.




**Şəkil 2. Bazar kapitalına görə dünyanın 5 ən qabaqcıl korporasiyalar**

Bu şirkətlər ölçülərinə, fəaliyyət dairələrinə və beynəlxalq təsirlərinə görə bugünkü iş dünyasında böyük gücə malikdirlər. Onları rəqəmsal konqlomeratlar kimi təqdim etmək olar,

çünki onların biznes əməliyyatları orijinal biznes ideyalarından çox genişləndi. Məsələn, Google İnternet istifadəçiləri üçün axtarış sistemi xidmətləri göstərən bir şirkət kimi fəaliyyətə başladı. Bu gün Google axtarış sisteminə əlavə olaraq bunları təklif edir: sosial şəbəkə (Google+), e-poçt (Gmail), ani mesajlaşma və səsli IP (Google Hangouts), mətn redaktəsi (Google Sənədlər) və bulud yaddaşı (Google Drive). Google rəqib şirkətləri satın alaraq və üfüqi və şaquli inteqrasiyanı həyata keçirərək öz biznes əməliyyatlarını rəqəmsal iqtisadiyyatın bir çox sektorlarında genişləndirmişdir.

Bu şirkətlərin əsas aktivi onların təklif etdiyi rəqəmsal mal və xidmətlərdən istifadə edən istehlakçılar şəbəkəsidir. Bu istifadəçilər bu şirkətlərə böyük dəyər verən şəbəkə təsirləri yaradır. Bəlkə də ən təəccüblü fakt odur ki, bu şirkətlərə cari bazar üstünlüklərini əldə etmək üçün cəmi iyirmi il lazım olub. On dörd il əvvələ (2008-ci ildə) nəzər salsaq, bazar dəyərinə görə ilk beş şirkətə PetroChina, Exxon Mobile, General Electric, China Mobile və Industrial and Commercial Bank of China (ICBC) daxil idi. Bu şirkətlərdən yalnız China Mobile-ın rəqəmsal iqtisadiyyatda tam fəaliyyət göstərdiyini, Çində istehlakçıların internet və mobil rabitəni təmin etdiyini söyləmək olar. Rəqəmsal iqtisadiyyatda şirkətlər necə bu qədər böyüyürlər? Rəqəmsal iqtisadiyyatda şirkətlərin bu qədər qısa müddət ərzində bu qədər dəyər toplaması necə mümkündür? [8]

Rəqəmsal iqtisadiyyatın mühüm hissəsi elektron ticarətdir. Elektron ticarət fiziki malların, rəqəmsal malların və xidmətlərin onlayn ticarətidir. Rəqəmsal iqtisadiyyatın ən böyük şirkətlərindən bəziləri Amazon, Alibaba və eBay kimi e-ticarət biznesindədir. Elektron ticarətin vacib cəhətlərindən biri istifadəçi rəyləri və tövsiyələridir. Elektron ticarət istehlakçılara mallara yalnız məhdud dərəcədə toxunmaq, hiss etmək və sınamaq imkanı təklif etdiyindən, digər istehlakçıların rəyləri və şərhləri alış-veriş təcrübəsinə inam əlavə edə bilər.

Nəticə

İqtisadi və siyasi imperativlər texnoloji innovasiyalarla birləşərək rəqəmsal iqtisadiyyatın böyüməsini sürətləndirir, inkişaf səviyyəsi xüsusilə inkişaf etməkdə olan ölkələrdə yüksəkdir. Bu artım özəl sektor tərəfindən strategiyalanmalı, hökumət tərəfindən idarə edilməlidir.

Rəqəmsal sektor rəqəmsal iqtisadiyyatın əsasını təşkil edir, lakin rəqəmsal iqtisadiyyatın əhatə dairəsinin bir sıra inkişaf etməkdə olan rəqəmsal biznes modellərini əhatə edərək bundan kənara çıxacağı iddia edilir. Bir çox rəqəmsal iqtisadiyyat təriflərinə daxil olsa da, biz mövcud bizneslərdə rəqəmsal texnologiyaların daha geniş tətbiqlərini fərqləndiririk; bunları daha geniş "rəqəmləşdirilmiş iqtisadiyyat" çərçivəsində görür.

Rəqəmsal iqtisadiyyatın ölçüsünü təxmin etmək çətindir. Bunun səbəbi İKT-nin özlüyündə bir sənaye olması (telekommunikasiya, internet avadanlığı, mobil telefonlar, tətbiqlər və proqram təminatı), həm də İKT-nin demək olar ki, bütün digər sənaye sahələrinə inteqrasiyası ilə əlaqədardır. İKT yeni biznes modelləri, daha səmərəli istehsal və hər bir sənayedə istehlakçılarla qarşılıqlı əlaqənin yeni yollarını yaratmağa imkan verdi. Buna misal olaraq, insanların İnternetdən istifadə edərək demək olar ki, hər cür mal ala biləcəyi onlayn ticarəti (e-ticarət) göstərmək olar. Biz sənaye iqtisadiyyatından rəqəmsal iqtisadiyyata - fiziki məhsullardan rəqəmsal mal və xidmətlərə keçidi yaşayırıq.

Rəqəmsal iqtisadiyyatın ölçülməsi qeyri-səlis sərhədlər, məlumatların keyfiyyətsizliyi, qiymət problemləri və bir çox rəqəmsal fəaliyyətin görünməməsi kimi çətinliklərlə üzləşir.

Qlobal şimal bu günə qədər rəqəmsal iqtisadiyyatda aslan payına sahibdir, lakin artım templəri qlobal cənubda ən sürətlidir. Qlobal cənubda potensial artım templəri - maneələri aradan qaldırmaq mümkün olsaydı - daha da yüksəkdir.

**ƏDƏBİYYAT:**


1. Владимир М.К., Дугуун.А. Цифровая экономика Монголии в контексте развития мировой цифровой экономики. Экономика, 2019, N-4, ctp 2009-2019.
2. Mahmudov B.J. , Mullabayev.B.B. The impact of the digital economy of economic growth. International Journal of Business, Law, and Education, 2020, N01, pp 4-6
3. Manh T.N. Digital Economy: A comporatif study in ASEAN, Review of Business & Management` TMP, 2022,Vol.18, Nr.2, pp.83-92
4. Yuxin.F., Han.Y., Jixanin.D., Xinyu.K. Discussion on the infuunce of the digital economy development on the real economy. Frontiers in Business,Economics and management, 2022, N-3, pp 66-82.
5. Kamneva V.V., Gnatyshina E.A. Digital economy, digization and digital transformation. Вопросы студенческой науки, 2020, № 2 (42) pp. 377-381
6. Lyukova M.P. Digital economy and ways of its development. Impact of the digital economy on railway transport. Цифровая Наука, 2020, N-5, pp. 43-47
7. Maltsev A.Y. Digital Economy. Экономика и социум, 2018, N-1, pp.5-7
8. Damir.R.A. Countering digital crime in the digital economy. Экономика, 2018, N-5, pp.3-7

## Təşkilatın effektiv idarəetmə strategiyasının hazırlanması formaları

**Xəlilli Elşən**
**Azərbaycan Universiteti, MBA (Menecment) magistrant**

İndi heç kim şübhə etmir ki, müasir iqtisadiyyat şəraitində səriştəli və düşünülmüş strateji idarəetmə hər hansı müəssisənin uğurunun ən vacib və əsas şərtlərindən biridir. Ümumi mənada idarəetmə strategiyası şirkət üçün öz mövqeyini möhkəmləndirməyə, müştəriləri məmnun etməyə və məqsədlərinə çatmağa yönəlmiş idarəetmə planıdır. Müasir şirkətin idarəetmə strategiyası çox saylı funksiya və şöbələri əhatə edir: təchizat, istehsal, maliyyə, marketinq, kadrlar, tədqiqat və inkişaf. Strateji seçimlər etmək, şirkət daxilində toplanan biznes qərarlarını və rəqabətli hərəkətləri bir düyünə bağlamaq deməkdir. Bu fəaliyyət və yanaşma vəhdəti müəssisənin cari strategiyasını əks etdirir. Yaxşı düşünülmüş strateji baxış şirkəti gələcəyə hazırlayır, inkişafın ilkin istiqamətlərini müəyyən edir və şirkətin konkret işgüzar mövqe tutmaq niyyətini müəyyənləşdirir. Formal nöqteyi-nəzərdən strateji idarəetmə müəssisənin inkişafı və onun rəqabət qabiliyyətinin artırılması üçün uzunmüddətli hədəflərin əsaslandırılması və seçilməsi, onların uzunmüddətli planlarda konsolidasiyası və qarşıya qoyulan məqsədə nail olunmasını təmin edən məqsədyönlü proqramların işlənib hazırlanmasıdır. Hər bir təşkilatda strateji idarəetmə üçün bir neçə predmet müəyyənləşdirilə bilər:

1. Təşkilatın ümumi məqsədi ilə birbaşa əlaqəli olan problemlər;
2. Təşkilatın hər hansı elementi ilə bağlı problemlər və onların həll yolları;
3. İdarə olunmayan xarici amillərlə əlaqəli problemlər;

Strateji idarəetmədə menecmentin mahiyyəti ilə bağlı üç əsas sual ortaya çıxır:

1. Şirkətin hazırkı vəziyyəti necədir?
2. 3,5,10 aydan sonra hansı mövqedə olmaq istərdiniz?
3. İstədiyiniz nəticəni necə əldə etmək olar?

Birinci məsələni həll etmək üçün keçmiş, indiki və gələcək vəziyyəti təhlil etmək və müvafiq bazası yaratmaq lazımdır. İkinci məsələ strateji idarəetmə üçün onun gələcəyə yönəldilməsi kimi mühüm xüsusiyyəti özündə əks etdirir. Müəyyən etmək lazımdır ki, nəyə can atmalı, qarşısına hansı məqsədi qoymalısan. Üçüncü məsələ seçilmiş strategiyanın həyata keçirilməsi ilə bağlıdır, bu müddət ərzində əvvəlki iki mərhələyə düzəlişlər edilə bilər. Bu mərhələnin ən mühüm komponentləri mövcud resurslar, idarəetmə sistemi, təşkilati struktur və bu strategiyanı həyata keçirəcək kadrlardır. Beləliklə, strateji menecmentin mahiyyəti qeyri-sabit mühitdə yaşamaq və səmərəli fəaliyyət göstərmək qabiliyyətini saxlamaq üçün onun fəaliyyətində baş verən dəyişikliklərin davamlı monitorinqi və qiymətləndirilməsi əsasında təşkilatın inkişaf strategiyasının formalaşdırılması və həyata keçirilməsindən ibarətdir. Təşkilatın strateji idarəetmə prinsipləri təşkilatda strateji qərarlar qəbul edərkən idarəetmə qərarlarının hazırlanması, qəbulu və həyata keçirilməsi üçün texnologiyadan tam miqyaslı istifadəyə ehtiyac olduğunu bir daha sübut edir. Eyni zamanda, təşkilatın fəaliyyət göstərməli olduğu real vəziyyətləri nəzərə alaraq strateji qərarların qəbulu prosesini daha çevik, daha dolğun və adekvat etməyə imkan verən texnologiya və üsullar ilk növbədə xidmətə qəbul edilməlidir. Yalnız strateji idarəetmə qərarlarının hazırlanması, qəbulu və həyata keçirilməsinin effektiv prosesi təşkilatın həm sağ qalmasını, həm də səmərəli fəaliyyətini təmin edə bilər.

Strateji idarəetmənin imkanları sonsuz deyildir. Strateji menecmentin istifadəsinə dair bir sıra məhdudiyyətlər mövcuddur ki, bu da bütün digər idarəetmə növləri kimi onların universal

olmadığını göstərir. Beləliklə, təqdim olunan məlumat və onun təhlili bizə bu mühakiməni söyləməyə imkan verir ki, düzgün seçilmiş və uğurla həyata keçirilən müəssisə idarəetmə strategiyası onun bazar iqtisadiyyatı şəraitində səmərəli fəaliyyətinin açarıdır. Təbii ki, yaxşı icra ilə birləşdirilən düzgün strategiya şirkətin tənəzzül və qeyri-sabitlik dövrlərindən tamamilə qaça biləcəyinə zəmanət vermir. Bəzən menecerlərin səylərinin müsbət nəticə verməsi üçün vaxt lazımdır. Bununla belə, yadda saxlamaq lazımdır ki, ehtiyatlı strateji planlaşdırma vasitəsilə gözlənilməz çətin şərtlərə şirkətin strategiyasını hazırlamaq menecerin məsuliyyətidir – bəlkə də strateji idarəetmənin ən vacib komponentidir.

Qərb ədəbiyyatında strateji planlaşdırma probleminə xüsusi diqqət yetirilir, lakin təəssüf ki, bizdə uzun müddət bu problemə lazımi diqqət ayrılmışdır. Əlbəttə ki, şirkətin strategiyasının olması çox vacibdir, lakin buna son qoymaq olmaz, çünki mövcud strategiyanın nə dərəcədə effektiv olduğunu öyrənmək lazımdır. Ümumi mənada strategiya diaqnostikası şirkətin öz mövqeyini möhkəmləndirməyə, müştəriləri məmnun etməyə və məqsədlərinə çatmağa yönəlmiş idarəetmə planının təhlilidir. Müəssisənin düzgün istiqamətdə inkişaf edib-etmədiyini müəyyən etmək üçün strategiyanı təhlil etmək və fəaliyyəti sabitləşdirmək üçün əsaslandırılmış qərarlar qəbul etmək lazımdır. Strategiyanın dəyişdirilməsi üçün konkret istiqamətin seçilməsi o deməkdir ki, müəssisə üçün açıq olan strategiyanı tənzimləmək üçün bütün mümkün yollardan müəssisə üçün ən uyğun olan istiqamət seçmək qərara alınıb. Strategiya təhlili olmadan düzgün fəaliyyət planı, məqsədə çatma mümkün deyildir.

Vahid universal strateji idarəetmə olmadığı kimi, bütün şirkətlər üçün vahid strategiyada yoxdur. Hər bir şirkət özünəməxsus şəkildə unikaldır, buna görə də hər bir şirkət üçün strategiyanın hazırlanması prosesi unikaldır, çünki bu, şirkətin bazardakı mövqeyindən, inkişaf dinamikasından, potensialından, rəqiblərin davranışından, təqdim olunan məhsul və ya xidmətin xüsusiyyətləri, iqtisadiyyatın vəziyyəti, mədəni mühit və bir çox başqa amillərdən asılıdır. Eyni zamanda, inkişaf strategiyasının seçilməsi, həyata keçirilməsi və strateji idarəetmənin həyata keçirilməsi üçün bir sıra ümumiləşdirilmiş prinsiplər haqqında danışmağa imkan verən bəzi fundamental məqamlar var.

Əvvəlki təhlillərin nəticələrinə əsasən, SWOT matrisi tərtib edilir ki, bu da təşkilat daxilində güclü və zəif tərəflər ilə xarici təhdidlər və imkanlar arasında əlaqə yaratmağa imkan verir.Bu isə daha sonra təşkilatın strategiyasını formalaşdırmaq üçün istifadə oluna bilər.Təşkilatın strategiyasının seçilməsi və qiymətləndirilməsində vacib məsələlərdən biridir.Təşkilatın missiyası və məqsədi barədə qərar verərək, müəssisənin güclü və zəif tərəflərini, habelə xarici mühitdən gələn təhdid və imkanların təşkilata təsirini nəzərə alaraq, müəssisənin idarəetmə strategiyasını korporativ və funksional bölmələr səviyyəsində seçmək lazımdır. Bunun üçün təşkilatın cari strategiyasını başa düşmək, bir sıra strateji alternativlərdən ən uyğununu seçərək strateji dəyişikliklər etmək vacibdir. Bütün bu vəzifələr təşkilatdakı strateji dəyişikliklərlə həll olunur və seçilmiş strategiyanın mövcudluğu üçün şərait yaradır. Təşkilatın ehtiyac duyduğu dəyişikliklər mülayim dəyişikliklərə aid edilə bilər, çünki dəyişikliklər istehsal prosesinə və marketinqə, xüsusilə də yeni məhsula diqqətin cəlb edilməsi ilə əlaqəli hissəyə təsir göstərir.

**ƏDƏBİYYAT:**

1. Ансофф И. Стратегический менеджмент/ Ансофф И. – Спб: Питер, 2011. -344с.

2. Веснин В.Р. Менеджмент персонала/ Веснин В.Р. – М.: Т.Д. Элит-2000, 2009. - 504с.
3. Котляревская И.В. Стратегический маркетинг/ Котляревская И.В - Екатеринбург, Изд-во Уралъского университета, 2019.-138с.
4. Литвак Б.Г. Разработка управленческого решения/ Литвак Б.Г. - М.: Дело, 2008. -440 с.
5. Попов А. И. Стратегический менеджмент: Учеб. пособие для вузов. – М.: ЮНИТИ-ДАНА, 2008.-590 с
6. Шишло С.В.,Андросин Ю.Н. Стратегический маркетинг/ С.В Шишло- Минск: БГТУ,2017.-174с.

**İnsan kapitalının inkişaf amilləri**

*Rzai Naqulu Ayhann*
*Azərbaycan Kooperasiya Universiteti, magistrant*
*Elmi rəhbər: dos.Məmmədova Adilə*

Müstəqilliyimizi əldə etdikdən sonra Azərbaycanda sosializmdən kapitalizmə keçidin baş verməsi ilə insan kapitalının inkişafı, onun formalaşması prosesi əsas hədəflərdən biri olmuşdur. Yenilik tələb edən iqtisadi şəraitdə ictimai istehsalın forması, onun texnoloji vəziyyəti də əsaslı dəyişikliklər istəyir. İnsan kapitalına yatırılan investisiyalar bu gün daha çox əhəmiyyət kəsb edir. Çünki, insan kapitalının inkişafı milli iqtisadiyyatın quruluşunun yaxşılaşmasına, mal və xidmətlərin keyfiyyətinin yüksəldilməsinə, beynəlxalq təşkilatların siyahılarında yüksək nəticələrə sahib olmağa imkan verir. Son dövrlərdə ölkəmizdə prioritet hədəflərdən biri olaraq insan kapitalının inkişaf etdirilməsi, onun böyüməsi durur. İqtisadi qərarlar qəbul edilərkən, islahatlar keçirilərkən əsas amil olaraq bu kapitalın fasiləsiz inkişafı, onun vasitəsilə əmək məhsuldarlığının artırılması nəzərə alınır. Sonda bütün iqtisadi inkişafda onun rolunun genişlənməsi şərtləndirilir. Bu iki istiqamətdə həyata keçirilir. **Birinci** olaraq təhsilin bütün səviyyələrində keyfiyyəti təmin edən xüsusiyyətlər yüksəldilməlidir. **İkincisi** isə əhalinin əmək məhsuldarlığının artırılması üçün insan kapitalının fasiləsiz olaraq inkişaf etdirilməsi, onun öyrənilməsi, daha geniş sahədə tətbiq edilməsi üçün investisiya qoyuluşlarının stimullaşdırılmasıdır.

İnsan kapitalının formalaşdırılmasında ali təhsil mühim mərhələ hesab olunur. O özünü iki formada göstərir: ilk növbədə peşəkar, ixtisaslı mütəxəssislərin hazırlanmasında, ikincisi isə yeni bilik və bacarıqların meydana gəlməsində, iqtisadiyyata tətbiqində və ötürülməsində. Buradan da belə qənaətə gəlmək olur ki, insan kapitalının formalaşması, onun inkişafı Azərbaycanda yaxın və uzaq gələcəkdə diqqət mərkəzində olacaqdır. İnsan kapitalının inkişafı üçün ölkəmizdə mühim imkanlar vardır. Bu məqsədlə iqtisadi sahələri təhsil, səhiyyə və digərlərini maliyyələşdirən bir sıra fondların yaradılması, texnika-texnologiyaların təkmilləşdirilməsi, informasiya əlçatanlılığının təmin edilməsi zəruridir[1].

Yeni iqtisadiyyatın əsası yüksək səviyyədə inkişaf etmiş insan kapitalıdır. Qərb iqtisadçıları inanırlar ki, bir insana investisiya qoyuluşunun ən vacib forması təhsil, iş yerində əlavə təhsilin verilməsi, tibbi xidmət, uşaq sahibi olmaq və onlara qulluq etməkdir. Peşə təhsili və digər yüksək təhsil pillələrində insanın bilik səviyyəsini artırmaq, yəni, insan kapitalının həcmini artırmaq da iqtisadi inkişafa gətirib çıxarır. Yüksək standartlarla təmin olunmuş səhiyyə sistemi sağlamlığı qorumaq, xəstələnmə və ölümü azaltmaqla bir insanın ömrünü uzadır və eyni zamanda istifadəsinin intensivliyini artırır. Miqrasiya və məlumat axtarma, əməyin daha yaxşı ödənildiyi iqtisadi sahələrə və digər ölkələrə işçi qüvvəsinin hərəkətini təşviq edir, hansı ki, orada insan kapitalı xidmətlərinin qiyməti daha yüksəkdir[2]. Uşaq sahibi olmaq və onlara qayğı göstərmək isə gələcək nəsildə insan kapitalının çoxalma formasıdır.

İnsan kapitalına tarixi yanaşmaları nəzərdən keçirdikdən sonra belə qənaətə gəlmək olar ki, bir şəxsin bilik və bacarıqlarının ölkənin milli sərvətində rolunun vacibliyi haqqında fikirlər xeyli əvvəl mövcud olmuş və bu mövzu ilə bağlı tədqiqatların intensivliyi yüksək olmasa da, hər zaman üzərində düşünülmüşdür.

İnsan kapitalı bir insanın cəmiyyətin bütün vasitələrindən yararlanması üçün peşəkarlığa, bilik və bacarıqlara malik olması və onların sayəsində özünü hərtərəfli realizə edə bilməsidir.

Yəni, biz insan kapitalı dedikdə bilik, intellekt, keyfiyyətli əmək və sağlam rifaha malik həyat şəraitini başa düşürük.

Başlanğıcda insan kapitalı yalnız insana yatırılan investisiyalar kimi anlaşılırdısa, artıq özündə daha geniş məzmun daşıyır. Bu istehlak xərcləri ilə bağlıdır. İstehlak xərcləri dedikdə, şəxsin təhsil, səhiyyə və ailəsinə çəkilən xərclər, mədəni tələblərlə bağlı xərcləri və s. başa düşülür[4].

Ümümi baxdıqda insan kapitalına aid bütün tərifləri özündə fərqli cəhətləri biruzə verən iki qrupa bölə bilərik.

**Birinci qrup**, məhsul istehsalında istifadə olunan insanın bilik, bacarıqlarının, qabiliyyət və keyfiyyət ehtiyatlarının cəmini insan kapitalı kimi ifadə edir. **İkinci qrup** olaraq isə insan kapitalının investisiya kapitalı vasitəsilə yarandığını, yəni, investisiyaların bir insana yatırılması nəticəsində yarandığını şərh edir. Verilmiş mövqelərin təhlil edilməsi nəticəsində dar mənada insan kapitalı bilik və bacarıqları əks etdirən insan keyfiyyətlərinin məcmusu və yaxud ehtiyatı kimi anlaşılır.

Üç əsr ərzində təkamülləşən iqtisadçıların baxışları sonda, "işçi qüvvəsi" anlayışından "insan kapitalı" anlayışı ilə əvəzləndi. Və indi onu belə izah edirlər ki, insan kapitalı sərmayələr nəticəsində formalaşan, insan tərəfindən toplanan bilik, bacarıq, sağlamlıq fondudur. O, ictimai isehsal sahələrində lazimi keyfiyyətlərin, əmək məhsuldarlığının və istehsalın səmərəliliyinin çoxalmasına və insanın gəlirlərinin artmasına səbəb olur[5].

İqtisadiyyatın əsas mənbələrindən biri insan kapitalı hesab olunduğuna görə bu kapitalın digər kapital növləri ilə müqayisədə əsas xüsusiyyətləri aşağıdakılardır:

- İnsan kapitalı zaman keçdikcə həm azala, həm də arta bilir. Bu kapitaldakı artım həm kapitalın sahibindən, həm də mövcud olduğu cəmiyyətdən asılıdır, yəni, onların səyləri nəticəsində baş verir. Çünki, insan kapitalına investisiyaların səmərəliliyi fərd və xarici mühitdən asılıdır. Fiziki kapitaldan fərqli olaraq, insan kapitalı amortizasiyaya uğrayır, yəni, köhnəlir və mütləq yenilənmə tələb edir.
- İnsan kapitalına investisiya qoyuluşları uzunmüddətli xarakter daşıyır və uzun müddət ərzində daha yüksək gəlir əldə etməyə imkan verir. Bu kapitala yatırılan investisiyalar yalnız iqtisadi yox, həmçinin, fərdlərin sosial rifahını təmin edir. Belə ki, bir insanın əldə etdiyi gəlir tamamən ona aid olur və həmin gəliri müstəqil şəkildə idarə edə bilir.
- İnsan kapitalı fiziki kapitaldan fərqli olaraq, öz daşıyıcısından ayrıla bilmir.
- Onun istifadəsi insanın özündən, onun maraq dairəsindən asılıdır.
- Sənayedə digər kapital növləri ilə müqayisədə insan kapitalı aşağı likvidliyə malikdir.

İnsan kapitalının fiziki kapitalla oxşar xüsusiyyətlərinə misal göstərə bilərik:

- İnsan kapitalı da fiziki kapital kimi uzunmüddətli dövrdə istifadə oluna bilir;
- İnsan kapitalının da fiziki kapital kimi istifadə müddəti məhduddur;
- Fiziki kapital kimi insan kapitalı da saxlanması və təmiri üçün xərclər tələb edir;
- İnsan kapitalı fiziki kapital kimi fiziki aşınması baş vermədən mənəvi cəhətdən aşına bilir;
- İnsan kapitalı fiziki kapital kimi ona olan tələb və təklifə əsasən öz qiymətini artıra və ya azalda bilir.

İnsan kapitalının quruluşu fitri bacarıq və istedad, təbii qabiliyyətlər, təhsil, sağlamlıq, intellektual kapital, işləmək və oxumaq üçün motivasiya, hərəkətlilik, peşə bacarıqları, bilik və səriştələr, şəxsin öyrənmə və ya iş prosesində qazandığı elementlərdən ibarətdir.

İnsan kapitalının elmi ədəbiyyatlarda konkret bir quruluşu yoxdur. Ayrı-ayrı elm adamları insan kapitalının quruluşuna fərqli sayda elementləri daxil edirlər. Lakin elmi ədəbiyyatlarda insan kapitalının təsnifatı fərqli əsaslarla və fərqli məqsədlər üçün verilir. İnsan kapitalına aşağıdakılar daxildir:

- səhiyyə kapitalı;
- kapital hərəkətliliyi (miqrasiya);
- təsis hissələri təhsil, bilik, elmi və yenilikçi komponentlər olan intellektual kapital;
- kvalifikasiyaları, səriştələri, məhsuldar bacarıq və təcrübəni özündə birləşdirən istehsalatdakı təlim kapitalı;
- sahibkarlıq fəaliyyətinin kapitalı (rəqabət qabiliyyəti).

İqtisadi inkişaf modelini insan kapitalı formalaşdırır. Fərdlərin bilik, bacarıq, davranış, öyrənmə və başqa xüsusiyyətləri insan kapitalının səviyyəsini formalaşdırır. O, ətraf mühitlə ayrı-ayrı fərdlərdə qarşılıqlı əlaqə vasitəsilə artaraq, zaman içində daha yüksək keyfiyyətli kapitala çevrilir.

İnsanın bacarıqları onun təhsilinə qoyulmuş investisiyalar hesabına əldə edilir. Bu kapital daşıyıcısının məhsuldarlığını yüksəldən təhsil və sağlamlığın qorunmasının təmin edilməsi üçün investisiyaları və xərcləri nəzərdə tutur. İnsana yatırım böyük önəmə malikdir. Müasir dövrdə insana investisiya yatırmaqla onun inkişafına, artmasına nail olurlar.

- **Təhsil** - insana yatırılan kapital kimi insan kapitalının həcmini artırır;
- **Sağlamlığın qorunması** - insan kapitalının istismar müddətini uzadır;
- **Miqrasiya və əmək bazarında məlumat axtarışı** - bu insan kapitalının qiymətini artırır;
- **Uşaq doğulması və onun tərbiyəsi** - gələcək nəsillərdə şəxsi insan kapitalının istehsalını şərtləndirir.

İnsan kapitalına əsas yatırımlar təhsilə yatırımlardır. Təhsil bilik və bacarıqları formalaşdırmaq üçün ixtisaslaşdırılmış fəaliyyət növüdür. Təhsil dünya iqtisadiyyatının ən dinamik inkişaf edən sahəsidir. Sürətli inkişaf baxımından təhsillə rəqabət apara biləcək çox az sahə var. O böyük gəlir gətirmək qabiliyyətindədir. Təhsil sektoru sahəsində həyata keçirilən siyasət inkişaf etməkdə olan ölkələrin siyasətinin əsasında durur.

İnsan kapitalının inkişafının əsas hərəkətverici qüvvələri investisiya, rəqabət və yenilikdir. Yenilikçi sektor cəmiyyətdə, dövlətin yaradıcı hissəsində, təşkilatlarda, ölkələrdə, bölgələrdə və dünyada inkişaf istiqamətini və sürətini təyin edən yüksək keyfiyyətli insan kapitalının yığılması mənbəyidir. Digər tərəfdən, yığılmış yüksək keyfiyyətə malik insan kapitalı innovasiya sistemi və iqtisadiyyatının əsasını təşkil edir[6].

İnsan kapitalının səmərəli işləməsi üçün təhlükəsizlik, ekologiya və mənzil şəraiti daxil olmaqla, rəqabətli bir həyat keyfiyyəti və dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə çatmaq lazımdır. Əks təqdirdə, ən yaxşı mütəxəssislər yaşam üçün daha əlverişli və işləmək üçün daha rahat və təhlükəsiz olan ölkələrə gedirlər.

Miqrasiya prosesinində insan kapitalının formalaşmasında yeri danılmazdır.Onun axını insan kapitalının artmasına və ya azalmasına səbəb olur. İnsan kapitalı deyəndə sadəcə insanların

sayı, sadə əməyin işçiləri başa düşülmür. O peşəkarlığı, biliyi, məlumat xidmətlərini, sağlamlıq və nikbinliyi, qanuna tabe olan vətəndaşları, elitanın yaradıcılığını və səmərəliliyini və s. nəzərdə tutur.

**ƏDƏBİYYAT:**


1. "Azərbaycan 2020: strateji baxış" inkişaf konsepsiyası.
2. "Azərbaycan Respublikasının Regionlarinin 2014-2018-cü illərdə sosialiqtisadi inkişafı" Dövlət Proqramı.
3. Davamlı inkişaf naminə kadr potensialının təkmilləşdirilməsi: Azərbaycan modeli 2018.
4. Quluzadə M. (2015), İnsan Amili və Azərbaycan Respublikasinin Sosial İqtisadi İnkişafinin Sürətləndirilməsi.
5. İmanov K. (2018) Əqli mülkiyyət və insan kapitalı. Bakı.
6. İnsan Kapitalının İnkişafı (2017): Nəzəri Aspektləri və Qiymətləndirmə Metodologiyası.
7. Məmmədova S.D. (2017), Azərbaycanda sosial dövlət: inkişafı, perspektivləri.

**Sosial marketinq. Marketinqin müasir konsepsiyası kimi.**

**Xəmmədov Yusif**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Kərimova Vüsalə**

## Giriş

Sosial marketinq, şirkət tərəfindən müəyyən sosial dəyərləri dəstəkləyərkən bir markanın təşviqinə yönəlmiş bir şirkətin fəaliyyətidir. Sosial marketinq tibb, ekoloji problemlər və xeyriyyəçilik kimi mühüm sosial mövzulara toxunur.

Sosial Marketinq - yalnız son dövrlərdə meydana çıxan bir elm sahəsidir. Sosial marketinq konsepsiyasına görə hər bir təşkilatın qarşısında duran əsas məsələ məqsədli bazarlarda maraqları, ehtiyacları və tələbləri müəyyənləşdirmək, həmçinin də daha məhsuldar və effektiv metodlarla lazımi məmnuniyyəti təmin etməkdən ibarətdir.

Sosial marketinqin bir neçə əsas prinsipləri var:

1. İstehlakçı suverenliyi prinsipi: Bu prinsipin əsas məqsədi istehlakçıların bütün tələblərini ödəməkdir. Bunun üçün ayrı-ayrı bazar seqmentlərinin suverenliyi araşdırılır. Əsl istehlakçı tələbatları göstəriciləri nəzərə alınır;

2. Konsentrasiya səyləri prinsipi: Bu prinsipin əsasında əsas resursları istehlakçılar üçün ən vacib və əhəmiyyətli olan məhsulların istehsalına yönəldilməsi durur;

3. Marketinqin sosial oriyetasiyasiya prinsipi: Bu prinsipin əsasını müxtəlif sosial qruplardan olan istehlakçıların iqtisadi və istehsal-texniki problemlərini həll etməyə yönəltməkdir;

4. Davamlılıq prinsipi: Bu prinsipin əsasında təşkilatın daxili və xarici mühitinə aid olan informasiyaların toplanması və işlənməsi aiddir. İlkin mərhələ informasiyaların toplanmasından başlayır;

5. Kompleslilik prinsipi: Bu prinsipin əsasında duran məsələ ondan ibarətdir ki, təşkilatın marketinq və biznes strategiyaları uyğunluq təşkil etsin.

6. Situasiyalı yanaşma prinsipi: Bu prinsip əsasən lazımi qərarların qəbul olunması və arzuolunmaz halların aradan qaldırılmasına istiqamətlənir.

Marketinq konsepsiyaları arasında ən önəmli yeri sosial etik marketinq konsepsiyası tutur. Bu konsepsiya:

• Ətraf mühitin mühafizəsi;
• İnsan orqanizmi üçün zərərli olan məhsulların istehsalının qarşısının alınması;
• Cəmiyyətin və müəssisələrin mənafelərinin uyğunlaşdırılması istiqamətinə yönəlmişdir.

Marketinqdə bir neçə anlayışdan istifadə olunur:

1. Ehtiyac - insanın həyat fəaliyyəti prosesində inkişafı üçün nəyinsə çatışmazlığını hiss etməsidir;

2. Tələbat - insanın həyat tərzinə, dünyagörüşünə uyğun olaraq, spesifik forma alan və ödənilməsi zəruri olan ehtiyaclardır;

3. Tələb- alıcılıq qabiliyyəti olan tələbatlar və ya onların ödənilməsi üçün həyata keçirilən fəaliyyətdir;

4. Məhsul - təbiət tərəfindən hazır bəxş olunan və ya insanın istirakı ilə hazırlanan tələbatın ödənilməsinə yönəldilən maddi nemətlərdir, yaxud predmetdir;

5. Sövdələşmə - iki və ya daha çox şəxs arasında baş verir. Ən azı iki tərəfin marağını və onlar arasında bağlanmış razılaşmanın şərtlərini özündə əks etdirən ticarət əməliyyatıdır;

6. Mübadilə - bazar iştirakçıları tərəfindən bazara təklif edilən məhsulların mülkiyyət və ya sərəncam vermək hüququnun dəyişdirilməsi prosesidir;

7. Bazar - alıcı və satıcıların tələbatlarının ödənilməsi və məhsul satışını həyata keçirmək üçün bir araya gəldiyi yerdir.

Marketinqin məqsədi strateji və taktiki ( lokal ) məqsədlərə bölünür.

•Marketinqin strateji məqsədi istehlakçıya yönəlik uzun müddətli dövrü əhatə edən, tərəflərin maraqlarının nəzərə alınması ilə mənfəət əldə edilməsidir.

•Marketinqin taktiki məqsədlərinə strateji məqsədlərə nail olmasını nəzərdə tutan və ani situasiyaların aradan qaldırılmasını təmin edən məqsədlərə aid edilir. Burada məqsədlər real olmalıdır.

Marketinq və satış konsepsiyasının bir sıra əsas fərqləri vardır:

• marketinq konsepsiyasının ilkin, istinad nöqtəsi istehlakçıların ehtiyacları və tələbatlarıdır, satış konsepsiyasının ilkin, istinad nöqtəsi isə müəssisənin istehsal gücləri, onun istehsal edə biləcəyi məhsullardır;

• marketinq konsepsiyası satış konsepsiyasına nisbətən daha çox tədbirlər sistemini özündə birləşdirir, satış prosesi marketinq kompleksinin bir elementidir;

• marketinq və satış konsepsiyalarında müəssisənin fəaliyyət növlərinin xarakteri də bir-birindən fərqlənir.

Marketinqin məqsədi müəyyən edilərkən bir sıra tələblərə cavab verməlidir:

1.Marketinqin məqsədi dəqiq müəyyən edilməlidir;

2.Marketinqin məqsədi real olmalıdır;

3.Marketinqin məqsədi ölçülə və müqayisə edilə bilən olmalıdır;

4.Marketinqin məqsədi yazılı şəkildə rəsmiləşdirilməlidir.

Marketinqin vəzifələrini 3 qrupa bölürlər:

1) Müəssisənin özünə aid olan vəzifələr. Bu vəzifələr qarşıya qoyulan məqsədə nail olmaq üçün marketinq siyasətinin və maraqların uzlaşdırılması ilə əlaqədardır;

2) Müəssisənin bazar fəaliəyyətinə aid olan vəzifələr. Bu vəzifələr fəaliyyətin ödənilməsi və tənzimlənməsi ilə əlaqədardır;

3) Ətraf mühit və cəmiyyətlə əlaqədar olan vəzifələr. Bu da marketinqin cəmiyyət qarşısında sosial məsuliyyəti ilə əlaqədardır.

Marketinqin funksiyalarına aşağıdakılar aiddir:

1. Marketinqin tətqiqatları;
2. Məhsul çeşidinin planlaşdırılması;
3. Məhsulların bölüşdürülməsi və satışı;
4. Reklam və satışın həvəsləndirilməsi;
5. Qiymətqoyma;
6. Marketinqin idarə edilməsi.

Marketinqin prinsiplərinə aiddir:

1) İstehsalın bazarın tələbatına, tələbin quruluşuna uyğunlaşdırılması;
2) İstehsal-satış fəaliyyətinin yüksək effektlə həyata keçirilməsi;
3) Marketinq fəaliyyətinin situasiyalı təhlili;
4) Bütün mümkün vasitələrlə istehlakçılara təsir edilməsi, tələbatın yaradılması;
5) Marketinq fəaliyyətində insan amilinin gücləndirilməsi.

**ƏDƏBIYYAT**


1. https://sendpulse.com/ru/support/glossary/social-marketing
2. https://koloro.ru/blog/brending-i-marketing/socialnyj-marketing.html
3. F.Kotler Marketinq. Bakı-2008

## Şəki-Zaqatala regionunda turizmin inkişafında kadr problemi

**Əsədova Nəzrin**
**Sumqayıt Dövlət Universiteti**
**Elmi rəhbər:Əliyeva Şöhrət**

***Giriş***

Şəki-Zaqatala regionunda əlverişli iqlim, mineral və termal sular, tarixi görməli yerlər, əmək resursları turizmin inkişafına şərait yaradır. Rayon daxilində inzibati mərkəzlər arası məsafə 30-50 kilometrdir. Rayonun inzibati mərkəzlərindən Azərbaycanın paytaxtı Bakıya olan məsafə isə 225-394 km arasında dəyişir. Yevlax-Balakən dəmir və avtomobil yolları ölkə iqtisadiyyatında və rayonda turizmin inkişafında mühüm rol oynayır. Şəki-Zaqatala regionunun Rusiya Federasiyası (Dağıstan Respublikası) ilə 185 km-lik sərhədi böyük strateji əhəmiyyətə malikdir. Alazan çayından başlayaraq Böyük Qafqazın Böyük Ayırıcı silsiləsinədək Gürcüstanla 150 km uzunluğunda olan sərhəd də böyük iqtisadi və siyasi əhəmiyyətə malikdir. Yevlax-Balakən, Balakən Loqodex, o cümlədən Zaqatala gömrük məntəqəsinin fəaliyyəti, Qəbələ və Zaqatala beynəlxalq hava limanları bu regionun perspektiv inkişafı üçün yeni imkanlar yaradır. Azərbaycan iqtisadiyyatının böhran yaşadığı indiki dövrdə ölkənin və onun regionlarının neftdən asılılığının azaldılması, təbii sərvətlərin iqtisadi cəhətdən səmərəli istifadəsi və neft-qaz sənayesinin inkişafı kimi problemlərin həllində turizm sektorunun inkişafı prioritet istiqamətlərdən biri hesab olunur. [ Əlirzayev, Ə.Q. Turizmin iqtisadiyyatı və idarəedilməsi / Ə.Q. Əlirzayev. – Bakı. – 2010, - 529 s.]

Məşğulluğun inkişafı baxımdan Şəki-Zaqatala regionunda turizmin inkişafının iqtisadi-coğrafi baxımdan öyrənilməsi və əsaslandırılması elmi aktuallıq kəsb edir. Bunun üçün tədqiqat regionun təbii və tarixi rekreasiya potensialının ətraflı öyrənilməsini əhatə etməli, gələcək inkişaf naminə problemlər və perspektivlər hərtərəfli öyrənilməlidir. Rayonun əlverişli fiziki-coğrafi, sosial-iqtisadi, geosiyasi yerləşməsinin üstünlükləri, əsas tranzit və kommunikasiya yollarının Şimal-Cənub istiqamətində keçməsi, eləcə də dağlıq landşaftın yerləşməsi hərtərəfli inkişafa təkan vermişdir.




**Qrafik 1. Mehmanxana və mehmanxana tipli müəssisələrin gəlirləri, min manat**

İqtisadi rayonda mehmanxana və mehmanxana tipli müəssisələrin gəlirləri 2015-ci illə müqayisədə 2019-cu ildə 13 dəfə artmışdır. Lakin 2020-ci ildə isə pandemiya ilə əlaqədar olaraq 3 dəfə azalmışdır.[ https://www.stat.gov.az/]

Böyük Qafqazın cənub yamacında Mazımçay, Balakənçay, Qaraçay, Katexçay, Muxaxçay, Kürmükçay, Talaçay, Kişçay, Şinçay, Vəndamçay, Daşağılçay Dəmirəparançay və

s. kimi çaylar yazda qarla, yayda isə ciddi sel və daşqınlara səbəb olur. Çay dərələri və gözəl mənzərələr çoxlu turistləri və dincəlmək istəyən insanları cəlb edir. Daha böyük çaylar naviqasiya və su idmanı mərkəzlərinin tikintisi üçün əlverişlidir. Rayonda turistlərin diqqətini cəlb edə biləcək çoxlu kiçik göllər var. Onlar əsasən buzlaq, sürüşmə tiplidir. Kişçay, Katexçay, Şinçay, Dəmiraparançay, Kürmükçay, Mazımçay, Muxaxçay, Balakənçay kimi çayların su hövzəsində yerləşməsi onlardan turizm sənayesində daha səmərəli istifadə olunmasını tələb edir. Rayon ərazisində 20-dən çox mineral bulaq aşkar edilmişdir. Şəki- Zaqatala rayonu özünün tarixi memarlıq irsi və turizmin inkişafı üçün nəzərdə tutulmuş digər attraksionları ilə seçilir. Bu baxımdan hər bir inzibati rayonun özünəməxsus xüsusiyyətləri vardır. Bu tarixi görməli yerlər beynəlxalq turizmin inkişafına təsir edə biləcək ilkin şərtlərdir. Şəki-Zaqatala rayonunun inkişaf etmiş nəqliyyat şəbəkəsi var. Bundan əlavə, 2008-ci ildə əsaslı yenidənqurmadan sonra Zaqatala Beynəlxalq Aeroportunun bərpası turizmin inkişafına bir az da təkan verdi. Şəki-Zaqatala regionunda turizm təsərrüfatının səmərəli ərazi təşkili üçün bu regionda baş verən dağıdıcı təbiət hadisələrinin idarə edilməsi tələb olunur. Bu rayonda 64 turizm mərkəzinin 27-si və ya 42, 2%-i birbaşa, 37-si və ya 57, 8%-i isə dolayı yolla zərər çəkmiş turizm mərkəzləridir. [Əliyeva, Ş.İ. Şəki-Zaqatala iqtisadi rayonunda turizmin perspektiv inkişaf istiqamətləri // Doktorantların və gənc tədqiqatçıların XXII respublika elmi konfransının materialları, - Bakı: Azərbaycan Dövlət Pedoqoji Universiteti, - 22-23 noyabr, - 2018. I cild, - s. 289-291]

Şəki-Zaqatala regionunun karvan yolları üzərində tarixi yerləşməsi turist axını üçün ilkin şərtdir. Yəni Şəki-Zaqatala regionu Qərb və Şərq mədəniyyətlərinin kəsişməsində yerləşir. Belə əlverişli coğrafi mövqedə yerləşməsi bu regionda nəqliyyatın inkişafına səbəb olmuşdur. Son illər isə turizmin inkişafına bilavasitə təsir edən Zaqatala və Qəbələ hava limanlarının rolu kifayət qədər yüksəkdir. Böyük Qafqazda turizmin hazırkı vəziyyətinin təhlili göstərir ki, regionda passiv (gedən turistlərin sayı gələnlərdən çox) turizm üstünlük təşkil edir. Bu isə regionun xarici ölkələrdə reklam və təbliğatının qənaətbəxş olmadığını göstərir. Turların (turpaketlərin) satışında reklam xüsusi yer tutur. Məsələn, turoperator keyfiyyətli tanıtım işi hazırlaya bilər. Ona görə də hazır məhsulu dünya bazarlarına çıxarıb satmaq olmaz.

Dünyada dövlətin siyasi mövqeyinin möhkəmlənməsində sosial-iqtisadi amillə yanaşı, turizm də mühüm rol oynayır. Beynəlxalq turizmin inkişafı, xarici turist axını iqtisadi artım və sosial səmərəliliklə yanaşı, həm də beynəlxalq imic yarada, bu ölkə haqqında artıq məlumatların yayılmasına təsir göstərə bilər. Azərbaycanda turizm sektoru dinamik inkişaf edir. Ölkə xarici turistlər üçün cəlbedicidir. Eyni zamanda, turizmin inkişafı dövlət büdcəsinə xeyli gəlir gətirəcək. Digər tərəfdən, ölkənin ekoloji problemləri də öz həllini tapır. Ətraf mühitin zərərli tullantılardan təmizlənməsi istiqamətində işlər aparılır ki, bu da floranın artmasına səbəb olur. Turizmin təşkilində bir çox özəl müəssisələr də böyük dividendlər əldə edirlər. Şəki-Zaqatala regionunun düzənlik və dağlıq ərazilərində kifayət qədər təbii və texnogen rekreasiya mərkəzlərinin olduğunu nəzərə alsaq, turizm sektorunun genişləndirilməsi və müasir tələblərə cavab verən xidmət sahəsinin yaradılması üçün böyük perspektivlər var. [Алиева, Ш.И. Реальное положение и развитие туризма в Шеки-Закатальском экономическом регионе // Міжнародна науково-практична конференція ınternatıonal scıentıfıc-practıcal conference економіка, фінанси, облік та право: аналіз тенденцій та перспектив розвитку Poltava, Ukraine, - 2020, - Частина 4, с.40-41]

Kadr məsələsinə xüsusi ilə diqqətlə yanaşmaq lazımdır. Hazırda kadr yetişdirilməsi sahəsində biganəlik var. İllərdir kadrların hazırlığında problem olduğu deyilsə də, heç bir iş görülməyib. Müxtəlif tədris müəssisələri kadr hazırlığı məsələləri yönündə fəaliyyət göstərsə də, keyfiyyət istənilən səviyyədə deyil. Kadr məsələsi ilk növbədədir. Kadrlar bizim turistlərə göstərmiş olduğumuz xidmətin və bizim turizmin simasıdır. Menecmentliyi, idarə formalarını təkmilləşdirmək, bu sahədə xüsusi kurslar açmaq lazımdır. Bizdə xüsusi kurslara önəm verilmir. Peşə məktəblərində, ali məktəblərdə sahibkarların maliyyəsi hesabına turizmin bütün sahələri üzrə qısa müddətli turagent, barmen, xadimə, ofisiant, inzibatçı, menecerlər üçün xüsusi pullu kurslar açılmalıdır.

Ölkə başçısı cənab İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Dövlət proqramında nəzərdə tutulan yenidənqurma işləri turizmə müsbət təsir göstərən amillərdəndir. Bu tədbirlər ümumilikdə sahibkarlığın inkişafına, yeni otellərin açılmasına, mədəni-kütləvi, istirahət obyektlərinin sayının artmasına şərait yaradır. Bu da özlüyündə artıq turistlərin təkcə paytaxta deyil, bölgələrə də üz tutmasını şərtləndirir. Bölgələrdə aparılan yenidənqurma işləri turizmin inkişafına əhəmiyyətli təsir göstərmişdir. Bölgələrdə turizm ehtiyatlarının genişləndirilməsi, turizm istirahət mərkəzlərinin və onların müasir standartlara uyğunlaşdırılması, turizmin inkişafı ilə bağlı layihələrin icrası uğurla davam etdirilməkdədir. [https://adpu.edu.az/index.php/az]

**ƏDƏBİYYAT:**


1. Əlirzayev, Ə.Q. Turizmin iqtisadiyyatı və idarəedilməsi / Ə.Q. Əlirzayev. – Bakı. – 2010, - 529 s.
2. Əliyeva, Ş.İ. Şəki-Zaqatala iqtisadi rayonunda turizmin perspektiv inkişaf istiqamətləri // Doktorantların və gənc tədqiqatçıların XXII respublika elmi konfransının materialları, - Bakı: Azərbaycan Dövlət Pedoqoji Universiteti, - 22-23 noyabr, - 2018. I cild, - s. 289-291
3. Алиева, Ш.И. Реальное положение и развитие туризма в Шеки-Закатальском экономическом регионе // Міжнародна науково-практична конференція ınternatıonal scıentıfıc-practıcal conference економіка, фінанси, облік та право: аналіз тенденцій та перспектив розвитку Poltava, Ukraine, - 2020, - Частина 4, с.40-41
4. https://adpu.edu.az/index.php/az
5. https://www.stat.gov.az/

**Müasir şəraitdə vergi nəzarətinin səmərəliliyinin yüksəldilməsi yolları**

**Həsənov İlqar**
**Bakı Biznes Üniversiteti, magistrant**

Dovlətin iqtisadiyyata təsiretmə gücünə məxsus nəzarət sistemləri dairəsində etibarlı təsir bagışlayan vergi nəzarətının başlıca hədəfi maliyyə resurslrının formalaşması və effektiv şəkildə xərclənməsi prosesinin yetərincə görülməsinin təminə yiyələnməkdən ibarətdir.Vergilərin iqtisadi mahiyyətinə gəldikdə isə ictimai-iqtisadi formasiyanın quruluş və formasından baglı olmayaraq tam məqamlarda vergilərin məzmun və mahiyyətinə gəldikdə oxşarlıq diqqəti cəlb edr . Vergi dövlət sistemi, aparatının saxlanması və onların məsrəflərinin örtürməsindən ötrü mənbə və mexanizm hesab edili . Ümimiyyətlə, vergi nəzəriyyəsində fərqli iqtisadi baxışlar və yanaşmaların mövcudluguna rast gəlinir. Vergi sisteminin təşəkkülü ilə palalel tam bu proseslərin tənzimlənməsi məsələsinə yanaşmalar da müxtəlifliyi ilə seçilir. Vergi nəzəriyyəsinin təkamülü iqtisadi fikirlər tarixinin formalaşmasıla palalel inkişafa nail olunmuşdur.

K.S.Belskinin fikrincə, vergi sistemi - vergitutma sferasında müəyyən prinsiplərə əsaslanan qarşılıqlı əlaqədar hissələrin (elementlərin), vətəndaşların vergiödəmə qabiliyyətinin, vergi və yığımların qanunla müəyyənləşdirilmiş sisteminin, vergi inzibatçılığının və dövlət tərəfindən tətbiq edilən vergitutma metodlarının məcmusudur .[4, s. 55].

M.V.Karaseva vergi sistemi dedikdə, dövlətdə vergitutma sferasında yaranan və iqtisadi, siyasi, təşkilati və hüquqi xarakterə malik olan bütün mövcud ictimai münasibətlərin məcmusunu başa düşür. [3, s.324].

Dövlət büdcəsinin gəlirlərinin formalaşmasında başlıca mənbələrdən hesab edilən vergi yığımları əhəmiyyətli tərzdə vergi ödəyicilərinin qayda-qanunlara hörmətlə yanaşması, onların qanunvericilkdən dogan tələblərə ciddi riayət etməsi səviyyəsindən bilavasitə asılıdır. Vergi nəzarətinin yoxlugu və habelə onun səmərəlilik dərəcəsinin nisbətən zəifliyi durumunda vergi ödəyiciləri səmtdən vergi öhdəlikləriin tam miqdarda və məqamında yerinə yetirmələri heç də inandırıcı gö-rünmür. Beləliklə, vergi nəzarəti bir səmtdən gərəkli maliyyə ehtiyatlarının dövlət büdcəsinə tələb olunan vaxtda daxilini reallaşdırır , digər prizmadan isə vergi ödəyicilərinin intizamlı davranışına nəzarəti gerçəkləşdirir .

Vergi nəzarəti dövlətin səlahiyyət daşıyan orqanlarının tam və hədəfyönlü işini özündə ehtiva edən vergitutma sahəsində mövcud qanunvericiliyin tələblərinə söykənir və rezidentlərin vergi öhdəliklərinə dair tələblərin icrası ilə əlaqədar məlumatların yıgılması və analizinə istiqamətlənib. Bu tip nəzarətin ali məqsədi vergi qanunvericiliyində yol verilmiş pozultuların çevik aşkarlanması , onların qarşısına qətiyyətlə cədd çəkilməsi və bunun yekununda bütöv biznes subyektlərindən ötrü bərabərliyi və ədaləti özündə təcəssüm edən münasib vergi mühitinin formalaşdırılmaqdır .

Elmi mövqelərin ümumiləşdirilməsi məndə bu səpkidə fikir yaradır ki,vergi qanunlarına əməl olunmasının nəticələri dövlətdə vergi əxlaqının mövcudluğundan asılıdır ki, bu isə özlüyündə vergi ödəyicisinin motivasiyasına birbaşa təsir göstərir. Onun mahiyyəti ona dəlalət edir ki, verginin yüksək intensivliyi nəzarət vergi rezidenti səmtdən onun şəxsi həyatına müdaxilə təhlükəsi kimi anlama gəlir . Bununla baglı qaydada olaraq, dövlət vergi xidməti orqanları fəaliyyət gedişatında vergi ödəyiciləri ilə səmərəli sosial müqavilələr qurmalıdırlar ki, bu da, ilk öncə , yiyələnmək şəklində əməkdaşlıqdan mümkün faydalar, gələcəkdə əlavə imtiyazlar deməkdir.

Dövlət məqsədlərindən ötrü fiskal alət baxımından yararlanan vergi nəzarətinin yeni formalarını formalaşdırır. Vergi ödəyicilərinin davranış xüsusiyyətlərinin rəsmiləşdirilməsi verginin təsiri haqqında yekun nəticə olaraq əhalinin mövcud gəlirləri üzərində mənəviyyat hissi hasil etməyə imkan verir.Gəlirinin orta səviyyədən yuxarı olduğu ölkələrdə vergidən yayınma kimi xoşagəlməz durumlar önəmli dərəcədə azdır, vergilər və verginin özü fiziki şəxslər səmtdən əlavə yük kimi deyil, cəmiyyətdə əmtəələrin yenidən bölüşdürülməsi mənbəyi olaraq qəbulu reallaşır .

Apardıgım tədqiqat nəticəsində bu qənaətə gəldim ki, belə hadisələrin mövcudluğu, vergi zehniyyəti və vergi əxlaqı kimi prinsip və yanaşmalara aydınlıq gətilir , ciddi tərzdə fərqləndirilməli və artırılması ehtiyacını nəzərə almalı olan dövlətdə vergi nəzarəti strukturunun formalaşdırması vergi ödəyicilərinin bəlli qrupları boyunca vergi yükü üçün pozitiv zəmin yaradır. Əks halda əhalinin və biznesin dövlətin gerçəkləşdirdiyi fiskal siyasətə inamının azalması ilə yanaşı vergi nəzarətinin effektivliyi daim azalacaq. Gəldiyim qənaətə görə , iqtisadi inkişafa stimul yaratmaq , vergitutma bazasının əhatə diapozonunu genişləndirmək və yekunda vergi daxilolmalarında müsbət ugurlara imza atmaq hədəfilə regional xüsusiyyətlərə söykənən vergi güzəşt, cərimə və sanksiyaları, həmçinin də differensial vergi dərəcələrinin tətbiq edilməsi məqsədəuygundur .

İstənilən vergi islahatı proqramının son məqsədi sadəcə gəlirlərdə qısamüddətli artımlar nail olmaq deyil. Bu, həmçinin də davamlı gəlir əldə etməkdir.Ədalətli şəkildə toplanan artımlar vətəndaşlar üçün faydalara çevrilir.Bu geniş şəkildə başa düşülür. Bununla belə, praktikada bu daha geniş məqsədlər islahat proqramlarının tərtibində daha az ardıcıl şəkildə əks olunur, burada həm daha yaxşı verginin niyə bu qədər önəmliliyi , həmçinin də islahatların hansı qaydada aparıla biləcəyini vurğulayır.İslahatların davamlılığı onların davamlı siyasətə əsaslanmasını tələb edir.

Elə bu səpkidə vəzifələrdən çıxış edərək vurgulamaq münkün olar ki, müasir durumda vergi nəzarətinin təkmilləşdirilməsi, onun hazırki məqamın tələblərinə rəgmən şəkildə təzədən qurulması və səmərəliliyinin artırılması qarşıda qabardıran önəmli vəzifələrdən biri hesab edilir Vergitutma üzrə inkşaf etmiş ölkələrin əksəriyyətinin inkşaf dinamikasına nəzər salsaq onların vergi siteminin uzun tarixi inkşaf dövrü keçdiyini görərik. Biz iqtisadi inkşaf etmiş ölkələrin vergi tarixinə mütləq nəzər salmalıyıq ki onların keçdikləri inkşaf yolunu aydın şəkildə görüb və öz sistemimizdə bunlardan ən yüksək dərəcədə faydalanmalıyıq.

**ƏDƏBİYYAT:**

1. Vahid Novruzov Audit.Dərs vəsaiti.Bakı,2008,604 s.

2.Akif Musayev Vergi siyasətinin iqtisadi problemləri. B., 2004

3.Карасева.М. Финансовое право Учебник - Москва, 2011. – 617 с.

4. Бельский К.С. Налоговая система: основные элементы, принципы Государства и права. – 2006. - №9. С. 55. Адамс Р. Основы аудита М.: Аудит, ЮНИТИ, 2015.

**Kredit təşkilatlarında infilyasiyanın idarə olunmasında maliyyə menecmentinin rolu**

**Aslanov Cəlal**
**Bakı Biznes Universiteti, magistrant**

Respublikmıın fasiləsiz inkişaf tempinin saxlanılmasında kredit təşkilatlarında maliyyə menecmenti artıq mühüm təsir amili rolunda özünü göstərir və bu sahələrə olan diqqət dövlət səviyyəsində son zamanlar artmaqdadır. İqtisadi arenada baş verən planlaşdırılmayan mənfi xarakterli proseslər öz-özünə tənzimlənmədiyindən, cəmiyyətdəki reallıqları özündə əks etdirən iqtisadi-sosial həyat tərzində xoşagəlməz problemlərlə rastlaşılır ki, belə olan məqamda dövlət tərəfindən görülən önləyici iqtisadi nizamlama mexanizminin reallaşması çətinləşir. Bununla palalel hesab edilən məsələləri, müasir cəmiyyətin iqtisadi tərəqqisinə maneçilik törədən arzuolunmaz halları məqamında çözə bilmək bacarığına məxsus vergitutma və audit fəaliyyətinin zərurəti meydana çıxır. Belə ki, maliyyə fəaliyyətini daha da yaxşılaşdırmaq məqsədilə əməliyyatlara nəzarətin hansı səviyyədə uğurlu işlədiyinin ümumi qiymətləndirilməsinə xüsusi diqqət verililir .

Maliyyə menecmenti dedikdə ölkənin fəaliyyəti və iqtisadiyyatı üçün önəmli faktor və prosseslərdən biridir. İnfilyasiya dövlətin iqtisadiyyatında dövriyəsi ümumilikdə yaxşı təsiri olmayan bir prosesdir buda təbiidir ki, ölkədə iqtisadiyyatının bir neçə sferasında özünü biruzə verir.Ölkəmizdə maliyyə menecmenti əsasən iqtisadiyyatda əsaslı stabillik yaratmaqdan ötrü vacibdir. Bu zəruriyyətə çatmaq üçün dövlətin pul və maliyyə siyasətini və yaxud maliyyə sənayesini yaxşılaşdırmaq və mənfi təsirləri kiçildərək maliyyə bazarında güvənirliliyi və qorunaqlılığı təmin edilməsi zərurdir. Daha spesifik yolla desek infilyasiya ökədə valyutanın dəyərini aşağı salır və buda daxili bazarda məhsulların qiymətinin yüksəlməsinə səbəb yaradacaq faktordur buda öz növbəsində fərdlərin və bizneslərin işini olduqca çətinləşdirir.

Ümumilikdə toxunduğumuz bütün bu çatışmamazlıqların və məsələlərin həll olunmasında və onların düzgün idarə edilərək yoluna qoyulmasndakı ən böyük rolu sözsüzdür ki, maliyyə menecerləri oynayırlar. [1]

Bu məqsədlədə maliyyə meneceri maliyyə sistemindəki pirinsiplərin təkminləşdirilməsini, maliyyə mexanizminin optimal olaraq idarə edilməsi, ölkə büdcəsinin düzgün bir qayda ilə idarə olunması eyni zamanda kredit sahəsindəki məhdudlaşdırılmış imkanlardan istifadə edərək həyata keçirir. [3]

Maliyyə menecmenti, infilyasiya şəraitində bəzi strateji həllərə əl ata bilər. Bu stratejiyalar fərqli ola bilər. Buna məsəl göstərək: şəxsi mənfəət, müəssisə mənfəəti və dövlət mənfəətini qeyd etmək olar.Lakin bu strategiyalar hər birinə müxtəlif ola bilər. Bəzi əsas strategiyalara isə aşağıdakıları gösstərmək mümkündür:

Likvidlik idarəetməsi: İnfilyasiya şəraitində maliyyə menecerləri həmişə müəssisənin və yaxudda ki təşkilatın likvidliklərinin müvafiq idarə olunmasına diqqət yetirməlidirlər. Bura həm maliyyə müəssisələrinin borc həmdə özəl mənfəətləri də əlavə etməklə bütün qısa müddətli öhdəliklərini ödəməyə qadir olmasını təmin etməkdən ötrü lazımlıdır.

Qiymət artımı ilə mübarizə: Bildiyimiz kimi infilyasiya dövründə qiymətlərin həddindən artıq bahalaşması ortaya çıxır ki, bu bahalaşmaya qarşı maliyyə menecerləri qiymətləri mümkün qədər stabil saxlamaq və yaxuddaki qiyməti düşürmək üçün uyğun addımlar atırlar.

Bundan başqa onu da demək olar ki, infilyasiya zamanı maliyyə sahəsindəki riskləri doğru qaydada idarə olunması üçün fərqli strategiyalarında tədbiq edilməsi tələb edilir. Buna məsəl kimi biz infilyasiyadan mühafizəli investisiya vasitələri (sabit faizli depozitlər, dövət qazancları sənədləri və s.) istiadə etmək və yaxudda daha yaxşı məhsuldarlığa çatmaq üçün inkişaf planı hazırlamaq olduqca önəmlidir.

İnflyasiya dövründə maliyyə menecmentinin təhlükəsizliyini qorunulması üçün şirkətlar, təşkilatlar və ya ölkə, önəmli tədbirlər görməlidir.Əsas tədbirlərə aşağıdakıları misal çəkmək mümkündür:Yerli valyutadan istifadə və ölkədə istehsal edilən yəni yerli istehlak mallarının dəstəklənməsi inilyasiyanın idarə edilməsinə əsaslı kömək göstərir. Buda öz növbəsində dövlətin xaricdə idxalını azaldır və buda yerli istehlak mallarının qiymətinin yüksətməyə imkan yaradır.Vəsaitlərin xərclənməsinin ətraflı və düzgün qeydiyyatının aparılması, maliyyə menecmentinin və infilyasiyanın idarə olunmasında əhəmiyyətli mövqedədir. Bu, sərf edilən vəsaitlərin haraya və nə üçün sərf edildiyini və hər bir sərfə ödənilən pulun qarşılığını məlumatlandırmağa kömək edir.Maliyyə menecmenti, bütün iş və proseslərin ətraflı şəkildə şəffavlıq sahibi olmasını təmin etməlidir. Şəffavlıq nəticəsində sərf rdilən vəsaitlərin hardan gəldiyini və hara gedəcəyini dəqiq olaraq görməyə kömək edir.

Ümumilikdə xərclənmələrin optimallaşdırılması və boş yerə sərf edilən vəsaitlərin düzgün və effektiv şəkildə idarə edilməsi inflyasiya şəraitində maliyyə menecmenti üçün vacibdir. Bu sərf edilən vəsaitlərin qiymətli varlıqlara yatırılması və optimal şəkildə müəyyən olunmasına mövqe təmin edir.

Bundan başqa maliyyə planlaması və büdcələmə prosesidə inflyasiyanın təsirinin azaldılması üçün önəmlidir. Şirkətlər və təşkilatlar maliyyə planlaması və büdcələmə zamanı daha səmərəli olmalıdırlar çünki dəyişən qiymət mühitində bütün məhsulların dəyərləri artacaq və ya dəyişəcək, bu səbəblə, şirkətlər və təşkilatlar məhsulun dəyərini, işgüzar məbləğlərini və digər gəlirlərini yenidən qiymətləndirməli olacaqlar. [4]

Bütün bu saydığımız önəmli faktorlar həm müəssisə və təşkilatların həmdəki ölkənin infilyasiya şəraitində maliyyə menecerləri tərəfində istifadə olunan və mütləq nəzər yetirilməli olan proseslərdir və buda öz növbəsində həm şirkətin və təşkilatın həmdə ölkənin qitisadiyyatı üçün olduqca önəmli və vacibdir.

**ƏDƏBİYYAT:**


1.Yusif Hacıyev. Maliyyə iqtisadiyyatı'' Bakı 2020,s.35

2. Ə.H. Ələkbərov, M.Ə.Vəliyev, S.H.Purhanı. MENECMENT. Bakı: 2013, s.6

3.Ağasəf İmran – Menecment- Bakı-2007,s.41

4. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S..MENECMENT. Bakı-2007,s.755-759

**Bankların kapitallaşması-iqtisadi artımım sürətləndirilməsi amili kimi**

**İbrahimov Vüqar**
**Bakı Biznes Universiteti, magistrant**

Hal-hazırda bankların maliyyə vəziyyətinin qiymətləndirilməsi ölkəmizin Mərkəzi Bankı (MB) tərəfindən hazırlanmış və təsdiq edilmiş bankın maliyyə vəziyyətinin bu və ya digər aspektini xarakterizə edən xüsusi hesabat formalarının köməyi ilə həyata keçirilə bilər.Həmçinin qeyd etmək lazımdır ki, iqtisadi vəziyyəti qiymətləndirmək üçün Azərbaycan MB tərəfindən iqtisadi vəziyyətin qiymətləndirilməsi əsasında bankların təsnifatı təsdiq olunmuş və istifadə olunur. Bankın fəaliyyəti nəticəsində mənfəət əldə edilməsi bankın yalnız əsas məqsədlərindən biridir.

Tədqiq olunan problemin aktuallığı ondan ibarətdir ki, müasir şəraitdə bank biznesi bankların kifayət qədər kapitallaşma səviyyəsi ilə iqtisadiyyatın böyüməsi faktoruna çevrilə bilir, çünki istənilən ölkənin bank sisteminin kapitallaşma səviyyəsi iqtisadiyyatda bank kapitalının adekvatlığını müəyyən edən mühüm göstəricidir. Bankların kifayət qədər kapitallaşmaması həm bank sektoru, həm də bütövlükdə ölkə iqtisadiyyatı üçün mənfi nəticələrə gətirib çıxara bilər. Bu problemin öyrənilməsinə aparıcı yanaşma artan qeyri-müəyyənlik şəraitində bankların kapitallaşmasının nəzəri və praktiki aspektlərinin öyrənilməsidir ki, bu da banklarının kapitalında artım mənbələrinin gələcək inkişafının istiqamətlərini müəyyən etməyə imkan verir. Bank biznesi bankların kifayət qədər kapitallaşması ilə iqtisadiyyatın böyüməsi faktoruna çevrilə bilər.

Müasir şəraitdə bankların kapitallaşması problemi aktualdır, çünki hər bir ölkənin bank sisteminin kapitallaşma səviyyəsi iqtisadiyyatda bank kapitalının adekvatlığını müəyyən edən mühüm göstəricidir. Bankların kifayət qədər kapitallaşmaması həm bank sektoru, həm də bütövlükdə ölkə iqtisadiyyatı üçün mənfi nəticələrə gətirib çıxara bilər. Beləliklə, iqtisadiyyat üçün kifayət qədər kapitallaşmama dünya bazarında mövqelərin itirilməsi, iqtisadi inkişafın ləngiməsi, kredit böhranı və investisiya reytinqinin aşağı düşməsi ilə nəticələnə bilər. Bank sektoru üçün - biznesin inkişafının ləngiməsi, etibarlılıq reytinqlərinin azalması, tənzimləyicinin tələblərinə əməl edilməməsi, üzən məzənnə rejiminin tətbiqi şəraitində bankların kapitallaşması və maliyyələşdirilməsi problemi getdikcə aktuallaşır.

Bank sektorunun kapitallaşmasının yetərliliyini müəyyən etmək üçün bu prosesin nəzəri və praktiki aspektlərini təhlil etmək lazımdır. Ədəbiyyatda Bu barədə müxtəlif yanaşmalar mövcuddur. Bir şirkətin, səhmlərinin və ya səhmlərinin bazar dəyəri ilə xarakterizə olunan bazar kapitallaşması anlayışı fərqlənir, lakin bu məlumatlardan istifadə etmək çətindir, çünki əksər ölkələrin banklarında açıq bazar qiymətləndirməsi yoxdur. Bundan əlavə, "kapitallaşma" termini tez-tez istifadə olunur, bu da öz kapitalı və onun riskləri ödəmək üçün kifayətliyini ifadə edir.

Sinkey digər aspektdən isə bank fəaliyyətinin təmin edilməsi məsələlərinə diqqət yetirmişdir. Müəllif bank təhlükəsizlik sistemlərinin komponentlərini vurğulayır və onları geniş şəkildə təhlil edir. O, fərqli bank qurumunun qarşılaşa biləcəyi problemlərə xüsusi önəm verir. [3].

O.Kovalenko ölkənin maliyyə təhlükəsizliyi sisteminə təsir etmək gücünə malik olan institusional komponentləri və amilləri dəqiq vurğulamışdır. O tövsiyə edir ki, bu sahədə problemlərin həllində şəffaflıq prinsiplərinə, dövlətin və biznesin maraqlarının tarazlığına ciddi əməl edilməlidir. Hesablama antiböhran tədbirlərindən biri hesab edilən maliyyə stress indeksi ideyasını nəzərə alır, çünki bu üsul maliyyə sistemində böhran hadisələrinin baş verməsini birbaşa izləməyə kömək edir [3].

Digər iqtisadçı R.Vovçenko dövlətin maliyyə təhlükəsizliyinin məqsədyönlü şəkildə təmin edilməsi məqsədilə bank sektorunun səmərəliliyinin artırılması məsələlərinə diqqət yetirmişdir. Müəllif maliyyə və iqtisadiyyat sferasında münaqişə, passiv müdafiə, çağırış və təhdid anlayışlarına əsaslanan strategiya təklif edir. Müəllifin fikrincə, bank sektorunun restrukturizasiyası, bank sistemində münasib

investisiya şəraitinin formalaşdırılması, MB pul-kredit siyasətində rolunun artırılması mühüm məqamlardır. [4].

Bank təşkilatının maliyyə təminatı dövlətin və bank sektorunun təhlükəsizliyinin, həmçinin bütövlükdə dövlətin maliyyə təminatının tərkib hissəsidir. Bankın yüksək maliyyə təminatına yiyələnməsi zərurəti mürəkkəb maliyyə böhranı zamanı müflisləşən bankların sayının sürətlə artması, onun təmin edilməsinin tədqiqat və metodoloji əsaslarının yaradılması və dərinləşdirilməsilə sıx tərzdə baglıdır.

Bank sektorunun inkişafının hazırkı mərhələsində arzuolunmaz neqativ tendensiya potensial əmanətçilərin bank institutlarına inamının azaldığını, eləcə də borcalanlar üçün kredit resurslarını müşayiət edən makroiqtisadi problemləri ortaya qoyur. Böyük siyasi risklər, xarici iqtisadi siyasətdə qeyri-sabitlik, məbləğin artması fonunda ölkəmizin iqtisadi və maliyyə təhlükəsizliyinin, onun bank sisteminin, eləcə də müxtəlif bank qurumlarının dövlət borcunun və dünya kreditlərindən asılılığın əlçatan olması məsələləri getdikcə aktuallaşır.

Bank sektorunun inkişaf perspektivlərində bankların kapitallaşması məsələsi ən vacib məsələlərdən biridir. Bankların kapitalının artırılması zərurətini şərtləndirən bir sıra amillər var:

- bankın fəaliyyət miqyasının genişləndirilməsi, kapitalın mütləq adekvatlığının artırılması üçün normativ tələblərə əməl olunması;
- kapitalın adekvatlıq əmsallarının hesablanması zamanı riskləri nəzərə alına bilən bank məhsullarının keyfiyyətinin pisləşməsi;
- bankların potensialının iqtisadiyyatın ehtiyacları ilə uyğunsuzluğu;
- əlavə kapital mənbələrinin cəlb edilməsi imkanı;
- kapitalın miqdarı ilə bazar risklərinin səviyyəsi arasında uyğunsuzluq problemi;
- bankın etibarlılığının artırılması, xərclərin azaldılması və əlavə rəqabət üstünlüklərinin mümkünlüyü ehtiyacı;
- fəaliyyətin şaxələndirilməsi ehtiyacı.

Bundan əlavə, bank sektoru hələ də bazar dalğalanmalarına və neqativ məlumatlara çox həssasdır. Bu baxımdan bank kapitalının artım mənbələrinin birbaşa ölkədəki iqtisadi şəraitin vəziyyətindən asılı olduğunu vurğulamaq zəruridir. Müasir şəraitdə isə bankların kapitalında artım mənbələri kimi çıxış edə biləcək vəsaitlərdən istifadə dərəcəsi kapitalın gəlirli yerləşdirilməsi imkanları, müxtəlif bazarların vəziyyəti, qanunvericilik bazasının inkişafı, kapitalın inkişaf dərəcəsi ilə müəyyən edilir.

Yeni səhmlərin buraxılması və yeni səhmdarların cəlb edilməsi potensial investorların çox vaxt bankların maliyyə vəziyyətini, onların inkişaf perspektivlərini və investisiyadan mümkün gəlirliliyini etibarlı qiymətləndirə bilməmələri ilə bağlı bir sıra problemlər yaradır. Çox vaxt nizamnamə kapitalına qoyulan investisiyaların gəliri əmanətlərin gəlirliliyindən çox olmur. Bundan əlavə, kapitalın artırılmasının bu üsulu bank üçün kifayət qədər baha başa gəlir. Ayrı-ayrılıqda, kapitalın birləşdirilməsi və mərkəzləşdirilməsi kimi kapitalın artırılması üsulunu nəzərdən keçirmək istərdim. Konsolidasiya bankların sayının azalması ilə bağlıdır. Bu proses böhran dövründə tez-tez istifadə edilən birləşmə və satınalmalar vasitəsilə baş verə bilər. Konsolidasiya banklara bir sıra üstünlüklər verir, məsələn, kreditləşmədən əldə olunan gəlir banklar üçün əhəmiyyətli gəlir mənbəyi olduğundan, xidmətlərin şaxələndirilməsi ilə faiz siyasətini borcalan üçün daha sərfəli etməklə tənzimləmək mümkündür

**ƏDƏBİYYAT:**

1.Bagırov M.M. (2003),Banкlar və banк əməliyatları. Ali məктəblərdən ötrü dərslıк. Baкı,«Nurlan», 2003, 512 s.

2. Abbasov Alıcan ,Abbasov Sərvər (2017) , Maliyyə biznesi,dərslik,UNEC -355c;

3.О.Коваленко Банковский финансовый менеджмент и проблемы эффективного управления Серия: Экономика и управление. - 2013. - № 1. - С. 70-72.

4. R.Vovçenko /Развитие отношений банков и малого бизнеса. Бизнес и банки. 2009, №7.

**Azərbaycanda elm sahəsinin inkişafı və maliyyələşdirilməsi dinamikasının təhlili**

**Nurullayeva Nuranə**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Elmi rəhbər: Mahmudova Səbinə**

***Giriş***

Ümumiyyətlə, tədqiqatın maliyyələşdirilməsi həm elmi və texnoloji, həm də digər elm sahələrində elmi tədqiqatların maliyyələşdirilməsini əhatə edən bir termindir. Bu termin tez-tez potensial tədqiqat layihələrinin qiymətləndirildiyi və rəqabət nəticəsində yalnız ən perspektivli maliyyələşdirilmədən əldə edilən maliyyələşmə prosesini əlaqələndirir.

Elm, elmi metoddan istifadə edərək əldə edilmiş nəzəriyyələr toplusu kimi təmsil olunan bilikdir. Nəzəriyyələr təbii və ya sosial bir davranışın, hadisənin izahıdır. Daha formal olaraq elm, bir nəzəriyyə formasında bəzi fərziyyələr və sərhəd şərtləri daxilində bir maraq fenomeninin məntiqini, sistematik və ətraflı izahını toplu şəkildə təqdim edən konstruksiyalar (anlayışlar) və təkliflər (bu quruluşlar arasındakı əlaqələr) sistemi kimi başa düşmək mümkündür.

Müasir elmin tərəqqisi və onun cəmiyyətlə qarşılıqlı əlaqədə olaraq inkişaf etməsi tədqiqatların yeni müstəviyə qədəm qoymasına zəmin yaratmışdır. Hər zaman elmə digər fəaliyyət sahələrində olduğu kimi inqilaba təkan verici qüvvə kimi baxılır və o, lazımi bilik səviyyəsi əldə edərək onları müxtəlif üsullarla qeyd etməməklə nəzəriyyə, qanun və hipotezlərin köməyi ilə izahlandırır. Elm daimi olaraq cəmiyyətdə müəyyən təsirlərə məruz qalmışdır və sistemli xarakter daşıyır. Belə ki, aparılan elmi tədqiqatların vəziyyətinə cəmiyyətdə mövcüd olan texniki bazanın təsiri danılmazdır. Fundamental elmlərin məqsədli aparılması praktiki elm sahələrinin inkişafına da stimul vermiş, müasir cəmiyyətdə elm xüsusilə sınaqlarda aparılan araşdırmaların problemlərini tədqiq edərək onların daha kiçik elementlərə bölünməsinə əsaslanan analitik yanaşmalara əsaslanmışdır. Müasir elmi araşdırmalar tədqiqat obyektinin hərtərəfli əhatə olunmasına can atır ["Research Dollars Go Farther at Less-Prestigious Institutions: Study". The Scientist Magazine. Retrieved 2018-07-23].

Hazırda Post sovet ölkələrində fundamental tədqiqatların maliyyə təminatının həcmi inkişaf etmiş ölkələrin səviyyəsindən xeyli geri qalır. Bu baxımdan fundamental elmi tədqiqatların maliyyələşdirilməsinin nəzəri aspektlərinin kompleks təhlilinin aparılması zəruridir. Bu təhlil Azərbaycanın fundamental elminin maliyyələşdirilməsi sisteminin inkişafı və onun maliyyə dəstəyinin optimal modelinin qurulması üçün geniş istifadə edilə bilər.

Eyni zamanda, müstəqillik dövründə Azərbaycan Respublikasında elmə və tədqiqata maraqlı olan mənbələr və onların maliyyələşdirilməsinə xərclənən vəsaitlər tədqiq edilmişdir. Belə ki, müstəqillik dövründə elmin və elmi tədqiqatların inkişafının hüquqi əsasları, onların maliyyələşdirilməsi hərtərəfli təhlil edilmiş, dövlət vəsaiti hesabına qəbul olunan proqramların nəticələri öyrənilmişdir.




**Şəkil 1:** Ölkəmizdə elmi müəssisə və təşkilatların maliyyə mənbələri. (***Mənbə:*** *www.stat.gov.az)*

Azərbaycan Respublikasındakı elmi tədqiqat institutlarının maliyyələşdirilməsi mənbələrindən biri kimi beynəlxalq maliyyədən istifadə nəzərdə tutulsa da, əslində ölkəmizdə bu mənbədən çox az vəsait alınır. Qeyd edilən maliyyə mənbəyi büdcədənkənar maliyyələşdirmə elementi kimi müəyyən edilə bilər.

Qeyd etmək lazımdır ki, dövlət büdcəsi ilə yanaşı, elmi tədqiqatların maliyyələşdirilməsi prosesinə alternativ mənbələrin, xüsusilə özəl sektorun cəlb edilməsi zamanın tələblərinə uyğun olaraq Azərbaycan elminin formalaşması üçün əlverişli şərait yarada bilər. Bu baxımdan, vençur kapitalı vasitə ilə tədqiqat işləri üçün özəl kapitalın cəlb edilməsi məsələsi xüsusi maraq doğurur. Bütün bunlar öz növbəsində bizi Azərbaycan Respublikasının elmi təşkilatlarında və tədqiqat strategiyası məqsədlərinin müəyyənləşdirilməsi istiqamətinə diqqət yetirməyi məcbur edir. Ən başlıca məsələ isə ölkənin elmi və texnoloji inkişafının strateji prioritetlərinin dəqiq müəyyən edilməsindən ibarətdir [www.president.az].

Elmin inkişafı sahəsində həyata keçirilən ən vacib məsələlərdən biri 21 oktyabr 2009-cu il tarixli Azərbaycan Respublikası Prezidentinin fərmanı əsasında yaradılmış Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun hesab edilir.

Elmin İnkişafı Fondunun əsas məqsədi ölkəmizin elmi-texniki potensialının qoruması və ondan əlverişli şəkildə istifadə edərək elmi təşkilatların və tədqiqat, təhsil müəssisələrinin inkişaf etdirilməsini təmin etməkdən ibarəet olmaqla Azərbaycanda elmin rolunun artırılması istiqamətində müvafiq qurumlar və şəxslər tərəfindən təqdim olunan təbii, texniki, humanitar xarakterli problemlərin həllində elm və texnikanın rolunun kifayət qədər artırılmasından ibarətdir. Elmin İnkişaf Fondunun əsas amillərindən biri də dövlət və cəmiyyət üçün vacib olan sosial elmlər sahəsindəki tətbiqi, elmi və yenilikçi tədqiqatların, proqramların, layihələrin və digər elmi tədbirlərin maliyyələşdirilməsi, həmçinin alimlərin elmi fəaliyyətinin stimullaşdırılması və onlar üçün əlavə yaradıcılıq imkanlarının yaradılması hesab edilir. Fondun əsas vəzifəsi Azərbaycanda gənc tədqiqatçıların və alimlərin tədqiqat layihələrini uğurla həyata keçirməklə elm adamlarının rifahını və ölkənin inkişafını, dövlətin möhkəmləndirilməsini, elmin, elmi tədqiqatların və təhsilin yüksək səviyyədə inkişaf strategiyasının müəyyənləşdirilməsini və təkmilləşdirilməsini təmin etməkdir [Xəlilov S. Azərbaycanda elm və onun aktual problemləri. Bakı: "Oskar", 2010].

2023-cü ilin dövlət büdcəsi layihəsində ölkədə elmin inkişafına 228 milyon 500 min manat vəsait ayrılıb ki, bu da cari ildəkindən 23,5 milyon manat və ya 11,5%, ötən ilin icra göstəricisindən isə 76 milyon 700 min manat və ya 50,5% çoxdur.

2023-cü ilin dövlət büdcəsinin xərclər strukturunda dəyişikliklər baş verib. Elmə ayrılan xərclərin 48,6 milyon manatı (21,3%-i) AMEA-nın, 114,9 milyon manatı (50,3%-i) bir sıra dövlət orqanlarının tabeliyində olan elm müəssisələrinin, o cümlədən 75,6 milyon manatı Elm və Təhsil Nazirliyinin, 17,1 milyon manatı Kənd Təsərrüfatı Nazirliyinin, 9,0 milyon manatı Ədliyyə Nazirliyinin, 6,0 milyon manatı Mədəniyyət Nazirliyinin, 4,1 milyon manatı Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun, 3,1 milyon manatısa elm sahəsində digər tədbirlərin payına düşür.

Elm və təhsilin inkişafını iqtisadiyyatın artım tələbi stimullaşdırır. İqtisadiyyatdan tələb gəlmirsə, nə təhsil, nə elm, nə də tərəqqi əldə edilə bilməz. Təhsil, elm, istehsal, iqtisadi artım. Bunlar zəncirvari şəkildə biri-biriləri ilə əlaqədar olan məsələlər və halqalardır.




**Qrafik 1: 2021-ci ildə elmi tədqiqatları yerinə yetirən təşkilatların sektorlar üzrə bölgüsü.** (***Mənbə***: *www.stat.gov.az*)

Sxemə əsasən qeyd etmək olar ki, 2021-ci ildə elmi-tədqiqatla məşğul olan təşkilatların sektorlar üzrə paylanmasında dövlət sektorunun xüsusi çəkisi ən yüksək (67,2 %), ali təhsil sektorunda isə 27,6 % təşkil etmişdir.

Elmi təşkilatların inkişaf və fəaliyyət sahəsinə daha bir institusional təsir Prezident İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasında qeyd edilmişdir. Belə ki, dövlət səviyyəsində "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası ölkəmizdə elmi təşkilatların və müəssisələrin strategiyasının formalaşmasına müəyyənedici və istiqamətləndirici təsir göstərmişdir [Azərbaycan Milli Elmlər Akademiyasının elmi bazalarda bibliometrik göstəricilərinin müqayisəli təhlili. Bakı: "Elm", 2019].

Milli strategiyanın məqsədlərinə aşağıdakılar daxil edilir:

- elmin Respublikamızda baş verən iqtisadi proseslərdə rolunun artıtılması;
- Azərbaycan Respublikasında, xüsusilə də yeni innovativ sahələrdə elmi kadrların, habelə elmi tədqiqatlarda mütəxəssislərin, eyni zamanda strateji idarəetmə prinsiplərini elmi təşkilatlarda bütün proseslərdə tətbiq edə bilən kadrların rolunu artırmaq;
- Azərbaycandakı fundamental və tətbiqi tədqiqatların prioritetlərinin ölkədəki mühüm sosial, iqtisadi, sosial və mədəni məsələlərin həlli ilə əlaqələndirilməsi;

• fundamental sahələrdə elmi tədqiqatların həcminin genişləndirilməsi, elmi və texniki infrastrukturun müasirləşdirilməsi;

• Azərbaycan elminin kadr təminatı baxımından modernləşmə proseslərinin genişləndirilməsi, sənayenin normativ-hüquqi bazasının inkişafı və digər vəzifələrin hərtərəfli həll edilməsi;

• dövlətin cari və gələcək ehtiyacları nəzərə alınmaqla Azərbaycan Respublikasının elmi təşkilatlarının strukturunun yenidən qurulması;

• dünyadakı elmi, texniki və texnoloji proseslərin prioritetlərinə uyğun olaraq respublikamızda elmi təşkilatların formalaşması, onlarla vacib sahə kimi müəyyən edilməsi və s.

Nəhayət, dövlətin elmə olan diqqətinin davamı kimi "Elm haqqında" Azərbaycan Respublikası qanununun 14 iyun 2016-cı ildə təsdiq edilməsi hesab edilir. Elm haqqında qəbul edilən qanun elmdə əmək haqlarının, ölkənin iqtisadi, sosial, siyasi və mədəni inkişafının təmin edilməsində aparıcı rolunu müəyyənləşdirir.

Elm haqqında qanunvericiliyin əsas məqsədi elmi fəaliyyətlə məşğul olan şəxslərin konstitusiya hüquqlarının təmin edilməsi və bu sahədə münasibətlərin tənzimlənməsi üçün təşkilati və hüquqi əsasların yaradılmasıdır.

Elm haqqında qanun elmi fəaliyyətin idarə edilməsi və təşkili sahəsində dövlət siyasətinin əsas istiqamətlərini, elmi fəaliyyətin məqsədlərini, subyektlərinin vəzifə və məsuliyyətlərini, elmi tədqiqatların maliyyələşdirilməsi mexanizmləri və təkmilləşdirilməsini, elmi və innovativ fəaliyyətin inkişafını və təşkilati-hüquqi bazanı müəyyənləşdirir.

Müstəqillik dövründə elmin və elmi tədqiqatların inkişafı, gənc tədqiqatçı və alimlərin fəaliyyətinin stimullaşdırılması, elmi fəaliyyətin inkişafı və təkmilləşdirilməsi, yüksək texnoloji məhsulların istehsalında artım sahəsinin həyata keçirilməsi dövlət siyasəti nəticəsində öz əksini tapmalıdır.




**Qrafik 2: Tədqiqat və işləmələrə çəkilən ümumi xərclər, min manat.** (*Mənbə: www.stat.gov.az*)

Məlumatların təhlilindən göründüyü kimi 2005-ci ildə tədqiqat və işləmələrə çəkilən xərclər 2000-ci ilə nisbətən 83,6%, 2010-cı ildə 2005-ci ilə nisbətən 2.2 dəfədən çox, 2015-ci ildə 2010-cu ilə nisbətən 31,9%, 2020-ci ildə 2015-ci ilə nisbətən 37,1%, 2021-ci ildə 2020-ci ilə nisbətən 19,1% yüksək olmuşdur.

Elmi tədqiqat institutları və mərkəzlərinin məqsədli inkişafını təmin təmin edən vacib məsələ insan resursları, onların kadr hazırlığı və inkişafını artıraraq investisiyalar, texniki avadanlıqlar, məlumatlar və digər vasitələrlə təmin edilməsi məqsədəuyğun hesab olunur. Elmin maliyyələşdirilməsinin vacib problemlərindən biri də onun daha çox dövlət büdcəsi vəsaiti hesabına maliyyələşməsidir.

Uğurlu sosial, iqtisadi və siyasi nailiyyətlər, milli və çoxmədəniyyətli dəyərlər Azərbaycanın hakimiyyəti altında, mərkəzdən Şərqə və Qərbə durmadan yüksəlməsini təmin edir. Bu imkanlar 2030-cu ilə qədər Azərbaycanın iqtisadi sahəsinin yüksək sosial rifah və müasir həyat səviyyəsinə əsaslanan transformasiya kimi möhkəmlənməsini təmin edəcəkdir. Əhalinin rifah halının daha da yüksəldilməsi məqsədilə Azərbaycan dövləti cəmiyyətə istiqamətlənmiş bazar iqtisadiyyatının inkişaf yollarını seçib.

Ölkənin sosial-iqtisadi inkişafının növbəti beş milli prioriteti yaxın 10 il ərzində icra edilməlidir:

1. dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. dinamik, inklüziv və sosial ədalətli cəmiyyət;
3. rəqabətli insan kapitalı və müasir innovasiya məkanı;
4. azad edilmiş ərazilərə böyük qayıdış;
5. təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Bəzi ölkələrin prioritetləri Birləşmiş Millətlər Təşkilatının "yüksək səviyyəli ümumdünya görüşü: 2030-cu ilə qədər davamlı inkişaf"öhdəliyinin həyata keçirilməsi üçün xüsusi əhəmiyyət kəsb edir .

Cənab Prezident İlham Əliyev 22 iyul 2022-ci il tarixli Sərəncamla "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nı təsdiq etmişdir. Olduqca fundamental bir sənəd olan Strategiyanın, necə deyərlər, hər sətri, hər cümləsi elm və təhsil qarşısında yeni vəzifələr müəyyənləşdirir. Hesab edirik ki, cənab Prezidentin Fərmanı ilə yeni inkişaf mərhələsinə qədəm qoyan elm və təhsil sahəsindəki islahatlar Strategiyada qarşıya qoyulan məqsədlərin daha çevik reallaşmasına öz müsbət təsirini göstərəcəkdir.

Bu gün elm və təhsil üzrə ölkədə daha dərin struktur, elmi-təşkilati və kadr islahatlarına, elmi fəaliyyətin idarə olunmasının optimal mexanizmlərinin tapılması və tətbiqinə, elm-təhsil-iqtisadiyyat zəncirinin real fəaliyyətinin təmin edilməsi baxımından ciddi tədbirlər görülməsinə ehtiyac yaranmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 28 iyul 2022-ci il tarixli Fərmanın imzalanması da bu ehtiyacdan irəli gəlmişdir.

Təkcə iqtisadi artıma deyil, həm də cəmiyyətin bütün üzvlərinin sosial rifahına yüksək sədaqət nümayiş etdirir. İqtisadi inkişafa gəldikdə isə, rifah və gəlirlərin layiqli səviyyəsinə malik insanlar zəmanətləri də daxil edirlər ki, xərclərin artımı əmək haqqının artımına mütənasib olmalıdır, onların əmək haqqı isə əmək məhsuldarlığını artırır.

2023-cü ildə elmin inkişafına 228 milyon 500 min manat vəsait ayrılıb ki, bu da 2022-ci ildəkindən 23,5 milyon manat və ya 11,5% çoxdur: "Elm ilə təhsilin qarşılıqlı əlaqəsinin möhkəmləndirilməsi və bu sahələrdə idarəetmənin təkmilləşdirilməsi məqsədilə ölkədə bu il müəyyən dəyişikliklərə də gedildi.

Məlum olduğu kimi, dövlət başçımızın rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində hazırda ölkəmizin bütün sferalarında, o cümlədən elm və təhsil sahəsində ciddi islahatlar aparılır, elmin, texnologiyanın inkişafına, alimlərin nüfuzunun yüksəldilməsinə mühüm dəstək verilir. Müasir dövrdə ölkəmizdə elmin cəmiyyətdə statusunun müəyyən edilməsi, maliyyələşdirilməsi və koordinasiya olunması, o cümlədən Azərbaycanın elmə dair prioritetlərinin müəyyənləşdirilməsi, yüksək texnologiyalar cəmiyyətinin formalaşdırılması mühüm istiqamətlər sırasında yer almışdır. Azərbaycan alimlərinin dünya elminə inteqrasiyası üçün onların nüfuzlu beynəlxalq elmi bazalara (WoS, SCOPUS və s.) çıxışının təmin olunması məsələsinin ölkə səviyyəsində, dövlət büdcəsi

çərçivəsində həll olunması, məqalələri nüfuzlu beynəlxalq elmi bazalara daxil edilmiş alimlərin əməyinin stimullaşdırılması, elmin təşkili, idarə olunması və koordinasiyasının təkmilləşdirilməsi kimi bir sıra mühüm problemlər idarəetmə sistemində infrastrukturun optimallaşdırılması, şəffaflığın artırılması, yeni idarəetmə mexanizmlərinin tətbiqi və kadrlardan daha səmərəli istifadə edilməsi kimi kompleks yeniliklərin aparılmasını zəruri edir.

**Azərbaycanda elmin inkişafına gətirəcək tələbi formalaşdırmaq üçün sağlam rəqabətli bazar, istehsal, iqtisadiyyat olmalıdır:** "Əks halda, indiki şərtlər daxilində elmə nə qədər yüksək vəsait ayrılsa belə, hansısa ciddi nəticə görünməyəcək. Elmə yatırılan hər dollar inkişaf etmiş ölkələrdə dəfələrlə artıq gəlir gətirir. Azərbaycanda bunun üçün şərait, şərtlər mövcud deyil. Bizdə elmi-texnoloji tərəqqinin nailiyyətlərinə əsaslanmaqla istehsal sahələrinin yaradılmasına hələ yeni-yeni başlanır. Söhbət xüsusilə neft-kimya sahəsindən gedir. Bundan əlavə, startaplara diqqət artırılır. Yəqin ki, iqtisadiyyatda tələb yarandıqca, elmi araşdırmaların sayı da artacaq, dərinliyi də.

**ƏDƏBİYYAT:**


1. "Research Dollars Go Farther at Less-Prestigious Institutions: Study". The Scientist Magazine. Retrieved 2018-07-23
2. www.president.az
3. Xəlilov S. Azərbaycanda elm və onun aktual problemləri. Bakı: "Oskar", 2010
4. Azərbaycan Milli Elmlər Akademiyasının elmi bazalarda bibliometrik göstəricilərinin müqayisəli təhlili. Bakı: "Elm", 2019
5. Prezident İlham Əliyev fevralın 2-də "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında sərəncamı
6. İsmayılova Səbinə Ələddin qızı "Elmi tədqiqatların maliyyələşdirilməsi mexanizimlərinin təkmilləşdirilməsi" haqqında magistr dissertasiyası
7. Xəlilov Rəsul "Azərbaycanda elmi tədqiqat təşkilatlarında strateji menecmentin tətbiqi məsələləri " mövzusunda magistr dissertasiyası
8. ***www.stat.gov.az***

**Bankların mahiyyəti, əsas vəzifələri və ölkə iqtisadiyyatındakı rolu**

**Qələndərli Lalə**
**Azərbaycan Kooperasiya Universiteti, magistrant**
**Elmi rəhbər: iq.f.d. Həsənli Amal**

Bank – fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi, öz adından və öz hesabına kreditlərin verilməsini, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirən şəxsdir.

Bank – pul vəsaitlərinin toplanması, kreditlərin verilməsi, pulla hesablaş-maların həyata keçirilməsi, pulun emissiyası, müxtəlif qiymətli kağızların buraxıl-ması və s. funksiyalarını yerinə yetirən iqtisadi təşkilatlardır.

Bank sistemi bir məqsədə xidmət edən müxtəlif hissələrin, elementlərin vəhdəti

kimi təsəvvür edilir. Bank sisteminin özünəməxsusluğu onun tərkibinə daxil olan elementlərin və onların qarşılıqlı münasibəti ilə müəyənləşdirir. Bu zərurət olduqdasistemin elementlərinin bir-birini əvəz edə bilməsi deməkdir. Əgər hər hansi səbəbdən banklardan biri bağlanarsa və ya ləğv edilərsə sistem öz fəaliyyət qabiliyyətini itirmir. Onun funksiyalarını digər banklar yerinə yetirir, zərurət olduqda isə təzəsi yaranır. Beləliklə sistemin bütövlüyü pozulmur. Bank sistemi həmişə dinamik vəziyyətdədir. Yəni sistem mütəmadi inkişafdadır və burada iki əsas məqam var:

Birincisi, bütövlükdə bank sistemi inkişaf edir, təkmilləşir və yeni struktur elementləri komponentlərlə genişlənir. Azərbaycanda bank sisteminin son onillik tarixinə nəzər saldıqda həmin dövrün əvvəllərində kiçik kapitala malik çoxlu bank-ların yarandığını görərik. «Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqın-da» və «Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında» qanunlar qəbul edildikdən və bəzi normativ aktlara görə ciddi qanunverici-normativ baza yarandıqdan sonra bankların sayı azaldı, fəaliyyətdə qalan kredit təşkifatları yeni keyfiyyət əldə etdilər. Ayrı-ayrı sahələrə xidmət edən müxtəlif banklar yarandı.

İkincisi, bank qapali sistemdir. O öz fəaliyyətinin bir çox cəhətləri barəsində sirləri qoruyub saxlayır və qanunvericiliklə nəzərdə tutulan hallardan başqa heç cür onların yayılmasına imkan vermir [3].

Bank sistemi – özünü təşkil edən və özünü tənzimləyən bir sistemdir. Belə ki,

ölkənin iqtisadiyyatında və iqtisadi siyasətində, eləcə də siyasi aləmdə baş verən dəyişikliklər bank siyasətinin dəyişilməsinə gətirib çıxara bilər. Əgər ölkədə qeyri-stabillik yaranarsa, iqtisadi böhran baş verərsə banklar istehsala uzunmüddətli investisiyaları məhdudlaşdırır, kreditləşdirmənin müddəti qısalır, bəzən də tam dayandırır, qeyri-ənənəvi yollarla mənfət əldə etməyə başlayır, iqtisadi stabillik yaranan kimi banklar yenidən risqlərin azalmasını hiss edərək öz ənənəvi fəaliyyətini bərpa edir, topladığı faizlər hesabına mənfəət əldə edir.

Bank fəaliyyətinin əhəmiyyətinin dərk olunmasmda ən başlıca məsələ onların həyata keçirdikləri funksiyalar haqqında təsəvvürdür. Müasir nəzəriyyəyə əsasən bankların 3 funksiyası vardır:

➢vəsaitlərin toplanması funksiyası;

➢ehtiyatların transformasiyası funksiyası;

➢pul dövriyyəsinin tənzimlənməsi funksiyası.

Bank yerinə yetirilən funksiyalara müvafiq olaraq sərbəst, müvəqqəti olaraq istifadə olunmayan pul ehtiyatlarının və müştərilərinin kapitallarının bir yerə cəmləyir, toplayır (akkumulyasiya edir). Müəssisələr banklarda hesablar açır və bu hesablardakı pul vəsaitlərini istifadə edərək nağd və nağdsız hesablaşmalar aparır.

Fiziki şəxslər pul vəsaitlərini əmanət şəklində banklara qoyur. Bununla da banklara onların kreditlərini trasnformasiya etmək və digər pul əməliyyatları üçün tətbiq etmək imkanı vermiş olurlar. Bununla da kreditor ilə borcalan şəxs arasında bilavasitə hesablaşmalar zamanı risklər ilə müqayisədə iqtisadi risklər ixtisara salınır.

Bankın ödəniş əməliyyatları, onlar tərəfindən ödəniş vasitələrinin yaradılması

(banknot, çek, veksel, sertifikat və s.) pul dövriyyəsini tənzimləməyə, onu qeyri-nağd hesablaşmaların törədilməsi hesabına daha qənaətli etməyə imkan yaratmış olur.

Bank məhsulu ayrı-ayrı bank qulluqçularının deyil, bütün bank əməkdaşlarının

kollektiv əməyinin məhsulu kimi çıxış edərək, bank fəaliyyətinin nəticəsi hesab edilir. Bu məhsul yalnız bank üçün xasdır. Bank məhsulu bir sıra fərqli xüsusiy-yətlərə malik olub, əsas etibarilə qeyri-maddi xarakter daşıyır. Bu daha çox nağdsız formada olub, hesablar üzrə qeydlər kimi çıxış edir. Maddi formada isə mərkəzi bankın banknotları, müxtəlif növ pul-hesablaşma sənədləri çıxış edir (9).

Azərbaycan çox qədim tarixə malik, lakin müstəqillik baxımından gənc ölkə olmasına baxmayaraq qısa vaxt çərçivəsində çox yüksək iqtisadi artıma, inkişafa nail

olmuşdur. Əldə olunan nailiyyətlərdə bank sisteminin rolu xüsusi qeyd olunmalıdır.

Çünki iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq istənilən ölkənin iqtisadiy-yatının möhkəmliyində, hər tərəfli və dinamik inkişafında həmin ölkənin bank sisteminin əsaslı dərəcədə böyük rolu vardır. Ümumiyyətlə, Azərbaycanın iqtisadi inkişafında bank sisteminin rolunu aydınlaşdırmaqdan ötrü tarixə nəzər salmaq lazımdır.

İqtisadi tənəzzül adlandırdığımız 1991-1995-ci illərdə Azərbaycanın bank sistemi, ümumiyyətlə maliyyə sistemi iflic vəziyyətində idi. Bu iqtisadi problemlərin

həll olunmasında Mərkəzi Bankın qarşısında ciddi vəzifələr dururdu. Belə ki, istənilən ölkənin bank sisteminin idarəolunması, bankların fəaliyyətinə nəzarət, pul-kredit tənzimlənməsi məhz Mərkəzi Banklar tərəfindən həyata keçirilir. Həmin dövrdə AMB tərəfindən həyata keçirilən siyasət düzgün olmasa idi hal-hazırda Azərbaycan iqtisadiyyatı bu cür inkişaf etməzdi [11].

Müasir bazar iqtisadiyyatı şəraitində bankların verdiyi kreditlər nəticəsində iqtisadiyyatın ayrı-ayrı sahələrinin maliyyələşdirilməsi məhz bank sektorunun iqtisadiyyatının inkişafında rolunun əsas göstəricisidir. Misal üçün banklar tərəfindən kənd təsərrüfatı sahələrinə verilən güzəştli kreditlər həmin sahədə istehsalın artımına, istehsal olunmuş məhsulların ixracına, məşğulluğun artırılmasına, ölkənin aqrar sektorun və onunla əlaqədar olan digər sahələrin (yeyinti, yüngül) inkişafına və s. birbaşa və dolayı təsir edir.

Bundan əlavə olaraq banklar tərəfindən verilən kreditlərlə yeni tikililərin, məktəblərin, ali təhsil ocaqlarının tikilməsi, yolların salınması ölkənin infrastruk-turunun inkişafına, müxtəlif müəssisələrin yaradılması isə istehsalın həcminin artmasına, əhalinin məşğulluğunun təmin olunmasına, bununla əlaqədar olaraq dövlət büdcəsinə vergilərin daxil olunmasına təsir edir. Ayrı-ayrı sahələr üzrə məhsul istehsalı nəticə etibarilə ÜDM-in artmasına gətirib çıxarır.

Kreditlərdən əlavə olaraq məhz banklar AMB-nın keçirdiyi pul-kredit siyasətində onun əsas rıçaqlarında hesab olunur. Belə ki, banklar vasitəsilə AMB-nın pul emissiyasını həyata keçirir, dövriyyədə olan pul kütləsini tənzimləyir. Banklar tərəfindən əhalinin pul kütləsinin depozitə cəlb olunması həm dövriyyəyə əlavə pul emissiyasının qarşısını alır, yəni bir növ pul artıqlığı olanlarla, pula ehtiyacı olanlar arasında əlaqə yaradır, eləcə də əhali banklarda yarırdıqları depozitlərdən aldıqları faizlərlə yaşayışını təmin edir [11].

Banklar tərəfindən nağdsız hesablaşmaların asanlıqla həyat keçirilməsinə şərait

yaradır. Müasir dövrdə ölkəmizdə fəaliyyət göstərən kommmersiya bankları ikili xarakter daşıyır. Belə ki, onlar həm kommersiya təşkilatı olmaqla yanaşı həm də ictmai təsisat rolunu oynayırlar. Yəni ki,

kommersiya təşkilatı kimi məqsədləri mənfəət əldə etmək, ictimai təsisat dedikdə isə maliyyə sisteminin bir qanadı başa düşülməlidir.

Bütün dünyada iqtisadiyyatın inkişafında banklar çox böyük rol oynayır. Banklar həmçinin iqtisadi fəaliyyətdə də stimullaşdırıcı təsirə malikdir. Digər tərəfdən bank fəaliyyətinin vergiyə cəlb olunması amili vergi daxilolmalarında böyük əhəmiyyət kəsb etdiyindən, büdcənin formalaşmasında bankların rolu danılmazdır.

Banklar ölkənin iqtisadi inkişafında təkanverici rol oynayır. Son illərdə ölkəmizdə büdcə daxilolmalarında bankların rolu artmaqdadır. Qeyd edək ki, vergi orqanları ilə qarşılıqlı münasibətdə banklar üç mövqedən çıxış edirlər:

❖ müstəqil vergi ödəyicisi kimi;

❖ dövlət və vergi ödəyicisi arasında vasitəçi kimi. Burada vergi ödəyiciləri tərəfindən vergilərin dövlət büdcəsinə banklar vasitəsilə ödənilməsi və ya banklar tərəfindən vergi ödəyicisi haqda vergi orqanının tələb etdiyi məlumatların verilməsi prosesi nəzərdə tutulur;

❖ vergi agenti kimi (ödəmə mənbəyində vergilərin hesablanıb dövlət büdcəsinə köçürülməsi və s.).

Göründüyü kimi, banklarla vergi orqanları arasında qarşılıqlı əlaqələr vergi sistemində özünə məxsus yer tutur. Bu münasibətlərin özünə məxsusluğu həm də ondadır ki, qarşılıqlı münasibətlər nəinki bankların, həm də onların müştəriləri olan vergi ödəyicilərinin maraqlarına toxunur.

Azərbaycanın bank sisteminin inkişaf strategiyasının əsasını sərbəst maliyyə ehtiyatlarının mobilizasiyası, maliyyə ehtiyatlarının investisiya şəklində real sektora

transformasiyası və daha effektiv paylaşdırılması təşkil edir. Bunun üçün bank sisteminin özünün keyfiyyətcə yeni inkişafına, müasir bank texnologiyalarının tətbiqinə, təkmil və sabit qanunvericilik bazasının formalaşdırılmasına və s. islahatlara ehtiyac var. Bu baxımdan bank sisteminin inkişafına bilavasitə təsir edən vergitutma mexanizmi və nəzarət funksiyalarının təkmilləşdirilməsi istiqamətində bir sıra işlər həyata keçirilməlidir [11].

İlk öncə vergi orqanları tərəfindən vergi ödəyicilərinin bank filiallarında olan

hesablaşma (və ya digər) hesablarına vergi və tədiyyələrin ödənilməsinə dair təqdim

olunan tapşırıqların icrası vəziyyətini yaxşılaşdırmaq lazımdır. Bir çox hallarda icra

sənədləri bankların filialları tərəfindən heç bir hüquqi əsas olmadan geri qaytarılır və bankın baş ofisinə təhvil verilməsi tövsiyə olunur. Bankın baş ofisi tərəfindən isə

həmin sənədlər müxtəlif səbəblərə görə filiallara vaxtında göndərilmir. Buna görə sənədlərin (sərəncamların) icrası müddəti süni olaraq uzadılır. Bu problemin həlli yolu kimi Mərkəzi Bankın respublikada fəaliyyət göstərən banklara vergi orqan-larının icra sənədlərinin qanunvericilikdə nəzərdə tutulmuş qaydada qəbul olunması tapşırığının verilməsi vacibdir. Bundan başqa, bank əməliyyatlarının aparılması üçün verilmiş lisenziyaları geri alınmış kredit təşkilatlarının büdcə ilə son haqq-hesabların aparılması vaxtında təmin edilməlidir. Lisenziyalar geri alındıqda banklar tərəfindən qanunvericiliyə uyğun olaraq ləğvetmə komissiyası yaradılır və həmin komissiyanın işi başa çatdıqdan sonar bank büdcə ilə son haqq-hesablar aparmalıdır. Əfsuslar olsun ki, lisenziyaları geri çağırılmış əksər kredit təşkilatlarında müvafiq komissiyalar bu günədək yaradılmamış, yaradılsa da belə onların fəaliyyəti hal-hazırda başa çatmamışdır. Bu səbəbdən bu kimi kredit təşkilatları ilə büdcə ilə son haqq-hesabları aparmaq vergi orqanlarının imkanı xaricindədir. Lisenziyaları geri çağırılmış kredit təşkilatlarında ləğvetmə komissiyasının yaradılmasına, ləğvetmə prosesinin aparılması və başa çatdırılmasına nəzarət funksiyalarının gücləndiril-məsi mexanizmi işlənilib hazırlanmalıdır.

Bir fakta da nəzər yetirək. Vergi Məcəlləsinin 111-ci maddəsinə müvafiq olaraq əgər malların təqdimedilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsilə əlaqədar gəlir əvvəllər sahibkarlıq fəaliyyətindən əldə edilən ümumi gəlirə daxil edilmişdirsə, vergi ödəyicisi onlarla bağlı olan ümüdsüz borc məbləğini gəlirdən çıxmaq hüququna malikdir. Azərbaycanda fəaliyyət göstərən kredit təşkilatları isə Mərkəzi Bank tərəfindən müəyyən edilmiş qaydaya uyğun aktivlərin təsnifatından asılı olaraq xüsusi ehtiyat fondunun yaradılmasına aid məbləği bütünlüklə xərclərə daxil edirlər. Bank olmayan digər təsərrüfat subyektlərindən fərqli olaraq, banklar xüsusi ehtiyat fondunu bütün aktivlər, həmçinin ümüdsüz olmayan aktivlər üzrə yaradırlar ki, bu da onların fəaliyyət göstərməsinə daha sərfəli şərait yaradır [2].

**ƏDƏBİYYAT:**


1. Mülki Məcəllə 2016.
2. «Azərbaycan Respublikasinin Mərkəzi Bankı haqqında» Qanun
3. «Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında» Qanun
4. "Banklar və bank fəaliyyəti haqqında" Qanun.
5. Mərkəzi Bankın təlimat, göstəriş və digər normativ aktları.

## Maliyyə bazarının ölkənin sosial-iqtisadi inkişafında rolu və əhəmiyyəti

**Xəlilov Rüfət**
**Azərbaycan Kooperasiya Universiteti, magistrant**
**Elmi rəhbər: iq.f.d. Həsənli Amal**

Maliyyə bazarı elə bazar formasıdır ki, burada əmtəə kimi maliyyə resursları çıxış edir. Başqa sözlə, maliyyə bazarı pul vəsaitlərinin iqtisadi subyeklər arasında bölgüsünü təmin edən bazardır. Onun əsas məqsədi pul vəsaitlərinin səmərəli şəkildə səfərbər edilməsini və onların maliyyə resurslarına ehtiyacı olanlara ötürülməsini təmin etməkdən ibarətdir. Maliyyə bazarının yaranmasının zəruriliyinin əsas amillərindən biri maliyyə ehtiyatlarının qeyri-bərabər bölgüsüdür. Respublikamızda maliyyə bazarının inkişafı ilə bağlı bir çox işlərin görülməsinə baxmayaraq, onun mövcud vəziyyəti hələ də dünya standartlarına tam cavab vermir və bu sahədə bir çox problemlər özünü biruzə verir. Beləliklə də, ölkəmizdə maliyyə bazarı formalaşmaqda olan bazar tipinə aid edilir və daha çox tədbirlərin görülməsinə və sistemin təkmilləşdirilməsinə ehtiyac vardır.

Maliyyə bazarının ölkə iqtisadiyyatının inkişafında rolu və tutduğu mövqe bazar iqtisadiyyatı yolu ilə inkişaf etmiş ölkələrin təcrübəsində kifayət qədər sübuta yetirilmişdir. Lakin bazar iqtisadiyyatına yenicə qədəm qoymuş Azərbaycan Respublikasında maliyyə bazarının yüksək səviyyədə inkişaf etməməsi səbəbindən ölkənin sosial-inkişafında onun rolu bir o qədər də üstün mövqe tutmur. Lakin buna baxmayaraq dövlətin səyləri, maliyyə bazarının inkişafına, eləcə də onun sosial-iqtisadi inkişafa təsirinin maksimumlaşdırılması məqsədilə qəbul edilmiş dövlət proqramlarının icrası nəticəsində onun rolunun artmasına qismən də olsa nail olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 24 Noyabr 2003-cü il tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri" haqqında fərmanında iqtisadçılar və bütövlükdə iqtisadi xidmət sahələri qarşısında bir sıra həlli vacib olan məsələlər qoyulmuş və onun icra mexanizminin müəyyənləşdirilməsi istiqamətində tapşırıqları verilmişdir. Maliyyə bazarının inkişafı və burada resurs təminatının artırılması, ötürülən informasiyanın şəffaflığının maksimum təmin olunması da bu tədbirlər sırasına daxil edilmişdir. Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı, ölkədə biznes mühitinin yaxşılaşdırılması məqsədilə həyata keçirilən tədbirlər və s. nailiyyətlər nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən daim yüksək qiymətləndirilir. Maliyyə bazarının ölkənin sosial-iqtisadi inkişafında rolunun artırılması əsasən dövlət tənzimlənməsindən birbaşa asılıdır ki, bu istiqamətdə dövlətin əsas vəzifələri aşağıdakılardan ibarətdir:

- qiymətli kağızlar bazarının inkişafı üzrə dövlət proqramının həyata keçirilməsi;
- peşəkar iştirakçılar və müştərilər üçün qiymətli kağızlar bazarının təhlükəsizliyinin təmin edilməsi;
- qiymətli kağızlar bazarı haqqında açıq informasiya sisteminin yaradılması və bazar iştirakçıları tərəfindən informasiyanın məcburi açıqlanmasına nəzarət edilməsi.

QKDK-nin qiymətli kağızlar bazarının tənzimlənməsində vəzifələri aşağıdakılardır.

- Qiymətli kağızlarla fəaliyyət sahəsində, o cümlədən, qiymətli kağızlar bazarında dövlət siyasətinin işlənib hazırlanması və onun həyata keçirilməsi, dövlət idarəetməsi, nəzarətin təmin edilməsi;
- Qiymətli kağızlar bazarının təşkili və inkişaf etdirilməsi, əlverişli investisiya mühitinin yaradılması;
- Qiymətli kağızlar bazarında emitentlərin, peşəkar iştirakçıların, fond bazarının fəaliyyəti üzərində nəzarətin təmin edilməsi;
- Qiymətli kağızlar bazarında sağlam rəqabət mühitinin yaradılması;

• Qiymətli kağızlar bazarı iştirakçılarının, o cümlədən investorların, səhmdarların və digər qiymətli kağız sahiblərinin mühafizəsinin təmin edilməsi.

Maliyyə bazarının iqtisadi sistemə təsirini qiymətləndirmək üçün belə bir misala nəzər salaq. Bildiyimiz kimi, inflyasiyanı yaradan səbəblərdən biri də dövriyyədə olan pul kütləsinin artımıdır. Qiymətli kağızlar bazarı ilə inflyasiya qarşılıqlı əlaqədədir. Müvəqqəti sərbəst pul vəsaitlərinin şəxsi istehlaka deyil, investisiya proseslərinə yönəltməklə, inflyasiyanın qarşısını almaq mümkündür.

Bu isə yalnız maliyyə bazarının inkişaf etməsi ilə mümkündür. Burada dövlət qiymətli kağızların rolunu xüsusilə qeyd etmək lazımdır. Dövlət və korporativ qiymətli kağızların buraxılışı absorbent rolunu oynayaraq dövriyyədə olan artıq (izafi) pul kütləsini investisiya məqsədlərinə yönəldir ki, bu da inflyasiyanın qarşısını alır. Hazırda buraxılan dövlət qiymətli kağızları (DQİV və notlar) inflyasiyanın aşağı salınmasında öz rolunu oynayır.

Bazar iqtisadiyyatı və ona keçid şəraitində olan ölkələrdə iqtisadiyyat qarşısında duran əsas vəzifələrdən biri də qarşılıqlı borc problemlərinin, həmçinin müəssisələr arasında ödəmələr məsələsinin həll olunmasıdır. Çünki, qarşılıqlı borc probleminin mövcudluğu özuylə bərabər yeni-yeni problemlər də doğurur. Müəssisə vergiləri ödəyə bilmir, çünki mal alıcıları aldıqları mala görə borclarını ödəmirlər. Dövlət isə öz növbəsində vergi daxilolmalarının azlığından büdcə planını yerinə yetirə bilmir və iqtisadiyyatın bəzi sahələrinə dövlət yardımı gecikdirilir və ya ümumiyyətlə yardım edilmir. Bütün bunlar isə ümumilikdə iqtisadi həyata öz təsirini göstərir və dövlət istər iqtisadi, istər siyasi, istərsə də digər sahələr üzrə gücünü itirir. Beləliklə, müasir dövrdə bu problemlərin həlli üçün dövlət borc bazarının inkişafını daha məqsədəuyğun hesab edir. Bu bazar müəssisənin əsas və dövriyyə vəsaitlərinə olan ehtiyacının təmin olunmasında böyük rol oynayır. Bazarda dövr edən borc qiymətli kağızları ehtiyacı olan sahələri təmin edən qiymətli kağızlar qismində çıxış edir. Borc bazarının əsas elementi olan veksel və istiqrazların hərəkəti zamanı maliyyə resurslarının az effektli sahələrdən çox effektli sahələrə axını baş verir. Bu baxımdan ölkədə borc bazarının inkişafı bütövlükdə müəssisə daxilində olan bir çox problemlərin həllinə kömək edir, resursların səmərəli paylanması təmin olunur. Bu bazarda dövr edən əsas qiymətli kağızlar müxtəlif növ veksellər, korporasiya və dövlət istiqrazları, dövlətin xəzinə öhdəlikləri, əmanət sertifikatları və s. qiymətli kağızlardır.

Müəssisələrin özəlləşdirilməsi bazarın və bazar münasibətlərinin formalaşdırılması; istehsal prosesinə rəqabət qabiliyyətli müəssisələrin cəlb edilməsi; istehsalın idarə olunmasında çevikliyin yüksəldilməsi; xarici investisiyaların cəlb olunması; fond birjası və fond bazarının formalaşdırılması; büdcə kəsirinin azaldılması və ləğv edilməsi və s. kimi problemlərin həlli ilə əlaqələndirilirdi.

Onu da qeyd edək ki, özəlləşdirmə prosesinin 20 ilə yaxın bir müddətdə həyata keçirilməsinə baxmayaraq hələ də bir çox müəssisələr özəlləşdirilməmişdir.

Bunun bir səbəbi özəlləşdirmə prosesinə xarici investorların cəlb edilə bilməməsidir. Bunun üçün qiymətli kağızlar bazarı və ölkədə mövcud olan investisiya şəraiti barədə informasiyanın daha çox verilməsi vacibdir. Digər tərəfdən heç də bütün müəssisələr özəlləşdirilməyə cəlb olunmur. Bu, həmin müəssisələrin dövlət üçün xüsusi strateji əhəmiyyət daşıması ilə əlaqədardır. Bildiyimiz kimi Respublika Prezidentinin Fərmanına əsasən Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) qəbul olunmuşdur. Bu proqramda respublikamızın regionlarında müxtəlif iqtisadi və sosial təsərrüfat sahələrinin inkişaf etdirilməsi və mərkəz ilə regionlar arasında bu sahələrdə tarazlığın bərpası nəzərdə tutulmuşdur. Proqramda yuxarıda göstərilənlərlə əlaqədar olaraq müxtəlif tədbirlər, onların məqsədi və icraçıları müəyyən olunmuşdur. Proqramda müəssisələrin fəaliyyətinin bərpa edilməsi, maliyyə bazarının inkişaf etdirilməsi məqsədilə özəlləşdirmə prosesinin sürətləndirilməsi, orta və iri müəssisələrin səhmdar cəmiyyətlərinə çevrilməsi və onların səhmlərinin

satışı bəndi nəzərdə tutulmuşdur ki, bu cür irimiqyaslı dövlət proqramının həyata keçirilməsində qiymətli kağızlar bazarının nə dərəcədə böyük rol oynamasından xəbər verir.

2000-ci ildə "Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı" proqramı (iyul 2000-ci il - dekabr 200-ci il) qəbul olundu. Bu proqramda Azərbaycan Respublikasının qiymətli kağızlar bazarında dövlət siyasətinin və qiymətli kağızlar bazarının inkişafının əsas istiqamətləri müəyyən olunmuşdur. Bazarın inkişafının əsas istiqamətləri kimi qiymətli kağızlar bazarının qanunvericilik bazasının formalaşdırılması, qiymətli kağızlar bazarının infrastrukturunun inkişaf etdirilməsi, institusional investorlar sisteminin yaradılması, qiymətli kağızlar bazarında investorların hüquqlarının qorunması, qiymətli kağızlar bazarı üzrə mütəxəssislərin hazırlanması, beynəlxalq əlaqələrin inkişafı, qiymətli kağızlar bazarında açıq informasiya sisteminin yaradılması nəzərdə tutlmuşdur.

Sosial-iqtisadi inkişafda maliyyə bazarının rolunun artırılması iqtisadi mühitdə investisiya iqliminin mövcudluğundan və inkişafından da asılıdır. Bu iqlim çoxlu sayda elementlərdən yaranır və onları aşağıdakı qrupda birləşdirmək olar:

- Ölkədə mövcud olan sosial – siyasi situasiya və onun perspektivləri;
- Daxili iqtisadi vəziyyət və onun inkişaf pespektivləri;
- Daxili iqtisadi fəaliyyət mexanizmivə onun perspektivləri.

Ümumiyyətlə, əlverişli investisiya iqliminə aşağıdakı faktorlar müsbət təsir göstərirlər:

1) Dövlətin sahibkarlığa kömək siyasətinin stabil olması;
2) Güzəştli vergi rejimi;
3) Maliyyə vəsaitlərinin axınına şərait yaradan tədbirlər sistemi;
4) İnnovasiya mərkəzlərinin yaradılması;
5) Müəssisələrə maliyyə yardımının göstərilməsi üçün firma şəbəkəsinin inkişafı;
6) Konsultasiya mərkəzləri;
7) İntellektual mülkiyyətin effektiv müdafiə sistemi;
8) Təsərrüfat fəaliyyətinin tənzimlənməsi prosedurasının sadələşdirilməsi;
9) İşçi qüvvəsi keyfiyyətinin yüksəldilməsi;
10) İnformasiya texnologiyası və kommunikasiya vasitələri ilə təminatlıq dərəcəsi;
11) Müvəffəqiyyət əldə olunmasının orienterləri;
12) Yaradıcılıq azadlığı və s.

Müasir dövrdə iri firmaların hamısı əvvəlcə ölkənin biznes infrastrukturunu və investisiya iqlimini müəyyən edir və daha sonra həmin ölkəyə investisiya qoyuluşu haqda fikirləşir. Yuxarıda investisiya iqliminə təsir edən bəzi faktorları göstərmişdik. Bunlardan başqa xarici investisiyaların tənzimlənməsi və qorunması sahəsində olan qanunvericilik sistemi əmək və sosial qanunvericilik sistemi ölkədə azad iqtisadi zonaların olması, vergi qanvericiliyi və s. investisiya iqlimini formalaşdıran mühüm amillərdən hesab olunur. Dünya təcrübəsi göstərir ki, inkişaf etmiş biznes infrastruturuna malik olan ölkələr investorları özlərinə daha çox cəlb edirlər. İnvestorlar belə ölkələri əlverişli investisiya iqliminə malik olan ölkələr kimi qiymətləndirirlər.

Respublikamızda sosial-iqtisadi inkişafın stimullaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidenti tərəfindən "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" təsdiqlənmişdir ki, bu proqramın həyata keçirilməsi üzrə tədbirlə planında maliyyə bazarının inkişafına istiqamətlənmiş bir çox tapşırıqlar öz əksini tapmışdır. Bu tapşırıqların icrasına dair aşağıdakı işlər görülmüşdür8:

▪ 2012-ci ilin fevral ayından etibarən qiymətli kağızların ticarət, saxlanc və depozitar sistemi elektron ödəniş sistemləri ilə inteqrasiya edilmiş və avtomatlaşdırılmış ticarət mexanizmlərinin tətbiqinə başlanmışdır. İnteqrasiya edilmiş ticarət sisteminin hüquqi bazasının müasirləşdirlməsi məqsədilə Bakı

Fond Birjası (BFB) və Milli Depozit Mərkəzi (MDM) arasında "Klirinq fəaliyyətinin həyata keçirilməsi" və "Birjada aparılmış əqdlər üzrə hesablaşmaların və uçotun həyata keçirilməsi Qaydaları"nın layihəsi hazırlanmışdır;

▪ Bakı Fond Birjasında 3 səviyyəli listinq mexanizmləri yaradılmış və bununla da müxtəlif maliyyələşmə tələblərinə malik şirkətlər üçün əlverişli mühit yaradılmışdır. Eyni zamanda şirkətlərin kapital bazarına çıxış imkanlarının artırılması və bu sahədə məsləhət xidmətlərinin göstərilməsi üçün Bakı Fond Birjası tərəfindən "Listinq Məsləhət Proqramı" hazırlanaraq tətbiqinə başlanılmışdır. Proqram çərçivəsində hər bir listinq kateqoriyasına aid potensial şirkətlərin siyahısı müəyyən edilərək, onlarla müntəzəm görüşlər təşkil edilmişdir. Şirkətlərə fond bazarından alternativ maliyyə mənbəyi kimi istifadənin üstünlükləri barədə ətraflı məlumat verilmiş və müxtəlif seminar və treyninqlər keçirilmişdir;

▪ İnvestisiya fondlarının fəaliyyətini təmin edən normativ hüquqi baza hazırlanması 2011-ci ildə tamamlanmışdır. 2012-ci il ərzində mütəmadi olaraq investisiya fondlarının fəaliyyətini təşviqedici, bu sahədə məlumatlandırıcı təlim və treyninqlər həyata keçirilmişdir. Eyni zamanda bankların kapital bazarlarından daha aktiv istifadəsi və yığım əsaslı pensiya fondlarının fəaliyyətinin təşkili ilə əlaqədar tədqiqatların aparılmasına başlanılmışdır;

▪ QKDK-da müntəzəm olaraq keçirilən təlim seminarları və kurslarda bazar iştirakçılarının iştirakı təmin edilmişdir. Onlara qiymətli kağızlar bazarının tənzimlənməsi sahəsində qabaqcıl beynəlxalq təcrübə barədə ətraflı məlumat verilmiş, müvafiq metodoloji dəstək göstərilmişdir;

▪ Səhmdar cəmiyyətlərində mühüm iştirak payının əldə edilməsi, cəmiyyətlərin yenidən təşkil edilməsi zamanı səhmdarların hüquqlarının müdafiəsi, təsis edilməsi və kapitallarının dəyişilməsi ilə bağlı milli qanunvericiliyin müddəalarının Avropa Birliyi qanunvericiliyinə uyğunlaşdırılması məqsədilə "Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əlavə və dəyişikliklərin edilməsi barədə" Qanun layihəsi hazırlanmışdır. Qeyd olunan Qanun layihəsinin müvafiq mərkəzi icra hakimiyyəti orqanları ilə razılaşdırılması tamamlanmış və 29 oktyabr 2012-ci il tarixində AR Nazirlər Kabinetinə təqdim olunmuşdur;

▪ QKDK-nın analitik potensialının artırılması məqsədilə "Kütləvi təklif zamanı qiymətli kağızların yerləşdirilməsi", "Kapital bazarı vasitəçilərinin prudensial tənzimlənməsi", "Şirkətlərin satınalınması prosedurları", "Prospektə dair tələblər, "İnvestisiya şirkətlərinə tətbiq olunan daxili uçot və hesabatlıq sistemi tələbləri" kimi mövzular daxil olmaqla ölkə daxilində və xaricdə keçirilmiş təlim və seminarlarda QKDK əməkdaşlarının iştirakı təmin olunmuşdur. Bütövlükdə, QKDK əməkdaşlarının 21 faizi ölkəxarici, 63 faizi isə ölkədaxili təlim və seminarlarda iştirak etmişlər;

▪ QKDK-da fəaliyyət göstərən dövlət qulluqçularının reyestr məlumatlarında hər hansı dəyişikliklər barədə informasiya mütəmadi olaraq Prezident Administrasiyasına və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya (DQMK) təqdim olunmaqdadır. Bu istiqamətdə hesabat dövrü ərzində sözügedən dövlət qurumlarına ümumilikdə 6 informasiya təqdim olunmuşdur;

▪ Qiymətli kağızlar bazarında şirkətlərin fond bazarından maliyyələşməyə təşviq edilməsi məqsədilə Listinq Məsləhət Proqramının tətbiqinə start verilmişdir. Bu istiqamətdə potensial şirkətlərdən ibarət məlumat bazası, treyninq və maarifləndirici materiallar hazırlanmış və Listinq Məsləhət Qrupu formalaşdırılmışdır. Kapital bazarı vasitəsilə maliyyələşməyə hazır olan potensial şirkətlərin listinqə çıxarılması istiqamətində intensiv işlər aparılmışdır;

▪ Qabaqcıl korporativ idarəetmə standartların tətbiqi məqsədi ilə Azərbaycan Respublikasının Mülki Məcəlləsinin səhmdar cəmiyyətlərinə dair maddələrinə dəyişikliklərin edilməsi haqqında Qanun layihəsi müvafiq mərkəzi icra hakimiyyəti orqanları ilə razılaşdırılaraq Nazirlər Kabinetinə təqdim edilmişdir. Qeyd olunan layihə "Müəssisələr haqqında" Qanun Layihəsinin təkibinə daxil edilmişdir.

Eyni zamanda dövr ərzində hüquqi və fiziki şəxslərdən daxil olan ərizələr üzrə araşdırmaların və inzibati xətalara dair işlər üzrə icraatın aparılmasının qanunvericiliyə uyğun effektiv və səmərəli həyata keçirilməsi məqsədi ilə daxil olan şikayət ərizələri üzrə araşdırmaların aparılmasında və QKDK-nın səlahiyyətlərinə aid inzibati xətalar haqqında işlər üzrə icraatın həyata keçirilməsinin vahid qayda və prosedurlarını müəyyən edən "İnvestorların müraciətləri üzrə araşdırmaların və inzibati xətalara dair işlər üzrə icraatın aparılması" Metodologiyası hazırlanaraq təsdiq edilmişdir və s.

Bildiyimiz kimi, maliyyə bazarının iştirakçılarının bir qismini əhali təşkil edir. Respublikamızda maliyyə bazarının seqmentləri yüksək səviyyədə inkişaf etmədiyindən əhalinin burada iştirakı minimum səviyyədədir və bu demək olar ki, yalnız banklara əmanətlərin qoyuluşunda öz əksini tapmışdır.

**ƏDƏBİYYAT:**


1. Azərbaycan Respublikası Vergi Məcəlləsi. Bakı 2015
2. "2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı" haqqında Dövlət Proqramı. 16 may 2011-ci il
3. Z.F.Məmmədov "Beynəlxalq valyuta-kredit münasibətləri və xarici ölkələrin pul-kredit sistemi" Bakı 2008
4. A.H.Abbasov "Azərbaycanda maliyyə bazarının formalaşması və bazar
5. iqtisadiyyatında maliyyə-kredit sisteminin problemləri". Bakı 2003
6. M.C.Atakişiyev, N.M.Şıxəliyeva, R.N.Nurəliyeva "Maliyyə menecmenti".
7. Bakı-"Azərnəşr"-2010
8. В.И.Финансовые рынки: учебное пособие. — спб.: Изд-во СЗАГС, 2005
9. Д.Г. Бачурин "Рынок корпоративного контроля". Тюмень 2013
10. www.cbar.az – AR Mərkəzi Bankının rəsmi saytı
11. www.maliyye.gov.az – Maliyyə Nazirliyinin rəsmi saytı
12. www.economy.gov.az – İqtisadiyyat Nazirliyinin rəsmi saytı

**Müəssisədə işçilərin qiymətləndirilməsi üsulları, qiymətləndirmədə yaranan problemlər və onların həlli yolları**

**Xəlilli Lalə**
**Azərbaycan Universiteti, MBA (Menecment) Magistrant**

Müəssisədə işçilərin qiymətləndirilməsi, işin tənzimləməsi və performans idarəedilməsinin ən vacib və əsas hissəsidir. Bu proses, işçilərin göstərdiyi iş performansını, onların mövcud və gələcək potensiallarını qiymətləndirərək, əsasən müəssisədəki işlərin effektivliyini artırmağa imkan verir. Eyni məktəbdən məzun olan,eyni təhsil alan və eyni sahəyə yönələn işçilərin bir müddət sonra yolları ayrıla bilər və birinin karyerası yüksələrkən digəri sadəcə yerində saya bilər. Bu fərqliliyin əsas səbəbi onların performansındadır. Performans, müəyyən edilmiş şərtlərə görə işin yerinə yetirilmə səviyyəsi və ya işçinin davranışı kimi müəyyənləşdirilə bilər. Başqa ifadəylə desək, performans müəyyən müddət ərzində ona təyin edilmiş vəzifəni yerinə yetirərkən bir işçinin əldə etdiyi nəticədir. Bu nəticə müsbət olduqda, personalın ona verilən vəzifə və öhdəlikləri müvəffəqiyyətlə yerinə yetirdiyi və üstün performansa sahib olduğu aydın olur. Nəticə mənfi olarsa, işçinin məhsuldar olmadığı və fəaliyyət səviyyəsinin aşağı olduğu aydın olur. İşçilərin qiymətləndirilməsi üçün aşağıdakı üsullar istifadə edilə bilər:

1. Məqsəd müqayisəsi üsulu: Bu üsulda, işçinin əvvəlki işindən nəticə alınır və yeni işi ilə müqayisə edilir. Bu üsul işçinin müvəffəqiyyətini izləmək üçün düzgün hesab edilir.Məqsəd müqayisəsi üsulu dedikdə, işçinin əvvəlki işindən nəticənin alınması və yeni işi ilə müqayisə edilməsi ilə əsaslanan işçinin qiymətləndirilməsi üsuludur. Bu üsulda, işçinin əvvəlki performansı ilə yeni performansı müqayisə edilərək, onun müvəffəqiyyətindəki dəyişikliklər nəzərə alınır.Bu üsul, işçinin göstərdiyi potensialın qiymətləndirilməsi üçün ideal hesab olunur. Həmçinin, işçinin nəzarət edilən məhsuldarlığı, istifadə etdiyi texniki alətlər və digər amillər nəzərə alınaraq, işçinin necə performans göstərdiyi daha düzgün şəkildə qiymətləndirilə bilər;

2. Mərkəzləşdirilmiş qiymətləndirmə: iş tənzimləməsi və performans idarəetməsinin bir hissəsi olaraq, müəyyən bir dövr ərzində işçinin performansını qiymətləndirən formal prosesdir. Bu metod, iş tənzimləməsinin tələblərini və gözləntilərini təyin edərək, işçinin öhdəliyini, tapşırıqlarını və performansını müəyyənləşdirir.

Mərkəzləşdirilmiş qiymətləndirmə prosesi, iş tənzimləməsi planına uyğun olaraq performans göstəricilərini təyin edir. Bu göstəricilər, işçinin nəticəsini, davranışını, mükəmməllik səviyyəsini və təşkilatda rolunu,bütövlükdə isə fəaliyyətini müəyyənləşdirir. Bu, işçilərin performansını obyektiv və ədalətli şəkildə qiymətləndirmək imkanı verir. Mərkəzləşdirilmiş qiymətləndirmə performans sənədlərinin, nəzarət və baxış təqib olunmasının və iş tənzimləməsinin bütün aspektlərinin dəyərləndirilməsini əhatə edir. Bu proses , işçilərin performansında müsbət dəyişikliklərin nəticəsini müəyyən edir;

3. Nəzarət və qiymətləndirilmə üsulu: Bu üsulla işçilərə verilən tapşırıq və müddət nəzarət edən idarəçi tərəfindən qiymətləndirilmə aparılır. Bu üsul işçilərin performanslarını nəzarət etmək üçün istifadə edilə bilər;

4. Rəy vermə üsulu: Bu üsul vasitəsi ilə işçilərin performansı üzərində işdən kənar şəxslərin fikirləri əsasında qiymətləndirilmə aparılır. Bu üsul işçilərin performansını obyektiv qiymətləndirmək üçün istifadə edilə bilər;

5. 360 dərəcəlik qiymətləndirmə üsulu: Bu üsul işçilərin performansı, onların iş tərəfindən işçi, müştəri, həmkarı və idarəçilər tərəfindən qiymətləndirilməsi əsasında aparılır. Bu üsul işçilərin performansını tam, obyektiv və dəqiqliklə qiymətləndirmək üçün təyin oluna bilər;

6. Hədəfə əsaslanan qiymətləndirmə üsulu: Bu üsulla işçilərə verilən hədəf və tapşırıqlar,onların performanslarına uyğun şəkildə qiymətləndirilir. Bu üsul işçilərin hədəflərini yerinə yetirərək müəssisədəki performansı artırmaq məqsədi daşıyır;

Hər hansı təşkilatda işçinin qiymətləndirməsi zamanı yarana biləcək problemlər aşağıdakılar ola bilər:

1. Ölçüləcək performans göstəricilərinin yoxluğu: İşçinin qiymətləndirməsi prosesinin məqsədi işçilərin performansının ölçülməsidir. Lakin bir çox təşkilatlarda bu proses üçün əhəmiyyətli performans göstəriciləri yoxdur və yaxud doğru olmayan göstəricilər seçilir. Bu durum, işçilərin dəyərləndirməsinin doğru və ədalətli olmasına mane olur;

2. Ölçülən göstəricilərin həqiqətə uyğun olmaması: Bəzən işçinin qiymətləndirilməsi zamanı, ölçülən performans göstəriciləri işçinin həqiqi performansını tam olaraq əks etdirmir. Bu səbəbdən də, işçinin dəyərləndirməsi yanlış  və ədalətsiz olur;

3. Dəyərləndirmə prosesinin subjektiv olması: İşçinin qiymətləndirilməsi prosesi zamanı, dəyərləndiricilərin fərqli fikirləri, baxışları və həyata keçirdikləri metodlar müəyyən təsir göstərə bilər. Belə halda dəyərləndirmə prosesi subyektiv olur və ədalətsizlik ehtimalı artır;

4. Hədəflərin, göstəricilərin və proseslərin açıqlıqdan kənar olması: İşçinin qiymətləndirilməsi prosesi zamanı, hədəflərin, göstəricilərin və proseslərin açıqlıqdan kənar olması nəticəsində, işçilər həmişə müəyyən  məsafədən qiymətləndirilir və dəyərləndirilmələr yanlış nəticələrə gətirib çıxarır;

Təşkilatda işçinin qiymətləndirilməsində yaranan problemləri həll etmək üçün aşağıdakı üsullar tətbiq edilə bilər:

1. Performans göstəricilərini müvafiq seçmək: İşçinin qiymətləndirilməsi prosesi üçün müvafiq performans göstəriciləri seçilməlidir. Bu isə prosesin doğru və ədalətli olmasına kömək edir;

2. Ölçülən performans göstəricilərinin doğruluğunu yoxlamaq: İşçinin qiymətləndirilməsi prosesi zamanı, ölçülən performans göstəricilərinin doğruluğunu yoxlamaq, işçinin həqiqi performansını tam olaraq ölçməyə kömək edir;

3. Dəyərləndirmə prosesini obyektivləşdirmək: İşçinin qiymətləndirilməsi prosesinin obyektiv və ədalətli olması üçün müvafiq protokollar, metodlar və nəticələr tətbiq etmək lazımdır;

4. Hədəflərin, göstəricilərin və proseslərin açıqlığını artırmaq: İşçinin qiymətləndirməsi prosesi üçün hədəflər, göstəricilər və proseslər açıq və dəqiq olmalıdır. Bu, işçilərin performansını daha doğru və ədalətli qiymətləndirilməsinə kömək edir;

5. İşçilərə geri bildirim vermək: İşçinin qiymətləndirilməsi prosesi zamanı işçilərə geri bildirim vermək, onların inkişafı üçün yararlı olur. Geri bildirim, işçilərin güclü və zəif tərəflərinə diqqət yetirilməsinə və inkişafının  tələb olunan sahələrə fokuslanmasına kömək edir;

6. Eyni işlərdə işçiləri müqayisə etmək: İşçinin qiymətləndirilməsi prosesi zamanı, müvafiq müqayisələr etmək əhəmiyyətli olur. Eyni işlərdə işçilər arasında müqayisə aparmaq, hər bir işçinin performansını daha doğru və ədalətli  qiymətləndirilməsinə kömək edir;

Bu problemlərin həlli üçün, proseslərin yenidən qiymətləndirilməsi,dəqiqliyin və əlaqələrin artırılması,hədəflərin dəyişdirilməsi və ya təlimlər kimi müxtəlif üsullardan istifadə edilə bilər.Ən önəmli məsələ isə işçilərin qiymətləndirilməsi prosesinin obyektiv və ədalətli şəkildə aparılmasıdır.

**ƏDƏBİYYAT:**

1. Голованъ,Н.О.Методические подходы к оценке кадрового потенциала / Н.О.Голованъ / Молодой ученый-2021, №2 (344) январъ,2021 г-с.252-254.

2. Беспалова О.В.Методологический падход к Кадровому потециалу предприятия/ О.В.Беспалова / -2017.-с.69-72.
3. Климшина Т.В. Оценка кадрового потенциала организации/ Экономика труда // sprafochnick.ru// https://spravochnick.ru/ocenka_ka..pdf
4. Как оценитъ потенциал сотрудника в компании: какие критерии,методы при этом исполъзуются HR-менеджером/ Кадровое агентсво.
5. Оценка и контролъ персонала//osenka_kontrol_audit_kadrov.p

## Azərbaycan Respublikası ilə Moldova Respublikasının vergi sisteminin fərqli və oxşar cəhətləri.

**Məmmədova Rəqsanə**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Elmi rəhbər: dos.Mikayılova Nurəngiz**

Azərbaycan xalqını milli müstəqilliyə aparan yol nə qədər kəşməkəşli olsa da, bu tarixi həqiqət bütün azərbaycanlılarda qürur və fəxarət hissi doğurur. Azərbaycan 1918-ci il mayın 28-də müsəlman şərqində öz müstəqilliyini elan edən ilk demokratik respublika kimi tarixə düşmüş, xalqımız qısamüddətli olsa da, müstəqillik ideallarına qovuşmuşdur. Azərbaycan Cümhuriyyətinin qarşıya qoyduğu əsas vəzifələrdən biri, iqtisadi müstəqilliyin təmin olunması və müstəqil maliyyə-fiskal-vergi sisteminin qurulması idi. Mövcud olduğu 23 ay müddətində dövlətin iqtisadi siyasətini həyata keçirəcək nazirlik və müvafiq qurumlar təsis edildi, dövlətin iqtisadi tənzimləmə fəaliyyətini təmin etmək və gücləndirmək üçün büdcə-fiskal siyasətinin istiqamətləri müəyyənləşdirildi. Azərbaycanda vergi xidməti 1919-cu il iyunun 17-də parlamentin qəbul etdiyi qərarla Maliyyə Nazirliyinin nəzdində Vergi Müfəttişliyinin təsis olunması ilə yaradıldı.

Mütəxəssislər Azərbaycan Cümhuriyyətinin fəaliyyət göstərdiyi 23 ay ərzində həyata keçirmək istədiyi maliyyə-vergi siyasətini şərti olaraq 2 hissəyə bölürlər:

1. Cari dövr üçün maliyyə-fiskal siyasət. Bu dövrdə Azərbaycan Cümhuriyyəti özünün mövcud maliyyə resurslarından tam və düzgün istifadə etmək siyasəti yürüdüb;
2. Cümhuriyyət özünün imkanlarını müəyyən etdikdən sonra həyata keçirdiyi maliyyə-vergi siyasəti. Bu siyasətin əsas prioritetləri isə vergilərin artırılması deyil, tədiyyə qabiliyyətinin yüksəldilməsi yolu ilə vergilərin tədricən azaldılmasına üstünlük verilməsi idi.

AXC-nin yaranması XX əsrdə Azərbaycan xalqının dövlətçilik tarixində şərəfli yer tutan bir dövlət qurumu idi. Lakin, Birinci Dünya müharibəsi nəticəsində yaranmış siyasi mühit Azərbaycan xalqının da tarixi taleyində mühüm rol oynadı. Sovet Rusiyasının nüfuz dairəsinə keçən Şimali Azərbaycanda Şərqdə ilk respublika olan Azərbaycan Cümhuriyyəti 1920-ci ilin aprelində süqut etdi. Burada rus ordusunun köməyi ilə Azərbaycan Sovet Sosialist Respublikası yarandı. SSRİ yaradılarkən onun əsasında 4 dövlət qurumu olmuşdur — Rusiya SFSR, Belarusiya SSR, Ukrayna SSR və tərkibində 3 (Azərbaycan SSR, Gürcüstan SSR, Ermənistan SSR) dövləti birləşdirmiş Zaqafqaziya SFSR. 1936-cı ilədək SSRİ-nin tərkibində əlavə Özbəkistan SSR, Türkmənistan SSR, Tacikistan SSR, Qırğızıstan SSR və Qazaxıstan SSR təşkil edilmişdi. Həmçinin, 1936-cı il islahatlarının nəticəsi olaraq Zaqafqaziya SFSR parçalandı. Beləliklə, SSRİ formal 11 dövlətdən ibarət ittifaqa çevrildi. II Dünya Müharibəsindən qalib çıxmış SSRİ tərkibinə Litva SSR-i, Moldova SSR-i, Estoniya SSR-i və Latviya SSR-i də qatdı. Bu ölkələrin vergi məsələləri də məhz Sovet İttifaqının vergi qanunları ilə tənzimlənirdi.

25 dekabr 1991-ci il tarixində SSRİ Dövlət Başçısı Mixail Qorbaçovun istefa etməsinin ardından Sovetlər Birliyini təşkil edən respublikaların müstəqilliyini qazanmalarıyla Sovet Sosialist Respublikaları İttifaqı dağılmış oldu. 70 illik əsarətdən qurtulmuş bu dövlətlər dünya arenasında möhkəm mövqe tutmaq üçün, dövlətin iqtisadiyyatını gücləndirmək üçün müxtəlif islahatlar həyata keçirməyə başladılar.

Bilirik ki, dövlətin siyasi, iqtisadi, sosial və digər çoxşaxəli vəzifələrinin yerinə yetirilməsi yalnız dövlət büdcəsi vasitəsilə maliyyələşir. Büdcə müəyyən dövr ərzində dövlətin, müəssisə və təşkilatın, ailə və ayrı-ayrı şəxslərin pul gəlirləri və xərcləri balansıdır (planıdır).Yəni dövlət büdcəsi əsas hissəsini vergi tutulmaları təşkil edir. Məhz bu səbəbdən vergi sahəsində ciddi islahatlar həyata keçirilməsinə başlanıldı.

Azərbaycan Respublikasının vergi sistemi müstəqillik elan edildikdən sonra, 1991-ci ilin sonu, 1992-ci ilin əvvəllərində təşəkkül tapmağa başlamışdır.

11 fevral 2000-ci il tarixli fərmanla Baş Dövlət Vergi Müfəttişliyi ləğv edilib, onun bazasında Vergilər Nazirliyi yaradıldı. 2001-ci il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsi müstəqil Azərbaycanın həyatında yeni hadisə olaraq vergi sisteminin təkmilləşdirilməsi və onun beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində atılmış mühüm addımlardan biri kimi tarixə düşdü. Hazırkı dövrdə Azərbaycan Respublikasının vergi sistemi ölkənin təsərrüfat mexanizminin fəaliyyətini təmin edir, dövlətin təxirəsalınmaz ehtiyaclarını maliyyələşdirməyə imkan verir, büdcə kəsirinin artımının qarşısını alır.

Azərbaycan Respublikası ərazisində verginin 3 növü mövcuddur:

1) Dövlət vergiləri;

2) Yerli vergilər (bələdiyyə vergiləri).

3) Muxtar respublika vergiləri;

SSRİ-nin dağılması ilə öz müstəqilliyini bərpa edən dövlətlərdən biri də Moldova Respublikası oldu. Moldova Respublikasında 1992-ci il noyabrın 17-də Respublika Parlamenti "Vergi sisteminin əsasları haqqında" qanun qəbul etdi. Moldova Respublikasının vergi sistemi vergi qanunvericiliyi ilə nəzərdə tutulmuş vergilər (rüsumlar) və ödənişlər, onların yaradılması, dəyişdirilməsi və ləğvi prinsipləri, formaları və üsulları, habelə onların ödənilməsini təmin edən tədbirlər məcmusudur. Vergi qanunvericiliyi Məcəllədən və ona uyğun qəbul edilən digər qanunvericilik aktlarından ibarətdir. Məcəlləyə və digər vergi qanunvericiliyi aktlarına uyğun olaraq yığılan vergilər (rüsumlar) və ödənişlər respublika dövlət büdcəsinin gəlir mənbələrindən biridir.

Vergitutma subyektləri vergi ili ərzində Moldova Respublikasında yerləşən istənilən mənbələrdən gəlir əldə edən hüquqi və fiziki şəxslər, eyni zamanda Moldova Respublikasından kənarda yerləşən mənbələrdən investisiya və maliyyə gəlirləri əldə edən hüquqi və fiziki şəxslər - rezidentlərdir. Vergitutma subyektləri bütün mənbələrdən əldə etdikləri ümumi gəlirləri bəyan etməlidirlər. Vergitutma obyekti hər hansı hüquqi və ya fiziki şəxsin bütün mənbələrdən əldə etdiyi ümumi gəlirdən (o cümlədən müavinətlərdən) bu şəxsin hüququna malik olduğu ayırmalar və güzəştlər çıxılmaqla əldə edilir. Vergi ödəyicisinin çəkdiyi xərclər sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı xərclərdən və şəxsi xərclərdən ibarətdirsə, çıxılma yalnız sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı xərclər şəxsi xərclərdən üstün olduqda və xərclərin yalnız sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə birbaşa aid olan hissəsi olduqda icazə verilir.

İşçilərin ezamiyyəti, nümayəndəlik xərcləri, hüquqi şəxslərin sığorta xərcləri ilə bağlı xərclərin çıxılmasına hökumət tərəfindən müəyyən edilmiş həddə icazə verilir.

Moldova Respublikasi ərazisində isə verginin 2 növü var:

1) Dövlət vergiləri;

2) Yerli vergilər.

Azərbaycan Respublikası ilə Moldova Respublikasının vergi sistemləri arasında olan oxşar və fərqli cəhətlərə nəzər salmadan öncə iki dövlət arasında olan əməkdaşlıqdan bəhs etmək istərdim. Az öncə qeyd etdiyim kimi hər iki ölkə SSRİ-nin tərkibində müttəfiq respublika olublar. Azərbaycan və Moldova xalqları arasında həmişə dostluq münasibətləri olub. Müstəqilliyimizin bərpasından sonra əlaqələrimiz yeni müstəvidə inkişaf etməyə başlamışdır. --Belə ki, iki dövlət arasında diplomatik əlaqələr hələ 1992-ci il may ayının 18-də qurulmuşdur. 1997-ci il noyabrın 26-28-də Moldova Prezidenti Petru Luçinskinin Azərbaycana ilk rəsmi səfəri iki ölkə arasında əlaqələrin genişləndirilməsində böyük əhəmiyyəti olub. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Moldova Prezidenti Petru Luçinski ilə görüşərək ikitərəfli münasibətlər, beynəlxalq təşkilatlar çərçivəsində birgə əməkdaşlığa dair məsələlər, Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında müzakirələr aparıblar. Bu görüş Azərbaycan və Moldova arasında yüksək səviyyədə keçirilən ilk görüş olub. İki ölkə arasında olan

önəmli əməkdaşlıqlardan biri 1997 il Noyabr ayının 27-də Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında ikiqat vergiyə cəlb etməyə yol verilməməsi, gəlir və əmlak vergilərinin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında Konvensiya imzalanması oldu. Bu saziş 28 Yanvar 1999-cu ildə qüvvəyə minmiş, 2000-ci il Yanvar ayının 1-dən tətbiq edilməyə başlanmışdır.

Indi isə hər iki dövlətin vergi sisteminin dövlət vergiləri üzərindən müqayisəsinə baxaq. Qeyd edim ki, dövlət vergilərinə - fiziki şəxslərin gəlir vergisi, hüquqi şəxslərin mənfəət vergisi (bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan başqa), əlavə dəyər vergisi, aksizlər, hüquqi şəxslərin əmlak vergisi, hüquqi şəxslərin torpaq vergisi, yol vergisi, mədən vergisi, sadələşdirilmiş vergi aiddir.

İlk öncə iki dövlətin ƏDV( əlavə dəyər vergisi)-dən tutulmaları müqayisə edək.

Azərbaycan Respublikasında malların (işlərin, xidmətlərin) təqdim olunmasına tətbiq olunan ƏDV dərəcəsi 18% təşkil edir. Bundan başqa, ƏDV – nin Vergi Məcəlləsində təsbit olunan güzəştli 0 (sıfır) faiz dərəcəsi ilə tətbiq olunması və Vergi Məcəlləsinin 164 – cü maddəsində təsbit olunan ƏDV – dən azad olunması halları da mövcuddur.

Moldova Respublikasında isə adi ƏDV dərəcəsi malların və ya xidmətlərin dəyərinin 20% - ni təşkil edir, lakin bəzi kateqoriyalar üçün bu 8% (Vergi Məcəlləsinin 9 – cı maddəsinin b bəndi) və 0 % - dir ( Vergi Məcəlləsinin 104 – cü maddəsi).

Növbəti müqayisə gəlir vergisi üzərindəndir. Belə ki, ölkəmizdə Fiziki şəxslərdən gəlir vergisi:illik gəlirdən 14 % dərəcə ilə hesablanır. Sahibkarlıq fəaliyyəti iə məşğul olanlar: təqvim ili ərzində ümumi gəlirdən bu gəlirin əldə edilməsi ilə əlaqədar çəkilən xərclər çıxıldıqdan sonra qalan məbləğdən 20 % dərəcə ilə hesablanır.

Moldovada isə fiziki şəxslər və fərdi sahibkarlar üçün illik gəlirin məbləği 29640 leydən (2.771.34 azn) çox olmadıqda dərəcə 7%, bu həddi aşan məbləğ üçün isə 18% təşkil edir.

Digər müqayisə isə tütün məhsullarına tətbiq edilən aksiz vergisi üzərindəndir.

Azərbaycanda tütün məmulatları (siqaret) və spirtli içkilər üçün aksiz markalarının dövlət rüsumları digər ölkələrlə müqayisədə təxminən 2 dəfə azdır. Vergi sahəsindəaparılan son dəyişikliklərə görə siqaret məhsullarına görə aksiz vergi dərəcəsi hər 1000 ədədə görə 35 azn-dan 38.5 azn-a qaldırılıb.

2023-cü il Aprelin 1-dən Moldova Respublikasının Vergi Məcəlləsinə yeni dəyişikliklər qüvvəyə minib. Bu dəyişikliyi siqaret və siqarilla satışının qiymətinə istinad edirlər. Yəni, 35 ley-dən ( 3.2725 azn) aşağı olan pərakəndə satış məntəqələrində tütün məmulatlarının istehlakçılara satılması qadağan ediləcək. Tütün məmulatlarına aksiz vergiləri hər il artsada, 2022-ci ildə siqaretin ən ucuz təklifi 14 ley (1.309 azn), minimum aksiz vergisi isə əlavə dəyər vergisi ilə birlikdə 22 ley (2.057 azn) olub.

Sonda məqaləmi ulu öndərimiz Heydər Əliyevin kəlamı ilə bitirmək istəyirəm. O, belə demişdir: «Əgər biz müstəqil dövlətiksə, müstəqil inkişaf etmək istəyiriksə, biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik. Buna görə də vergi orqanlarının işinə daha çox diqqət yetirməliyik».

**Ədəbiyyat**


1. https://www.taxes.gov.az/uploads/2021/buklet/EDV.pdf
2. https://visasam.ru/emigration/pereezdsng/zhizn-v-moldove.html
3. https://md.spinform.ru/nalogovaya_systema.html
4. https://az.m.wikipedia.org/wiki/Sovet_%C4%B0ttifaq%C4%B1n%C4%B1n_da%C4%9F%C4%B1lmas%C4%B1
5. https://az.m.wikipedia.org/wiki/Az%C9%99rbaycan%E2%80%93Moldova_m%C3%BCnasib%C9%99tl%C9%99ri
6. https://az.m.wikipedia.org/wiki/Az%C9%99rbaycan_Xalq_C%C3%BCmhuriyy%C9%99ti

## Azərbaycanda xarci ticarət əməliyyatlarının perspektiv inkişaf tendensiyaları

**Hüseynli Əli**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, magistrant**
**Elmi rəhbər: dos.Mikayılova Nurəngiz**

*Məqalə Azərbaycanın xarici ticarət əməliyyatlarının perspektiv inkişaf tendensiyaları, xarici dövlətlərlə iqtisadi münasibətlərin artırılması istiqamətində hazırlanıb və bu zaman, təhlil, sintez, ümumiləşdirmə, müşahidə kimi metodlardan istifadə edilib.*

**Tədqiqatın məqsədi -** Hər bir ölkənin iqtisadi inkişaf səviyyəsini müəyyən edən əsas göstəricilərdən biri xarici ticarətdir və ölkəmizin xarici ticarətdə inkişaf imkanlarını araşdırmaq, istehsal olunan məhsulların rəqabət qabiliyyətinin artırılması yollarını müəyyən etmək, əsas məqsədlərdir.

**Tədqiqatın metodologiyası -** Tədqiqat zamanı təhlil, sintez, ümumiləşdirmə, müşahidə metodlarından istifadə edilib.

**Tədqiqatın nəticələri -** Müasir dövrdə iqtisadi inkişafı əhəmiyyətli dərəcədə sürətləndirən əsas amillərdən biri dövlətlərarası ticarət əlaqələrinin genişləndirilməsi, uğurlu idxal - ixrac əməliyyatlarının həyata kecirilməsi, onlar arasında nisbətin milli maraqlar əsasında qurulması, beynəlxalq ticarətin sürətlə inkişaf etdirilməsidir.

### Giriş

Xarici ticarət əlaqələrinin səviyyəsi hər bir ölkənin iqtisadi inkişaf səviyyəsini təyin edən əsas amillərdən biridir. İstehsal olunan məhsulların rəqabət qabiliyyətinin artırılması, onların xarici bazara sərbəst çıxışının təmin edilməsi, daxili istehlak üçün lazımi malların idxalı, ən sonda ölkələrin iqtisadi qüdrətinin artımına səbəb olur. Başqa sözlə desək, beynəlxalq ticarət müxtəlif ölkə satıcı və alıcıları arasında əmək məhsullarının mübadiləsidir [ 2, səh 68 ] .

Hazırkı dövrdə iqtisadi inkişafı şərtləndirən əsas amillərdən biri, dövlətlər arasında ticarət əlaqələrinin genişləndirilməsi, milli maraqlara uyğun bir şəkildə idxal,ixrac əməliyyatlarının həyata keçirilməsidir. Xarici iqtisadi siyasətin əsas tərkib hissələrindən biri, məhz idxal,ixrac siyasətidir [ 4, səh 314 ] .

İstənilən ölkənin dünya iqtisadiyyatına inteqrasiyası baxımından, beynəlxalq ticarət əlaqələrinin sürətləndirilməsinə gərək var. Bu, həm də, ölkələr arasında əlaqələrin genişlənməsinə, qarşılıqlı ticarətin inkişafına səbəb olur. Müstəqillik əldə etmədən öncə, Azərbaycan keçmiş Sovet İttifaqının üzvü olduğundan, xarici ticarət siyasəti üzərində güclü dövlət nəzarəti var idi və ticarət əməliyyatları daha çox SSRİ - yə üzv ölkələrlə aparılırdı. Güclü dövlət nəzarəti də, dünya ölkələri ilə ticarət əlaqələrinin qurulmasında əngəllər yaradırdı. Bu əngəllər səbəbindən də, ticarət əlaqələri Azərbaycanın öz iqtisadi maraqlarına deyil, ittifaqın maraqlarına xidmət edirdi. Müstəqillik əldə etdikdən sonra isə, ölkəmiz azadlıq əldə etdi və milli iqtisadiyyatın inkişafı üçün yeni imkanlar yaranmağa başladı. Müstəqillik qazanmağımız həm qonşu ölkələrlə, həm də dünya ölkələri ilə iqtisadi əlaqələrin artmasına təkan verdi. İqtisadi potensialın artması, yeni tərəfdaşlar qazanmağa, ölkəmizin regiondakı mövqeyinin möhkəmlənməsinə gətirib çıxardı. Hazırda Azərbaycan Maliyyə institutları, Regional təşkilatlar, Ümumdünya Ticarət Təşkilatı, Avropa Birliyi ilə əlaqələrini davam etirməkdədir [ 5, səh 192 ] .

Xəzəryanı dövlətlər enerji resurslarının miqyasına görə geoiqtisadi, geosiyasi əhəmiyyət kəsb etdiyindən, ABŞ Xəzər regionunu özünün milli maraq dairəsi elan edib və ölkəmizlə də, çoxtərəfli əməkdaşlıq strategiyası müəyyənləşdirmişdir [ 3, səh 620 ] .

Azərbaycan hazırda, dünya birliyinə sürətlə inteqrasiya edir və bu gün, bərabər tərəfdaş kimi qəbul edilir, ölkəmizlə uzunmüddətli əməkdaşlıq sistemi qurulur. Bunlardan biri də, Ümumdünya Ticarət Təşkilatına üzvlükdür. Ölkəmizin beynəlxalq ticarət məkanına inteqrasiya etməsi, xarici ticarətə təsir

edən qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırmaq məqsədilə, ÜTT - ə üzv olmaq üçün işlər aparılır.Hazırda, Azərbaycan bu təşkilatda müşahidəçi statusuna malikdir və ÜTT üzrə Azərbaycanın Koordinasiya qrupu yaradılıb.

ÜTT-yə üzvolma proseduru aşağıdakı kimidir:

1. ÜTT-yə üzvolma istəyini əks etdirən ərizənin ÜTT Katibliyinə təqdim olunması;
2. ÜTT Katibliyində üzv olmaq istəyən ölkə üzrə İşçi Qrupunun yaradılması;
3. Üzv olmaq istəyən ölkənin xarici ticarət rejimi haqqında Memorandumun ÜTT Katibliyinə təqdim olunması;
4. ÜTT-yə üzv olan ölkələr tərəfindən Memoranduma dair sualların təqdim olunması;
5. Memoranduma dair təqdim olunmuş sualların cavablarının ÜTT Katibliyinə təqdim olunması;
6. Üzv olmaq istəyən ölkə üzrə İşçi Qrupunun ilk iclasının keçirilməsi;
7. Üzv olmaq istəyən ölkə tərəfindən ÜTT Sazişləri ilə nəzərdə tutulmuş sənəd və cədvəllərinin ÜTT Katibliyinə təqdim olunması;
8. ÜTT-yə üzv olmaq istəyən ölkə ilə üzv ölkələr arasında ikitərəfli danışıqların keçirilməsi;
9. Üzv olmaq istəyən ölkə üzrə İşçi Qrupunu ardıcıl iclaslarının keçirilməsi;
10. Üzv olmaq istəyən ölkə üzrə İşçi Qrupu tərəfindən Yekun Hesabatının hazırlanması;
11. Yekun Hesabat əsasında Baş Şura tərəfindən Üzvolma Protokolunun qəbul olunması;
12. Üzvolma Protokolunun Nazirlər Konfransı tərəfindən təsdiq olunması;
13. Üzvolma Protokolunun üzv olmaq istəyən ölkənin parlamenti tərəfindən ratifikasiya olunması.

Hazırda Azərbaycan ÜTT-yə üzvolma prosedurunun 9-cu mərhələsindədir.

***Cədvəl 1. Azərbaycanın ÜTT-yə üzvolma proseduru***

| | |
|---|---|
| Azərbaycan Respublikasının ÜTT-yə üzvolma istəyini əks etdirən ərizənin ÜTT Katibliyinə təqdim olunması | 23 iyun 1997-ci il |
| ÜTT Katibliyində Azərbaycan üzrə İşçi Qrupunun yaradılması | 16 iyul 1997-ci il |
| Azərbaycan Respublikasının xarici ticarət rejimi haqqında Memorandumun ÜTT Katibliyinə təqdim olunması | 22 aprel 1999-cu il |
| Azərbaycan Respublikası Nazirlər Kabinetinin 226s saylı Sərəncamı ilə Azərbaycan Respublikasının ÜTT-yə üzv olması prosesinin sürətləndirilməsi işləri üzrə təşkilatlararası Əlaqələndirmə Qrupunun yaradılması | 19 noyabr 1999-cu il |
| Cenevrədə ÜTT-nin Azərbaycan üzrə İşçi Qrupunun Birinci İclasının keçirilməsi | 03 - 07 iyun 2002-ci il |
| Azərbaycan Respublikası Nazirlər Kabinetinin 175s saylı Sərəncamı ilə Azərbaycan Respublikasının ÜTT-yə üzv olmasına hazırlıq işləri üzrə Komissiyanın yaradılması | 22 avqust 2003-cü il |
| Cenevrədə ÜTT-nin Azərbaycan üzrə İşçi Qrupunun İkinci İclasının keçirilməsi | 14 oktyabr 2004-cü il |
| Cenevrədə ÜTT-nin Azərbaycan üzrə İşçi Qrupunun Üçüncü İclasının keçirilməsi | 30 iyun 2005-ci il |

| | |
|---|---|
| Cenevrədə ÜTT-nin Azərbaycan üzrə İşçi Qrupunun Dördüncü İclasının keçirilməsi | 30 mart 2006-cı il |
| Cenevrədə ÜTT-nin Azərbaycan üzrə İşçi Qrupunun Beşinci İclasının keçirilməsi | 6 may 2008-ci il |

***Cədvəl 2. Azərbaycanın ÜTT-yə üzv olmaqda əsas məqsədi***

| |
|---|
| ÜTT-yə üzv olmaqda əsas məqsədlər aşağıdakılardan ibarətdir: |
| • Dünya iqtisadiyyatı sisteminə inteqrasiya prosesini sürətləndirmək;<br>• ÜTT-yə üzv olan ölkələrin bir-birinə verdikləri güzəştlərdən faydalanmaq;<br>• Dünyanın əksər ölkələri ilə ÜTT tərəfindən qəbul edilmiş ümumi qaydalar əsasında ticarət əməliyyatları həyata keçirmək;<br>• Ölkədə aparılan iqtisadi islahatlara beynəlxalq təşkilatlar və eləcə də ölkələr tərəfindən yardımın artırılmasına nail olmaq;<br>• ÜTT qaydalarını tətbiq etdikdən sonra daha çox həcmdə birbaşa xarici investisiyaları cəlb etmək;<br>• ÜTT-nin mübahisələrin həlli mexanizmindən istifadə etmək imkanını əldə etmək. |

Ticarət zamanı yaranan bir çox hallara nəzarət etmək və onları tənzimləmək üçün dövlətin yaratdığı qanunların, sərəncamların, qərarların konqlomeratını özündə əks etdirən termin " ticarət rejimidir ". Belə tənzimləmə və nəzarətləri tələb edən ən aşkar fəaliyyət növləri malların idxalı və ixracıdır. Azərbaycan Respublikasının xarici ticarətlə bağlı qanunvericiliyi ilk olaraq, 1992 -ci ildə başlayıb və ixracı tənzimləmək məqsədli idi.

**Nəticə**

Azərbaycanın mövcud iqtisadi potensialı bir tərəfdən ixracda hazır məhsulların çəkisini artırmağa, bir tərəfdən də, idxalı əvəz edən istehsalın təşkilinə imkan verir. Xarici investisiyaların cəlb edilməsi də, bu məsələdə əhəmiyyəli rol oynayır. Bunun nəticəsində də, özəl sektorun inkişafı üçün əlverişli şərait yaranır, xarici ticarət əlaqələrinin miqyası artır. Bütün bunlar, daxili istehsalın həcminin genişlənməsinə, nəticədə də, ölkəmizin iqtisadi qüdrətinin artmasına səbəb olur. Son illərdə xarici ticarət sahəsində həyata keçirilən tədbirlər, xarici ticarət sektorunun ölkə iqtisadiyyatının əsas sahələrindən birinə cevrilməsinə, xarici ticarət əlaqələrinin genişlənməsinə, ticarət dövriyyəsinin strukturunun inkişafına, ölkəyə girən xarici valyutanın həcminin artmasına, qeyri - neft ixracının artımına səbəb olur ki, bu da nəticə etibarı ilə, Azərbaycan iqtisadiyyatının güclənməsinə öz töhfəsini verir.

**ƏDƏBİYYAT:**


1. Əliyev Aydın “Azərbaycanın iqtisadi siyasəti. Azərbaycanın xarici ticarət-iqtisadi əlaqələri”. Dərslik. Qanun, Bakı-2003.
2. Ə. H. Ələkbərov, M. Ə. Vəliyev, S. M. Məmmədov, M. K. Ramazanov, Beynəlxalq iqtisadi təşkilatlar, Çaşıoğlu - 2010, 377 səh
3. Hikmət Babaoğlu, Dünya Siyasəti və Beynəlxalq Münasibətlər, Bakı - 2014, 674 səh
4. H.Ə. Mirzəyeva - İqtisadiyyatın tənzimlənməsi - Bakı - 2015, " Avropa nəşriyyatı " , 356 səh
5. N. Y. Mikayılova, Azərbaycan iqtisadiyyatı, Bakı - 2018, " Müəllim " nəşriyyatı, 311 səh
6. Zahid Məmmədov “Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələri”. Bakı-2004.

**Büdcələrarası münasibətlər**

**Mustafayeva Nazənin**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, magistrant**
**Elmi rəhbər: Mikayılova N.Y.**

Dövlətlər iqtisadi, sosial, siyasi və bununla yanaşı bir sıra funksiyalarını yerinə yetirmək üçün öz büdcələrini formalaşdırırlar. Büdcənin funksiyaları dedikdə aşağıdakılar öz əksini tapır.

1.ÜMM-in və bununla yanaşı milli gəlirin bölgüsü və yenidən bölgüsü;

2.ÜDM-in bölgüsü və yenidən bölgüsü;

3.Ölkədə pul vəsaitlərinin yığılması, bu yığımın əhalinin ehtiyac və tələbatını qarşılamaq üçün istifadəsi;

4.Iqtisadiyyatı tənzimlənməsinə xidməti;

5.Investisiya yatırımlarına başlıca maliyyə mənbəyi;

6.Pul fondlarının yaradılması, bununla yanaşı həmin fondların istifadəsinə nəzarət və s.

ÜDM-in bölgüsü və yenidən bölgüsü ikitərəfli prosesdir. Bu prosesdə dövlət büdcəsinin rolu həm büdcə gəlirlərinin formalaşmasından həm də büdcə vəsaitinin xərclənməsindən ibarətdir.

Dövlət mərkəzləşdirilmiş pul vəsaiti fondunu bilavasitə özü yaradır. Çünki öz funksiyalarını yerinə yetirmək üçün lazım olan maliyyə təminatını da özü təşkil etməlidir.Büdcəsinin iqtisadi məzmununu mərkəzləşdirilmiş pul vəsaiti fondunun yaradılması və ondan istifadə prosesi zamanı dövlətlə cəmiyyət və təsərrüfat subyektləri arasında yaranan maliyyə münasibətləri təşkil edir.

Büdcə həm də iqtisadi bir kateqoriyadır. Dövlət büdcəsinin fəaliyyəti və inkişafı dövlətin yaranması və fəaliyyəti ilə bağlıdır. Dövlət öz fəaliyyətini həyata keçirmək, ölkə müdafiəsini təmin etmək(ordu yaratmaq), həm iqtisadi həm də sosial siyasətini həyata keçirmək və dövlət aparatını saxlamaq üçün mərkəzləşdirilmiş pul vəsaiti fondunu yaradır.

Azərbaycan Respublikası büdcə sistemi respublika büdcəsindən, Naxçıvan Muxtar Resublikasıbüdcəsindən və bələdiyyə (yerli) büdcəsindən ibarətdir. Bu sistemə daxil müxtəlif büdcələr büdcə münasibətlərində sıx əlaqədədir (2,maddə 4).

‘‘Büdcə sistemi haqqında’’ qanuna görə respublika büdcəsinin, NMR büdcəsinin və yerli (şəhər,rayon) büdcələrin bir-biri ilə olan əlaqəsi gəlir qaynaqlarının bölüşdürülməsi ilə həyata keçirilir. Özlərinin gəlir mənbələri yetərli olmadıqda isə problemlərinin həlli üçün dövlət büdcəsindən, NMR büdcəsinə və digər büdcələrə dotasiya, subvensiya, subsidiya formasında büdcə borcu başqa bir adla ssuda ayrılır (3,maddə26).

Gəlir və xərcləri tənzimləmək üçün dövlət büdcəsindən NMR və bələdiyyə büdcələrinə əvəzsizformada ayrılan vəsaitlər dotasiya adlanır.

Məqsədli maliyyələşmə zamanı dövlət büdcəsi hesabından muxtar respublika və bələdiyyə büdcələrinə verilən, ancaq bu məqsəd üçün və vaxtında istifadə edilmədikdə geri alınan vəsait subvensiyadır.

NMR büdcəsinə və yerli büdcələrə və bunlarla yanaşı hüquqi şəxslərə dövlət hesabından verilən vəsait subsidiya adlanır.

Bunu da nəzərə almaq lazımdır ki, dotasiya, subsidiya və subvensiya yardımları zamanı müəyyən nöqsanlar ortaya çıxır. Çatışmayan cəhət isə odur ki, qeyd edilən yardımların stimullaşdırıcı xassəsi yoxdur. Büdcə nizamlaşdırılan zaman yerli orqanların təsərrüfatçılıq təşəbbüsünün inkişafında maneəyə rast gəlinir. Həmçinin yerli orqanların iqtisadi proseslərə təsir məsuliyyəti azalır, maliyyə nəzarəti zəifləyir. Yuxarıda qeyd etdiyimiz maliyyə yardımlarının çatışmayan cəhətlərini qeyd etməyimizə baxmayaraq onların tamam ləğv etməkdən söz gedə bilməz. Çünki rayonlarda, şəhərlərdə

sosial-mədəni müəssisələri saxlamaq, ətraf mühiti mühafizə etmək, muzey və tarixi abidələri saxlamaq üçün çəkilən xərclərə ayrılan maliyyə vəsaiti kifayət etmir. Bu zaman da həmən büdcələrə dotasiya, subsidiya, subvensiya yardımları vermək lazım gəlir. Büdcə vəsaitindən ayrılma dövlətə hər hansı bir formada faiz və yaxud da digər ödəniş formasında gəlir kimi nəzərdə tutulmur.

Büdcə gəlirləri büdcə xərclərinin əsas təminatçısıdır. Yəni xərclər büdcədən maliyyələşdirmə ilə həyata keçirilir. Gəlirlər xüsusi və tənzimləyici formada olur. Xüsusi gəlirlər dedikdə qanunvericiliyə əsasən gəlir növlərinin bütöv və yaxud da bir hissəsinin müvafiq büdcələrə təhkim edilməsidir. Sözügedən müvafiq büdcələrə, qanunvericiliyə uyğun olaraq aşağıdakılar aiddir:

Cədvəl 1

| Təhkim olunmuşvergilər | Gəlirlər | Normativ aktlarla müəyyən olunan vergi olmayan gəlirlər | Əvəzsiz ödənişlər |
|---|---|---|---|

Büdcənin tənzimləyici gəlirləri dedikdə isə qarşıdakı maliyyə ili üçün və yaxud da daha uzun vaxta normativlər ilə müəyyən olunan maliyyə vəsaitləri başa düşülür.Respublikamızda vahid büdcə təsnifatı tətbiq edilir. Vahid büdcə təsnifatı büdcə təşkilatlari və büdcədənkənar fondlarının maliyyə əməliyyatlarını müqayisə edir. Təsnifatın quruluşu bunlardanibarətdir:

1.büdcəsi gəlirinin təsnifatı
2.büdcə xərclərinin funksional təsnifatı
3.büdcə xərclərinin iqtisadi təsnifatı. Hansıki burada cari və əsaslı xərclər birləşir.
4.büdcənin daxili və xarici maliyyələşmə mənbələrinin təsnifatı.
5.daxili və xarici borc təsnifatı.
6.büdcə xərclərinin təşkilatlar üzrə təsnifatı

Daxili maliyyələşmə dedikdə vergi və qeyri-vergilərdən olan ödənişlər, xarici maliyyələşmə qaynağı dedikdə isə beynəlxalq maliyyə təşkilatlarından və xarici dövlətlərdən alınan kredit,borc başa düşülür. Uduşlu istiqrazların, xəzinə öhdəliklərinin, məqsədli əmanətlərin, xəzinə veksellərinin, əhali əmanətlərinin, qiymətli kağızların indeksləşirilməsi dövlət daxili borcları təşkil edir.

Büdcə və vergi siyasəti maliyyə siyasətinin ən əsas sahəsidir. Hər hansı iqtisadi məqsədə çatmaqüçün büdcə tarazlığı və həcminin tənzimlənməsi büdcə siyasəti adlanır. Bundan başqa əhalinin ayrı-ayrı qruplarının maliyyə ehtiyaclarını təmin etmək üçün vergi siyasətindən istifadə olunur. Vergi siyasəti həmçinin maliyyə, iqtisadi və hüquqi tədbirlər ilə iqtisadiyyatın inkişafına kömək edir. Dövlət büdcə həcminin, büdcə xərclərinin formalarını müəyyənləşdirmək ilə, iqtisadi tarazlığa, makroiqtisadi məqsədlərə nail olur.

Büdcə siyasəti əlverişliyi bir sıra meyarlarla müəyyən olunur:

1.ÜDM dinamikası
2.Bütün büdcə gəlirləri
3.Büdcə kəsri kəmiyyəti
4.Vergilərin yığım səviyyəsi
5.Ölkə borcunun artımı
6.Ölkə borcuna istiqamətləndirilən vəsaitlərin məbləği
7.İşsizlik səviyyəsi
8.Valyuta ehtiyatı məbləği və s.

Qanunvericilik normalarına uyğunlaşdırılmış, mərkəz və yerli büdcələri hazırlayan, nəzarət edənbüdcəni təsdiq və icrası fəaliyyəti büdcə prosesi adlanır. Bu prosesin iştirakçı tərəfləri, prezident, icra və qanunvericilik orqanları, pul-kredit münasibətlərini tənzimləyən orqanlar, büdcədənkənar fondlar, maliyyəyə nəzarət edən orqanlar və büdcə, vergi siyasətini yerinə yetirmək hüququ verilən orqanlardır.

Prosesin müvafiq mərhələləri var aşağıdakı şəkildə göstərilmişdir:

Cədvəl 2




İlkin mərhələ ÜDM dövriyyəsi ilə bağlıdır. ÜDM dövriyyəsi dedikdə maliyyə planlaşdırması nəzərə çarpır ki, bura vəsaitlərin yaradılması, onların bölgüsü və yenidən bölgüsü prosesi və istehlak prosesinin idarəsi aid edilir. Planlaşdırılmanın müəyyən olunması maliyyə planları sistemi ilə həyata keçirilir. Sistemin tərkib hissələri perspektiv və toplu maliyyə balansıdır.

Həmçinin "Büdcə sistemi haqqında" qanununun IX maddəsinə görə büdcə gəlirlərinin formalaşması aşağıdakıların hesabına baş verir:

1. Vergilər;
2. qrantlar;
3. və digər mənbələrdən gəlirlər.

Respublika büdcəsinin əsas gəlir mənbəyi vergilərdən olan daxilolmalardır. Vergilər respublika büdcəsinə və bələdiyyə büdcəsinə onların fəaliyyətini maliyyələşdirmək məqsədilə, rezident və qeyri-rezident şəxslər tərəfindən əvəzsiz, məcburi və fərdi formada ödəniş növüdür. Vergidən daxil olmalara gəlirdən vergilər, mənfəət vergisi, mülkiyyətdən vergi, əmək haqqı fondu və bununla yanaşı işçi qüvvəsinə vergilər və s. aiddir. Mülkiyyət vergiləri dedikdə, torpaq və əmlak vergisi, qiymətli kağızlarla olan əməliyyatlardan vergilər daxildir.

Büdcə gəlirlərinin formalaşmasında vergilərin əsas rol oynamağına baxmayaraq, vergi olmayan gəlirlərin də rolu böyükdür.Vergi olmayan gəlirlərə aşağıdakılar aiddir:

1. rüsumlar;
2. cərimə və sanksiyalar üzrə daxil olmalar;
3. inzibati tədiyyələr və s.

Vergi olmayan gəlirlərin sahibkarlıq fəaliyyətindən gəlirlər, qeyri-maliyyə dövlət müəssisələrindən və qeyri-maliyyə dövlət müəssisələrindən sair gəlirlər, Mərkəzi Bankın mənfəətindən daxil olmalar, maliyyə təşkilatlarından alınan dividendlər və maliyyə təşkilatlarından sair gəlirlər, pul-şey lotoreyaları üzrə daxil olmalar kimi yardımçı bölmələri vardır. İnzibati tədiyyələr və rüsumların da müvafiq olaraq, gömrük rüsumları, dövlət rüsumları və birdəfəlik rüsumlar kimi bölmələri vardır.

Dövlət vergiləri dedikdə bütün ölkə ərazisi üçün keçərli olub, tətbiq olunan və büdcəyə daxil

olan vergilər başa düşülür. Buraya gəlir vergisi, mənfəət vergisi, aksizlər, ƏDV, hüquqi şəxslərin əmlak və torpaq vergisi, rüsumlar (dövlət,gömrük), yol vergisi və mədən vergisi aiddir.

Dövlətin və bələdiyyə (yerli özünüidarəetmə) orqanlarının öz məqsəd və vəzifələrini həyata keçirilməsi üçün yönəldilən pul vəsaiti büdcə xərcləri adlanır. Büdcə xərcləri əsaslı və cari xərclərdən ibarət olub, ərazi quruculuğu, sosial-iqtisadi inkişaf səviyyəsi və s. amillərlə müəyyən olunur. Vahid büdcə təsnifatına müvafiq olaraq büdcə xərcləri aşağıdakı kimi təsnifləşdirilir.

1.Funksional;

2.İqtisadi;

3.İnzibati.

Funksional təsnifat dövlətin funksiyalarını yerinə yetirmək üçün büdcə vəsaitlərinin xərclənməsidir. Tərkibinə ümumi dövlət xidməti xərcləri, müdafiə xərcləri, təhsil və səhiyyə xərcləri,məhkəmə hakimiyyəti, hüquq muhafizə, prokurorluğun saxlanması xərcləri, mənzil-kommunal xərcləri, rabitə və nəqliyyat xərcləri, sosial-müdafiə xərcləri, faydalı qazıntılar üzrə xərclər, sənaye xərcləri və s. daxil edilir.

Büdcə xərclərinin iqtisadi təsnifatının xərc maddələrinə, faizlər üzrə ödənişlər, subsidiyalar üzrə ödənişlər, əsaslı ödənişlər, cari ödənişlər, torpaq və qeyri-maddi aktivlərin alınması aiddir.

Birbaşa büdcə vəsaitlərinin bölüşdürülməsi üzrə xərclərin qruplaşdırılması təsnifatı inzibati fəaliyyət təsnifatı adlanır.

Büdcənin xərclərinin tərkibində və quruluşunda böyük dəyişikliklər baş vermişdir. Bu da ondan irəli gəlir ki, ölkəmizin iqtisadi qüdrəti ildən-ilə artır, bu artım sayəsində xərclərin investisiya və sosial məsələlərin həlli üçün ayrılan büdcə vəsaiti də xeyli artmağa meyl edir. Dövlət büdcəsinin sosial vəzifələrinin həllinin rolunda artıma səbəb də məhz iqtisadi artım və ona uyğun olaraqda büdcə gəlirləri və xərclərinin artımıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2014-cü il yanvarın 9-da Nazirlər Kabinetinin "2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə" həsr olunmuş iclası keçirilmişdir. Prezident İlham Əliyev iclasdakı nitqində söyləmişdir:

“Deyə bilərəm ki, keçən il bütövlükdə ölkəmiz üçün uğurlu il olmuşdur. Azərbaycanda böyük işlər görülmüşdür... 2013-cü ildə ölkəmizin dinamik inkişafı təmin edilmişdir. Azərbaycanda böyük layihələr icra edilmişdir, ölkəmizin beynəlxalq nüfuzu artmışdır. Ölkədə aparılan islahatlar daha da dərinləşmişdir. Bir sözlə, biz ölkəmizin uğurlu inkişafını təmin edə bildik”. (4)

Büdcə gəlirləri hesabına büdcə xərclərinin ödənməsi perspektiv maliyyə planı adlanır. Bu plan sosial və iqtisadi inkişaf proqnozuna əsaslanır. Proqnozlaşdırma vasitəsilə ölkənin mövcud şəraitində bücə inkişafı üçün münasib üsulları hazırlayıb, hazırlanan üsulları əsaslandırıb daha sonra möhkəmləndirmək üçün təkliflər verilir.

İkinci mərhələdə büdcə layihəsi tərtib edilir, tərtib olunan layihəyə müvafiq icra hakimiyyəti orqanları tərəfindən baxılır, zərurət yaranarsa düzəlişlər, əlavələr olunur. Sonda isə Milli Məclis büdcə layihəsini təsdiq edir. Təsdiq daxili nizamnaməyə uyğun formada həyata keçirilir.

Büdcə layihəsi təsdiq olunduqdan sonra növbəti mərhələ onun icrasıdır. Nazirlər Kabineti dövlət büdcəsinin icrasını təmin edir (1,maddə 119).

Son mərhələ büdcə icrasını təhlil etmək və ona nəzarətdən ibarətdir ki, bu nəzarəti Milli Məclis və Hesablama Palatası həyata keçirir.

**ƏDƏBİYYAT :**

1.Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995

2.Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, 2000.

3.«Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı, 2002.

4. .Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişfının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasının materialları. "Xalq Qəzeti", 10 yanvar 2014-cü il

# İlham Əliyevin vergi sisteminin inkişafında rolu

**İsmayilova Arzu**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Elmi rəhbər. i.f.d. Quliyeva Səadət**

**Giriş:**

Dövlət vergi orqanlarında çalışan əməkdaşların bilik və peşə hazırlığı səviyyəsinin yüksəldilməsini və təkmilləşdirilməsini, yeni texnologiyalara və texniki vasitələrlə iş vərdişlərinə yiyələnməsini, eləcə də daim dəyişən və yenilənən əmək şəraitinə uyğunlaşmasını təmin etmək məqsədilə Prezident İlham Əliyevin tapşırığı ilə Şamaxı rayonunda Tədris Mərkəzinin yeni kompleksi inşa edilib. 2011-ci il sentyabrın 13-də dövlət başçısının iştirakı ilə kompleksin açılışı olub. Mərkəz yeni informasiya texnologiyalarından istifadə imkanları yaradan texniki avadanlıqlarla və müasir təlim proseslərinin həyata keçirilməsi üçün zəruri vasitələrlə təchiz edilib.

Respublikamızda son illərdə güclü iqtisadi potensialın yaradılmasında, dövlətçiliyin möhkəmləndirilməsində, azad və demokratik cəmiyyət quruculuğunda görülən işlər Azərbaycanın iqtisadi qüdrətini və beynəlxalq nüfuzunu xeyli artırmışdır. [1]Bütün bunlar ulu öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yorulmaz fəaliyyətinin məntiqi nəticəsidir. Azərbaycan Respublikasında həyata keçirilən çox şaxəli islahatlar yeni inkişaf modelinin formalaşdırılmasına, onun dünya iqtisadiyyatına inteqrasiyasına, həm neft, həm qeyri-neft sektorlarının dinamik inkişafına, əhalinin rifahının yaxşılaşdırılmasına, iqtisadiyyatın tarazlı və mütənasib tərəqqisinə səbəb olmuşdur. Dünyada gedən böhran proseslərinə və bir sıra aparıcı ölkələrdə iqtisadi artım sürətinin aşağı düşməsinə baxmayaraq, ölkə başçısının çevik və işlək mexanizmlər üzərində qurulmuş uğurlu fəaliyyəti nəticəsində son illər iqtisadi artım tempinə görə lider mövqedə olan milli iqtisadiyyatımızda, çox az ölkələrin nail olduğu, artıq nümunə göstərilən yüksək dayanıqlıq və sabitlik təmin edilmişdir.

Dövlət başçısının səyi və qətiyyəti nəticəsində ölkə iqtisadiyyatının hərtərəfli inkişafı, xüsusilə, real sektora xarakterik olan yüksək artım tempi və aparılan islahatlar müasir dövrdə də vergi sisteminin inkişafına təkan vermiş, gələcək inkişaf üçün yeni perspektivlər və imkanlar müəyyənləşdirmişdir. Milli iqtisadi inkişaf strategiyasında mühüm rol oynayan vergi xidməti orqanlarında son illər vergi sisteminin təkmilləşdirilməsi, vergitutma bazasının genişləndirilməsi, vergi xidmətinin müasir Avropa standartlarına uyğunlaşdırılması sahəsində əhəmiyyətli işlər görülmüş, vergi qanunvericiliyi və vergi inzibatçılığının müasir tələblər baxımından qurulmasında bir sıra müvəffəqiyyətlərə nail olunmuşdur. Azərbaycanın müasir vergi xidməti ölkənin iqtisadi qüdrətinin güclənməsi, nəhəng regional layihələrin həyata keçirilməsi işlərinə öz töhfəsini verməkdədir. Bununla da müstəqil dövlətimizin vergi siyasəti iqtisadi siyasətin mühüm tərkib hissəsinə, iqtisadi tənzimləmədə və fiskal siyasətin həyata keçirilməsində aparıcı amilə çevrilmişdir. Ölkə Prezidenti cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində artıq iqtisadi sahədə keçid dövrünü başa vurmuş doğma Azərbaycanımızda çevik vergi siyasətini həyata keçirməyə qadir, beynəlxalq standartlara cavab verən müasir vergi xidməti formalaşmışdır.[5]

Azərbaycan Respublikasının Prezidenti cənab İ.Əliyevin rəhbərliyi altında ölkəmizdə bazar iqtisadiyyatının formalaşdırılması, onun dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində aparılan

məqsədyönlü iqtisadi siyasət çərçivəsində çevik vergi siyasəti həyata keçirilir ki, bu siyasətin də əsas istiqamətləri aşağıdakılardır:

- vergilərin sayının azaldılması;
- vergi dərəcələrinin aşağı salınması və vergi güzəştlərinin azaldılması hesabına vergitutma bazasının genişləndirilməsi;
- iqtisadiyyata investisiya qoyuluşunun stimullaşdırılması məqsədilə əlverişli investisiya mühitinin yaradılması;
-rezident vergi ödəyiciləri ilə qeyri-rezident vergi ödəyiciləri arasında vergi yükünün bərabərləşdirilməsi;
- vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi;
- vergi ödəyicilərinin məlumatlandırılması, vergi təbliğatı;
- respublikanın və əhalinin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə yönəldilən tədbirlərin həyata keçirilməsi;
- respublikanın ixrac potensialının inkişafının təmin edilməsi;
- vergi sisteminin vahid uçot-informasiya sisteminin təkmilləşdirilməsi;
- vergi inzibatçılığının təkmilləşdirilməsi;
- vergi ödəyicilərinin gəlirləri üzərində səmərəli nəzarət mexanizminin tətbiqi;

vergi intizamına əməl olunması üzərində nəzarət sisteminin təkmilləşdirilməsi və vergi hüquq pozuntusu hallarına görə məsuliyyət sisteminin daha da şərtləşdirilməsi;

- vergi xidməti orqanları əməkdaşlarının səmərəli fəaliyyət göstərməsi məqsədi ilə vergi orqanlarının maddi-texniki bazasının əhəmiyyətli dərəcədə möhkəmləndirilməsi.

Qeyd olunan istiqamətlərin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasında vergi sisteminin normativ-hüquqi bazası yaradılmışdır ki, bu da aşağıdakı prinsiplər rəhbər tutulmaqla həyata keçirilir:

1. Bütün təsərrüfat subyektlərinin və vətəndaşların qanun qarşısında hüquq bərabərliyi;
2. Vergi ödəyicilərinin bəzi kateqoriyalarına verilən vergi imtiyazlarının qanunla təsdiq olunması;
3. Vergi siyasətinin sabitliyi və ardıcıllığı;
4. Vergi yığımında şəffaflığının təmin olunması;

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin vergi sistemi yeni inkişaf mərhələsinə qədəm qoyub. 2005-ci il vergi xidməti üçün keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı olub və dövlət başçısının sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsinin Dövlət Proqramı (2005-2007-ci illər)"nın icrasına başlanılıb. Dövlət Proqramının icrası nəticəsində üç il ərzində 5 əsas strateji istiqaməti əhatə edən 39 irimiqyaslı tədbir reallaşdırılıb. Bunlar vergi orqanlarında idarəetmə sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması, vergilərin könüllü ödənilməsi sisteminin yaradılması, vergi ödəyicilərinin hüquqlarının qorunması, vergidən yayınma halları ilə mübarizənin gücləndirilməsi, vergilərin məcburi ödənilməsi sisteminin təkmilləşdirilməsi və vergi borclarının yaranmasının qarşısının alınması istiqamətində görülmüş işlərdir.

Prezident İlham Əliyevin 1 fevral 2005-ci il tarixdə imzaladığı müvafiq sərəncamla Azərbaycan Respublikasında vergi xidməti əməkdaşlarının peşə bayramı təsis olunub. Bu, vergi işçilərinin əməyinin qiymətləndirilməsi və fəaliyyətinin stimullaşdırılmasına yönəlmiş əhəmiyyətli qərar idi.

Dövlət başçısının "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" sərəncamının icrası ilə Azərbaycanda vergi inzibatçılığı keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Sərəncamdan irəli gələn vəzifələrdən biri vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə yüksək beynəlxalq reytinqin əldə edilməsi idi. Vergilər Nazirliyinin belə bir reytinqin əldə edilməsi üçün apardığı işlərin nəticəsi olaraq, 2016-cı ildə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) vergi məqsədləri üçün şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forumu tərəfindən Azərbaycan vergi məqsədləri üçün şəffaflıq və məlumat mübadiləsi üzrə "Əsasən uyğundur" (largely compliant) reytinq balına layiq görülüb.[9]

Vergilər Nazirliyi digər ölkələrin vergi qanunvericiliyinin öyrənilməsi və təcrübə mübadiləsinin aparılması, beynəlxalq və regional vergi təşkilatlarının işində səmərəli iştirakın təmin olunması, vergi məsələlərinə dair beynəlxalq müqavilələrin layihələrinin hazırlanması, həmin müqavilələrin tətbiqi ilə bağlı vergi xidməti əməkdaşlarının və vergi ödəyicilərinin məlumatlandırılması sahəsində mühüm uğurlara imza atıb. Hazırda Azərbaycan 55 dövlətlə ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələr imzalayıb və onlardan 51-i qüvvədədir. Vergilər Nazirliyinin İslam Ölkələrinin Vergi Orqanları Assosiasiyası (ATAIC), İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Amerika Ölkələrinin Vergi Administrasiyaları Mərkəzi (CIAT), Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA), Beynəlxalq Vergi və İnvestisiya Mərkəzi (ITIC) ilə sıx əməkdaşlığı mövcuddur. Eyni zamanda, beynəlxalq maliyyə qurumları - Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Maliyyə Korporasiyası, Dünya Bankı və s. ilə əməkdaşlıq sürətlə inkişaf edir.

Vergilər Naziriyi tərəfindən aparılan islahatlar beynəlxalq reytinqlərdə yüksək göstəricilərin əldə olunmasına zəmin yaradır. Dünya Bankı tərəfindən hazırlanmış biznes mühitinin əlverişliliyi üzrə qiymətləndirməni özündə əks etdirən "Doing Business 2019" hesabatında Azərbaycan Respublikasının mövqeyi 190 ölkə arasında 25-ci yerə yüksəlib. Hesabatda 2 indikator - "Biznesə başlama" (Starting business) və "Vergilərin ödənişi" (Paying taxes) birbaşa vergi məsələlərinə aiddir. Ölkəmiz hər iki göstərici üzrə mövqeyini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb, "Biznesə başlama" üzrə son bir ildə 18-ci yerdən 9-cu yerə, "Vergilərin ödənilməsi" indikatoru üzrə isə 35-ci yerdən 28-ci yerə yüksəlib.[2]

Vergilər Nazirliyinin fəaliyyətində nağdsız hesablaşmaların artırılması sahəsində irəliləyişə nail olmaq üçün "kölgə iqtisadiyyatı"nın azaldılması, elektron ödəniş infrastrukturunun inkişaf etdirilməsi və institusional bazasının gücləndirilməsi, innovativ texnologiyaların tətbiqinin genişləndirilməsi, əhalinin və iqtisadi subyektlərin elektron ödəniş xidmətlərindən istifadəyə cəlb edilməsi xüsusi önəm daşıyır. Nazirlik ölkədə nağdsız hesablaşmaların inkişafı və əhatə dairəsinin genişləndirilməsi məqsədilə bu sahədə beynəlxalq tendensiyaları diqqət mərkəzində saxlayır. Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın icrası istiqamətində Vergilər Nazirliyində Tədbirlər Planı təsdiqlənib və bu sahədə fəaliyyətin daha səmərəli təşkili üçün müasir standartlar yaradılıb.

Hazırda Azərbaycanın sosial-iqtisadi inkişaf xəttini müəyyən edən iqtisadi islahatların tərkib hissəsi olan vergi sisteminin yenidən qurulması prosesi həyata keçirilir. Vergi sahəsində aparılan yeni islahatlara sahibkarlığın inkişafının dəstəklənməsi, "kölgə iqtisadiyyatı"nın azaldılması və iqtisadiyyatın şəffaflaşdırılması, vergitutma bazasının genişləndirilməsi, vergi güzəştlərinin iqtisadi səmərəliliyinin artırılması və vergi inzibatçılığının təkmilləşdirilməsi məsələləri daxildir. Bu istiqamətlərdə aparılan islahatlar vergi sisteminin yeni çağırışlara uyğunlaşması, müasir biznes əlaqələrinin qurulması və ölkə iqtisadiyyatının inkişafında vergi sisteminin rolunun artırılması üçün yeni imkanlar açır.[5]

23 oktyabr 2019-cu ildə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi" haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti yaradılıb.

**ƏDƏBİYYAT:**


1. Azərbaycan Respublikasının Konstitusiyası.Bakı, 1995
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, 2013
3. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı, 2013
4.Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi Bakı, 2013
5. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, 2013
6. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi Bakı, 2013
7.Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. Bakı, 2013
8. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi. Bakı, 2013
9. Azərbaycan Respublikasının”Büdcə sistemi haqqında” Qanunu

## İnsan kapitalına investisiya qoyuluşu və onun səmərəliliyin qiymətləndirilməsi

**Hüseynova Günəş**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
Elmi rəhbər: Əhmədova Təranə

İlk öncə insan kapitalının necə formalasmasına diqqət yetirək. İnsan kapitalı nəzəriyyəsinin baniləri hesab edirlər ki, insanlar özlərinə sərmayə qoymaqla həm istehsalçı, həm də istehlakçı rolunda öz qabiliyyətlərini artırırlar. Kapitalın mülkiyyəti pul, informasiya və digər resursların toplanmasıdır.İnsan özünə sərmayə qoyaraq həm də yeni keyfiyyətlər, bacarıqlar və gəlirlər əldə edir.Buna görədə, iqtisadi modelin vahidi kimi insanı ümumi investisiya və qazanc əldə etmək prosesi ilə eyniləşdirmək məntiqlidir.İnsan kapitalı insanın anadangəlmə deyil, yığılmış xüsusiyyətləridir, bunu başa düşmək vacibdir. Bu isə iqtisadi sistemin elementi kimi insan şəxsiyyətinin dəyəri anlayışını onun dəyərindən ayırmağa imkan verir.

Hər hansı bir sənayeyə sərmayə qoymazdan əvvəl onun nə qədər vacib olduğunu öyrənməlisiniz.İnsan kapitalı anlayışı insanların məhsuldarlığının artırılmasına investisiyaları nəzərdə tutur. İnsan kapitalının inkişafı üçün investisiyalar cəlb edilir. Onların bir neçə növü var:

İnsan kapitalına investisiyaların növləri

1.Səhiyyə xərcləri (tibbi xidmət, xəstəliklərin qarşısının alınması, sığorta, xəstəlik məzuniyyəti, kurort vauçerləri, idman zallarının və işçilərin istirahət zonalarının təchiz edilməsi və s.) Bu zaman biz daha çox profilaktik tədbirlərə, sanatoriya-kurort müalicəsinə, peyvəndlərə və tibbi yardıma yönəldilmiş maliyyələşdirməni nəzərdə tuturuq. Buraya işçilərin həyat şəraitinin yaxşılaşdırılması üçün ayrılan və yönəldilə bilən vəsaitləri də daxil etmək olar.

2.Təhsil xərcləri (ölkə vətəndaşlarının pulsuz təhsili, kadrların yenidən hazırlanmasına investisiyalar, təlimlər, iş prosesi çərçivəsində psixoloji yardım; iş prosesinin təkmilləşdirilməsinə investisiyalar - kabinetin xüsusi dərs vəsaitləri və iş materialları ilə təchiz edilməsi, müasir tələblərə cavab verən vəsaitlərin alınması avadanlıq və istehlak materialları və s.) Təhsilə investisiyalar ixtisas səviyyəsini artırmaq, ixtisas təhsili almaq, şəxsi əlavə bacarıq və biliyə ehtiyacı nəzərdə tutan başqa işə və ya vəzifəyə hazırlamaq məqsədi ilə həyata keçirilir. İnvestor işçinin təhsilinə sərmayə qoyur və təlimə sponsorluq edir. Bundan əlavə, təlim müxtəlif seminarlar, qısa təlim kursları və s. şəklində təqdim edilə bilər.

3.Əmək bazarında mobillik xərcləri (insan kapitalının xaricə axınının, miqrasiyanın qarşısının alınması, kadr axını, HR xidmətinin xərcləri və s.) Bu halda, bunlar əmək fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan işçilərin miqrasiya xərcləridir.

4.Uşaqların doğulması və tərbiyəsi ilə bağlı xərclər.

İnsan kapitalına investisiyanın ən populyar növü **təhsildir**. Bu sadədir, təlim və yeni bacarıq və biliklərin əldə edilməsi işçilərin və bütövlükdə bütün şirkətin imkanlarını genişləndirməyə imkan verir.Beləliklə, təhsilə investisiya qoyarkən, məqsədlərinizə çatmaq üçün aşağıdakı üsullardan istifadə edə bilərsiniz:

I) işçilər üçün müxtəlif kurslar;
II) seminarlar, ustad dərsləri, təlimlər, vebinarlar;
III) qısamüddətli təlim üçün işgüzar səfərlər;

IV) təkmilləşdirmə kursları keçmək;

V) ali təhsil müəssisəsində qiyabi təhsil forması.

Müasir dövrdə ham ayrı-ayrı müəssisələrin, həm də bütövlükdə cəmiyyətin inkişaf səviyyəsi və tempini insan kapitalı müəyyənləşdirir.Bu gün dünyada öz əhalisinə yüksək dəyər verən ölkələr ən inkişaf etmiş ölkələr kimi qəbul olunur.2000-ci ildə BMT tərəfindən qabul edilmiş "Minilliyin inkişaf məqsədləri" proqraminda gələcək davamlı inkişafın təmin olunması üçün 8 prioritet məqsəd müəyyən edilmişdir ki, onların da əksəriyyəti bilavasitə insan kapitalının davamlı inkişafı ilə bağlıdır. Mahz buna görə da insan kapitalinin inkişaf etdirilməsi artiq əksər dünya ölkələri, o cümlədən Azərbaycan üçün prioritet məsələyə çevrilmişdir.

Azarbaycanda insan kapitalının davamlı inkişafı istiqamətində çox mühüm tədbirlər görülmüşdür. Ölkəmizdə təhsilin ve elmin inkişafinin yüksək mərhələyə qaldırılmasında xalqimizin ümummilli lideri **Heydər Əliyevin** böyük xidmətləri olmuşdur. 1989-cu ildə 244 ixtisas üzrə respublikadan kanara 47 telebe gönderildiyi halda, 1980-ca ida bu rəqəm 1400 nafara çatdırmışdır. Müasir dövrdə də təhsilin inkişafı məqsədilə ölkə Prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncamlara uyğun olaraq, dövlət proqramları həyata keçirilməkdədir. Bunlara misal olaraq "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı "Azərbaycan Respublikası umumtəhsil məktəblərinin (İKT ilə təmini programı (2005-2007-ci illər)" "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılmasına dair Dövlət Proqrami" göstərilə bilər.Eyni zamanda, 2009-cu ildə ölkə Prezidentinin Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun yaradılması ilə bağlı sərəncamı da dediklərimizə nümunədir.

2012-ci ildə Azərbaycan gənclərinin xaricdə tahsili üzrə Dövlət Proqramı çərçivəsində xaricdə təhsil alan azərbaycanlıların sayı 1276 nefer olmuşdur.Xaricdə təhsil alan tələbələrin ixtisas sahələri üzrə bölgüsünə nəzar salsaq görərik ki, ölkənin iqtisadi inkişafının prioritet istiqamətləri burada da özünü büruzə veri:belə ki tələbələrin əksəriyyəti İKT və turizm üzrə təhsil alırlar. İqtisadiyyat,tibb və mühəndislik sahələri də yüksək çəkiyə malikdir. Burada diqqətçəkən digər bir cəhət ondan ibarətdir ki, texniki və təbiət elmləri sahəsində xaricdə dövlət hesabına təhsil alan tələbələrin sayı nisbətən aşağıdır. Bele ki, bu sahələr yəni riyaziyyat,biologiya kimya üzrə tahsil alanların xüsusi çəkisi cəmi 4 faizdir ki, bu da nisbətən aşağı göstəricidir. Ümumiyyətlə, Azərbaycanda təhsilin təşkilinin əsas prinsiplərindən biri təhsil sisteminin **humanitarlaşdırılmasıdır**. Lakin ölkədə humanitar sahələrlə yanaşı, texniki və təbiət elmlərinin ,başqa , fundamental elm sahələrinin inkişaf etdirilməsinə də ehtiyac var. Xaricdə təhsil alan tələbələrin ölkələr üzrə bölgüsünə nəzər saldıqda isə, əksər tələbələrin Türkiyə Almaniya, Böyük Britaniya və Kanadada təhsil aldığını görərik

2013-cü il Azərbaycanda "İKT ili" elan olunmuşdur. Bütün bunların fonunda ölkəmizdə müasir dünya təhsil sisteminin vacib tərkib hisselerinden biri olan distant təhsilin aşağı inkişaf səviyyəsi təəccüb doğurur Bəlkə də bu, adıçəkilən sistemin postsovet ölkələri üçün yeni bir forma olmasından irəli gəlir.Bir çox inkişaf etmiş ölkələrdə artıq uzun illərdir ki, uğurla həyata keçirilən distant təhsilin ölkəmizdə inkişafı xüsusilə regionlarda yaşayan ahalinin internet vasitəsilə yüksək səviyyəli təhsil almasına və onların faydalı insan kapitalı kimi formalaşmasına səbəb olacaq.

Azərbaycanda insan kapitalının inkişafı üçün müxtəlif ölkələrin bu sahədə olan təcrübələrinin tədqiq edilməsi və yerli şəraitə uyğunlaşdırılaraq ölkəmizdə tetbiq edilməsi də zəruridir. Bu qəbildən

numunə kimi, Qatar Dövlətinin insan kapitalı siyasəti nəzərdən keçirilə bilər. Qətər də Azerbaycan kimi neft ixrac edən bir ölkədir. Hazırda Qətər dünyada ən yüksək həyat səviyyəsinə malik ölkələrdən biridir. 2012-ci ildə adambaşına düşən UDM həcminə görə Qətər dünyada birinci yeri tutmuşdur və bu da artıq Qətərin "qara qızılı insan qızılına" çevirmək sahəsində böyük yol qət etdiyini deməyə əsas verir. Neft kapitalını insan kapitalına çevirmək bu ölkənin prioritetləri sırasındadır ve bu sahədə çox böyük işlər görülmüşdür.

İnsan kapitalının bir unikal xüsusiyyəti var: o, investisiya qoyulduğu bazadan başqa yerdə tətbiq olunmaya bilər. Belə ki, şirkətin vəsaiti hesabına təhsil almış bank işçisi xüsusi bilikləri bank sektorundan kənarda tətbiq edə bilməyəcək. Ona görə də hər bir şirkətdə insan kapitalının artmasında maraq hər iki tərəf üçün qarşılıqlı faydalı olmalıdır. İşçilər bilik və bacarıqların artırılması prosesindən məmnunluq duymalıdırlar ki, bu da sonradan pul və mənəvi baxımdan öz bəhrəsini verəcəkdir. Şirkət rəhbərliyi də öz növbəsində işçilərini istiqamətləndirməli və sərmayələrini itirməmək üçün onları istehsal proseslərində kapital tətbiq etməyə həvəsləndirməlidir.

İnsan kapitalına investisiyalar daha çox məcmu sərmayələrdir ki, bu da yalnız müəyyən bir növün seçilməsini nəzərdə tutmur, əksər hallarda investisiyalar insan kapitalı konsepsiyasının bütün kateqoriyalarına edilir. Konsepsiya həmçinin iş yerlərinin rahatlığına və funksionallığına sərmayə qoymaq ehtiyacını da ehtiva edir, çünki məcmu olaraq bu, əmək məhsuldarlığının səviyyəsinə təsir göstərir.İnsan kapitalının effektivliyi şirkətin uğurunun birbaşa göstəricisidir

Azərbaycanda dövlət siyasətinin mərkəzində vətəndaş amili, əhalinin yüksək rifahı və layiqli həyat səviyyəsi dayanır. Yeni dövrdə isə dövlət müasir əmək bazarının tələblərinə uyğun bilik və bacarıqların inkişaf etdirilməsi, rəqabətli insan kapitalının formalaşması, cəmiyyətin yüksək rəqəmsal mədəniyyətə və bacarıqlara sahib olması və innovativ texnologiyalara əsaslanan iqtisadiyyatın formalaşdırılması yolu ilə sosial rifahı yüksəltməyi hədəfləyir. Azərbaycan dünyada artan rəqabətə uyğun insan kapitalı formalaşdırmaqla rifaha nail olmağı prioritet kimi müəyyən edib. Bu baxımdan ölkəmizdə rəqəmsal iqtisadiyyatın və texnologiyaların inkişafi üçün əlverişli infrastrukturun formalaşdırılması istiqamətində fəal iş aparılır. Azərbaycan Respublikası Prezidentinin 6 yanvar 2021-ci il tarixli Fərmanı ilə Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin, Azərbaycanda Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Afiləedilmiş Mərkəzinin yaradılması da ölkəmizi yeni texnoloji rəqabət mühitində önə çıxarmaq məqsədindən irəli gəlir.

Bununla yanaşı, idarəetmə sahəsində daim təkmilləşmə və effektivlilik əsas götürülərək insan kapitalının, kadr potensialının formalaşması, bacarıqlı kadrların önə çıxarılması məqsədilə də yeni layihələr həyata keçirməkdədir. Məsələn, "Yüksəliş" müsabiqəsi intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri, yeni dövrə uyğun bilik və vərdişləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi və ölkədə kadr bankının yaradılmasını təmin etmək məqsədilə atılmış mühüm addımdır. Bununla yanaşı, İqtisadiyyat Nazirliyində yüksək potensiallı ehtiyat kadrlar bazasının formalaşdırılmasında mövcud potensialdan səmərəli istifadə, peşəkarlıq səviyyəsinin artırılması, rotasiyasının, hərtərəfli inkişaf üçün şəraitin yaradılmasının təmin edilməsi, eləcə də idarəetmə sahəsində təcrübə mübadiləsinin təşkil edilməsində "Uğur yolu" karyera inkişaf proqramının həyata keçirilməsi xüsusi önəm kəsb edir.

İnsan kapitalının həlledici rolunu nəzərə alaraq, innovasiyaların davamlı inkişafı fonunda bu sahəyə diqqət getdikcə artacaq. Bu məqsədlə şərait və mühit daha da əlverişli hala gətiriləcək. Təhsilin keyfiyyətinin yüksəldilməsi, innovasiyaları təşviq edən münbit şəraitin yaradılması, ölkəni rəqabətdə irəli aparmaq üçün cəmiyyətin yaradıcılığını və innovativliyini stimullaşdıran ekosistemin qurulması, dövlətin vahid rəqəmsal platformasının yaradılması kimi tədbirlər də buna xidmət edəcək.

İşsizliyin azaldılması və əmək bazarında rəqabətin artması işçilərin təliminin nə dərəcədə fəal şəkildə təşviq edilməsindən, dövlət və müəssisənin investisiyalarının nə dərəcədə məhsuldar şəkildə bölüşdürülməsindən asılıdır ki, bu da öz növbəsində hər bir fərdi şəxsi öz inkişafına və sərmayə qoymağa səy göstərməyə stimullaşdırır. təhsil. Bu isə öz növbəsində insanların sosial şəraitinin, mədəniyyət səviyyəsinin yaxşılaşmasına səbəb olur.

İnsan kapitalına qoyulan investisiyanın qaytarılması istehlakın təsirinin artmasına səbəb olur, istehsalı stimullaşdırır. Bu o deməkdir ki, insan potensialı digər mallardan qeyri-mütənasib şəkildə yüksək qiymətləndirilməlidir. İnsan kapitalına investisiya nə qədər ciddi olarsa, şirkətin mənfəəti və rifahı bir o qədər yüksək olar. İnvestisiya prosesi investisiya obyektlərindəki fərqlərdən asılı olmayaraq rasional yanaşma tələb edir. İnvestisiya ilə bağlı qərar qəbul edərkən, görəcəyiniz iş üçün məsuliyyət göstərmək lazımdır, uğurunuz və qazancınız birbaşa bundan asılıdır. İnvestisiya prosesi investisiya obyektlərindəki fərqlərdən asılı olmayaraq rasional yanaşma tələb edir. İnvestisiya ilə bağlı qərar qəbul edərkən, görəcəyiniz iş üçün məsuliyyət göstərmək lazımdır, uğurunuz və qazancınız birbaşa bundan asılıdır.Bu səbəbdən insan kapitalına investisiya qoymazdan əvvəl aşağıdakı məqamları nəzərə almaq lazımdır:

- investisiya üçün tələb olunan vəsaitin miqdarı;
- maliyyə vəsaitlərinin cəlb edilməsi zamanı əldə ediləcək məqsədlərin müəyyən edilməsi;
- geri ödəmə müddəti və gözlənilən gəlir;
- ən sərfəli maliyyələşdirmə variantları;
- investisiyanın rasionallığının qiymətləndirilməsinin həyata keçirilməsi.

İnvestor investisiyaların əsaslandırılacağına tam əmindirsə, o zaman yalnız qarşıya qoyulan məqsədlərə nail olmaq üsulları barədə qərar vermək lazımdır. Bu vəziyyətdə müxtəlif vasitələrdən istifadə edilə bilər Bununla birlikdə, ilk növbədə, hər bir investor risklərin mövcudluğunu başa düşməlidir, buna görə də çox itki olmadan paylanmış vəsaitlərlə xərclərin azaldılması variantlarını nəzərə alacaq "geri çəkilmə planı" lazımdır.

## Beynəlxalq maliyyə sistemində maliyyə institutları

**Məmmədova Röya**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Elmi rəhbər: Məmmədova Ülkər**

### Giriş

İlk olaraq qeyd edək ki, beynəlxalq maliyyə təşkilatları dedikdə həm quruluşu həm də sərmayəsində birdən çox ölkənin iştirak etdiyi həmçinin faydalandığı quruluşlardır. Fəaliyyət göstərən beynəlxalq maliyyə təşkilatlarının hər biri ikinci dünya müharibəsindən sonra yaradılmışdır. Yaranma tarixinə görə ilk olaraq Beynəlxalq Valyuta Fondu və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı qurulmuşdur.

Beynəlxalq Vayuta Fondundan danışsaq, bu təşkilatın əsası 1944-cü ildə ABŞ-ın Hempşir ştatının Bretton-Vuds əyalətində baş tutan konfransda təsis olunmuşdur. Bu konfrans BMT-nin valyuta konfransı idi. Yaradılan təşkilatın əsas məqsədi valyuta-maliyyə sferasında beynəlxalq əməkdaşlığı təmin etmək, beynəlxalq ticarətin genişlənməsinə və tarazlı inkişafa şərait yaratmaq, bunula da üzv ölkələrin iqtisadi yüksəlişinə yardımçı olmaq, üzv ölkələrin valyuta stabilliyinə xidmət etmək, üzv ölkələrin tədiyyə balansındakı qeyri-tarzalıqları aradan qaldırmaq məqsədi ilə onlara kreditlər vermək, bununla da beynəlxalq iqtisadi əlaqələrin qarşısını alan maneələri aradan qaldırmaq, beynəlxalq ticarət münasibətlərinə maneçilik törədən valyuta idxalı məhdudiyyətlərinin aradan qaldırılması idi. Beynəlxalq Valyuta Fondunun İdarəedicilər Şurası adlanan ali rəhbər orqanı mövcuddur. Bu fondun idarəedici direktorlarının sayı 53-dür. Lakin ən çox səsə malik ölkələr ABŞ, Almaniya, Yaponiya, Böyük Britaniya , Fransa , Səudiyyə Ərəbistan , İtaliya , Rusiyadır. Əsasən 2 məqsədə xidmət edir. Birincisi, tədiyyə balansındakı qeyri-tarzlığı aradan qaldırmaq, ikincisi, büdcə xərclərinin kreditləşməsi başda olmaqla, ölkənin makroiqtisadi stabilliyinə yönəldilən tədbirlərin həyata keçirilməsi. Üzv ölkələrin cəlb etdikləri kreditin həcmi kvotanın 25%-dən çox ola bilməz. Qeyd edək ki, bundan yuxarı həcmdə kredit verilməsi Beynəlxalq Valyuta Fondunun direktorunun razılığından asılıdır və bu elə həmin ölkənin ümumiqtisadi, eləcə də, maliyyə siyasətinin təhlili əsasında həyata keçirilir. Ümumiyyətlə kreditin verilməsindən danışsaq Beynəlxalq Valyuta Fondunun kredit müraciət əsasında və ölkənin iqtisadi durumunu qiymətləndirdikdən sonra verir. Üzv ölkələrin məqsədli lahiyyələri həyata keçirtmək üçün onların qarşısında bir sıra şərtlər qoyulmuşdur. Kredit vəsaitləri yalnız bu şərtlərin reallaşmasından sonra həyata keçirilir. Beynəlxalq ticarət fəaliyyətində valyuta məhdudlaşdırılmalarına, hissə-hissə üzən valyuta sisteminin tətbiq edilməsinə, eləcə də möhtəkir xarakterli kapital hərəkətinə yol verməmək, dövrü olaraq ölkənin maliyyə və iqtisadi durumu haqqında fonda məlumat vermək, məqsədli devalvasiya siyasətinə zəruriyyət yarandıqda, devalvasiya dərəcəsini fonda bildirmək kimi şərtlər üzv ölkələrin qarşısında duran şərtlərdir. Fondun üzv ölkələrinin bir sıra məsuliyyətləri vardır. Bu ölkələr üzərinə götürdükləri məsuliyyəti yerinə yetirmədikdə, bir sıra cəza tədbirlərinə məruz qalırlar. Bu maliyyə qurumu həmin ölkələrə kredit verilişini dayandıra, hətta onları üzvlükdən uzaqlaşdıra bilər. Öhdəliklərdən yayınmanın səviyyəsindən asılı olaraq cəza tədbirləri müəyyənləşdirilir. Digər önəmli təşkilatlardan biri Beynəlxalq İnkişaf və Yenidənqurma Bankıdır. Beynəlxalq Valyuta Fondu ilə eyni vaxtda yəni, 1944-cü ildə yaradılmışdır. Beynəlxalq İnkişaf və Yenidənqurma Bankının rəhbər orqanları ali rəhbər orqanı Beynəlxalq Valyuta Fondunda olduğu kimi

İdarəedicilər Şurasıdır və onun Direktorluğudur. Bura üzv olan ölkələr həmçinin BVF-nun da üzvü olmalıdırlar. Bankın ümümu kapitalının 20%-dən çox hissəsi ABŞ-ın payına düşür. Bu bankın əsas bir neçə məqsədi var ki, bunlara üzv ölkələrin iqtisadi maliyyə islahatlarına yardımçı olmaq, xarici maliyyə qaynaqlarından daxilolan investisiya vəsaitləri ilə üzv ölkəri təmin etmək, ölkələrin xarici dövlət borcu mexanizmni normal hala gətirmək və bu yöndə meydana çıxan əsaslı çətinlikləri aradan qaldırmaq, ölkələr üçün daha sərfəli investisiya mənbələrini müəyyən etmək və beynəlxalq iqtisadi tarazlığı təmin etmək, üzv ölkələrin yerli şirkətlərinin maliyyə mənbələrinə yaranan ehtiyacın aradan qaldırılması və s aid edilə bilər. Təşkilatın tərkibinə Beynəlxalq İnkişaf Assosiasiyası, Beynəlxalq Maliyyə Korporasiyası və İnvestisiya Zəmanəti üzrə Çoxtərəfli Agentlik aiddir.

Dünya Bankından danışsaq, 1 iyul dünyada qlobal iqtisadi inkişafın məqsədlərinə xidmət edən və maliyyə resurslarının bölgüsünü təmin edən ən böyük donor təşkilatlardan biridir. BMT tərərfindən yaradılan bu təşkilata sadəcə bir bank kimi baxmaq düzgün olmazdı. Dünya bankı ixtisaslaşmış bir agentlikdir. Hal hazırda 184 üzvü var. Dünya Bankı inkişaf etməkdə olan ölkələrə çox aşağı faiz dərəcəsi ilə və ya faizsiz uzunmüddətli kreditlər və qrantlar verən bir təşkilatdır. Bankın əsas məqsədi kasıb ölkələrə struktur islahatlarının həyata keçirilməsində xüsusi ilə də yoxsulluğun azaldılmasında yardım göstərməkdir. Ölkələr inkişafa nail olmaq üçün Dünya Bankının öz maliyyə resurslarından, yüksək ixtisaslı kadrlarından və biliklər bazasından istifadə edirlər. Yaradılan zaman ilkin məqsəd İkinci dünya müharibəsində dağıntılara məruz qalan və dirçəlməyə ehtiyac duyan ölkələrdə yenidənqurma işlərinin həyata keçirilməsi və maliyyələşdirilməsi olmuşdur. Bu bankın digər banklardan bir fərqi var ki, heç bir kəs bu bankda hesab aça bilməz bu və bankın yeganə müştəriləri dövlətlərdir. Dünya Bankı dünyanın əsas mərkəzi bankıdır, bununla bərabər ölkələrin bank sektorunu tənzimləyir, müəyyən vaxtlarda bankları məlumatlandırır və öz məsləhətləri ilə təmin edir.

Digər çox mühüm təşkilatlardan biri Avropa Yenidənqurma və İnkişaf Bankıdır. Bu təşkilat 1991-ci ildə yaradılmışdır və mənzil qərərgahı London şəhərində yerləşir. Bankın yaradılmasında əsas səbəb kimi , həmin dövrdə Mərkəzi və Şərqi Avropada kommunist rejimin süquta uğraması və keçmiş sovet blokuna aid bir sıra ölkələrin demokratik şəraitə uyğun özəl sektorun yaradılmasına dəstəyin göstərilməsini deyə bilərik. AYİB 5 qitədən olan 69 ölkənin, həmçinin Avropa Birliyi və Avropa İnvestisiya Bankının maraqlarına xidmət edən bir təşkilatdır. Azərbaycan bir sıra önəmli təşkilatlarla əməkdaşlıqlar yaratmışdır. AYİB-də bura aiddir. İlk dəfə Azərbaycanla əməkdaşlıq 1992-ci ildə başlamışdır.AYİB-in Azərbaycanda nümayəndəliyi 1993-cü ildən bəri fəaliyyət göstərir. Bir çox layihəsi olan AYİB Azərbaycanda 168 layihə həyata keçirir ki bunlardan 11-i dövlət, 157-si isə özəl təşkil edir. Bu təşkilat təkcə Bakıda deyil, rayonlarda da fəaliyyət göstərir. Qeyd edək ki, 22 noyabr 2019-cu ildə Böyük Britaniyanın paytaxtı London şəhərində AYİB-in Şərq Tərəfdaşlığı İnvestisiya Sammiti baş tutub. Bu sammitdə Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov iştirak edib. Tədbir çərçivəsində Azərbaycan Respublikası Hökuməti ilə AYİB arasında əməkdaşlıq Sazişi və Azərbaycan Respublikası Hökuməti ilə AYİB arasında Azərbaycanın Şərqi Avropa Enerji Səmərəliliyi və Ətraf Mühit üzrə Regional Tərəfdaşlıq Fondunda iştirakı ilə əlaqədar ianə haqqında Saziş imzalanıb. Həmçinin, Azərbaycanın AYİB-in donor ölkələr icmasına qoşulması ilə bağlı Saziş imzalanıb.AYİB-in enerji sektorunda maliyyələşdirdiyi layihələrdən biri olan TANAP layihəsindən danışsaq, təbii qazı Türkiyənin Şərq sərhədindən Qərb sərhədinə daşıyacaq, bütün ölkədə sabit tranziti təmin edəcək

bir layihədir. Layihə Azərbaycandan başlayan genişlənmiş Cənubi Qafqaz boru kəmərini Avropa Birliyində bir neçə kəmərlə əlaqələndirəcək. 5 il ərzində reallaşması nəzərdə tutulan layihənin dəyəri 7 mlrd. ABŞ dollarıdır. Dörd mərhələdə həyata keçiriləcəyi planlaşdırılan layihənin ilk mərhələsi 2018-ci ildə başa çatıb.

**ƏDƏBİYYAT:**


1. (https://az.wikipedia.org/wiki/Beyn%C9%99lxalq_maliyy%C9%99_t%C9%99%C5%9Fkilatlar%C4%B1)
2. (https://az.wikipedia.org/wiki/Beyn%C9%99lxalq_Valyuta_Fondu)
3. (https://az.wikipedia.org/wiki/Beyn%C9%99lxalq_Yenid%C9%99nqurma_v%C9%99_%C4%B0nki%C5%9Faf_Bank%C4%B1)
4. (https://az.wikipedia.org/wiki/Avropa_Yenid%C9%99nqurma_v%C9%99_%C4%B0nki%C5%9Faf_Bank%C4%B1)
5. (https://minenergy.gov.az/az/beynelxalq-teskilatlarla-elaqeler/avropa-yenidenqurma-ve-inkisaf-banki)
6. (https://az.wikipedia.org/wiki/Trans-Anadolu_qaz_boru_k%C9%99m%C9%99ri)

**Heydər Əliyevin vergi sisteminin formalaşmasında rolu**

**Məmmədova Fatimə**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Elmi rəhbər:Adgğzəlov Daşqın**

***Giriş :Azərbaycanda müasir dövrün tələblərinə cavab verən vergi sisteminin formalaşdırılması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderin həyata keçirdiyi islahatlar nəticəsində müasir tələblərə cavab verən vergi sistemi yaradılmışdır.***

Məhz ulu öndərin bilavasitə rəhbərliyi ilə vergi xidmətinin fəaliyyəti yenidən qurulmuşdur. Bazar iqtisadiyyatına keçidin ən vacib şərtlərindən olan vergi münasibətlərinin tənzimlənməsində, beynəlxalq standartlara uyğun vergi sisteminin formalaşmasında, çevik vergi siyasətinin aparılmasında dahi rəhbərin misilsiz fəaliyyəti danılmazdır.

Onun birbaşa təşəbbüsü ilə Azərbaycanın müasir vergi sisteminin fundamental əsasları yaradıldı, kompleks və sistemli islahatların istiqamətləri müəyyənləşdirildi. Vergi sahəsində təkmil qanunvericilik bazasının yaradılması, vergi administrasiyasının modernləşdirilməsi, kadr potensialının çevik idarəetmə sistemində fəaliyyətinin təkmilləşdirilməsi vergi siyasətinin güclü və işlək mexanizmlərini formalaşdırdı. Ulu öndərin 11 fevral 2000-ci il tarixli fərmanı ilə Baş Dövlət Vergi Müfəttişliyinin bazasında Vergilər Nazirliyinin yaradılması yeni dövrün inkişaf meyarlarından biri olmaqla, iqtisadiyyatı yüksək artım templəri ilə müşahidə olunan Azərbaycan dövlətinin qarşısında vergi siyasətinin həyata keçirilməsinin və vergi siyasətinin iqtisadi siyasətin mühüm tərkib hissəsi olmasının əyani təzahürü idi.[2]

Ulu öndərin yürütdüyü siyasət ilk növbədə, ölkədə social-iqtisadi inkişafın və regional siyasətin gücləndirilməsi, sahibkarlığa dövlət qayğısının artırılması, iş adamları üçün əlverişli şəraitin yaradılması, yeni iş yerlərinin açılması, inzibati idarəetmə strukturlarının təkmilləşdirilməsi kimi mühüm həlqələri əhatə etməklə bu iqtisadi strategiyanın uğurla reallaşdırılmasına zəmin yaratmışdır. Bu siyasətin nəticəsi olaraq Azərbaycan iqtisadiyyatında müşahidə olunan müsbət dəyişikliklər özünü təkcə bazar münasibətlərinin dərinləşməsində deyil, həm də işgüzar mühitin aktivləşməsi və dinamikləşməsində, sahibkarlıq subyektlərinin sayının gündən-günə artmasında göstərdi. Kənd təsərrüfatı mülkiyyətçiləri torpaq vergisi istisna olmaqla, bütün növ vergilərdən azad olundu ki, bu da aqrar sahədə dinamik inkişafa əlverişli zəmin yaratdı. *"Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əlirza oğlu Əliyevin Azərbaycan Respublikasının xalq deputatı səlahiyyətlərinə xitam verilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI".[4]*

Vergi xidmətinin strukturu sistemlilik, çeviklik, operativlik, koordinasiyaolunma və güclü təşkilati-idarəetmə mexanizmi kimi müsbət keyfiyyətləri özündə birləşdirdi. Vergi xidmətinin kadr heyətinin yenidən komplektləşdirilməsi aparıldı. Ulu öndərin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə vergi siyasətinin əsas istiqamətləri, vergilərin sayı və dərəcələrinin optimal səviyyəsi müəyyənləşdirildi, ölkədə vergi yükünün aşağı salınması, vergi menecmentinin müasirləşdirilməsi istiqamətində bir sıra uğurlar əldə olundu. Bunlar sahibkarlığın inkişafına təkan verdi. Əsassız yoxlamaların və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması istiqamətində önəmli addımlar atıldı. Həmçinin vergi xidmətində yeni iş proseslərinin tətbiq edilməsi, vergi ödəyiciləri ilə vergi xidməti əməkdaşları arasında kontaktsız münasibətlərin qurulması bütövlükdə vergi inzibatçılığının əhəmiyyətli şəkildə

yaxşılaşmasına şərait yaratdı. «Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik» - deyən Heydər Əliyevin rəhbərliyi ilə formalaşdırılan vergi sistemi ölkəmizdə sahibkarlığın, xüsusilə də iqtisadiyyatda keçid dövrünün uğurla başa çatdırılmasında mühüm rol oynadı, bazar münasibətlərinə adekvat çevik vergi siyasətini həyata keçirməyə qadir, beynəlxalq standartlara cavab verən səmərəli idarəetmə sisteminə çevrildi. Heydər Əliyevin gərgin əməyi nəticəsində vergi sahəsində də bir çox islahatlar aparılmış və həyata keçirilmişdir. Bir sıra dövlət mülklərinin özəlləşdirilməsi nəticədə dövlətə ödənilən verginin faizində artıma səbəb olmuşdu. Bir çox sahələrdə özəlləşdirmə dövlətə ödənilən verginin artmasına və milli büdcənin artımına gətirib çıxarırdı. Torpaq sahəsində özəlləşdirmə torpaq sahibkarlarına öz pay torpaqlarını azad əkib, becərmək imkanı verdi. Vergi münasibətlərini tənzimləyən bir sıra Qanunlar – "Mədən vergisi haqqında" (1995-ci il), "Əmlak vergisi haqqında" (1995-ci il), "Müəssisələrin və təşkilatların mənfəət vergisi haqqında" (1996-cı il) Qanunları qəbul edilmiş və qüvvədə olan Qanunlara ("Əlavə dəyər vergisi haqqında", "Fiziki şəxslərin gəlirlərindən vergi haqqında" Qanunlarda və s.) bir sıra əlavə və dəyişikliklər edilmişdir. 01 yanvar 2001-ci il tarixdən "Azərbaycan Respublikasının Vergi Məcəlləsi" qüvvəyə minmişdir. Bütün bu həyata keçirilən vergi münasibətlərinin tənzimləyən bu qanunlar Azərbaycanda vergi sistemini möhkəmlətdi. Heydər Əliyevin apardığı siyasət nəticəsində Azərbaycanda nəqliyyatın bütün sahələrinin yenidən bərpası və inkişafı üzrə qanunlar qəbul olundu, tədbirlər həyata keçirildi ki, bu da ölkəmizin digər dövlətlərlə istər havadan, istər sudan, istərsə dəmiryolları vasitəsilə iqtisadi əlaqə yaranmasına, möhkəmlənməsinə şərait yaratdı.[3]

Heydər Əliyevin hakimiyyətə qayıtması ilə bütün sahələrdə olduğu kimi, ölkəmizin iqtisadi həyatında da taleyüklü dəyişikliklərin əsası qoyuldu, Azərbaycan dövlətini və ölkə iqtisadiyyatını labüd fəlakətdən, hərc-mərclikdən xilas edən Heydər Əliyev ölkənin iqtisadi yüksəlişi üçün təcili tədbirlər görməyə başladı. Ümummilli liderin rəhbərliyi ilə qısa müddət ərzində ölkədə bazar iqtisadiyyatının formalaşması məqsədilə qanunvericilik bazası yaradıldı, məqsədli dövlət proqramları qəbul edildi, institusional islahatlar aparıldı, mülkiyyət münasibətlərində köklü dəyişikliklər edilməsi üçün müvafiq addımlar atıldı. Dahi siyasətçi Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş strategiyanın əsasını iqtisadiyyatın inkişafına, mövcud resurslardan səmərəli istifadəyə, dünya iqtisadiyyatına inteqrasiyaya və nəticə etibarilə vətəndaşların rifah halının yüksəldilməsinə hesablanan sosialyönümlü bazar iqtisadiyyatının yaradılması təşkil edirdi.

*"Azərbaycan Sərhəd Mühafizəsi tarixi. Sovet hakimiyyəti illərində (aprel 1920 – dekabr 1991)".*

**Dünyada iki şey şəksizdir: vergi və ölüm**. Vergi hər şeydən öncə iqtisadi bir hadisədir. Bir ölkədə mövcud olan iqtisadi quruluşla vergi sistemi arasında çox yaxın əlaqə var. Sosialyönümlü, bazar iqtisadiyyatlı bütün ölkələrdə vergi sistemi iqtisadiyyatın tənzimlənməsində, büdcə gəlirlərinin formalaşmasında, qiymət artımının məhdudlaşdırılmasında, inflyasiyanın qarşısının alınmasında dövlət maraqlarının əsas daşıyıcısı kimi çıxış edir. Müstəqilliyin ilk illərində Azərbaycanın bütün sahələrində olduğu kimi iqtisadiyyatda da tənəzzül gedir, büdcə gəlirlərinin azaldılması sosial iqtisadi problemləri kəskinləşdirirdi. Ulu öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra apardığı ardıcıl və məqsədyönlü siyasət nəticəsində Respublikada sabitliyin təmin olunması iqtisadiyyatda tənəzzülün tədricən aradan qaldırılmasına və ölkənin iqtisadi həyatında mahiyyətcə yeni mərhələnin başlanmasına rəvac verib. Genişmiqyaslı iqtisadi islahatların ilkin nəticələri aparılan siyasətin

düzgünlüyünü və Azərbaycanın bazar iqtisadiyyatı yolunda inamlı addımlarını təsdiq edir. Ümummilli liderin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycan iqtisadiyyatı bazar iqtisadiyyatı prinsipləri əsasında yenidən qurulub, makroiqtisadi sabitliyin möhkəmlənməsi və iqtisadiyyatın tarazlı inkişafının təmin olunması sahəsində kompleks tədbirlərin həyata keçirilməsinə başlanılıb. [1]Həmin dövrdə irimiqyaslı islahatlara yönələn iqtisadi siyasətin ayrılmaz tərkib hissəsi olan vergi siyasətində də köklü dəyişikliklərin aparılması, vergi sisteminin müasir standartlar əsasında formalaşdırılması bir zərurət kimi qarşıda dururdu. Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik" tezisi ilə vergi siyaətinin iqtisadi siyasətin mühüm tərkib hissəsi kimi aparıcı rolunu qeyd edən Ümummilli lider Heydər Əliyev Vergilər Nazirliyinin yaradılması, Vergi Məcəlləsinin qəbul edilməsi və digər aidiyyəti qərarları ilə müstəqil Azərbaycan dövlətinin vergi sisteminin formalaşmasının təşəbbüskarı və banisidir.Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında vergi siyasətinin konsepsiyasının əsas konturları müəyyənləşdirilib və bu sahədə radikal islahatların aparılmasına başlanılıb. Dövlət vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edəcək və bu sahədə dövlət nəzarətini həyata keçirəcək mərkəzi icra hakimiyyəti orqanı kimi Vergilər Nazirliyinin yaradılması, onun həm səlahiyyətlərinin, həm də ölkə iqtisadiyyatının inkişafında rolunun müəyyənləşdirilməsi Ümummilli lider Heydər Əliyevin bu sahəyə göstərdiyi böyük diqqətin bariz nümunəsidir. Vergilər naziri, 2-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov da vurğulayıb ki, Azərbaycanda quruculuq işlərinin başlandığı 90-cı illərin ortalarında məhz Ulu öndərin təşəbbüsü və dəstəyi ilə vergi sistemində də köklü dəyişikliklərin aparılmasına, vergi sisteminin müasir standartlar əsasında formalaşdırılmasına start verilib: "Əvvəllər dövlət xəzinəsinə gəlirlərin yığılması ilə məşğul olan fiskal orqan kimi fəaliyyət göstərən vergi xidmətinin funksiyaları genişləndirilib, vergi siyasəti isə biznes mühitini iqtisadi tənzimləmə və stimullaşdırma vasitəsi kimi tətbiq olunmağa başlayıb. Görkəmli şəxsiyyət Heydər Əliyevin rəhbərliyi altında vergi siyasətinin konseptual əsasları hazırlanıb, vergi sistemində aparılacaq islahatların fəlsəfəsi, strategiyası və əsas istiqamətləri formalaşdırılıb". Azərbaycanda vergi sahəsində təkmil qanunvericilik bazasının yaradılması, ölkənin ilk Vergi Məcəlləsinin qəbulu da bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Onun rəhbərliyi altında 1999-2000-ci illərdə Vergi Məcəlləsinin ilk layihəsi hazırlanaraq geniş ictimai müzakirələrə çıxarılıb və 2000-ci ilin iyul ayında qəbul edilib.Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri, millət vəkili Ziyad Səmədzadə də vurğulayıb ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra yeni iqtisadi sistemin yaradılması obyektiv zərurətə çevrilib. Onun sözlərinə görə, vergi sisteminin qurulması bu siyasətin mühüm istiqamətlərindən biri kimi müəyyənləşdirilib: "Müstəqilliyin ilk illərində bu prosesin həyata keçirilməsi üçün tədbirlər görülsə də bütövlükdə onlar sistemli xarakter daşımırdı. Ona görə də, ölkənin iqtisadiyyatında, onun maliyyə mənbələrinin formalaşmasında ciddi problemlər yaranırdı. Ulu öndər Heydər Əliyevin Azərbaycanda makroiqtisadi sabitliyin təmin olunması, islahatlarla bağlı müəyyən etdiyi konsepsiyada yeni vergi sisteminin formalaşdırılması fundamental bir vəzifə kimi müəyyənləşdirilib. Vergilər Nazirliyinin yaradılması, iqtisadi islahatların elmi-metodoloji əsaslarının möhkəmləndirilməsi ölkənin maliyyə resurslarının səfərbər edilməsi işində mühüm rol oynayıb. İlk növbədə, Vergilər Nazirliyinin ali idarəetmə orqanı kimi azad bazar münasibətlərinin inkişafında rolu müəyyənləşdirilib. [3]Vergi siyasətinin qanunvericilik bazasının möhkəmləndirilməsi istiqamətində böyük işlər görülüb, dünya təcrübəsinə müraciət olunub, milli maraqlara cavab verən Vergi Məcəlləsi

tətbiq edilib, sahibkarlar üçün imkanların genişləndirilməsi, vergi ödəyicilərinə optimal şəraitin yaradılması təmin olunub. Bu gün dünyanın nüfuzlu beynəlxalq təşkilatları, tanınmış ekspertləri razılıq hissi ilə bildirirlər ki, Azərbaycan dünya ölkələri içərisində vergi sisteminin təkmilləşdirilməsi, informasiya texnologiyalarının tətbiqi sahəsində aparıcı yerlərdən birini tutur”.Məhz Ulu öndər Heydər Əliyevin uğurlu siyasətinin nəticələri elə ilk vaxtlardan öz bəhrəsini verməyə başlayıb. Araşdırmalar göstərir ki, bu islahatlardan dərhal sonra iqtisadi fəallığın artması və bununla əlaqədar dövlət büdcəsinin vergilərdən formalaşan gəlirlərinin çoxalması baş verib. 2001-ci ildə vergi orqanları dövlət büdcəsinə 2,898 milyard manat, 2002-ci 3,400 milyard manat, 2003-cü ildə 4,117 milyard manat (ilk dəfə proqnoz artıqlaması ilə yerinə yetirilib - 101,3 faiz) köçürülüb. Büdcə gəlirlərinin formalaşmasında Vergilər Nazirliyi üzrə daxilolmaların xüsusi çəkisi 2001-ci ildə 74,6 faiz (3,116 milyard manat), 2002-ci ildə 75,7 faiz (3,620 milyard manat) təşkil edib. 1997-ci ildə daxilolmaların 50,9 faizi neft bölməsi üzrə, 49,1 faizi qeyri-neft bölməsi üzrə olub. Bu göstərici 2001-ci ildə 46,2 faizə qarşı 53,8 faiz, 2002-ci ildə 48,8 faizə qarşı 51,2 faiz, 2003-cü ildə 45,3 faizə qarşı 54,7 faiz olub. Göründüyü kimi, ildən-ilə qeyri-neft sektorunun payı artmağa doğru gedib.

**Nəticə :** Nəticədə belə qərara gələ bilərik ki ‚Dövlət bölməsi üzrə büdcəyə 2001-ci ildə 1,797 milyard manat, 2002-ci 2106,6 milyard manat, 2003-cü ildə 2384,9 milyard manat köçürülüb. Qeyri-dövlət bölməsi üzrə isə büdcəyə 2001-ci ildə 1,131 milyard manat, 2002-ci ildə 1293,4 milyard manat, 2003-cü ildə 1,732 milyard manat vəsait daxil olub. Bu isə onu göstərir ki, həmin illərdə ölkədə özəl sektorun inkişafı daha böyük sürət alıb və bu bölmənin iqtisadiyyatda payı əhəmiyyətli dərəcədə artıb. 2001-ci ildə vergilərin ÜDM-də xüsusi çəkisi 10,9 faiz təşkil edib. Müvafiq olaraq bu göstərici 2002-ci ildə 11,5 faiz, 2003-cü ildə 11,6 faiz olub. Ümummilli Liderin təşəbbüsü və rəhbərliyi ilə formalaşdırılmış vergi sistemi ölkəmizdə iqtisadi keçid dövrünün uğurla başa çatdırılmasında mühüm rol oynayıb və səmərəli idarəetmə sisteminə çevrilib. Bununla da ölkəmizin vergi sistemi yeni inkişaf mərhələsinə qədəm qoyub.[4]

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu vergi sistemi Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni inkişaf dövrünə qədəm qoyub. Dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin tərkib hissəsi olan vergi siyasəti iqtisadiyyatın bugünkü tələblərinə uyğun olaraq daim təkmilləşdirilir. Bu illər ərzində iqtisadiyyatda başlanan inkişaf meyillərini və sahibkarlara verilən dövlət dəstəyini sürətləndirmək məqsədilə ölkədə biznesin fəaliyyəti üçün cəlbedici vergi mühiti yaradılıb, vergi inzibatçılığı təkmilləşdirilib, sahibkarlar üçün əlverişli iqtisadi mühit formalaşdırılıb. Bu işlərin davamı olaraq, sahibkarlığın inkişafı və biznes mühitinin daha da yaxşılaşdırılması məqsədilə vergi qanunvericiliyində bir sıra dəyişikliklər edilib.

## ƏDƏBİYYAT


1. *Azərbaycan Respublikasının Milli Məclisi. "Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Qədirqulu oğlu Əliyevin (Elçibəyin) Azərbaycan Respublikasının Prezidenti vəzifələrini daha icra edə bilməməsi və Azərbaycan Respublikası Prezidentinin səlahiyyətinin Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əlirza oğlu Əliyevə keçməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı". e-qanun.az (az.). e-qanun.az. 24.06.1993. 2020-02-01 tarixində arxivləşdirilib. İstifadə tarixi: 2015-03-16.*

2. ↑ *AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ*. *"H. Ə. Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI"*. *e-qanun.az* *(az.)*. *e-qanun.az. 15.06.1993. İstifadə tarixi: 2015-03-16.*
3. ↑ *AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ*. *"Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əlirza oğlu Əliyevin Azərbaycan Respublikasının xalq deputatı səlahiyyətlərinə xitam verilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI"*. *e-qanun.az* *(az.)*. *e-qanun.az. 05.11.1993.*
4. ↑ *"Azərbaycan Sərhəd Mühafizəsi tarixi. Sovet hakimiyyəti illərində (aprel 1920 – dekabr 1991)"*. *Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin saytı* *(az.)*. *dsx.gov.az. 2015-03-15 tarixində arxivləşdirilib. İstifadə tarixi: 2015-03-08.*
5. ↑ Naxçıvan ensiklopediyası. Bakı, Elm, 2002. səh. 136.

**Ticarət və ya iaşə obyektlərindən alınmış mallara görə ödənilmiş ƏDV'nin qaytarılması**

**Qurbanova Aysel**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Elmi rəhbər: Mirzəyev Hikmət**

## GİRİŞ

Əlavə dəyər vergisi (ƏDV) malların, işlərin və xidmətlərin istehsalı prosesinin bütün mərhələlərində yaradılan və malların, işlərin və xidmətlərin dəyərinin bir hissəsinin dövlət büdcəsinə çıxarılması forması olan dolayı vergidir və satıldıqca büdcəyə ödənilir.ƏDV-nin tətbiqi nəticəsində malın, işin və ya xidmətin son istehlakçısı satıcıya aldığı malın bütün dəyərinə görə vergi ödəyir, lakin bu məbləğ yekun satışdan daha tez büdcəyə daxil olmağa başlayır.

İlk dəfə olaraq, ƏDV-nin universal dolayı vergi kimi tutulmasının mümkünlüyü barədə Birinci dünya müharibəsi başa çatdıqdan dərhal sonra Almaniyada danışmağa başlayıblar. Bununla bağlı danışıqların təşəbbüskarı kimi hamin dövrdə artiq nahang transmilli korporasiyaya çevrilməyə nail olan "Siemens şirkətinin rəhbəri Vilhelm Fon Simens çıxış edirdi.Lakin Simensin ani vəfatı bu formanın tətbiqini yarımçıq qoydu. ƏDV- İkinci dünya müharibəsindən sonra Fransada bərpa olundu.1954-cü ildə fransız iqtisadçısı Moris Lore, sözügedən vergi ile bağlı təklifləri ətraflı şəkildə hazırladı ve ƏDV vergitutma sxemini hökümətə təklif etdi ki, ƏDV indiyə kimi hamin formada mövcud olmaqda davam edir. ƏDV hansı ölkələrdə yoxdur desək Yaponiya ve ABŞ-da bu vergi novu yoxdur.Keçmiş ABŞ prezidenti Bill Klinton tətbiq etmek istəyib ama cəhdi boşa çıxıb.

Əlavə dəyər vergisi (ƏDV) istehlak vergisinin növüdür. ƏDV malların (işin və ya xidmətin) satış və alış dəyəri arasındakı fərqin miqdarına əsasən büdcəyə ödənilir. Əlavə dəyər vergisi (ƏDV) vergi tutulan dövriyyədən hesablanan verginin məbləği ilə elektron vergi hesab-fakturalara (idxalda ƏDV-nin ödənildiyini göstərən sənədlərə) müvafiq surətdə əvəzləşdirilməli olan verginin məbləği arasındakı fərqdir. Azərbaycanda ƏDV 1992-ci ildən tətbiq edilir.2022-ci il yanvarın 1-dən 3 il müddətində kənd təsərrüfatı məhsullarının (yerli və xarici mənşəli) topdan və pərakəndə satışı zamanı ƏDV ticarət əlavəsindən hesablanan verginin məbləği hesab edilir. Azərbaycan ərazisində istehsal olunan kənd təsərrüfatı məhsullarının pərakəndə satışı zamanı əlavə dəyər vergisi ticarət əlavəsindən hesablanan verginin məbləğidir.

Vergi ödəyiciləri kimlərdir sualına belə cavab verə bilərik:

ƏDV-nin ödəyicisi kimi qeydiyyatdan keçən və ya qeydiyyatdan keçməli olan şəxs ƏDV-nin ödəyicisidir.

I. Qeydiyyatdan keçən şəxs qeydiyyatın qüvvəyə mindiyi andan etibarən vergi ödəyicisi olur.
II. Qeydiyyata dair ərizə verməli olan, lakin qeydiyyatdan keçməmiş şəxs qeydiyyata dair ərizə vermək öhdəliyinin yarandığı dövrdən sonrakı hesabat dövrünün başlanğıcından etibarən vergi ödəyicisi sayılır

İdxal edən şəxslər (Azərbaycana ƏDV tutulan malları idxal edən şəxslər bu cür idxal malları üzrə ƏDV-nin ödəyiciləri sayılırlar)

Qeyri-rezident şəxs (ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçmədən iş görən və ya xidmət göstərən ƏDV-yə cəlb edilməli olan qeyri-rezident şəxs həmin işlər və ya xidmətlər üzrə vergi ödəyicisi sayılır)

Hüquqi şəxs yaratmadan göstərilən birgə sahibkarlıq fəaliyyəti

. Aksizli malların istehsalçıları və sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə etməyən bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər ƏDV-nin ödəyiciləri sayılır.

ƏDV məqsədləri üçün qeydiyyatın iki forması var:məcburi qeydiyyat və könüllü qeydiyyat.

Məcburi qeydiyyata aiddir

1)Sahibkarlıq fəaliyyəti göstərən və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan şəxslər ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur

2) Bir əqd və ya müqavilə üzrə əməliyyatın ümumi dəyəri 200.000 manatdan artıq olduqda

a) bu əməliyyat ƏDV tutulan əməliyyat sayılır

b) həmin əməliyyatı həyata keçirən şəxs bu əməliyyatın aparıldığı günədək ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur

Könüllü qeydiyyata aiddir

1) Qeydiyyatdan keçməli olmayan sahibkarlıq fəaliyyəti göstərən şəxs vergi orqanına ƏDV-nin məqsədləri üçün qeydiyyat haqqında könüllü ərizə verə bilər.

2) ƏDV-nin məqsədləri üçün məcburi və ya könüllü qeydiyyat haqqında ərizə Vergilər Nazirliyinin müəyyən etdiyi forma üzrə verilməlidir.(edu.e-cbar.az saytina istinadən)

Qeydiyyat necə olur?

a)Ərizənin və qeydiyyat bildirişinin verilməsi

b)Qeydiyyatın qüvvəyə minmə tarixi

c)ƏDV ödəyicilərinin

ƏDV qeydiyyatının ləğv edilməsi prossesi də vardır və aşağdakı kimi tətbiq olunur.

- Vergi ödəyicisi ƏDV-nə cəlb olunan əməliyyatlar aparmağı dayandırırsa, ƏDV-nin məqsədləri üçün qeydiyyatın ləğv olunmasına dair ərizə verməyə borcludur. Bu halda, ƏDV-nin məqsədləri üçün qeydiyyatın ləğv olunması vergi ödəyicisinin vergi tutulan əməliyyatları tam dayandırdığı gün qüvvəyə minir.
- Vergi ödəyicisinin vergiyə cəlb olunan əməliyyatlarının ümumi məbləği əvvəlki tam 12 təqvim ayı ərzində 100.000 manatdan çox deyilsə, vergi ödəyicisi ƏDV-nin məqsədləri üçün son qeydiyyatın qüvvəyə mindiyi tarixdən etibarən bir il keçdikdən sonrakı istənilən vaxt qeydiyyatın ləğv olunmasına dair ərizə verə bilər.

**ƏDV-nin məqsədləri üçün qeydiyyatın ləğv olunması vergi orqanına qeydiyyatın ləğv edilməsinə dair ərizənin verildiyi gün qüvvəyə minir.**

ƏDV-nin dərəcəsi hər vergi tutulan əməliyyatın və hər vergi tutulan idxalın dəyərinin 18 faizidir.Vergi tutulan dövriyyə hesabat dövri ərzində vergi tutulan əməliyyatların ümumi dəyərindən ibarətdir.ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır.

Vergi tutulan dövriyyədən büdcəyə ödənilməli olan ƏDV-nin məbləği (Vbüdcə) vergi tutulan dövriyyədən hesablanan verginin məbləği (Vhesab.) ilə əvəzləşdirilməli olan verginin məbləği (Vəvəz.) arasındakı fərqlə müəyyən olunur.

$$V\ büdcə = V\ hesab - V\ əvəz$$

ƏDV-nin əvəzləşdirilməsi üçün mütləq vacib şərtlər yerinə yetirilməlidir:

A)alınmış malların (işlərin, xidmətlərin) dəyəri nağdsız qaydada satıcının hesabına ödənilməli;

B) ƏDV məbləği ƏDV-nin depozit hesabına ödənilməli;

C) alınmış mallar üçün elektron vergi hesab fakturası (e-VHF) əldə edilməlidir.

D) Qeyd edilən şərtlər yerinə yetirildiyi halda müvafiq şərtlər nəzərə alınmaqla ödənilmiş ƏDV məbləği əvəzləşdirilir. Yəni, əvəzləşdirmə üçün tələb olunan şərtlərin tam yerinə yetirildiyi ayda əvəzləşdirmə aparıla bilər

ƏDV-nin əvəzləşdirilməsi yol verilməyən hallar isə bunlardır.

1.Yalnız sahibkarlıq fəaliyyəti çərçivəsində həyata keçirilən əməliyyatlar çərçivəsində alınmış və (və ya) idxal olunmuş mallara görə ödənilmiş ƏDV-nin məbləği əvəzləşdirilir.

2.Əyləncə və yemək xərclərinin, habelə işçilərin mənzil və digər sosial xarakterli xərclərin çəkilməsi zaman ödənilən ƏDV-nin əvəzləşdirilməsinə yol verilmir.

Hərbir vergi növündə vergitutma obyetləri oldugu kimi EDV-də vergitutma obyektləri aşağıdakılardır.

A)malların təqdim edilməsi, işlərin görülməsi, xidmətlərin göstərilməsi;

B)Azərbaycan ərazisində istehsal olunan kənd təsərrüfatı məhsullarının pərakəndə satışı zamanı tətbiq edilən ticarət əlavəsi

C)vergi tutulan idxal.

**ƏDƏBİYYAT:**

1 https://www.cbar.az/

2 https://www.edvgerial.az/

3 https://vergiler.az/news/taxes/17157.html

**Müasir dövrdə müəssisənin investisiya siyasəti və onun xüsusiyyətləri**

**Cavadov Elnur**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Elmi rəhbər:iq.f.d. Həsənli Amal**

**Giriş**

"İnvestisiya qoyuluşları" anlayısına müxtəlif iqtisadi ədəbiyyatlarda fərqli yanasmalara rast gəlmək olar. Belə fikir fərqliliyi bu anlayısın müxtəlif iqtisadi sahələrdə və səviyyələrdən asılı olaraq yaranır. Mikroiqtisadi və makroiqtisadi səviyyələrdən asılı olaraq "investisiya qoyuluşlarını müzakirə etmək olar. Qeyd etdiyimiz iki istiqamətdən asılı olaraq fikir ayrılıqlarını müqayisə etsək prinsipial fərqlərin mövcud olduğunu göstərə bilərik.

İnvestisiya yatırımları zamanı gəlirlər müxtəlif formalarda ifadə olunur. Məsələn, makrosəviyyədə sahibkarlıq fəaliyyətindən əldə olunan və sonradan isteh və ya qeyri-istehsal sahələrinin inkişafına yönəldilən xalis mənfəət kimi baxmaq olar. Ancaq mikrosəviyyədə, yəni kiçik müəssisə daxilində baxsaq maliyyə aktivlərinin alışı və satışından qazanılan faiz, istehsal və ya sair fəaliyyətdən əldə olunan xalis mənfəət kimi təsnifləşdirmək olar.

İnvestisiya yatırımları zamanı investisiya fəaliyyətinin məzmunu müxtəlif istiqamətlərdə təzahür edir. Müəssisə səviyyəsində biz bu fəaliyyətə istənilən gəlir gətirən fəaliyyəti daxil edə bilərik. Makrosəviyyədə isə daha qlobal, yəni iqtisadiyyatın hər hansı bir real sektorunun inkişafı naminə olan fəaliyyət kimi baxa bilərik. Dünya təcrübəsində investisiya qoyuluşlarının rəqəmi iqtisadi inkişafın indikatoru (meyarı) göstərilir (İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu,.s.8-12). Əgər investisiya yatırımları amortizasiya ayırmalarından azdırsa, deyə bilərik ki, təkrar istehsal prosesi məhdudlaşıb. Əgər investisiya yatırımları amortizasiya ayırmalarına bərabərdirsə, sadə təkrar istehsal prosesi gedir, əlbəttə, böyukdursə, geniş təkrar istehsal prosesi gedir. Belə ziddiyyətlər elmi cəhətdən nəzəriyyələr ilə praktiki həyatdan irəli gələn nəzəriyyələr arasında olan fərqli yanaşmalardan törəyir (Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi. s.15-20).

XBİ nəzəriyyələrinə diqqət etsək, XBİ-nin baş vermə səbəbini və XBİ-nin müəyyənedici amillərini izah edir. Nəzəriyyələr ümumiyyətlə praktiki bazarın müsbət və mənfi tərəflərini göstərir. Müasir cəmiyyətdə həm milli, həm də beynəlxalq səviyyədə birbaşa xarici investisiyalar məsələsinə diqqətlə yanaşılır. Çoxsaylı nəzəri tədqiqatçılar birbaşa xarici investisiyalar məsələlərini öyrənir. XBİ ilə bağlı Vintila Denisianın fundamental tədqiqatlardan misal çəkə bilərik [33].

İki növ rəqabəti səciyyələndirək:

- Biri məişət firmalarının xarici bazarlara çıxışı;
- Beynəlxalq firmaların daxili bazara daxil olması

Birinci amil xaricə yönəlmiş XBİ və ya ixrac, ikinci amil isə daxili XBİ və idxal deməkdir. Belə istiqamətlərdə çox sayda təhlillər olunmuşdur [30].

Bu araşdırmaların müəlliflərinin fikrincə, daxili investisiyalar və idxal rəqabəti gücləndirər və istehsal sənayesində inkişafı sürətləndirər. Eyni zamanda, bir neçə tədqiqatçı xaricə yönəlmiş XBİ və ixracın da innovasiya fəaliyyətlərinə müsbət təsirindən danışır. Lee müəyyən etmiş ki, xaricə yönəldilmiş XBİ və ixrac, montaj firmalarının tədqiqat və təkmilləşdirmələrinə (R&D) müsbət korrelyativ təsiri var [20, s.181-186].

Xarici birbaşa investisiyaların bir neçə modelini analiz edək.

- Eklektik model (başqa cür OLI modeli adlanır) BXİ-nin göndərən dövlətdə bir şirkətin ticarət nişanı, yaratma strategiyası və ya sahibkarlıq qabiliyyəti kimi rəqabət üstünlüyünə malik olması və ya gözlənilən investisiya yerinin spesifikasiya üstünlüklərinə malik olması barədə fərziyyələr irəli sürməsi ilə ifadə edilir. Məsələn, xam materialların olması, aşağı əmək haqqı, fərdi vergilər və ya tariflər kimi. Belə olan halda şirkət bu üstünlükləri olan ölkədə lisenziya satmadan və ya birgə müəssisələrə girmədən fəaliyyəti daxililəşdirməyə üstünlük verir. Eklektik model və ya OLI paradiqması Dunning (1988) tərəfindən Reading Universitetində (Böyük Britaniya) və Rutgers Universitetində (ABŞ) hazırlanmışdır. Model üç fərqli FDI = O + L + I nəzəriyyəsinin qarışığıdır, hər bir parça müxtəlif nəzəriyyələr üzərində cəmləşir.
- O (sahiblik üstünlükləri) - Üstünlüklər daha yüksək gəlirlə yanaşı, xarici dövlətdə əməliyyat xərclərini tarazlaşdıra bilən daha aşağı xərclər yaradır. Bu üstünlüklərinin bir hissəsi yeni firmalarda tapıla bilər (məsələn, ilk dəfə quurulan xarici investorlar); digərləri böyük bir çoxmillətli müəssisədə qurulmuş filial olmaqla qaynaqlanır.
- L (Məkan üstünlükləri) - Məkan üstünlükləri, birinin istehsal etməli və ya satmalı olduğu məhsullara qərarların qəbulunda əhəmiyyətlidir. Yerləşdirmə nəzəriyyəsinə görə qlobal şirkətlər xarici ölkədə istehsal etməyə, istehsallarını daha az xərclə həyata keçirməyə, tariflərin və ticarət maneələrinin mənfi təsirlərindən qaçınmağa çalışırlar. Məsələn, ABŞ-da xaricdə neft sektoruna investisiyanın təşviq edilməsinin qarşısı onlara ikiqat vergitutma və əlavə güzəştlərlə alınır.
- I (Daxililəşdirmə üstünlükləri) - bazar uğursuzluğuna cavab olaraq ortaya çıxır, çünki alıcılar və satıcılar əməliyyatlar və qiymət endirimi haqqında asimmetrik məlumatlara malikdirlər. Dunning aydınlaşdırır ki, firma öz sahibinin üstünlüklərindən daxildə sui-istifadə etməyi daha yaxşı olduğuna inanır ki, daxililəşdirmə üstünlük təşkil edir. Xüsusi olaraq spot bazarlar vasitəsilə satmaqdan və ya bəzi hüquqi tənzimləmələr, lisenziyalaşdırma, birgə müəssisənin yaradılması yolu ilə müxtəlif firmalara təklif etməkdənsə, və ya idarəetmə müqaviləsi bağlamaqdan daha üstündür.

**Məhsulun həyat dövrü nəzəriyyəsi** - Bu model ticarət və XBİ-ni ardıcıl inkişaf prosesinin müxtəlif mərhələləri kimi adlandıraq. Bu nəzəriyyəyə görə, əmtəə birinci ixtira mərhələsi ilə kütləvi istehsal fazası arasında *yenilik, bacarıq və standartlaşdırma* daxil olmaqla 3 həyat dövrü keçirir. Yenilik mərhələsində malların keyfiyyəti hələ də standartlaşdırılmır. İstehsal texnologiyası yalnız ixtiraçının əlindədir, lakin istehsal daha çox daxili bazara yönəldilir. Yetkinlik mərhələsində xarici firmalar yerli firma ilə əlaqəli texnologiya almağa başlayırlar. Bazarda istehsalçıların sayının artması ixtiraçı şirkətin inhisarçı mənfəətini azaltmağa səbəb olur. Bu mərhələdə müəyyən bir standartlaşdırma səviyyəsinə nail olunaraq, məhsula tələbat genişlənir. Xarici bazarın genişləndirilməsi də öz ölkədən ixrac etməkdənsə, orada istehsal müəssisələrinin qurulmasının cəlbedici keyfiyyətini genişləndirir (Richard E.Caves, 2009).

**Beynəlmiləlləşmə nəzəriyyəsi** - şirkətin beynəlmiləlləşməsi şirkətin beynəlxalq kontekstdə iştirakını nəzərdə tutan bir prosedur kimi ifadə edilmişdir. Şirkətlərin qlobal bazara çıxışı bu mərhələlər vasitəsilə həyata keçirilir. Əvvəllər beynəlxalq iştirakı olmayan şirkətlər xarici ölkələrə ixrac etməklə beynəlmiləlləşməyə başlayırlar. Bu beynəlxalq fəaliyyətlər daha sonra xarici bazarda agentlər vasitəsilə

satılır. Satışlar artdıqdan sonra şirkətlər satış törəmə şirkətləri yaradılacaq və daha sonra xarici ölkələrdə istehsala başlayacaqlar. Beləliklə, bu proses beynəlmiləlləşmənin əsası qoyulur [24, s.65].

**LLL çərçivəsi-** firma beynəlmiləlləşdirmə çərçivəsidir və John A Mathews (2002, 2006) tərəfindən hazırlanmışdır. Bu çərçivə firmaların mövcud olmayan resursları tapmaq üçün beynəlxalq genişlənmədən istifadə olunmasını məqbul bilir. Bu çərçivəyə görə, inkişaf etməkdə olan ölkələrin bazarları innovasiya mənbəyi kimi anlaşılır. Mathews (2006) inkişaf etməkdə olan ölkədəki transmilli şirkətlərin üstünlükləri ilə möhkəm bağlı LLL çərçivəsinin öyrənilməsini təklif etdi. Bu çərçivədə çoxmillətli təşkilatların beynəlxalq genişlənməsi *resurs əlaqəsi, leverage və öyrənmə* ilə idarə olunur.

**Leverage** - resurs mübadiləsi və istismarının bütün şəbəkələri üzrə bütün resursları səmərəli şəkildə idarə etmək və istifadə etmək, resurslar və rəqabət üstünlükləri arasında əlaqələrdən istifadəyə imkan verən strukturların və proseslərin yaradılması çox önəmlidir. İnkişaf etməkdə olan respublikalar çoxmillətli şirkətlərin bir şəbəkədə bilik mübadiləsi yaratmaqla bu resurslardan istifadə edə bilərlər.

**Öyrənmə** - Əlaqələndirmə və leveraj strategiyaları vasitəsilə inkişaf etməkdə olan çoxmillətli ölkələr özləri getdikcə daha çox əlaqəli olan dünya bazarlarına daha çox uyğunlaşırlar. Bu, genişlənmə nümunələrini sürətləndirən sonrakı öyrənmə prosesləridir. İkinci Dünya Müharibəsi bitdikdən sonra beynəlxalq iqtisadiyyatda xarici investisiyalar əhəmiyyətli rol oynamışdır. XBİ ilə bağlı elmi nəzəri tədqiqatlar iqtisadi mexanizmlərin və iqtisadi alətlərin davranışlarının, mikro və makro səviyyələrdə, iqtisadi nəzəriyyənin daha yaxşı başa düşülməsi ilə nəticələndi.

**Strateji aktiv axtarışı** - bu firmalar öz strateji məqsədlərini - yatırımlar vasitəsilə rəqabət qabiliyyətini saxlamaq və inkişaf etdirmək istəyirlər. Strateji aktiv axtarışı bir çox investorların Xəzər dənizi ölkələri kimi təbii resurslarla zəngin ölkələrə qoşulmasının əsas səbəbidir [32, s.56].

**Nəticə:**

Qlobal iqtisadi sistemdə yaradılmış müasir şərait, xüsusən də beynəlxalq iqtisadi inteqrasiyanın sürətli inkişafı, ölkələr arasında qarşılıqlı iqtisadi əlaqələrin möhkəmlənməsi, transmilli korporasiyaların dünya iqtisadiyyatında rolunun artması, dünya bazarında rəqabətin güclənməsi və s. müxtəlif iqtisadi nəzəriyyələrin xarici iqtisadi fəaliyyətinin tənzimlənməsi ilə bağlı bu və ya digər mülahizələrə diqqətli və yaradıcı yanaşma.

Qlobal Təsir İnvestisiya Şəbəkəsinin apardığı sorğuya əsasən, təsirli investisiyaların 75%-dən çoxu gəlirlilik və sosial və ətraf mühitə təsir baxımından investorların gözləntilərinə cavab verir. Ekspertlər 17 ölkənin təcrübəsini təhlil edərək ümumiləşdirib və təsirli investisiya bazarının inkişafı üçün ən effektiv mexanizmləri müəyyənləşdiriblər. Eyni zamanda, investisiyaların həcmi dünya üzrə 1340 təşkilat, o cümlədən idarəetmə şirkətləri, vençur kapitalı firmaları, banklar, özəl kapital fondları və s. Bunlardan ABŞ və Kanada - 58%, Avropa - 21% [35, s.12-22].

**Tədqiqatçı** investisiya qoyuluşlarının təşkili, onun iqtisadi məzmunu və investisiya qoyuluşlarının uçotu və təhlilinin təkmilləşdirilməsi istiqamətləri üzrə aşağıdakı vəzifələr müəyyənləşdirilərək həll edilmişdir:

- müasir dövrdə müəssisənin investisiya siyasəti və onun xüsusiyyətləri tədqiq edilmişdir; Tədqiqatçı "İnvestisiya qoyuluşları" anlayısına müxtəlif iqtisadi ədəbiyyatları araşdırmışdır, onlarda da "İnvestisiya qoyuluşları" anlayısına fərqli yanasmaları dissertasiyada şərh etmışdir. Tədqiqatçı həm makro həm də mikro səviyyədə investisiya yatırımları anlayışını tədqiq edib.

Makrosəviyyədə investisiya iqtisadiyyatın hər hansı bir real sektorunun inkişafına yönəlmiş fəaliyyət kimi xarakterizə etmişik. Dünya təcrübəsində investisiya qoyuluşlarının rəqəmi iqtisadi inkişafın indikatoru (meyarı) göstərilir [4, s.8-12). Tədqiqat zamanı ziddiyətli elmi nəzəriyyələrə də rast gəlmək mümkündür. Müasir cəmiyyətdə həm milli, həm də beynəlxalq səviyyədə birbaşa xarici investisiyalar məsələsinə diqqətlə yanaşılır [34. S.104-110]. İlk növbədə xaricə yönəlmiş XBİ (ixrac), ikinci növbədə daxili XBİ (idxal) maraq kəsb edir. Belə istiqamətlərdə çox sayda təhlillər olunmuşdur, məsələn, [30, s.507-511]. Məhsulun həyat dövrü nəzəriyyəsi, beynəlmiləşmə nəzəriyyəsinin müəlliflərinn ədəbiyyatları araşdırılmışdır.

- investisiyanın uçotu və auditi üzrə obyektlərin əsaslandırılmışdır; tədqiqatçı ilk növbədə Respublikamızda investisiya fəaliyyəti ilə bağlı qanunvericilik, normativ hüquqi bazanı göstərmişdir. Konkretləşdirsək, investisiya fəaliyyəti ancaq gəlir qazanmaq demək deyildir [34].
- investisiyaların uçotunun informasiya mənbələrinin sistemləşdirilmişdir; təqdqiqatçı təərfindən ilk Azərbaycanın hüquq sistemi ətraflı tədqiq olunmuşdur. Azərbaycanda fəaliyyət göstərən beynəlxalq təşkilatlar və banklar haqqında yazılıb. Xəzəryanı ölkələr arasında əməkdaşlıq üçün Azərbaycan hüquqi bazanın yaradılmasında fəal iştirak edib. 2021-ci ildə enerji sahəsində Türkmənistan hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında imzalanmış memorandumunun əhəmiyyəti qeyd olunub. 2018-2020-ci illər üzrə sektorlar üzrə real ÜDM artımı, əsas ixrac ölkələri və idxal ölkələri diaqramlarla təsvir olunmuşdur.
- Azərbaycanda formalaşan investisiya mühiti və uçotun aparılması araşdırılmışdır; Azərbaycan investisiya axınları baxımından dünya miqyasında potensialı yüksək olan ölkə kimi tanınır. “Şimal-Cənub” və “Şərq-Cənib” enerji dəhlizlərini, Bakı-Tbilisi-Ceyhan boru kəmərini, Bakı-Tbilisi_ərzurum qaz kəmərini, Avropa İttifaqı üçün vacib enerji proyekti sayılan “Şahdəniz-2” vəs. real göstəricilər var. İri regional layihələr Cənub Qafqaz Boru kəməri, Cənub Qaz Dəhlizi, Bakı-Tbilisi Qars dəmir yolu, Yeni Beynəlxalq Dəniz Ticarət limanı transregional infrastrukrunun inkişaf meyarlarıdır. Tədqiqatçı belə vacib məsələləri də statistik rəqəmlərlə analiz edib.
- Qarabağ potensial investisiyaların məkanı kimi zəruriliyi tədqiq edilmişdir; Tədqiqat işinin ən vacib və maraqlı bölmələrindən biridir. 44 günlük Qarabağ müharibəsinin zəfərlə başa çatması ölkəmizə qarşı investisiya hədəflərini yuksəltmişdir. Qarabağ ərazisi geoloji və coğrafi yaşıl iqtisadiyyat sistemi üçün potensial sahədir. Füzuli, Zəngilan və Laçın hava limanları beynəlxalq kommunikasiyaların qurulması, gələcək tikinti, istehsal sahələrinin sürətlənməsi proseslərinə xidmət edir.
- investisiya qoyuluşlarının uçotu və təhlilinin təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilmişdir. Azərbaycanda xarici investorların uçotunun aparılması qaydaları göstərilmişdir. Tədqiqatçı tərəfindən qanunvericiliyə müvafiq olaraq xarici investorların ödədikləri vergilər sadalanıb və onların uçotu qaydaları diaqramlarla və nümunələrlə şərh olunub. İnvestisiya obyektləri olan ilkin maliyyə alətləri və törəmə maliyyə alətlərinin uçotunun qurulması sahəsində təkliflər də yazılmışdır. İnvestisiya qoyuluşlarının auditinin təkmilləşdirilməsi üçün ekonometrik modellərin qurulması göstərilmişdir.

**ƏDƏBİYYAT:**


1. Abbasov, İ.M. Audit / İ.M.Abbasov. – Bakı: Bakı Biznes Universiteti nəşriyyatı, – 2007, – 530 s.
2. Abbasov, Q.Ə. İdarəetmə uçotunun təşkili prinsipləri: / Monoqrafiya / – Bakı: Elm, –2006, – 275 s.
3. Aleksander, D. Maliyyə hesabatının beynəlxalq standartları: nəzəriyyədən praktikaya / D.Aleksander, A. Britton, Yorissen A/ rus dilindən tərcümə. Prof. S.M.Səbzəliyevin rəhbərliyi ilə /– Bakı: İqtisad Universiteti, –2010, – 762 s.

**İnsan kapitalına investisiya qoyuluşu və onun səmərəliliyinin qiymətləndirilməsi**

**Abbasova Cəhanə**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Elmi rəhbər: Həsənov Rüfət**

Müasir dövrdə həm ayrı-ayrı müəssisələrin, həm də bütövlükdə cəmiyyətin inkişaf səviyyəsi və tempini insan kapitalı müəyyənləşdirir. Bu gün dünyada öz əhalisinə yüksək dəyər verən ölkələr ən inkişaf etmiş ölkələr kimi qəbul olunur. 2000-ci ildə BMT tərəfindən qəbul edilmiş "Minilliyin inkişaf məqsədləri" proqramında gələcək davamlı inkişafın təmin olunması üçün 8 prioritet məqsəd müəyyən edilmişdir ki, onların da əksəriyyəti bilavasitə insan kapitalının davamlı inkişafı ilə bağlıdır. Məhz buna görə də insan kapitalının inkişaf etdirilməsi artıq əksər dünya ölkələri, o cümlədən Azərbaycan üçün prioritet məsələyə çevrilmişdir.

Azərbaycanda insan kapitalının davamlı inkişafı istiqamətində çox mühüm tədbirlər görülmüşdür. Ölkəmizdə təhsilin və elmin inkişafının yüksək mərhələyə qaldırılmasında xalqımızın ümummilli lideri Heydər Əliyevin böyük xidmətləri olmuşdur. 1969-cu ildə 244 ixtisas üzrə respublikadan kənara 47 tələbə göndərildiyi halda, 1980-ci ildə bu rəqəm 1400 nəfərə çatdırılmışdır. Müasir dövrdə də təhsilin inkişafı məqsədilə ölkə Prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncamlara uyğun olaraq, dövlət proqramları həyata keçirilməkdədir. Bunlara misal olaraq, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı", "Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin İKT ilə təmini proqramı (2005-2007-ci illər)", "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılmasına dair Dövlət Proqramı" göstərilə bilər. Eyni zamanda, 2009-cu ildə ölkə Prezidentinin Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun yaradılması ilə bağlı sərəncamı da dediklərimizə nümunədir. "2012-ci ildə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində xaricdə təhsil alan azərbaycanlıların sayı 1276 nəfər olmuşdur. Xaricdə təhsil alan tələbələrin ixtisas sahələri üzrə bölgüsünə nəzər salsaq görərik ki, ölkənin iqtisadi inkişafının prioritet istiqamətləri burada da özünü büruzə verir: belə ki, tələbələrin əksəriyyəti İKT və turizm üzrə təhsil alırlar. İqtisadiyyat, tibb və mühəndislik sahələri də yüksək çəkiyə malikdir. Burada diqqətçəkən digər bir cəhət ondan ibarətdir ki, texniki və təbiət elmləri sahəsində xaricdə dövlət hesabına təhsil alan tələbələrin sayı nisbətən aşağıdır. Belə ki, bu sahələr, yəni riyaziyyat, biologiya, kimya üzrə təhsil alanların xüsusi çəkisi cəmi 4 faizdir ki, bu da nisbətən aşağı göstəricidir. Ümumiyyətlə, Azərbaycanda təhsilin təşkilinin əsas prinsiplərindən biri təhsil sisteminin humanitarlaşdırılmasıdır. Lakin ölkədə humanitar sahələrlə yanaşı, texniki və təbiət elmlərinin, başqa sözlə, fundamental elm sahələrinin inkişaf etdirilməsinə də ehtiyac var. Xaricdə təhsil alan tələbələrin ölkələr üzrə bölgüsünə nəzər saldıqda isə, əksər tələbələrin Türkiyə, Almaniya, Böyük Britaniya və Kanadada təhsil aldığını görərik.

2013-cü il Azərbaycanda "İKT ili" elan olunmuşdur. Bütün bunların fonunda ölkəmizdə müasir dünya təhsil sisteminin vacib tərkib hissələrindən biri olan distant təhsilin aşağı inkişaf səviyyəsi təəccüb doğurur. Bəlkə də bu, adıçəkilən sistemin postsovet ölkələri üçün yeni bir forma olmasından irəli gəlir. Bir çox inkişaf etmiş ölkələrdə artıq uzun illərdir ki, uğurla həyata keçirilən distant təhsilin ölkəmizdə inkişafı xüsusilə regionlarda yaşayan əhalinin internet vasitəsilə yüksək səviyyəli təhsil almasına və onların faydalı insan kapitalı kimi formalaşmasına səbəb olacaq.

"Azərbaycanda insan kapitalının inkişafı üçün müxtəlif ölkələrin bu sahədə olan təcrübələrinin tədqiq edilməsi və yerli şəraitə uyğunlaşdırılaraq ölkəmizdə tətbiq edilməsi də zəruridir. Bu qəbildən nümunə kimi, Qətər Dövlətinin insan kapitalı siyasəti nəzərdən keçirilə bilər. Qətər də Azərbaycan kimi neft ixrac edən bir ölkədir. Hazırda Qətər dünyada ən yüksək həyat səviyyəsinə malik ölkələrdən biridir. 2012-ci ildə adambaşına düşən ÜDM həcminə görə, Qətər dünyada birinci yeri tutmuşdur və bu da artıq Qətərin "qara qızılı insan qızılına" çevirmək sahəsində böyük yol qət etdiyini deməyə əsas verir. Neft kapitalını insan kapitalına çevirmək bu ölkənin prioritetləri sırasındadır və bu sahədə çox böyük işlər görülmüşdür. Belə ki, 1995-ci ildə Qətər Əmirinin sərəncamı ilə burada Qətər Təhsil, Elm və İctimai İnkişaf Fondu (Qətər Foundation) yaradılmışdır. Fondun yaradılmasında əsas məqsəd "insan potensialını inkişaf etdirməklə Qətərin karbon iqtisadiyyatından bilik iqtisadiyyatına keçid yolunu dəstəkləməkdir. Fond yarıözəl əsasda fəaliyyət göstərir və qeyri-kommersiya təşkilatıdır. Özəl maliyyələşdirilmə ilə yanaşı, bir sıra hallarda dövlət tərəfindən də maliyyələşdirilmə həyata keçirilir. Fondun fəaliyyəti təhsil, elm və ictimai inkişaf olmaqla 3 əsas istiqaməti əhatə edir. Fond tərəfindən ölkədə təhsilin inkişafı məqsədilə Təhsil şəhəri yaradılmış və burada çoxlu sayda xarici, yüksək səviyyəli universitetlərin filialları, o cümlədən bir neçə yerli universitet və məktəb yerləşdirilmişdir ki, bu da yerli tələbə və şagirdlərə yüksək səviyyədə təhsil almaq imkanı verir. Bundan başqa, Təhsil şəhəri ərazisində Qətər Elm və Texnologiya Parkı yaradılaraq buraya bir çox xarici investorlar cəlb olunmuşdur. Təhsil şəhəri ərazisinin "azad zona" elan edilərək istənilən fəaliyyətin hər cür vergi və yığımlardan azad olunması buraya xarici, eləcə də yerli investorların maraqlarını artırmışdır.

Təhsil müəssisələri və özəl müəssisələrin bir ərazidə yerləşməsi strateji əhəmiyyət daşıyır. Belə ki, bunun nəticəsində tələbələrin start-up layihələri elə buradaca tədqiq olunur, araşdırılır və gələcək vəd edən layihələr müəyyənləşdirilərək həyata keçirilir. Bu da tələbələrdə hələ təhsil aldıqları müddətdə sahibkarlıq mədəniyyəti və vərdişlərinin formalaşmasına gətirib çıxarır. "Qətər Elm, Təhsil və İctimai İnkişaf Fondunun fəaliyyəti hər üç istiqaməti ilə, insan kapitalının inkişafına səy göstərən ölkələr, o cümlədən Azərbaycan üçün parlaq nümunə rolunu oynaya bilər. Azərbaycanda İnsan Kapitalı Fondunun yaradılmasının zəruriliyi ilə bağlı fikirlər son dövrlərdə çox səsləndirilmişdir. Belə bir fondun yaradılması bu sahənin kompleks olaraq inkişafına şərait yaradacaq. Lakin yarıözəl əsasda fəaliyyət göstərən Qətər Fondundan fərqli olaraq, Azərbaycanda yaradılacaq İnsan Kapitalı Fondunun tamamilə dövlət mülkiyyətində olması daha məqsədəuyğundur. Çünki bu sahənin dövlətin tam nəzarətində olması etibarlılıq baxımından həm əhalinin, həm də xarici investorların maraqlarına uyğun olacaq. Bundan başqa, fondun fəaliyyəti çərçivəsində insan kapitalı sahəsinin klasterləşdirilməsi də mühüm əhəmiyyətə malikdir.

İqtisadiyyatın bütün sahələrində olduğu kimi, təhsil və elm mərkəzlərinin də bir ərazidə cəmlənməsi bu sahələrin səmərəliliyinin artmasına səbəb olur. Azərbaycanda Təhsil şəhəri, Elm və Texnologiya Parkı misalında bu cür klasterləşdirmənin həyata keçirilməsi mümkündür. Dünyanın əksər inkişaf etmiş ölkələrində təhsil müəssisələri ətrafında universitet şəhərcikləri yaradılır və burada müxtəlif kitabxanalar, tədqiqat mərkəzləri, laboratoriyalar və s. yerləşir. Lakin Azərbaycanda bu təcrübə hələ mənimsənilməmişdir və əksər universitetlər əsasən paytaxtda yerləşən bir neçə tədris korpusundan ibarətdir.

Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi də prioritet məsələlərdən biridir. Belə ki, müasir dövrdə ölkələrin ÜDM-in 90 faizə qədəri kiçik və orta müəssisələr tərəfindən formalaşdırılır. Bu da həmin sahəyə xüsusi diqqət yetirilməsini zəruri edir. Kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi məqsədilə dünyanın bir çox ölkələrində hələ orta məktəb səviyyəsində şagirdlərə sahibkarlıq icbari fənn kimi keçilir. Bu cür ölkələrə misal olaraq, Finlandiya, Polşa və Avstriya göstərilə bilər. Bu ölkələrin nümunələrindən istifadə edərək ölkəmizdə də sahibkarlığın orta və ya orta ixtisas təhsili müəssisələrində könüllü və ya icbari fənn kimi tədris olunması şagirdlərə hələ uşaq yaşlarından biznes təfəkkürünün aşılanmasına və gələcəkdə bu sahədə ciddi inkişafa səbəb ola bilər.

Azərbaycanda insan kapitalının inkişafı dövlətin iqtisadi inkişaf siyasətinin prioritetləri arasında yer alır. 2012-ci ildə Prezident İlham Əliyevin fərmanı ilə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası təsdiq edilmişdir. Konsepsiyanın hazırlanmasında əsas məqsəd ölkədə iqtisadiyyatın tarazlı və dayanıqlı inkişafını təmin etmək, əhalinin sosial rifahını yüksəltmək, cəmiyyətin bütün istiqamətlərdə tərəqqisini sürətləndirməklə inkişafın keyfiyyətcə yeni modelini formalaşdırmaqdır. Konsepsiyada insan kapitalının inkişaf etdirilməsi mərkəzi mövqe tutur. Dövlət büdcəsindən elm, təhsil, səhiyyə, sosial müdafiə, mədəniyyət və idman xərclərinə ayrılan vəsait 2012-ci ildə 4325,4 milyon manat təşkil etmişdir ki, bu da ötən ilin göstəricisindən 10,8 faiz artıqdır. Bütün bunlar Azərbaycanda bu istiqamətdə kifayət qədər ciddi fəaliyyət göstərildiyini bir daha sübut edir. Bunun nəticəsində Azərbaycan artıq özünə dünyada iqtisadi cəhətdən sürətlə inkişaf edən ölkələr arasında xüsusi yer qazanmışdır. Yuxarıda qeyd etdiklərimizə əsasən demək olar ki, Azərbaycanda artıq "neft kapitalının insan kapitalına çevrilməsi" istiqamətində kifayət qədər əhəmiyyətli tədbirlər görülmüşdür ki, bunun nəticələri də özünü göstərməkdədir. Lakin bu sahənin tam inkişafını təmin etmək üçün hələ bir sıra tədbirlərin görülməsinə ehtiyac var. Bu da Təhsil Nazirliyi tərəfindən həyata keçiriləcəkdir.

**ƏDƏBİYYAT:**


1. Muradov Ş.M. İnsan potensiali: asas meyllar, reallıqlar, problemlər.- Bakı: "Elm", 2004. 660 səh.
2. Muradov A.N. Elmi-texniki potensial: osas inkişaf meylləri və problemlər. Bakı: "Elm", 324 s
Human Capital and the Personal Distribution of Income: An Analitical Approach. In: Becker G. Human Capital (2nd ed.). Chicago, 1975, p. 94 144.
3. Becker G. and Tomes N. Human Capital and the Rise and Fall of Families. "Journal of Labor Economics", 1986, v. 4, No.
4. http://archive.1september.ru/upr/2001/25/2.htm
5. http://intel-assets.h1.ru/articles/marchenko/marchenko.htm
6. http://www.libertarium.ru/libertarium/10624

**Neftqazçıxarma müəssisələrində investisiya qoyuluşu və onun idarə edilməsi**

**Məmmədov Emil**
**Sumqayıt Dövlət Universiteti**
**Elmi rəhbər: dos. Əhmədova Təranə**

**Giriş**

Keçmiş ittifaqın fəaliyyət göstərdiyi keçən əsrin səksəninci illərinin sonunda Azərbaycan neft sənayesinə göstərilən ögey münasibət, bu sahənin inkişafında bir durğunluq yaratmışdır. Bu durğunluğ müstəqilliyimizin ilk illərində özünü daha qabarıq göstərməyə başladı. Belə ki, keçmiş ittifaq respublikaları ilə ənənəvi əlaqələrin kəsilməsi, mövcud bazarların itirilməsi, ölkədə mövcud olan qeyri-sabitlik və s. başqa sahələr kimi bu sahənin də işini mürəkkəbləşdirdi. Ulu öndər, Ümummilli Lider H.Əliyevin yenidən qayıdışı bu mürəkkəbliklərin həllində müsbət rol oynadı. Belə ki, uzunmüddətli idarəçilik təcrübəsinə malik bir insan üçün "haradan başlamalı" sualına birmənalı cavab kimi "neft sənayesi" seçildi. Buna səbəb kimi aşağıdakıları göstərmək olar: neft sənayesindəki mövcud infrastruktur, güclü kadr potensialının olması, ölkənin böyük miqdarda karbohidrogen ehtiyatlarına malik olması. Bütün bunlar ölkə iqtisadiyyatının dirçəldilməsi üçün neft sənayesinin prioritet istiqamət kimi seçilməsini göstərirdi.

Ölkədə yaradılan sabitlik, münbit investisiya mühiti, 1994-cü ildə "Əsrin müqaviləsi" ilə başlayaraq sonradan onlarla neft müqavilələrinin bağlanmasını şərtləndirdi.

Ümumiyyətlə, investisiya qoyuluşuna çoxtərəfli proses kimi baxmaq lazımdır. Belə ki, investisiya fəaliyyəti qarşılıqlı faydalılığa, yəni həm obyektə, həm də subyektə (investora) mənfəət gətirməlidir.

İnvestisiya qoyuluşunun idarə edilməsi və neftqazçıxarmada bunun elementlərindən istifadə mümkünlüyünün nəzəri-metodoloji məsələləri tədqiq olunur.

İnvestisiya fəaliyyəti müxtəlif mənbələr hesabına aparıla bilər. Bunlar əsasən aşağıdakılardır:

- investorun şəxsi vəsaiti (mənfəət, amortizasiya ayırmaları, pul yığımı və s)
- borc vəsaiti (bankların krediti, digər təşkilatların borc vəsaitləri)
- cəlb olunmuş vəsaitlər (səhm və digər qiymətli kağızların satışından)
- büdcə və qeyri-büdcə fondlarının vəsaitləri. (Əliyev T.N.Babayev M.T. Neftqazçıxarma sənayesi müəssisələrinin iqtisadi potensialı B, "Azərnəşr", 2003, 260 s.)

İnvestisiya qoyuluşunda birbaşa və portfel investisiyaları daha böyük əhəmiyyət kəsb edir. Kapitalın qoyulma məqsədinə görə bölgüsü investisiya qoyuluşu sahəsində böyük təcrübi əhəmiyyətə malikdir. Bu bölgüyə əsasən birbaşa investisiyalar və portfel investisiyaları mövcuddur.

Birbaşa investisiyalar - bu elə kapital qoyuluşudur ki, investora kapital qoyulmuş obyekt üzərində nəzarət imkanı verir. Birbaşa investisiyalar uzun müddətə iqtisadi maraq əldə etmək məqsədilə həyata keçirilir. Bu investisiyalar əsasən şəxsi sahibkar kapitalı ilə əlaqədardılar. Portfel investisiyaları - xarici qiymətli kağızlara qoyulan kapitaldır. Bu investisiyalar investora kapital qoyulmuş obyekt üzərində real nəzarət hüququ vermir. (Hacızadə E.M., Abdullayev Z.S. Neft təsərrüfatının iqtisadi strukturunun modernizasiyası B, Elm 2009, 512 s)

Azərbaycan Respublikasında bazar münasibətləri inkişaf etdikcə, əldə edilən iqtisadi artım və respublika əhalisinin maddi rifah halı yaxşılaşdıqca Azərbaycan Respublikasının xarici investorlar üçün

cəlbediciliyi artır, Azərbaycan investorları isə xarici ölkələrin aktivlərinə daha çox vəsaitlər yönəltmiş olacaqdır. Bunun üçün, hər şeydən əvvəl yüksək ixtisaslı mütəxəssislər tələb olunur. Bu mütəxəssislər qiymətli kağızlar üzrə müxtəlif milli bazarların xüsusiyyətlərini bilməli, dövrü mətbuatda, internet saytlarda verilən məlumatları öyrənməli, təhlil etməli, onlardan faydalanmağı bacarmalı, müvafiq hesablamalar aparmağı, valyuta risklərinin azaldılması üzrə metodlar da daxil olmaqla xarici investisiya portfelinin idarə edilməsi metodlarını öyrənməli, həmçinin daxili investisiyaların idarə edilməsini də təkmilləşdirməlidirlər. Bütün bunlar isə investisiyanın idarə edilməsi, onun təkmilləşdirilməsi üçün mühüm əhəmiyyət kəsb etməklə, ölkənin investisiya cəlbediciliyinin yüksəldilməsi istiqamətlərini müəyyən etməyə imkan verir. (Məmmədov Z.M. İnnovasiya layihələrinin işlənilməsi və qiymətləndirilməsi //AMEA-nın İqtisadiyyat İnstitutu, Elmi Əsərlər, 3-cü buraxılış, B, 2009, s. 202-206)

Azərbaycanda istismarda olan neft yataqlarının təbii şəraitinin müxtəlifliyi müəyyən qədər neftqazçıxarma müəssisələrində əmək məhsuldarlığı, rentabellik, məhsul vahidinin maya dəyəri və digər iqtisadi göstəricilərin səviyyəsinin çoxcəhətliliyini müəyyən edir. Neft hasilatının təşkili üçün vacib kompleks işlər aşağıdakıları özündə ehtiva edir: 1) axtarış-kəşfiyyat işləri; 2) yataqların qazılması; 3) yataqların abadlaşdırılması; 4) yataqların istismarı. Quyunun veriminə təsir edən müxtəlif amillərin və sahədə olan xüsusi ədəbiyyat mənbələrinin təhlilinə əsasən işlənmənin son mərhələsində neft yataqlarının istismarının əsas xüsusiyyətləri təyin edilmişdir.

Birinci xüsusiyyət təbii amillərlə təyin edilir. Bir sıra təbii amillər yuxarıda sadalanan hər bir istehsal mərhələsində əmək məhsuldarlığı və istehsalın rentabellik səviyyəsinə təsir edir, başqaları isə - onlardan bəzilərinə təsir edir. Başqa sahələrdən fərqli olaraq neft sənayesində xərclərin, o cümlədən elmi-texniki tərəqqi xərclərinin səmərəlilik səviyyəsi istehsalın təbii şəraitindən çox asılıdır. Bu şəraitin böyük müxtəlifliliyi neft sənaye sahəsindəki müəssisələrin səviyyəsinin müxtəlifliliyini təyin edir. Yataqların məhsuldarlığı və yerləşdirilməsi, onların yatırım dərinliyi və şəraiti, neft və qazın keyfiyyəti – bütün bunlar istehsalda köhnədən və yeni tətbiq edilən texnika və texnologiyanın xərc və səmərəliliyinin səviyyəsini şərtləndirir. Neft yataqlarının təbii şəraiti aşağıdakı əsas qruplarda birləşdirilir:

a) fiziki-coğrafi, b) geoloji, 3) neft və qazın keyfiyyəti ( tərkib və əlaməti).

a) Fiziki-coğrafi şərait – neft yataqlarının kəşfiyyatı və mənimsənilməsi tempinin vacib amilləri aşağıdakılardır: yerləşmə, yerin relyefi, iqlim, bitki və torpağın xarakteri, su və enerji resursları, tikinti materialları resursları və s. bunlar kompleks işin hər bir mərhələsində iqtisadi göstəricilərin formalaşmasına təsir edir. Neft yataqlarının coğrafi yerləşməsi və başqa coğrafi xüsusiyyətlərlə rayonun infrastrukturu, yüklərin daşınma şəraiti, əmək haqqının ödənilməsindəki müxtəlifliklər və s. əlaqəlidir.

İnkişafda olan digər ölkələr kimi, Azərbaycan Respublikası (AR) da hərtərəfli işlənilmiş investisiya siyasəti aparır. İnvestisiya siyasəti bir qayda olaraq hökumət səviyyəsində həll edilməklə formalaşdırılır və dövlət büdcəsinin investisiya proqramında öz əksini tapır.

Dövlət səviyyəsində iqtisadiyyata qoyulan milli və xarici investisiyaların stimullaşdırılması proqramı qəbul olunmuşdur. (Tağıyev A.H., Səfərov Q.Ə. İnnovasiya layihələrinin menecmenti B, "Təknur", 2013, 272 s.)

İnvestisiya qoyuluşu çoxtərəfli prosesdir, fəaliyyəti qarşılıqlı faydalılığa və mənfəətə əsaslanmalıdır. Bu baxımdan məqalədə investisiya qoyuluşu müxtəlif əlamətlərinə görə şərh edilmişdir. Göstərilmişdir ki, investisiyanın kəskin artması və ya azalması məcmu tələbə təsir göstərə bilər, bu isə istehsala və məşğulluğa təsir göstərər.

Yekun olaraq qeyd etmək istərdim ki, daxili maliyyə mənbələri hesabına investisiya layihələrinin həyata keçirilməsi neft sənayesində texniki-texnoloji-innovasiyalı inkişafa zəmin yaradır. Bu sahədə alınan nəticələr göstərdi ki, daxili investisiyalar və onların tətbiqi istiqamətində ehtiyatlar mövcuddur və onlardan istifadə neftqazçıxarmada istehsal səmərəliliyini artırardı.

**ƏDƏBİYYAT:**

1. Əliyev T.N.Babayev M.T. Neftqazçıxarma sənayesi müəssisələrinin iqtisadi potensialı B, “Azərnəşr”, 2003, 260 s.

2. Hacızadə E.M., Abdullayev Z.S. Neft təsərrüfatının iqtisadi strukturunun modernizasiyası B, Elm 2009, 512 s

3. Məmmədov Z.M. İnnovasiya layihələrinin işlənilməsi və qiymətləndirilməsi //AMEA-nın İqtisadiyyat İnstitutu, Elmi Əsərlər, 3-cü buraxılış, B, 2009, s. 202-206

4. Tağıyev A.H., Səfərov Q.Ə. İnnovasiya layihələrinin menecmenti B, “Təknur”, 2013, 272 s.

**Azərbaycanda gömrük sisteminin beynəlxalq inteqrasiyası**

**Bakı Avrasiya Universiteti, magistrant**
**Əliyeva Çinarə**

Müasir dövrdə Azərbaycan Respublikasında Gömrük proseslərinin səmərəli inkişaf etdirilməsində gömrük sahəsində beynəlxalq əməkdaşlığın əvəzsiz rolu vardır. Araşdırmalar göstərir ki, istənilən dövlətin həyata keçirdiyi gömrük siyasətində tarif nizamlama metodlarının tətbiqi ilk növbədə Azərbaycanın qoşulduğu konvensiyalar, ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələrdə əks olunan müddəalar diqqətdə saxlanmaqla, əsas da həmin müqavilədəki normaların milli qanunvericilikdəki normalara uyğunlaşdırmaqla həyata keçirilməlidir. Əks təqdirdə bu sahədə aparılan fəaliyyət heç bir səmərə verməyəcəkdir. Məhz bu səbəbdən bir sıra tədqiqatçılar beynəlxalq gömrük hüququ (BGH) barədə anlayış verərkən onu beynəlxalq hüquq elminin tam sərbəst fəaliyyət göstərən istiqaməti kimi hesab edirlər və BGH-nin daha da inkişaf etdirilməsinin həyati vacibliyini xüsusi qeyd edirlər.

Təhlilə əsasən söyləmək olar ki, tədqiqatçı-mütəxəssislər hazırda BGH-nin ümumiyyətlə milli hüquqda yeri və rolu ilə bağlı yekdil bir mövqe əldə etməmişlər. Məşhur tədqiqatçı V.Malinovskayanın fikrincə BGH beynəlxalq hüququn yarimmsahəsidir və BİH-qa aidiyyatı yoxdur. Ümumiləşdirilmiş şəkildə tədqiqatçı O.Bakayevin BGH-a verdiyi anlayış belədir: «BGH normaları və prinsipləri gömrük işi üzrə beynəlxalq münasibətlərin tənzimlənməsinə istiqamətlənən beynəlxalq hüququn formalaşmaqda olan sahəsidir». (25, ст.134)

Azərbaycan Respublikasının Gömrük Məcəlləsində (9-cu maddə, 15-ci bənd) qeyd edilir ki, Azərbaycanın gömrük qurumlarının başlıca vəzifələrindən ən əsası gömrük prosesləri ilə əlaqədar olaraq beynəlxalq iqtisadi qurumlarlə sıx qarşılıqlı faydalı əlaqələrin formalaşdırılmasıdır. Məhz, dövlət BGH-dan bu məsələ ilə əlaqədar olaraq beynəlxalq gömrük əməkdaşlığı üzrə bütün fəaliyyətlərin huquqi nizamlanmsı problemlərinin səmərəli və milli maraqlara uyğun həllini başlıca məqsəd kimi qarşıya qoymuşdur.

Beləliklə, beynəlxalq ticarət münasibətləri dövlətin gömrük qurumlarının tənzimləyici fəaliyyətinin vacib sahələrindən sayılır və dövlətin daim diqqət mərkəzindədir. Mahiyyət etibarı ilə gömrük sahəsində həyata keçirilən fəaliyyətin əsas xüsusiyəti ondadır ki, bu fəaliyyət yalnız bir dövlətin fəaliyyəti ilə məhdudlaşmır və bu prosesdə mütləq digər dövlətlərin də iştirakı olmalıdır. Gömrük işi sahəsində milli qanunvericilik formalaşdırılarkən bu sahədə qabaqcıl dünya ölkələrinin mövcud hüquqyaratma təcrübəsi nəzərə alınmalıdır və buna paralel olaraq milli qanunvericiliklərin harmonizasiyası məsələsi daim diqqət mərkəzində olmalıdır.

Bütün bunlarla yanaşı, bir xüsusi məsələ diqqətdən yayınmamalıdır ki, milli gömrük qanunvericiliklərinin unifikasiyası beynəlxalq iqtisadi hüququn dövlətlərin suverenliyi prinsipinin tələblərinin gözlənilməsi və milli mənafelərin qorunması əsasında aparılmalıdır. Başqa sözlə, gömrük işi sahəsində dövlətlərarası əlaqələr reallaşdırılan zaman bütün iştirakçı dövlətlərin hüquqları və maraqları qarşılıqlı şəkildə qorunmalıdır.

Bir qayda olaraq, beynəlxalq gömrük proseslərinin tənzimlənməsi üzrə münasibətlər beynəlxalq iqtisadi hüuqn bütün dünya tərəfindən qəbul edilmiş prinsiplərinin tələbi üzərində qurulur və həmin prinsiplərə əlaqədar beynəlxalq təşkilatların əsasnamələrində, dövlətlərarası sazişlərdə və s. təsadüf

edilir. Beynəlxalq gömrük əməkdaşlığının başlıca prinsiplərinin təsbiti BMT-nin Nizamnaməsində aparılmışdır.

Araşdırma göstərir ki, öz spesifik xüsusiyyətinə görə beynəlxalq gömrük əməkdaşlığının prinsipləri 2 qrup üzrə təsnifləşdirilir:

- gömrük əməkdaşlığının ümumi prinsipləri;
- gömrük əməkdaşlığının xüsusi prinsipləri..

Gömrük əməkdaşlığının ümumi prinsiplərinə bir qayda olaraq iqtisadi əməkdaşlığın bütün sahələrinə aid edilən prinsipləri daxil edirlər. Adı çəkilən bu prinsiplərdən: bərabərhüquqluluq; dövlətin daxili işlərinə qarışmamaq; güc tətbiq etməmək; hədələmələrə yol verilməməsi; götürülən öhdəliklərin düzgün yerinə yetirilməsi; diskriminasiyaya yol verilməməsi və s. göstərmək olar.

Eyni zamanda, xüsusi prinsiplər də geniş istifadə edilir və bu ən çox dövlətlərarasə ticarət münasibətlərində tətbiq edilir. Bunlara aşağıdakıları aid etmək olar:

- alqı-satqı əməliyyatlarında tarif güzəştlərinin tətdiqi;
- daha əlverişli rejim prinsipi;
- zəif iqtisadiyyatlı dövlətlərə tarif preferensiyalarının tətbiq edilməsi prinsipi. (31, s. 29)

Gömrük sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsində beynəlxalq təşkilatları olduqca böyük və təsirli rol oynayırlar. Belə təşkilatları fəaliyyət xüsusiyyətlərinə görə şərti olaraq 2 əsas qruplara bölmək olar:

1) Beynəlxalq universal qurumlar:

- BMT
- UNCTAD
- BMT-nin TİK (Ticarət və İnkişaf Komitəsi);
- Ümumdünya Ticarət Təşkilatı (WTO);
- Ümumdünya Gömrük Təşkilatı.

2) Beynəlxalq regional qurumlar:

- AB (Avropa Birliyi);
- MDB (Müstəqil Dövlətlər Birliyi) və i.a.

Beynəlxalq əməkdaşlığın rəhbər prinsipləri BMT Əsasnaməsində öz əksini tam tapmışdır və bu prinsiplərin yerinə yetirilməsi onun üzv-dövlətləri üçün məcburedici xüsusiyyət daşıyır. Bütün bü deyilənlər eyni zamanda gömrük işi üzrə bütün dövlətlər arasında aparılan iqtisadi əməkdaşlığa da şamil edilir.

ÜTT 1994-cü ildə Ticarət və Tariflər üzrə Baş Sazişin əsasında yaradılmış bir beynəlxalq iqtisadi qurumdur. Bu günə onun artıq üzv-dövlətiərinin sayı 130 artıq təşkil edir. Bu təşkilata üzv olmaq üçün ən mühüm şərt hər bir dövlətin özünün milli qanunvericilik sistemində müvafiq dəyişikliklər aparmalı və onu ÜTT-nin qəbul etdiyi normalara uyğunlaşdırmalıdır.

Araşdırma göstərir ki, ilk olaraq QATT 1994 ilində ÜTT-yə çevrilənədək, dünya miqyasında dövlətlərarası alqı-satqı əlaqələrinin nizamlanmasında başlıca huquqi əsas sayılmışdır. II dünya savaşından sonrakı dövrdə maliyyə sferasında yaranan bıhranla səmərəli mübarizə aparılması istiqamətində ilk dəfə olaraq yeni bir beynəlxalq iqtisadi təşkilat kimi, ölkələrarası səviyyədə fəaliyyət göstərəcək BVF (Beynəlxalq Valyuta Fondu) ilə ÜDB-ni (Ümumdünya Bankı) və sonrakı mərhələdə

isə müasir dünyada ən nüfuzlu beynəlxalq təşkilatlardan sayılan ÜTT-nin yaradılmasına cəhd göstərildi. Amma. Qeyd etmək lazımdır ki, bu sahədə həmin təşkilatın səmərəli fəaliyyətinin aparılması məqsədilə qoyulan şərtlərin bəziləri üzrə dövlətlərin arasında ümumi razılıq əldə edilmədi. Beləliklə, bir çox dövlət öz aralarında razılq əldə edə bilməmələri səbəbindən onlar ÜTT-nin Əsasnaməsini qəbul edə bilmədilər. Bütün bunlara baxmayaraq, ən azı 23 dıvlət tərəfindən əvvəlki tarif faizlərinin azldılması ilə əlaqədar ümumi formada razılığa gəlindi. Nəticədə isə, 01.01.1948 tarixində dünya ticarətinin sərbəstləşdirilməsi üzrə ümumi və tariflərin təkmilləşdirilməsi sahəsində razılıqla birgə QATT hüquqi qüvvə qazandı. (18. s. 124)

Tədqiqat göstərir ki, QATT-ın strukturu rasional tərkibə malikdir. Həmçinin, adı çəkilən sənədin 13-cü maddəsi idxal-ixracın məhdudiyyətlərinə və dayandırılmasına dair beynəlxalq iqtisadi hüququn diskriminasiyaya imkan yaradılmaması ilə əlaqədar vacib bir prinsipin tətbiqi zəruri sayılır. Sazişin 26-cı maddəsiidə isə müasir dövrdə çox actual bir problem – ATZ-lərin (Azad Ticarət Zonası) və səmərəli faliyyət göstərəcək beynəlxalq təşkilatların – Gİ-lərin (Gömrük İttifaqı) yaradılması qaydalarını təsbit edir Deyilənlərdən aydın olur ki, ÜTT çərçivəsində dünya miqyasında gömrük problemlərinin həlli ilə başlı müddəalar əhəmiyyətli yer tutan məsələlərdəndır.

ÜTT-nın üzvü olan ölkələrin nümayəndələri vaxtaşırı raundlara toplaşırlar. Yığıncaqlarda müxtəlif xarakterli əngəlləmələrin – kəmiyyət məhdudiyyətlərinin və gömrük rüsumunun azaldılması yolu ilə dünya tiracətinin daha da yaxşılaşdırılması sahəsində qərarlar işlənib hazırlanır və qəbul edilir. Belə raundlardan biri də 1994-cü il Uruqvay raundudur.

QATT çərçivəsidə qəbul olunmuş ən mühüm sənədlərdən biri də Mərakeş Sazişidir. Məhz bu sazişdə ÜTT-nin formalaşdırılması barədə prinsipial qərar qəbul edilmiş və onun əsasında da 01.01.1995 tarixindən Ümumdünya Ticarət Təşkilatı bir nüfuzlu beynəlxalq iqtisadi təşkilat kimi işə başladı. Ümumiyyətlə, hazırkı dövrdə Ümumdünya Ticarət Təşkilatının fəaliyyətinin huquqi əsasını son dövrlərədək bu təşkilatın çərçivəsində Uruqvay raundunda bağlanmış təqribən 55 saziş və digər razılaşmalar təşkil edir.

Digər qabaqcıl dünya ölkələri kimi Azərbaycan da ÜTT-yə üzv olmağı prioritet məqsəd kimi qarşıya qoymuşdur. Azərbaycan Respublikasının ÜTT-ə üzv olması məqsədini onun 23.06.1997 tarixində Ümumdünya Ticarət Təşkilatına etdiyi rəsmi müraciət əks etdirir. Hazırda da Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına üzv olma prosesinin surətləndirilməsi istiqamətində müvafiq dövlət orqanları coxtərəfli danışıqları davam etdirilir. Ümumdünya Ticarət Təşkilatına üzv olmaq Azərbaycana bir sıra üstünlüklər əldə etmək imkanı yaradır.

Bu üstünlüklərdən bəzilərini göstərmək olar**:**

- yerli sahibkarların dünya bazarına daxil olma amillərininin asanlaşdırılması (diskriminasiya xüsusiyyətli amillərin götürülməsi);

- alqı-satqı prosesində yarana bilən münaqişələrin yoluna qoyulması məqsədilə beynəlxalq səviyyələrdə olan qurumlara asanlaqla müraciət hüququna yiyələnmək;

- ölkə qanunvericiliyin ÜTT-nin normalarına uyğunlaşdırılması yolu ilə beynəlxalq investisiya nümayəndələri ilə əlaqələrin formalaşması üçün sərbəstl mühitin yaranması;

- xarici ticarətdə yeni hüquqi qaydaların formalaşması prosesində milli maraqları müdafiə etmək məqsədi ilə bilavasitə bu proseslərin iştirakçısına çevrilmək imkanı qazanmaq;

- bütün beynəlxalq iqtisadi münasibətlərdə tamhüquqlu iştirakçı sifətində öz imicini daim artırmaq imkanını əldə etmək bə s.

Bir sıra tədqiqatçıların fikrincə, ÜTT-ə daxil olma nəticə etibarı ilə xarici ticarət iştirakçılarının mənafelərinin müdafıəsinin huquqi əsasını formalaşdırmaqa, zəmanətli şəkildə üzv ölkələrlə ticarət münasibətlərini və bu əsasda da əmin şəkildə ticarət əlaqələrini genişləndirməyə imkanları artıracaq.(30, ст.16)

Birləşmiş Millətlər Təşkilatının çox nüfuzlu qurumu kimi TİK (Ticarət və İnkişaf üzrə Komitəsi) 1964-cü ildə yaradılmışdır. Onun təsis olunmasında başlıca vəzifə xarici ticarət sahəsinə, xususilə də istehsal təyinatlı mallarla ticarətə və bu sahədə maliyyə problemlərinin həllinə köməklik etməkdir. Onun iqamətgahı Cenevrədə yerləşən bu təşkilatm 191 üzvü vardır.

TİK-in (Ticarət və İnkişaf üzrə Konfrans) işini 3 sahə üzrə təsnifləşdirmək mümkündür:

1) bu təşkilata daxil olan ölkələrin öz aralarında vacib problrmlərin həlli sahəsində danışıqların və məsləhətləşmələrin həyata keçirilməsi;

2) etibarlı informasiyaların təminatı üzrə fəaliyyətin aparılması;

3) İEÖ-lərə yardım tədbirlərini tərtib etmək.(12, s.50)

ÜGT (Ümumdünya Gömrük Təşkilatı) 15.XII.1950-ci ildə QATT-nın tələbi əsasında 04.XI.1952 tarixində Brüssel Konvensiyası üzrə təşkil olmuşdur. ÜGT-nin üzvüyündə 170 dövlət mövcuddur. ÜGT-nin başlıca amalı bunlardır:

- beynəlxalq gömrük əməkdaşlığı üzrə fəaliyyətin daha da inkişafi;

- milli gömrük sistemlərinin bir-birinə uyğunlaşdırılması və onların daha yüksək səviyyədə inkişafına nail olunması;

- Gömrük qanunvericiliyinin və gömrük texnologiyalarının təkmilləşdirilməsi;

- gömrük sahəsində beynəlxalq cinayətkarlıqla mübarizənin gücləndirilməsi.

Nəticə etibarı ilə 1994-ci ildə İttifaq rəsmi olaraq Ümumdünya Gömrük Təşkilatma transformasiya olundu. Laki, adının dəyişdirilməsinə baxmayaraq, QGT-nin başlıca amalı yenə də ona daxil olan ölkələrin gömrük sistemlərinin bir-birilərinə uyğunlaşdırılması və eyni formaya gətirilməsi, həmçinin, milli gömrük qanunvericiliyinin və gömrük texnologiyasının daha da inkişaf etdirilməsi və mükəmməlləşdirilməsi üzrə ortaya çıxan məsələlərin tədqiqidir.

«Gömrük prosedurlarının sadələşdirilməsi və harmonizasiyası haqqında» 1973 il tarixli Kioto konvensiyası 25.IX.1974 tarixində təsdiq olunmuşdur. Hazırda məlumatlara görə bu konvensiyaya qoşulan 70 üzv-dövlət vardır. Kioto konvensiyasının əsas ideyası - gömrük nəzarətinin səmərəliliyinin pozulmaması şərtilə xarici ticarət əlaqələrində maksimal səviyyədə əməkdaşlığm təmın olunmasıdır. (22, s. 73)

Respublikamız da adı çəkilən beynəlxalq sənədə qoşulmuşdur. BYD (Beynəlxalq Yük Daşımaları) üzrə müvafiq kitab tətbıq olunmaqla həmin konvensiya ölkə ərazisində AR Prezidentinin 31.III.1997 tarixli 527 №-li Sərəncamına əsasən artıq hüquqi qüvvəyə minmişdir.

Yuxarıda qeyd olunan Konvensiyanın şərtlərinə əməl etmək və TIR kitabçasının rəsmiləşdirmə qayadalarını müəyyənləşdirmək məqsədi ilə AR DGK-nin beynəlxalq yük daşımada gömrük nəzarətinin aparılması və bununla əlaqədar müvafiq kitabçanın rəsmiləşdirmə üsulları işlənmiıdir. «Beynəlxalq Yük Daşımaları kitabçasını tətbiq edilmək şərtilə həmin adı çəkilən gömrük

konvensiyasının Azərbaycanda tətbiqi qaydaları haqqında» Əsasnamə AR DGK-nin 25.V.1998 ıl tarixi 24 №-lı sərəncamı ilə təsdiq edilmiş, 26.V.998 il tarixində ABADA (Azərbaycan Beynəlxalq Avtomobil Dasıyıcıları Assosiasiyası) ilə razılaşdırılmaqla 03.V.1998 ıldə Azərbaycanın Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. BYD kitabcaları vermək səlahiyyəti məhz ABADA-ya məxsusdur. (16, s.92-95)

Ümumiyyətlə, gömrük üzrə beynəlxalq münasibətlərin bu formaları mövcuddur:

1) beynəlxalq gömrük işi üzrə sazişlərin işlənməsində bilavasitə iştirak;

2) beynəlxalq gömrük işi sahəsində qanunpozmalar üzrə birgə huquqi köməklik barədə sazişlərin reallaşdırılması;

3) ölkələrin gömrük xidmətləri arasında huquqi köməklik, qarşılıqlı münasibətlər barədə sənədlərin imzalanması və onların icrası;

4) gömrük xidmətlərinin ölkələrin müvafiq dövlət xarici işlər qurumları üzərindən münasibətləri.

Azərbaycanda 24.VI.2011 tarixində Azərbaycanın Respublikasının Gömrük Məcəlləsinin təsdiq edilməsi beynəlxalq ticarət əlaqələrinin daha yüksək sürətlə və səmərəli inkişafına samballı hüquqi əsası yaratmış oldu. Bu məcəllə AB-nin gömrük qanunvericiliyi və ÜTT-ın sənədləri əsasında hazırlanmışdır və mükəmməl bir hüquqi əsas sayıla bilər.

## ƏDƏBİYYAT:


1. Azərbaycan Respublikasının «Gömrük tarifi haqqında» Qanunu. Bakı. 2013
2. «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri»nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında» AR Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı
3. «Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri»nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 noyabr 2017-ci il tarixli 500 saylı Qərarı.
4. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. Bakı. 2012-2021 illər
5. Основы таможоннего дело. Ред. В.Г. Драганова, Экономика, 2018. с. 297
6. Таможенное право: Учебник, ред., О.Ю. Бакаева., М. Норма 2012, 560 с
7. Молчанова О.В., Коган М.В, Таможенная дело, Ростов-на-Дону, 2019
8. Трошкина Т.Н., Таможонное платежы, Уч.-прак. пособие, М., 2017, 128 с.
9. Тимошеко И.В, Таможенные право, Ростов-на-Дону, 2018, 458 с.
10. Jhon G, Modern Trade Theory: Demand, and the terms of trade, London, 2016, p156
11. https://stat.gov.az

**Dayanıqlı iqtisadi inkişafın və investisiya fəaliyyətinin elmi-nəzəri əsaslarının bəzi məsələləri**

**Əmirxanova Səidə**
**Bakı Biznes Universiteti**

Hazırda fəaliyyətdə davamlı,dayanıqlı inkişafla bağlı problemlərin aradan qaldırılması aktuallıq kəsb edir. Bu baxımdan dünya alim-tədqiqatçılarının diqqətini cəlb edən əsas istiqamətlərdən biri də davamlı inkişaf problemini araşdırmaq və bu sahədə tədqiqtları genişləndirməkdən ibarətdir.

Dayanıqlı inkişaf XXI əsrin mühüm sosial-ekolojı-fəlsəfi konsepsiyası olmaqla, ötən əsrin ikinci yarısından başlayaraq münasibətlərdə müvafiq beynəlxalq səviyyəli məcburi tədbirlər kompleksinin həyata kecirilməsi zərurəti nəticəsində meydana gəlmişdir. Bu konsepsiya bəşəriyyətin tarixində ən mütərrəqi, humanist və qlobal sivilizasiyaya inteqrasiya sahəsində yeni inkişaf konsepsiyalarından biri hesab edilir. Dayanıqlı inkişaf cəmiyyətin davamlı, fasiləsiz, sabit, uzunmüddətli inkişafının təmin olunması kimi başa düşülür. Dayanıqlı inkişaf bəşəriyyətin ən müasir, mütərəqqi, gələcək nəsillərin tələblərini ödəyən, onların imkanlarını genişləndirən, insan potensialı və kapitalını, yeni biliklərin bacarıqların tətbiq olunmasını əsas şərt kimi gəbul edən, ətraf mühitin qorunmasını, daha da yaxşılaşdırılmasını nəzərdə tutan inkişaf yoludur. Dayanıqlı inkişafın elmi mənbələrdə müxtəlif səviyyələrdə şərh olunmasına baxmayaraq, onun əsas mahiyyətini insanların tələblərini ödəməyə qadir olan və onların öz gələcək tələbatlarını ödəməsinə mane olmayan iqtisadi inkişaf və insan fəaliyyətinin idarə edilməsinin yeni forması təşkil edir. Davamlı inkişafda hər şey yalnız İnsan İnkişafına təminat verməli və zəmin yaratmalıdır. Davamlı İnkişaf Konsepsiyasının ilk sələfi XX əsrin 30-cu illərində C.Keyns tərəfindən təklif olunan "İqtisadi artım" nəzəriyyəsi olmuşdur **(1, səh.37).**

İlk dəfə "dayanıqlı inkişaf" ideyasına 1713-cü ildə Hans Karl Fon Karlovitsinin alman dilində çap etdirdiyi "Meşə iqtisadiyyatı" adlı aydınlıq gətirilmişdir. O, sübut etmişdir ki, ağac bizim gündəlik çörəyə olan tələbatımız qədər vacib olacaq və ondan meşəçiliyin inkişafı və ağac emalı arasındakı balans saxlanılmaqla istifadə edilməlidir. Karlovitsinin fikirlərinə görə resurslardan daimi istifadə qanunu dayanıqlı inkişaf konsepsiyasının mərkəzi ideyası olmuşdur **[4, səh.22].**

İqtisadiyyatda dayanıqlı inkişaf sosial-iqtisadi münasibətlərin ən mühüm müvəffəqiyyət meyarı kimi xarakterizə olunur. Bu isə ilk növbədə təsərrüfat subyektlərinin iqtisadi maraqlarının məcmusu, makroiqtisadi göstəricilərin dinamikası, iqtisadiyyatın idarə olunması ilə bağlı fəaliyyət göstərən institutların imkanları, iqtisadi əlaqələrin səmərəli xarakter daşıması və s. kimi amillərlə bilavasitə bağlıdır **[3, səh.14].**

Bir sözlə, dayanıqlı inkişaf anlayışını belə ifadə etmək olar: Dayanıqlı inkişaf dəyişikliklər prosesi olub, təbii ehtiyatların istismarı, investisiya (sərmayə) qoyuluşunun istiqamətləri, texnoloji inkişafın yönü, zehni biliklərin inkişafı və bu prosesdə quruluş dəyişiklikləri bir-biri ilə uzlaşmış halda insan tələbat və istəklərinin təmini üçün bugünkü və gələcək potensialı möhkəmlədir.

Akademik V.A.Kaptyuka görə dayanıqlı insan konsepsiyası, bəşəriyyətin idraki baxımdan balanslaşdırılmış sosial-iqtisadi inkişafına və ətraf mühitin qorunmasına nail olmaq, həm texnoloji proses və həm də istehlakın səmərələşdirilməsi yolu ilə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında iqtisadi dispariteti kəskin şəkildə azaltmaqdan ibarətdir.

Akademik N.N.Moiseyevə görə dayanıqlı inkişafı biosfer və cəmiyyətin tarazlıq vəziyyətinə keçmə imkanını təmin edən fəaliyyətin həyata keçirilməsi kimi başa düşmək lazımdır**[6].**

Bir çox alimlər dayanıqlı inkişaf anlayışının ilk izlərini klassik siyasi iqtisadi məktəbinin nümayəndələri olan David Rikardo, Tomas Maltus və Con Stüart Millə də əlaqələndirirlər. Tomas Maltus inkişafın sərhədlərinə toxunmuş, ərazinin və resursların məhdud olması, əhalinin sayınınsa davamlı artmasının resursların qıtlığını daha da artıracağını vurğulamış və bu səbəblə də artımın məhdudlaşdırılmalı olduğu düşüncəsini müdafiə etmişdir **[2, s.260-261].** David Rikardo da qeyd edirdi ki, mövcud torpaqların miqdarı əhalinin artma nisbəti ilə müqayisədə azdır və getdikcə torpaqlar daha çox əhalinin tələbatını ödəməli olacağından yüksək səviyyədə istismar səbəbindən məhsuldarlığı azalacaqdır**[2, s.76].** Con Stüart Millinə görə, insanlar arasında rifahın artımı qarşılıqlı anlayış və dayanıqlılığın təmin edilməsi sayəsində arta bilər.

Alimlərin nəzəri təməli ilə yanaşı, dayanıqlı inkişaf anlayışının ilk praktiki izlərinə 17 və 18-ci yüzilliklərdə Avropada inkişaf etdirilən meşə təsərrüfatlarının idarə olunması ilə bağlı siyasətlərdə rast gəlinir . 17-ci yüzillikdə İngiltərədə oduncaq ehtiyatlarının sürətlə tükənməsi nəticəsində 1662-ci ildə Con Evelin tərəfindən müdafiə olunan düşüncəyə əsasən, ağacların məhvi ekoloji balansı pozmuşdur. Con Evelin və fransız nazir Jan Batis Kolbertin düşüncələrinə əsaslanan Hans fon Karlovits 713-cü ildə meşə təsərrüfatlarının dayanıqlı idarə olunması konsepsiyasını inkişaf etdirmişdir. Onun araşdırmalarından təsirlənən Aleksandr fon Humbolt və Corc Ludviq Hartiq tərəfindən meşəçilik bir elm kimi formalaşdırılmışdır. Bütün bu araşdırmalar 1960-ci illərdə Aldo Leopoldun ərazidən istifadə olunması etikasını formalaşdırmasına təsir göstərmişdir**(5).**

Dayanıqlı inkiafa A.Piqunun yazmış olduğu əsərlərdə də yer verilmişdir. Onun 1912 və 1920-ci ildə iqtisadiyyatla bağlı yazdığı əsərlərdə dayanıqlı inkişaf anlayışının nümunələri mövcuddur. A.Piqunun yanaşmasına görə, insanın rifaha çatması üçün üç kapital lazımdır:

1. təbii resurslar
2. insan tərəfindən istehsal olunan maddələr
3. insan resursları və intellektual ehtiyat

müasir elmi ədəbiyyatlarda "zəif dayanıqlılıq" anlayışı ilə ifadə olunur .

İnkişafın dayanıqlılığını təmin etmək üçün ona bir sıra istiqamətlərdən eyni anda baxımaq lazımdır. İqtisadiyyatın dayanıqlı şəkildə inkişaf etməsini təmin etmək üçün sosial, iqtisadi və ətraf mühitlə bağlı olan istiqamətlərə bərabər şəkildə yanaşmaq və inkişaflarını balanslı şəkildə həyata keçirmək lazımdır. Belə nümunələr arasında balansın pozulması halında nəzərdə tutulan iqtisadi, sosial və ətraf mühitlə bağlı olan aspektlərin eyni səviyyədə inkişafı baş vermir. Bu prosesdə zəif dayanıqlı inkişaf tendensiyası müşahidə olunur. Hər üç aspektin də əhəmiyyətli olması qəbul olunsa da, hansı aspektin vacib şəkildə əhəmiyyətli olması mübahisəli mövzudur. 1987-ci ildə Bruntland Komissiyası tərəfindən sosial, iqtisadi və ətraf mühitlə bağlı olan istiqamətlərə münasibətlər müəyyənləşənə qədər, onları bir-biri ilə əlaqəsiz şəkildə inkişaf edən terminlər olaraq qəbul edirdilər. Brundland Komissiyasının hesabatından sonra qeyd olunan aspektlərin bir-biri ilə hansı şəkildə bağlılığı ilə əlaqəli iki fərqli yanaşma yaranmışdır:

1. İqtisadi aspektlər sosial aspetklərin, sosial aspektlər də ətraf mühitlə bağlı olan aspektlərin içində qərar tutur. Bu yanaşmanı bir-birinin içinə keçmiş üç dairə kimi nəzərdən keçirsək iqtisadi

aspektlər ən içdə, ətraf mühitlə bağlı olan aspektlər ən kənarda, sosial aspektlər isə ortada mövqe tutmuş olacaqdır. Bu yanaşma "Matryoşka modeli" olaraq da adlandırılır.

2. Dayanıqlı inkişafa bağlı olan üç aspektdən hansısa biri digərindən asılı deyildir və onların hər üçünün bir-biri ilə əlaqəli olub kəsişdiyi hissə dayanıqlılıq vəziyyətidir. Bu anlayış "Üç sütun modeli" kimi mövcuddur.

Göstərilən istiqamətlərin hansı xüsusiyyətlərinin olması, onların qarşılıqlı və sintez olmuş şəkildə inkişafını təmin etmək üçün tələb olunan şərtlər yerinə yetirilməlidir

Dayanıqlı inkişafın iqtisadi aspektlərinə ekoloji amilləri nəzərə almaqla yanaşdıqda isə, inkişafın təbii resursları hansı səviyyəyə qədər istismar edilə biləcəyi də məlum olur. Ümumən yanaşdıqda burada iqtisadi xərclərlə ekoloji faktorlardan əldə ediləcək fayda arasındakı tarazlıq başa düşülə bilər. Belə tarazlıq iqtisadi inkişaf təmin edilərkən təbii resurslardan düzgün istifadə olunmasına diqqətin artırılması, resursların bərpa olunma göstəricilərinin nəzərə alınması, bərpa olunmayan resursların səmərəli istifadə edilməsinin təmin edilməsi və digər resursların yerinə bərpa olunan resursların istifadəsinin həyata keçirilməsi imkanları kimi mərhələləri özündə ehtiva edir.İqtisadi dayanıqlılığın təmin edilməsi ekoloji sərhədləri nəzərə alınmadan həyata keçirilərsə, bu zaman ekoloji sərhədlərdə nizamsızlıq yaranacaq Beləliklə, bu günün iqtisadi inkişafını təmin etmək üçün nəzərə alınmayan ekoloji xərclər, gələcək üçün iqtisadi inkişafa əngəl törədən səbəb olacaq, ekoloji xərclərin yaranmasına zərurət yaradacaq**[7].**

Dayanıqlı iqtisadi inkişafın təmin olunmasına iqtisadi inkişaf sisteminin dayanıqlılığının təmin olunması,dayanıqlı istehsalının həyata keçirilməsi, xarici borcların idarə edilməsində dayanıqlılığın təmin olunması, kənd təsərrüfatı və sənayenin inkişafında balansın pozulmasının qarşısının alınması istiqamətlərindən də yanaşmaq vacibdir. Bununla bərabər, neoklassik iqtisadi yanaşmaya əsasən dayanıqlı iqtisadi inkişaf dedikdə insanların rifah dərəcəsinin ən ytüksək səviyyəyə qaldırılmasını qəbul etmək vacibdir.

**ƏDƏBİYYAT:**


1. A.Ş Şəkərəliyev. Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi. Bakı: İqtisadiyyat Universiteti, 2011, 542 s.
2. R.Səfərov. Dayanıqlı inkişafın mahiyyəti və ona dair qlobal təşəbbüslərin qısa təhlili. Bakı, “Statistika xəbərləri”. Elmi-praktiki jurnal. № 3/2016, il 2, cild 3, iyul-sentyabr, səh.22-30
3. Menkyu Q. Ekonomiksin prinsipləri. Bakı: İqtisadiyyat Universiteti, 2014, 836 s
4. Şəkərəliyev A.Ş., Şəkərəliyev Q.A. Azərbaycan iqtisadiyyatı: Reallıqlar və perspektivlər. Bakı: Turxan NPB, 2016, 536 s
5. .http://www.gallery.economicus.ru
6. .https://www.un.org/documents/ga/res/37/a37r007.htm
7. .https://www.stat.gov.az/menu/2/development/IS_Development.pdf

**İşğaldan azad edilmiş ərazilərdə infrastruktur işlərinin təşkil olunmasının maliyyə təminatının iqtisadi təhlili**

**Vəliyev Kazım**
**Azərbaycan Universiteti,magistrant**
**Elmi rəhbər: i.ü.f.d. *Damirov Yashar Rafael***

Ölkəmizdə qurulan uğurlu Neft strategiyasının həyata keçirilməsi, onun maliyyə imkanlarını əhəmiyyətli dərəcədə gücləndirməsinə səbəb olmuşdur. İqtisadiyyat nazirliyinin tədqiqatlarına görə 1995-2021-ci illərdə Azərbaycan Respublikası iqtisadiyyatına 280 milyard dollar sərmayə qoyulub ki, bunun da yarısı xarici sərmayənin hesabına təmin edilmışdir. Artan iqtisadi güc ölkənin dövlətlər arası layihələrin icrasının təşəbbüskarı və regional iqtisadiyyatın lokomotivi olmağa imkan verməklə yanaşı və eləcədə Azərbaycan Respublikasının regional enerji təhlükəsizliyinin, Qərb-Şərq nəqliyyat qovşağının etibarlı tərəfdaşlarından birinə çevrilməsində yetərli zəminlər yaratmışdır. Eyni zamanda bu iqtisadi uğurlar müxtəlif iqtisadi inkişaf reytinqlərdə, dünya bankının "Doing Business" 2022 hesabatında Azərbaycanın ”ən islahatçı ölkə” adı olmaqla reytinqi 191 ölkə arasında yeri 25-ə yüksəlməsinə səbəb olmuşdur.

Ölkəmizdə Ali baş kamandan Cənab İlham Əliyev tərəfindən həyata keçirilən ardıcıl, məqsədyönlü islahatlar və kompleks tədbirlər nəticəsi, kimi ölkəmizin iqtisadi və hərbi-müdafiə qüdrətinin artması 44 günlük ikinci “Qarabag - Vətən” müharibəsində parlaq qazanılan qələbəyə möhkəm zəmin yaratmış oldu. Müzəffər ali baş komandan və ordumuz 2 il əvvəl yaratdığı yeni reallıq, ölkə iqtisadiyyatının növbəti 10 il ərzində 2 dəfə qədər artacağını güman etməyə zəmin yaratmışdır. Belə ki, Azərbaycan-Ermənistan münaqişəsinin 2020-ci ilin 9 noyabrında başa çatması, bundan sonra regionda təhlükəsizliyin, sabitliyin, firavanlığın, tərəfdaşlığın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşmasına, ticarət-iqtisadi əlaqələrin genişlənməsinə, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin istifadəsi yeni iqtisadi artıma təkan verəcəyi proqnozlaşdırılır.

Hazırda işğaldan azad edilmiş ərazilərin gələcək inkişafının, zəruri infrastrukturun yaradılmasının və əhalinin öz doğma yurdlarına qayıtmasının təmin edilməsi, bərpası istiqamətində genişmiqyaslı işlər aparılmaqdadır. Bazar iqtisadiyyatına keçid dövründə bu addım ölkəmiz üçün vacib addımdır. Qarabağın inkşafı fonunda ölkədə büdcə-vergi sisteminin inkşafı və dayanıqlılığının artması gözlənilir. Ölkədə maliyyə- pul göstəricilərinin qenaətbəxş olması da xüsusi haldır. Belə ki, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, 2020-ci, 2021-ci və 2022-ci illər üzrə uyğun olaraq ÜDM səviyyəsi 72.578, 93.203, 133.208 mlrd. manat, dövlət büdcəsinin gəlirləri uyğun olaraq 26.0779 və 26.6317 və 26.816 səviyyəsində olmuşdur. 2021-ci ilin yanvar-oktyabr aylarında ümumi daxili məhsulun artımı 4,9 faiz, qeyri-neft sektoru isə 5,9 faiz artımla ÜDM-in həcmi 71,6 milyard manat, adambaşına düşən ÜDM in həcmi 7148 manat və ya 4205 dollar təşkil etmişdir. 2021 ci ildə ÜDM-in struktur payında sənayenin payı 40,8 faizini, ticarət və nəqliyyatın - 10,3 faiz, nəqliyyat və anbar təsərrüfatı - 7,1 faiz, tikinti - 5 faiz, kənd və meşə təsərrüfatı əkinçilik, balıqçılıq - 6,7%, informasiya və rabitə sektoru üzrə - 1,8%, turistlərin yerləşdirilməsi sektoru üzrə və iaşə obyektləri - 1,2%, digər sektorlar üzrə -18,2%, idxala və mallara xalis vergilər -8,9% təşkil etmişdir.

Şübhəsiz ki, İşğaldan azad edilmiş ərazilərdə infrastruktur işləri tədbirlərinin həyata keçirilməsi məqsədilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının potensialından istifadəsi olunması

respublikada yuxarıda göstərilən iqtisadi göstəricilərində səviyyəsini xeyli yüksəltməyə imkan verəcəkdir. Qeyd etmək yerinə düşər ki, İşğala qədər ki, dövrdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında buğda yığımı səviyyəsi cəmi 15%-ə qədərini, üzümçülük məhsullarının 32%, bütün ət məhsullarının 17% -dən çoxu, 20% yun, yumurtanın 4,0 %-i, iribuynuzlu mal-qaranın 15%-dən çoxu, xırdabuynuzlu mal-qaranın 19%-i bu rayonların hesabına təmin edilirdi. Həmin dövrlərdə Laçın, Ağdam, Füzuli, Cəbrayıl və Kəlbəcər rayonlarında heyvandarlıq kənd təsərrüfatında dominant rol oynamış, yerli büdcənin əhəmiyyətli hissəsini təşkil etmişdir.

30 ildən artıq müddətdə həmin ərazilərin işğalda qalması nəticəsində regiondakı iqtisadi potensialdan tam istifadə edilməsindən müəyyən çətinliklər vardı və praktik olaraq hər 2 iqtisadi rayonun Azərbaycan iqtisadiyyatında payı 0.7% idi. Amma mövcud araşdırmalarla hər 2 iqtisadi rayonun yaxın illərdə xüsusən bərpa və yenidənqurma mərhələsindən sonra Azərbaycan iqtisadiyyatında payı 8-10% ə arta biləcəyini söyləyə bilərik. Bu o deməkdir ki, hər 2 iqtisadi rayon yaxın illərdə hər il 5 milyarddan artıq yeni dəyər formalaşdırmaq imkanına malik olacağı təxmin edilir.

İşğaldan azad edilmiş ərazilərin rekonstruksiyası və ərazilərə böyük qayıdış daima ölkə rəhbərliyinin nəzarəti altındadır. Azərbaycan və Türkiyə arasında bağlanan Şuşa bəyannaməsi də bu 2 ölkənin bu ərazilərdə dayanıqlı inkşafına yol açacaqdır. Bu ərazilərdə iqtisadiyyatın biznes, sahibkarlıq və digər qollarının inkşafı Azərbaycan rəhbərliyinin qarşısına qoyduğu əsas hədəflərdəndir. Ölkəmizin əhalisinin sağlam və güzəran olması üçün bu ərazilərdə xidmət göstərən obyektlərin açılması mühüm, zəruri tələblərdən biridir.

Qeyd edək ki, Qarabağın meşə, torpaq, faydalı qazıntı, su və qeyri-maddi resurslarla zəngin olması faktı, İşğaldan azad edilmiş ərazilərdə bərpa işlərinin aparılması üçün və yeni layihələrin icrası üçün yeni yerli işçi qüvvəsinə ehtiyac yarandığını və ölkədə işsizlizin azaldılmasında yeni imkanlar yaratdığını qeyd etmək lazımdır. İşğaldan azad edilmiş ərazilərimizdə yaşıl enerji,dağ-mədən,metallurgiya, emal sənayesinin, aqro-sahə və kənd təsərrüfatı və turizm kimi sahələrin həm dövlət həm də özəl yerli və xarici sərmayədarlar hesabına inkişaf etdirilməsi əsas hədəflərdəndir. Azərbaycanın işğaldan azad etdiyi torpaqlarda apardığı genişmiqyaslı bərpa-quruculuq beynəlxalq aləmdə də çox böyük heyrət yaratmışdır. İlk növbədə demək lazımdır ki, bu işlərin həcmi və surəti misilsiz tempdə aparılır. Ümumilikdə bu gün Azərbaycanın ərazilərinin 1/5 hissəsini təşkil edən əslində ana iqtisadiyyata inteqrasiya olunduqdan sonra sözün əsl mənasında əlavə dəyər yaradacaqdır.

İşğaldan azad edilmiş ərazilər iqtisadi baxımından da əhəmiyyətli rola malikdir. Torpaqlarımızın işğaldan azad edilməsi Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının artmasına eləcə də ölkədə ərzaq təhlükəsizliyinin gücləndirilməsinə həmçinin qeyri-neft məhsullarının ixracatının artmasına müsbət təsirini göstərəcəkdir. Ümumilikdə, İşğaldan azad edilmiş ərazilər iqtisadi potensialı baxımından hazırda bərpası istiqamətində genişmiqyaslı işlər aparılır və bütün bunlar işğaldan azad edilmiş ərazilərin gələcək inkişafının, zəruri infrastrukturun yaradılmasının və əhalinin öz doğma yurdlarına qayıtmasının təmin edilməsinə istiqamətlənmişdir.

Qeyd edək ki, bu işgal dan azad olunmuş bölgələr üzrə Qarabag və Şərqi Zəngəzur iqtisadi rayonlarında iqtisadiyyatın inkişafı üçün dövlət-özəl sektorların tərəfdaşlığı, vəhdəti əsasında aşağıdakı altı əsas istiqamət üzrə inkişaf istiqamətləri seçilməkdədir və bu hal daha məqsəd uyğun

hesab olunur: Mədən sənayesi;- Yüngül və qida sənayesi;- Kənd təsərrüfatı biznesi; - "Yaşıl Enerji"; - Nəqliyyat və anbar logistikası; - Turizm. Kimi sahələr aiddir.

Bu fəaliyyət sahələrinin inkişafı üçün təkcə 2021-ci ilin əvvəlindən işğaldan azad edilmiş ərazilərdə artıq sənaye, kənd təsərrüfatı, ticarət və xidmət sahələrini əhatə edən 73 investisiya layihəsi həyata keçirilməyə başlanmışdır. Və buralarda zamanla özəl investisiyaların aqrar-sənaye klasterlərinin, turizm, nəqliyyat, ticarət sektorları, bərpa olunan enerji mənbələri (RES), İT sektoru, startap təşəbbüslərinin formalaşmasının əsas mənbəyinə çevriləcəyi gözlənilir. Belə ki, təkcə Ağdam Sənaye Parkına birinci mərhələdə 50 milyon manatdan çox, sonrakı dövrdə isə 100 milyon manata və daha çox sərmayə qoyulması nəzərdə tutulur. Eyni zamanda, Araz Vadisi iqtisadi zonasına 30 milyon manatdan çox maliyyə inyeksiyası və bunun ardınca investisiya axınının dəfələrlə artması gözlənilir.

Son zamanlar işğaldan azad edilmiş ərazilərin bərpası prosesində dinamik inkişaf meyli müşahidə olunur və respublikanın sosial-iqtisadi yüksəlişi müstəvisində qarşıya çıxan ümdə vacib vəzifələr uğurla həyata keçirilir. Əminliklə bir məqamı qeyd edə bilərik ki, ölkəmizdə qeyri neft sferası üzrə yüksəliş müşahidə olunmaqdadır. Bu sektorda aparıcı sahələrdən biri aqrar sahədir. İşğaldan azad edilmiş ərazilərdə aqrar sahənin inkişafına nail olunması, ölkəmizdə qeyri -neft sferası üzrə yürüdülən ardıcıl və məqsədyönlü islahatların məntiqi hədəf nöqtəsi hesab edilməlidir.

Bu regionda biznesin inkişafı maliyyə-kredit mexanizminin istər təşkilatı, istərsə də iqtisadi məsələlərindən dolgun istifadə edilməsinə və onun dayanıqlı, rəqabət qabiliyyətli yüksəlişinin təmin etməsinə istiqamətlənmişdir. Aqrar sektorda biznesin inkişafı, ilbəil artan investisiya qoyuluşları sahənin yeni texnologiyalarla məhsul istehsalına yeni imkan yaradır. Bu .əsasda kənd əhalisinin son illər üzrə artan pul gəlirləri regionların real iqtisadi inkişaf dinamikasını sübut edən başlıca amillərdən biri hesab olunur.

Xarici tərəfdaşların bu və digər layihələrində iştiraka hazır olmaları son dərəcə vacibdir, çünki bu, bizə bütün öhdəlikləri ən şəffaf şəkildə, aydın texniki parametrlərlə və vaxtında həyata keçirməyə, ən əsası isə müasir texnologiyaların transferini təmin etməyə imkan verəcək. Xarici investorların iştirakı beynəlxalq donor strukturlarından qrantların cəlb edilməsi, texniki və konsaltinq yardımı, vençur kapitalının cəlb edilməsi üçün mühüm şərtdir. Eyni zamanda iqtisadi fəaliyyətin canlandırılması və əlverişli biznes mühitinin yaradılması, regionda emal sənayesi və xidmət infrastrukturunun formalaşdırılması ilə məşğul olan sahibkarlara əlavə güzəştlər verilməsidə əsasdır. O cümlədən, dövlət başçısının sərəncamı ilə işğaldan azad edilmiş ərazilərdə yaşayan sakinlər belə 2023-cü il yanvarın 1-dən 10 il müddətinə gəlir (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergini ödəməkdən azad ediliblər. Bütövlükdə buna bənzər maliyyə mexanizmlərinin alt elementlərinin vergi güzəştlərinin real sektorun bütün sahələrini - ticarət, xidmət, istehsal, tikinti sektoru, hasilat sənayesi və s. müsbət təsiri hissi olunacaq iqtisadi faydanı formalaşdıracağı qeyd olunmalıdır.

**Nəticə**

İşğaldan azad edilmiş ərazilərimizin iqtisadi dirçəlişini təmin etmək üçün yeni iqtisadi fəaliyyət sahələri üzrə strategiyalardan istifadə olunması zəruridir. İşğaldan azad edilmiş ərazilərimizin inkişafına dəstək göstərilməsi məqsədi ilə yuxarıda sadalanan istiqamətlər üzrə konkret addımların atılması zəruri hallardan hesab olunur.

**ƏDƏBİYYAT:**


1. “İnvestisiya fəaliyyəti haqqında” 13. 01.1995 tarixli AR qanunu.
2. “İnvestisiyaların qorunması haqqında” Azərbaycan Respublikası qanunu
3. Hüseyn A.C.,Əhmədov M.A., (2011), İqtisadiyyatın dovlət tənzimləməsinin əsasları. Bakı: UNEC– . 120 s.
4. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası prezidentinin sərəncamı
5. Doing Business in Azerbaijan - World Bank Group
6. www.taxes.gov.az
7. www.azstat.orq
8. www.maliyye.gov.az
9. İqtisadiyyat.com (iqtisadiyyat.com)

**THE USAGE OF PREPOSİTİONS İN ENGLİSH**
**İNGİLİS DİLİNDƏ SÖZÖNÜLƏRİNNİN İŞLƏNMƏSİ**

**Ibrahim Nuri, Nigar Zehelova**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Elmi rəhbər: Xanım Cəfərli**

Xarici dillərin öyrənilməsinə tələbat daynmadan artır Bu da özünü həyatımmızın bütün sahələrində özünü biruzə verir. Beynəlxalq, aləmdə çıxış, dünya mədəniyyəti, elmin müxtəlif sahələri ilə tanış olmaq, kompüter texnologiyası, imkanlarından daha geniş ingilis dilinin öyrənilməsini vacib edir. İngilis dilinin Azərbaycan dili ilə müqayisəli şəkildə öyrənməsi olduqca zəruridir. Məlum olduğu kimi quruluşuna görə dillər şərti olaraq analtik (şəkilçisiz), sintaktik (şəkilçili) və aqlyutinatiz ( həm şəkilçili həm sözönülü) olmaqla quruplaşdırılır.

Azərbaycan dili sintaktik dil olduğundan sözlərin bir-biri ilə əlaqəsi şəkilçilərlə həyata keçirilir. İngilis dili isə analitik dil olduğundan sözlər arasındakı əlaqə əsasən sözönləri vasitəsiilə olur. Sözönləri ismin qarşısında gələrsə əsasən hal şəkilçisinini əsas edir, feildən sonra gələrsə feilin mənasını dəyişir.

İfadə etdikləri mənaya görə sözönləri 4 yerə bölünür:

1) Yer bildirən sözönleri: İn, On, At, opposite, və.s
2) Zaman bildirən sözönləri: in, on, at, after, before və.s
3) İstiqamət bildirən sözönləri: to, into, along, from və.s
4) Mücərrəd əlaqə bildirən sözönləri: with, to, about və.s

"In, On, At" sözönlərinin isimlə işlənmə yerlərini müzakirə edək. Baxmayaraq ki, "in, on, at" sözönləri Azərbaycan dilinə "da, də" şəkilçisi kimi tərcümə olunur, onların işlənməsi və mənaları fərqlidir. "in, on, at"-sözönləri həm yer, həm də zaman ifadə edə bilir.

"in" - sözönü şəxsin və ya əşyanın nəyinsə daxilində, müəyyən bir yerdə, sərhədləri olan bir ərazidə olduğunu bildirir.

Məsələn:

| | | | |
|---|---|---|---|
| In the city | Şəhərdə | In the open air | Açıq havada |
| In the park | Parkda | In the open air | Otaqda |
| In the garden | Bağda | In the box | Qutuda |
| In the sky | Səmada | In the bag | Çantada |
| In the world | Dünyada | In a car | Maşında |
| In the street | Küçədə | In a taxi | Taksi ilə |

In Nizami street- Nizami küçəsində

Qeyd: Amma küçə adının qarşısında rəqəm qeyd olunarsa “in” – Sözönü yox, “at” sözönü işlənər.
At 65 Nizami street
-ölkə şəhər kənd yaşayış əraziləri yer bildirdikdə “in” sözönü ilə işlənir.
Məsələn:
In Azerbaijan – Azərbaycanda
In Baku – Bakıda
-Coğrafi cəhətlər yer zərfi olduqda “in” sözönü ilə işlənir
Məsələn:
In the north – Şimalda
In the south – Cənubda
In the west – Qərbdə
In the east – Şərqdə
- “in” sözönü zaman bildirdikdə aşağıdaki hallarda işlənir
1) Günün hissələri ilə
In the morning – Səhər
In the afternoon – günorta
In the evening – axşam
2) Aylar, illər ( tarix göstərilməzsə) zaman zərfi olduqda :
In May – mayda
In September- Sentyabrda
In 1994 – 1994-cü ildə
Qeyd: Lakin illərin, ayların qarşısında tarix göstərilərsə “in” yox “on” sözönü işlənir. Məsələn:
On the $10^{th}$ of may – Mayın 10 da
On the $15^{th}$ of september – Sentyabrın 15-də
3) Əsrlər, dövrlər, zaman zərfi olduqda. Məsələn:
In the XX century – XX əsrdə
In my life- həyatımda
In my youth - gəncliyimdə
In my childhood – Uşaqlığımda və.s
2)On – sözönü şəxsin və ya əşyanın üfuqi və yaxud şaquli vəziyyətdə, nəyinsə üstündə olduğunu göstərir. Məsələn:
The book is on the table – kitab stolun üstündədir
The picture is on the wall – şəkil divardadır
On the right – sağda
On the left – solda
On the plate – boşqabda
On the way – yolda
On the floor – döşəmədə, mərtəbədə
On the Earth – Yer kürəsində
On TV – televizorda

On the map – xəritədə və.s

Qeyd: “ Bayram” adlarında “at” sözönü işlənir. Lakin “bayram” adlarında “day” sözü işlənərsə “at” sözönü “on” sözönü ilə əvəz olunur.

At Novruz – on Novruz holiday

At Christmas – on christmas day

- “on” – sözönü zaman bildirdikdə işlənir. Məsələn:

On Monday – Bazar ertəsi

On Sunday – Bazar günü

On a warn spring day – mülayim bir yaz günü

Əgər həftənin günləri morning, evening, afternoon sözləri qarşısında gələrsə “on” sözönü işlənir.

In the morning – On Friday morning

3) At – sözönü əsasən yer bildirir. Yanında, kənarında, arxasında – da, də -kimi tərcümə olunur. Məsələn:

The teacher is at the window

He sits at the desk – O parta arxasında oturur.

At home – evdə

At school – məktəbdə

At the lesson – dərsdə

At the weekend – həftə sonunda

At the moment – hal-hazırda

At the bus stop – avtobus dayanacağında

At the traffic light – işıq forda və.s

“at”- sözönü zaman bildirərkən aşağıdakı hallarda işlədilir. Saatları göstərərkən.

At eight o`clock – saat 8-də

At 8 p.m – saat 8 də (günortadan sonra)

At that moment – o anda

At that time – o vaxtdan və.s

Günün hissələrini bildirdikdə, zaman zərfi olarsa

At noon – günorta saat 12-də

At night – gecə vaxtı

At midnight – gecə yarısı

Əvvəldə qeyd etmişdik ki, sözönləri ismin qarşısında gələrsə ( sözönü + isim) əsasən qrammatik şəkilçiyə, feildən sonra işlədilərsə (feil + sözönü) leksik şəkilçiyə bərabər olur. Sözlərin qarşısında işlənən sözönləri “preposition” sözlərdən sonra işlənən sözönləri “postposition” adlanır. Sözönləri feillərin qarşısında işləndikdə onlar başqa məna verir. Aşağıdakı şəkilərlə göstərilmiş nümunələrdəki sözönləri hərəkət ifadə edir. Məsələn:




| | | | |
|---|---|---|---|
| Into the box | Qutunun içərisinə | Off the box | Qutunun üstündən |
| Out of the box | Qutunun içərisindən | Over the box | Qutunun üzərində |
| Around the box | Qutunun ətrafında | Under the well | Divarın altında |
| Away from the box | Qutudan uzağa | Throught the pipe | Borunun içərisindən |
| Toward the box | Qutuya tərəf | Across the bridge | Körpünün o tayına |
| Past the box | Qutunun yanından | Up the stairs | Pilləkənlə yuxarı |
| On to the box | Qutunun üstünə | Down the stairs | Pilləkənlə aşağı |

"To look" feili Azərbaycan dilinə "baxmaq" feili kimi tərcümə olunur. Lakin "look" sözönün qarşısında işlənən sözönləri ona fərqli mənalar verir. Məsələn:

To look at – kiməsə, nəyəsə baxmaq
To look out – bayıra baxmaq
To look into – araşdımaq, tədqiq etmək
To look after – qayğısına qalmaq
To look forward – səbrsizliklə gözləmək
To look through – nəzərdən keçirmək
To look like – oxşamaq

"On" – sözönü bir sıra feillərlə işlənərək fərqli mənalar verir. Məsələn:

To put on – geyinmək
To get on – minmək (avtobusa, qatara)
To turn on – yandırmaq (işığı)
To go on – davam etmək

To depend on – asılı olmaq
To try on – geyinib yoxlamaq
To consentrate on – fikrini cəmləmək
To insist on – təkid etmək
To go on foot – piyada getmək və.s
“Get”- “əldə etmək, almaq” feili ilə işlənən sözönləri və onların fərqli mənaları:
Get into a car – maşına minmək
Get out of a car – maşından düşmək
Get on a bus (train etc) – avtobusa minmək
Get out of a bus (train etc) – avtobusdan düşmək
Get up – yuxudan oyanmaq
Get on with (someone) – yola getmək ( kiminləsə)
Get over – sağalmaq
Get rid of – xilas olmaq, canını qurtarmaq və.s
Get along – barışmaq, yola getmək
Get over – üstələmək, sağalmaq
Get away – uzaqlaşmaq və.s

Göstərdiyimiz nümunələrə istinadən deyə bilərik ki, sözönlərinin leksik mənası yoxdur, onlar cümlə üzvü ola bilmirlər. Sözönləri ancaq qrammatik əlaqələrin ifadə vasitəsi kimi fəaliyyət göstərirlər.

**ƏDƏBİYYAT:**

1, Arzu Yaşar: “Engilish for all who want to learn deeply”
2. Clive Oxenden
Christina Latham – Koling
Paul Seligson: “New Engilish file pre-intermediate”
Oxford University Press (1997)
3. Oruc Turksever (Musayev) – İngilis dilinin qrammatikası (Bakı 2007)

**Daun sindromlu uşaqlar sosial işin əsas tədqiqat obyekti kimi**

**Dəmirova Gülnarə**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, qiyabi**
**Elmi rəhbər: Kənan Abbasov**

Daun sindromu ilk dəfə 1866-cı ildə ingilis alimi Con Lenqdon Daun tərəfindən təsvir edilmiş, onun xromosom mənşəyi isə 1959-cu ildə əsaslandırılmışdır. Statistikaya görə dünyaya gələn hər 700 uşaqdan biri Daun sindromu ilə doğulur. Bu nisbət müxtəlif ölkələrdə, iqlim zonalarında, sosial təbəqələrdə eynidir və valideynlərin həyat tərzindən, sağlamlığından, yaşından, zərərli vərdişlərinin olub-olmamasından, qidadan, firavanlıqdan, təhsil səviyyəsindən, dərisinin rəngindən və yaxud da milliyyətindən asılı deyildir. Oğlan və qızlar eyni sıxlıqla doğulurlar. Bu zaman valideynlər normal xromosom düzülüşünə malik olurlar. ( Peter de Winter və digərləri, "Clinical practice" 2019: 25)

Adi insanın orqanizminin hər bir hüceyrəsi 23 cüt təşkil edən 46 xromosomdan ibarətdir. Birbaşa bölünmə nəticəsində yenidən əmələ gələn hər bir hüceyrə hər cütdən 1 xromosom, yəni 23 xromosomlu tam düzüm alır. Əgər dölün xromosom düzülüşü adi haldakından fərqlənirsə, belə halda bölünmə prosesində atanın, yaxud da ananın xromosomlarından biri - 21-cisi bölünmür və Daun sindromunu yaradır.

Daun sindromu ilə doğulan uşaqların oxşar əlamətləri bunlardır :

- boyu qısa, kəlləsi kiçik və yumru olub üz nahiyyəsində yastılaşır.
- Yanaqlar üzün yastılaşmış fonunda bir qədər üzə çıxır.
- Gözləri uzunsov və kiçik, göz yarığı çəp, gözbucağında dəri büküşlü
- ağzı yarıaçıq
- dili böyük olur.

Belə uşaqların əzələləri və oynaqları zəif inkişaf etmiş olur. Dişlərinə gəldikdə, Daun sindromu ilə doğulan uşaqlarda dişlər əyri olur və normal ardıcıllığa uyğun çıxmır. Onlarda ağız boşluğu normada olduğundan nisbətən kiçik, dil isə böyükdür ("What causes Down syndrome?" 2018-10-23 http//nichd.nih.gov).

Bu sindromla doğulan uşaqların ovucları enli, barmaqları qısa, çeçələ barmaq bir az içəriyə doğru bükülmüş olur. Bir çox uşaqlarda göstərici barmaqla baş barmaq arasındakı məsafənin çox böyük olmasındadır. Daun sindromlu şəxslərin boyunun böyüməsi sürəti zəifdir Bu göstərici ortalama olaraq kişilər üçün 154 sm, qadınlar üçün isə 142 sm təşkil edir Bu sindrom aşkar olunan fərdlərdə yaşlandıqca piylənmə riski də artır.( *London: Elsevier Health Sciences. 2011)*

Körpədə bütün bu cizgilər mütləq ifadə olunmamışdır. Daun sindromlu elə uşaqlar var ki, onlarda xarici xüsusiyyətlərin təzahürü yoxdur. Elə standart xromosom düzülüşlü adamlar da vardır ki, xarici görünüşü Daun sindromlu insanları xatırladır. Bu zaman uşaq valideynlərindən birindən 23 xromosom, digərindən isə 24 xromosomu irsən aldığına görə onların individual xüsusiyyətləri bir qayda olaraq, kifayət qədər parlaq təzahür edilir və uşaqlar əksər hallarda öz valideynlərinə çox oxşayırlar.

Daun sindromlu uşağın uğurla böyüməsi və inkişaf etməsi üçün ona ilk yaşlardan başlayaraq, ümumi sağlamlığın saxlanılması və inkişafın stimulyasiyasına yönəldilən xüsusi tədbirlərin müəyyən kompleksini əks etdirən yardım lazımdır. Bizim ölkəmizdə valideynlər ənənəvi olaraq bu cür köməkdən ötəri tibb işçilərinə müraciət edirlər, yəni sadəcə desək, poliklinikaya gedirlər. Təəssüf ki, heç də bütün pediatr və digər poliklinika mütəxəssisləri uşaqlarda Daun sindromunun inkişaf xüsusiyyətləri ilə kifayət dərəcədə tanış deyildirlər. Həkim təyinatında düzgün istiqamət götürmək və uşaqlarına vacib olan müayinələr haqda təsəvvürə malik olmaq valideynlər üçün çox faydalıdır.

Daun sindromlu körpənin inkişafına mümkün qədər tez aktiv stimul verməyə başlamaq çox vacibdir. Hal-hazırda Daun sindromlu uşaqların uzun illər inkişafı və təhsili ilə məşğul olan xarici təşkilatlar tərəfindən işlənib hazırlanmış bir sıra inkişaf proqramları rus dilinə çevrilmişdir. Bu proqramlardan ən məşhuru - “Kiçik pillələr. İnkişafında pozulmalar olan uşaqlara ilk pedaqoji yardım proqramı”dır

Valideynlər diqqətini Daun sindromlu uşaqların böyüməsi və inkişafının ayrı-ayrı vacib anlarına yönəltməlidir. Bəzi xüsusiliklər və problemlər kifayət qədər uzun müddət nəzərə çarpmayan kimi qala bilər və uşağın inkişafına neqativ təsir göstərər. Bu cür “zəif yerləri” bilərək valideynlər onları nəzarət altında saxlaya və vaxtında kömək üçün mütəxəssisə müraciət edə bilərlər. Daun sindromu adi xəstəliklərin müalicəsi üçün əks göstəriş deyildir və lazımi müalicə prosedurlarının aparılmaması üçün əsas ola bilməz.

Məlum olduğu kimi daun sindromlu uşaqlar adətən daha yavaş böyüyürlər, daha yavaş öyrənirlər, problem həll etməkdə, qərar qəbul etməkdə digər uşaqlara nisbətən daha çox çətinlik çəkirlər. zəka səviyyələri normadan aşağıdır , ancaq yaxşı başlanan bir təlimlə zəka səviyyələri yüksələ bilər. Ətraf ilə uyğun münasibət qura bilirlər. Problemlərinə xas olan xarakterik xüsusiyyətlər göstərirlər. sevimli, şən, dünya ilə barışıq, digər insanların yaşından və mövqeyindən asılı olmayaraq dərhal əlaqə qura bilirlər, lakin inadkardırlar, ostəmədiklərini etmirlər və bacardıqları işi başqasına tapşırmağa meyillidirlər. ona görə də valideynlərin bu uşaqlara qarşı hədsiz qoruyucu olmaqları onların inkişafına ciddi mənfi təsir göstərir ( https://acikders.ankara.edu.tr/mod/resource/view.php?id=126601 )

Qeyd edildiyi kimi bu uşaqların düzgün təlim alması çox vacibdir. Bakıda yerləşən Daun Sindromlu Şəxslərin Assosiasiyası haqqında 2002-ci ilin əvvəlində Bakıda Zaqafqaziyada yeganə olan 80 uşaq və yeniyetməni özündə birləşdirən “Daun Sindromlu Şəxslərin Assosiasiyası” yaradılmışdır. Assosiasiyanın əsas məqsədi Daun sindromlu şəxslərin və həmçinin onların ailə üzvlərinin sosial-mədəni reabilitasiyası və cəmiyyətə inteqrasiyasından ibarətdir. Assosiasiyada uzun müddət müxtəlif səbəblər üzündən cəmiyyətimizdən kənar düşmüş uşaq və yeniyetmələr cəmləşib. Assosiasiya 24 sentyabr 2003-cü ildən Ədliyyə Nazirliyində 1103- Q1-1475 saylı qeydiyyatdan keçərək tam hüquqi əsaslarla fəaliyyət göstərir. Assosiasiya bir qrup valideynin təşəbbüsü ilə yaradılmış və onun bütün işçiləri, həmçinin rəhbəri xeyriyyə məqsədilə təmənnasız xidmət göstərirlər. (Daun sindromu. Faktlar/ müəl. E.Pole-M: “Daunsayd Ap” Xeyriyyə Fondu, 2004 : 32)

Bakıda inkişafında xüsusiliklər olan uşaqlar üçün yardımçı məktəblərlə yanaşı, həmçinin inklüziv təhsilli bir neçə məktəb də var. Daun sindromlu uşaqlar artıq bu təhsil ocaqlarına, hətta digər uşaqlarla bərabər adi uşaq bağçaları və məktəblərə də gedirlər.

**ƏDƏBİYYAT:**


1. *"What causes Down syndrome?" 2018-10-23 http//nichd.nih.gov*
2. Daun sindromu. Faktlar/ müəl. E.Pole-M: "Daunsayd Ap" Xeyriyyə Fondu, 2004
3. https://acikders.ankara.edu.tr –'' Down sendromu " sunum
4. *Michel E. Weijerman və J. Peter de Winter.* "Clinical practice" 2019
5. *Williams Textbook of Endocrinology Expert Consult (12th). London: Elsevier Health Sciences. 2011*

**Azərbaycan cəmiyyətində müasir gənclərin rolu**

**Rubina Ələkbərli**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Elmi rəhbər:Abduyev İman**

Son illər müasir gənclər, onların problemləri və nailiyyətləri haqqında müxtəlif fikir səslənir. Azərbaycan gənclərinin problemləri əsasən sosial yönümlü problemlərdir ki, bu da dünyanın bir sıra ölkələrində mövcuddur. Məsələ ondadır ki, gənclərin əsas problemi məşğulluğun təmin olunmasıdır. Sözügedən problemin həlli ilə bağlı bir sıra dövlət proqramları mövcuddur ki, bunlara da "Yoxsulluğun səviyyəsinin aşağı salınması üzrə dövlət proqramı", "Azərbaycan gənclərinin inkişafı üzrə dövlət proqramı" və "Regionların inkişafı üzrə dövlət proqramı" daxildir(WordPress.com)

Ölkədə gənclər arasında işsizlik səviyyəsi xeyli dərəcədə mövcuddur və onun azaldılması diqqət mərkəzində saxlanılmalıdır.Bu baxımdan qarşıda duran bəzi vəzifələr vardır:

- peşə təhsilinə cəlb olunan gənclərin sayının artırılması;
- gənclərin hərtərəfli bilik və bacarıqlarlara malik olmasını təmin etmək üçün peşə təhsili infrastrukturunun əsaslı şəkildə müasirləşdirilməsi;
- gənclərin məşğulluğunun təmin olunması üçün dövlət hesabına ödənilən staj keçmə və praktikalar təşkil olunmalıdır;
- müasir peşə və ixtisaslar üzrə kadr hazırlığı prosesinin təkmilləşdirilməsi;
- sərhədyanı və digər rayonlarda iş yerlərinin yaradılması.

Mənəvi problemlər: Bu kateqoriyaya əsasən gənclərin mənəvi tərbiyəsi problemi, narkomaniya, AIDS və bir sıra gənclərin pozğun həyat tərzinə qarşı mübarizə metodları aiddir. Hər bir sadalanan problemin həlli məqsədi ilə xüsusi dövlət proqramları realizə olunur. Bu məqsədlə müvafiq nazirliklərdə, İdarə və müəssisələrdə konkret qurumlar təsis edilmiş, xüsusi dövlət Komissiyası formalaşdırılmışdır (wordPress.com).

"Narkomlaşma" və "Alkoqolizasiya"anlayışları son illərdə daha da çoxalır,sərhədləri genişlənir.Narkomaniya və narkobiznes təkcə insanların sağlamlığına, mənəviyyatına deyil, həm də dünya iqtisadiyyatına ciddi zərbə vurur.Son vaxtlar dünyada gənc nəsil arasında narkotik vasitə və psixotrop maddələri qəbul edənlərin sayı getdikcə artmaqdadır.Narkomanlar içərisində ən geniş yayılmış xəstəlik hepatitdir. Narkotik maddələrdən asılılıq narkomaniyaya düçar olmuş şəxslər arasında digər böyük bir problemə - QİÇS virusuna yoluxmasına gətirib çıxarır. Təhlillər bir daha sübut edir ki, QİÇS-ə yoluxma hadisəsi narkomanlar arasında daha tez baş verir( Əliyev, 2008: 1213)

Sosial mediada məqsədsiz formada vaxt keçirən insanların fərqində belə olmadıqları əsas hədəfi zehni bir şeylərlə məşğul etməkdir.Zehnimizdə narahat edən fikirlərin olması və bunun yaratdığı stresslə mübarizə apara bilməməsi bizi bu kimi davranışlara sürükləyir.

Bir müddət sonra isə sosial mediada keçirdiyimiz vaxtın artdığını hiss edərik.Zamanla bu artım davam edər və bütün həyatımıza təsir göstərməyə başlayar.

Belə bir sual yaranmaqdadır: “Sosial media asılılığımız nəyə görə daha çox artmaqdadır?”

Ağlımızda olan və bizi narahat edən fikirlərdən uzaqlaşmaq və zehnimizi məşğul etmək üçün istifadə etdiyimiz bu üsulun bir müddət sonra bizə kifayət etmədiyinin fərqində olarıq.Çünki daim eyni şeylə məşğul olmaq bir müddət sonra artıq marağı itirir.

Sosial mediya səhifələrinin tez-tez mövzuları dəyişdiyini görürsüz.Bunun məqsədi sizdə yaranan maraqsızlığı aradan qaldımaqdır. Nə qədər bu maraqsızlığı aradan qaldırmağa dair addımlar atsalar da bunu tamamilə azalda bilməzlər çünki sosial mediada keçirdiyiniz vaxt çoxdur.Bir müddət sonra bu maraqsızlıq ortaya çıxar və insan ağlındakı narahat düşüncələri uzaqlaşdıra biməz.

Ağıldakı narahatedici düşüncələr stress yaradır və insan bu stressi basdırmaq istəyər.Bunu basdırmaq üçün də ən asan yol sosial media olduğu üçün orada daha çox zaman keçirməyə başlayır. Sosial mediadan daha çox istifadə isə zehnimizi məşğul etmək xüsusiyyətini getdikcə itirir. Bu da stress səviyyəsini daha da artırar. Bu müddət "paradoksa" girər və daha sonrasında insanlar sosial mediyada keçirdiyi zamanı sorğulamağa başlayarlar.Bu sorğulmadan sonra fərqindəlik artar və sosial mediada çox vaxt keçirdiyini dərk edib,bundan qurtulmaq istəyər.

Bu fərqindəliyi erkən dövrdə yaşayan insanlar sosial mediyada keçirdiyi vaxtı daha asan kontrol altına ala bilir. Getdikcə daha az istifadə etməyə başlayar və hətta sosial media profillərini bağlayarlar. Bəzi insanlar isə bu halı asılılıq vəziyyətinə gətirərlər və heç bir dəyişiklik edə bilməzlər.Bu vəziyyət isə stress səviyyəsini daha da artırar.

Bəs necə asılı olarıq?

Sosial mediada zaman keçirmək stressdən uzaq qalmağımıza kömək etdiyi üçün bir müddət sonra sosial media həll yoluna çevrilər.İnsanlar stressdən uzaq durmaq istədiyi hər an sosial mediyaya yönələr.İlk vaxtlarda bu işə yarasada bir müddət sonra sosial mediaya qarşı toleransımız artar və stressdən uzaq durmağımız üçün artıq faydalı olmaz.Nə qədər faydalı olmasa da bir müddət sonra sosial medianı hansı məqsədlə istifadə etdiyimizi unudarıq və məqsədsiz olaraq kontrolsuz bir formada sosial mediada olmaq istəyi hiss edərik.

Bu istəklə mübarizə apara bilməyən insanlar bir müddət sonra sosial mediadan asılı hala gəlirlər. Nə qədər uzaq durmaq istəsələr də bu alınmır. Nəticə etibarilə sosial media asılılığı yaranmış insanlar psixoloji dəstəyə ehtiyac duyarlar.(Gülər Zaman, 2021)

**ƏDƏBİYYAT:**


1. "2015-2025-ci illərdə Azərbaycan Gənclərinin inkişaf strategiyası" Baki,2015.
2. "Azərbaycan 2020: Gələcəyə Baxış" inkişaf konsepsiyası. Bakı,2011
3. Əliyev B.H Şəxsiyyətə yeni baxış nəzəriyyəsi. B 2008. S.1213
4. Gülər Zaman – Psixoloji Xidmət və Reabilitasiya Mərkəzinin klinik psixoloqu
5. PROCEEDINGS of the International Conference onSUSTAINABLE DEVELOPMENT AND ACTUAL PROBLEMS OF HUMANITARIAN SCIENCES
6. - Vidadi Ordahallı Bakı xəbər.-2012.-19 aprel.-S.15.

# İnsan kapitalının inkişafında sosial işin rolu

**Şükürova Aytən**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Elmi rəhbər: sos.f.d. Aabbasi Saedabad Muhammad**

Hər bir cəmiyyətin inkişafı insan kapitalının inkişaf səviyyəsindən xeyli dərəcədə asılıdır. Daha dəqiq desək insan kapitalı cəmiyyətin inkişafının əsas şərtidir. Sosial iş sistemi isə, öz mahiyyəti və məqsədi etibarı ilə birbaşa olaraq cəmiyyətin dəstəyə ehtiyacı olan üzvlərinə yardım edərək onların cəmiyyətə adaptasiya və inteqrasiyasını təmin edərək, insanların öz sosial funksiyalarının daha effektiv formada yerinə yetirməsinə kömək edir. Daha dəqiq desək sosial iş sisteminin fəaliyyəti birbaşa olaraq insanların rifahı, sosial funksionallığı və onların sağlam sosio-psixoloji fəaliyyətinə yönəlməklə insan kapitalının inkişafı üçün böyük əhəmiyyət kəsb edir. bu baxımdan da sosial iş və insan kapitalının inkişafı arasındakı əlaqənin elmi formada öyrənilməsi və praktik sferada təşviqi olduqca vacib və cəmiyyətin inkişafı üçün əhəmiyyətlidirƏsasən "Teodor Şuls" tərəfindən elmi sferada istifadə edilib "Heri Bekker" tərəfindən inkişaf etdirilən "insan kapitalı" termini cəmiyyətin keyfiyyətli həyat şəraiti, keyfiyyətli əmək, bilik, sağlamlıq və intellekt səviyyəsi ilə əlaqədar olan bir anlayışdır. İnsan kapitalı eyni zamanda "cəmiyyətdə təhsil, ailə əlaqələri, səhiyyə və digər xidmətlər və sosial institutlar vasitəsilə inkişaf etdirilən kollektiv resurslara deyilir" (dıctıonary of socıal work, 2012: 30).

İnsan kapitalı insanların özünü realizə etmək və sosial resurslardan tam istifadə etmək imkanlarını artırır. İnsan kapitalı iqtisadi inkişafın başlıca amillərindən biri olmaqla yanaşı həm də, sosial inkişafa təsir edən vacib faktordur. Buna görə də inan kapitalının qorunması və inkişafı istənilən cəmiyyətdə dövlətin sosial siyasətinin prioritetidir. İnsan kapitalının inkişafında insanların fərdi-psixoloji potensiyalının gücləndirilməsi, özünəinam səviyyəsinin artması, insanların bacarıq və biliklərinin artması və təcrübə mübadiləsi ciddi məna kəsb edir. Bütün bunlar cəmiyyətin bütün qrup və təbəqələrinin sosial resurslardan kifayət qədər faydalanması, öz potensialından istifadə etməsi, sosial-iqtisadi aktivliyi və sosial münasibətlər sahəsində optimal kommunikativ imkanlara malik olmasını tələb edir. Başqa sözlə, insan kapitalının inkişafı cəmiyyət üzvlərinin yaradıcılıq, dinamiklik və özünüinkişaf kimi xarakterik cəhətlərə malik olmasını tələb edir. İnsan kapitalının inkişafı sosial rifah, asayiş, xidmət və istehsal sferasının güclənməsinə səbəb olur.

İnsanlar və müxtəlif qrupların öz sosial funksiyalarını effektiv formada həyata keçirməyə dəstək göstərməyi özünün başlıca məqsədi kimi seçən sosial iş həm də, "insan kapitalının inkişafına ciddi töhfələr verən bir elmi-praktik fəaliyyət" sahəsidir (Məmədova R, 2019: 159). Belə ki, sosial resurslardan kifayət qədər istifadə etməkdə çətinlik çəkən fərd, qrup və icmaların öz potensiyalı və daxili imkanlarına istinad edən sosial işçilər onların sosial-psixoloji reabilitasiyası və problemlərinin həlli yolu ilə insan kapitalının inkişafına birbaşa xidmət edirlər. Həm sosial iş ixtisası həm də insan kapitalı konsepsiyasında insan potensialı və insanların sosial funksionallığına təkid edilir. Ümumiyyətlə müasir dünyada insan potensialı kapital tutumlu sahəyə çevrilmişdir. Təhlillər göstərir ki, Avropa, Şimali Amerika, Yaponiya və s. ölkələrin milli resurslarının 2/3 hissəsi insan kapitalının formalaşmasına sərf edilir. Ən mühüm cəhət ondan ibarətdir ki, inkişaf etmiş ölkələrdə sosial-iqtisadi dəyişikliklər əsasən insan potensialının düzgün idarəedilməsi və aşkara çıxarılması yolu ilə tənzimlənir.

Sosial işdə dəstəyə ehtiyacı olan insanlara və sosial planda müdafiə edilməmiş təbəqələrə bilavasitə yardım edilməklə yanaşı, onları əhatə edən problemlərin həlli üçün müdaxilə edilir, bu təbəqələrin (yaşlılar, əlillər, ailə mühitindən məhrum olmuş uşaqlar, QİÇS-ə yoluxmuşlar, qanunla münaqişədə olan insanlar, risk qruplarına aid şəxslər və s.) maraqlarının təmin edilməsi və hüquqlarının müdafiə edilməsi məqsədilə əlaqədar qanunverici aktların və dövlət proqramlarının hazırlanmasında sosial işçilər yaxından iştirak edirlər. Bu dəstək və proqramların hazırlanmasında həmin şəxslərin gücləndirilməsi və öz potensiyalına əsalanaraq sosial-iqtisadi cəhətdən inteqrasiyası ön plana çəkilir. Bu baxımdan sosial işdə sosial-iqtisadi inteqrasiya və reabilitasiya böyük əhəmiyyət daşıyır. Bu kimi professional fəaliyyətlər reabilitasiyanın dolğun və öz təsdiqini tapmış məzmuna malik bir neçə növünü özündə birləşdirir:

1)Sosio-psixoloji reabilitasiya : "psixoloji travma almış klientin mövcud vəziyyətinin yaxşılaşdırılması, özünüdərk və itirilmiş şəxsi keyfiyyətlərin bərpası, habelə fiziki imkanları məhdud şəxslərin sosiallaşması, bu və ya digər səbəbdən cəmiyyətdən təcrid olunmuş şəxslərin yenidən cəmiyyətə sağlam adaptasiyasına xidmət edən reabilitasiya növü" (Zamnov, Əliyeva, 2015:196);

2)Peşə reabilitasiyası: sağlamlıq imkanları məhdud olan şəxslərdə əmək qabiliyyətinin aşkara çıxarılması, habelə fərdin fiziki imkanlarına uyğun peşəyə yiyələnməsinə xidmət edən reabilitasiyası növü;

3)Sosial-pedaqoji reabilitasiya: özünütəkmilləşdirmə, özünütəhsil və özünütərbiyə kimi mühüm amillərin bərpasında pedaqoji yanaşmanı təmin edən reabilitasiya növüdür (burada xüsusilə sosial fəaliyyət və münasibətlər zəminində əziyyət çəkən uşaq və yeniyetmələrin özünəxidmət bacarıqları, evdə və ictimai yerlərdə davranış qaydaları və s. diqqət mərkəzindədir);

4)Bu və ya digər fərdin itirilmiş iqtisadi müstəqilliyi və sosial faydalılığının bərpası istiqamətində mühüm rol oynayan sosial-iqtisadi reabilitasiya. Sosial-iqtisadi reabilitasiyanın qarşıya qoyduğu başlıca məqsəd isə məhz xəstəlik və ya qəza nəticəsində fərdin düşdüyü iqtisadi asılılıq və asosiallığı aradan qaldırmaqla onda iqtisadi müstəqillik və sosial rifaha nail olmaqdır. Eyni zamanda klientin əvvəlki kimi iqtisadi sferada fəaliyyətinin təmin olunması məqsədi ilə peşə reabilitasiyası da buraya şamil edilir;

Əlbəttə bu sıralamanı daha davam etmək olar. Məsələn, tibbi reabilitasiya və bu sahədə sosial işçilərin tibb mərkəzlərində fəaliyyətini də qeyd etmək mümkündür.

Ümum qeyd edilənlərdən belə bir nəticə almaq olar ki, sosial iş sahəsi sosial kapitalın inkişafı ilə birbaşa əlaqəsi olan bir sferadır və bu professional fəaliyyətin məqsəd və funksiyaları birbaşa olaraq sosial kapitalın güclənməsi, cəmiyyətin sağlamlığı, "keyfiyyətli həyat şəraitinin təmin edilməsi, keyfiyyətli əmək, sosial münasibətlər və intellektual səviyyənin güclənməsinə" yönəlmişdir (H. Rəcəbli, 2012: 214). Sosial işçilər isə, insanların özünü realizə etmək və sosial resurslardan tam istifadə etmək imkanlarını artırmağa kömək etməklə sosial kapital və sosial rifahın inkişafına xidmət edirlər. Buna görə də iqtisadi və istehsal sferasında da sosial işçilərin iştirakına şərait yaradılmalı və sosial işçilərin xidmətlərindən əmək kollektivləri və istehsal iştirakçılarının fəaliyyətinin yaxşılaşdırılmasında istifadə imkanları daha çox diqqət mərkəzində olmalıdır.

**ƏDƏBİYYAT:**

1. Azərbaycan Respublikasının sosial müdafiə sistemi, Hadi Rəcəbli, Bakı 2012, s. 406.
2. Dicrionary of social work, The Universitety of Montana, 2012, p. 79.
3. Sosial işə giriş, Məmmədova Rəna, Bakı, 2019, s. 206.
4. Sosial işin əsasları, Zamanov A. D. , Əliyeva H. İ. , Bakı 2015, s. 450.

# Heydər Əliyevin elm və təhsil sahəsində gördüyü işlər

**Kazımova Nuranə**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Elmi rəhbər: Eldarova Sayad**

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev əbədiyyətə qovuşsa da millətinin ümid yerinə çevrildi, bioloji yoxluğu mənəvi varlığı ilə əvəzləndi. Bu gün biz gündəlik həyat və fəaliyətmizdə Heydər Əliyevin uzaqgörən siyasətinin xoş nəticələri ilə rastlaşır, dövlətçilik, idarəetmə,siyasət, elm, təhsil, mədəniyyət, idman və s. sahələrdə onun irsindən qaynaqlanırıq.

Belə ki, ulu öndər bütün sahələrə olduğu kimi, təhsil sahəsinə də xüsusi diqqət və qayğı göstərmişdir [2]. Odur ki, Azərbaycan təhsilinin inkişafı lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Belə ki, ulu öndər bütün sahələrə olduğu kimi , təhsil sahəsinə də xüsusi diqqət və qayğı göstərmişdir.

Azərbaycan təhsilinin milli tariximizdə coşğun yüksəlişi, əsil intibah illəri kimi daxil olan ilk mərhələsi Heydər Əliyevin Azərbaycana rəhbərliynin birinci dövrünə təsadüf edir. Hələ ölkəmizə rəhbərliyinin birinci dövründə ümummilli lider Heydər Əliyevin təhsilimizə böyük qayğısının nəticəsi olaraq Azərbaycanda çoxlu sayda məktəb binası tikilərək istifadəyə verilib. Ölkədə təhsil ocaqlarnın maddi-texniki bazası möhkəmləndirilib [1], lazımi avadanlıqla təciz olunub. Ulu öndər daim gənclərin hər tərəfli inkişafına böyük önəm verirmişdir.

Bütün tarixi dövürlərdə görkəmli şəxsiyyətlər, dövlət adamları müəllimlik peşəsinə yüksək qiymət vermiş və müəllimliyi cəmiyyətin ən şərəfli peşəsi hesab etmişlər. Müqəddəs dinimizin banisi Məhəmməd peyğəmbər özünü müəllim adlandırmış, Xəmsənin müəllifi Şeyx Nizami Gəncəvi müəllimi günəşə, məsnəvi müəllimi Mövlana Cəlaləddin Rumi müəllimi gənc qəlbin memarına bənzətmiş, Nəsrədin Tusi müəllimi elmin çırağı adlandırmışdır. Bu müdrik fikirlər sırasında 20-ci əsrin dahi şəxsiyyəti, böyük dövlət xadimi H.Əliyev müəllimlik peşəsi haqqında öz xüsusi dəyərli, əhəmiyyətli və peşəyə verdiyi yüksək qiyməti ilə seçilir. ,,Mən yer üzündə müəllim adından yüksək bir ad tanımıram” [1, 3]. Bu qiymətli sözlər Ulu öndərmizin müəllimlik peşəsinə sıx bağlılığından, bu peşəyə yaxından bələdliliyindən, ilk peşə ixtisasının müəllimlik olmasından və ilk vəzifə təyinatının da müəllimlik olmasından irəli gəlir.

Ulu öndər hələ sabiq SSRİ dövründə (1972-ci ildə) “ Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumi təhsil məktəblərini dahada inkişaf etdirmək haqqında” və 1973-cü ildə “Kənd ümumi təhsil məktblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında” qərarlar qəbul etdi. Bu qərarların reallaşması nəticəsində respubilkamızda orta ümumtəhsil məktəbləri şəbəkəsi 765-dən 2117-ə çatdırıldı və ucqar bölgələrmizdə orta ümumtəhsil məktəbləri açıldı. Bu dövrdə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda 5 yeni ali təhsil alanların sayı 70 mindən 100 minə çatdırılıb. Ulu öndər respubilkanın zəruri mütəxəssisə eytiyacını və gənclərimizin gələcəyini nəzərə alaraq, bu illərdə yüzlərlə gəncin sovet ittifaqının ən nüfuzlu ali təhsil müəssisələrində oxumasına nail olub [2]. Bu proses 1970-ci ildən başlayaraq və hər il 800-900 nəfər azərbaycanlı gənc sabiq SSRİ-nin nüfuzlu ali təhsil məktəblərində təhsil almağa göndərib.

70- ci illərin əvvəllərinə qədər Azərbaycanda orta ümmumtəhsil məktəblərnin dərsliklərlə təminatı olduqca aşağı səviyyədə idi. Lakin ümummilli lider qısa müddətdə bu problemin həllinə nail oldu və 1978-ci ildən etibarən şagirdlərin dərsliklərlə pulsuz təminatı ənənəsinin əsası qoyuldu.

Respubilka rəhbərliyinin təhsilin inkişafına göstərdiyi xüsusi diqqət yeni orta ümumtəhsil məktəblərnin tikintisində də öz təzahürünü tapırdı. Həmin illər ərzində 350 mindən çox şagird yeri olan 849 məktəb inşa edilib istifadəyə verilmişdi. 1980 ci ildə Respubilkada ümumtəhsil məktəblərində oxuyan şagirdlərin sayı 710 minə çatmış ki, bu da 1970-ci illə müqayisədə təxminən iki dəfə artıq idi.

Ümumi təhsildəki ən ciddi yeniliklərdən biri yeni əlifbaya keçilməsi, yəni, latın qrafikalı əlifbanın reallığa çevrilməsi idi. Heydər Əliyevin təbirincə desək: - "Bizim bu günümüz, gələcəymiz məhz latın əlifbası ilə bağlıdır" – tarixi çağrışı təhsil sistemində özünün tam həllini tapdı. İstedadlı gənclərin təhsilə marağını daha da artırmaq və dəstəkləmək üçün prezident Heydər Əliyevin ali məktəblərə qəbul imtahanlarından ən yüksək bal toplamış abituryentlərlə şəxsən görüşərək [1], onlara prezdent təqaüdünün verilməsi barədə qərarı dahi şəxsiyyətin təhsilə diqqətinin daha bir numunəsidir.

Milli dövlətçilik strategiyasında ülü öndərin davamçısı İlham Əliyevdir.

Qeyd olunanlar onu göstərir ki, ümumimilli liderin dövrün tələblərinə uyğun uğurla davam etdirilən müdrük siyasəti və həyata keçrilən ölməz ideyaları həmişə olduğu kimi, bu gündə dövlətimizə və xalqımıza fayda verməkdədir və gələcəkdə də bu tendensiya davam edəcək. Odur ki, ulu öndər bütün Azərbaycanlıların qəlbində son nəfəsədək yaşayacaq və hər kəs böyük tarixi şəxsiyyəti sonsuz məhəbbət hissləri ilə daim xatırlayacaq.

**ƏDƏBİYYAT:**


1. Z.Adıgözəlov, İ.Mustafayev "Heydər Əliyev və müstəqil Azərbaycan gəncliyi" "Qapp-Poliqraf" korporasiyası. Bakı 2003
2. https://az.wikipedia.org/wiki/
3. http://www.anl.az/down/meqale/az_muellimi/2010/dekabr/145271.htm

## Cəmiyyətdə sosiallaşma

**Həsənova Aytac**

**Elmi rəhbər: dos.N.Ə.Umarova**

Sosiallaşma doğumdan ölümə qədər olan bir şəxsin yaşadıqları cəmiyyətin normaları, adət-ənənələri, dəyərləri və rolu ilə öyrədilən prosesdir. Bu proses innovativ fikrli şəxsləri cəmiyyətə daxil etmək üçün xidmət edir və onlar düzgün şəkildə işləyə bilər.

*Sosialləşmə adətən iki mərhələdə baş verir.*

Birincil sosiallaşma doğumdan başlayaraq erkən yaşlarda baş verir və əsas qayğı göstərənlər, müəllimlər və həmyaşıdları tərəfindən idarə olunur. İkincil sosiallaşma bir insanın həyatı boyu davam edir və xüsusilə də, normalarına, adətlərinə, fərziyyələrinə və dəyərlərinə özündən fərqli ola biləcək yeni vəziyyətləri, yerləri və qrupları ilə qarşılaşır.

***Sosiallaşmanın məqsədi***

Sosiallaşma, bir insanın bir qrupun, cəmiyyətin və ya cəmiyyətin üzvü olmağı öyrənən prosesdir. Onun məqsədi yeni fikrli gəncləri hətta, azlıqları belə sosiallaşdıraraq sosial qruplar halına gətirməkdir. Sosiallaşmadan biz bir cəmiyyət ola bilmərik. Çünki dəyərlər, idealar, adət-ənənələrdədən ibarət olan bir cəmiyyətin üzvüyük. Sosiallaşma vasitəsilə biz müəyyən bir qrup və ya müəyyən bir vəziyyətdən cəmiyyətdə, həyatda bizdən gözlənilənləri öyrənirik.

Əslində sosyallaşma, bizi gözləntilərə uyğun tutaraq, şəxsi azad fikrlərmizi qorumağa xidmət edən bir prosesdir.

*Üç hissədə sosiallaşma prosesi olur:*

Sosiallaşma insanın sosial strukturunu və ictimai əlaqələrini əhatə edən interaktiv bir prosesdir. İnsanlar sosial qrupun normalarını, dəyərlərini və adətlərini qəbul etməyə və cəmiyyətin içərisinə yönəldən proses kimi düşünürlər.

Sosioloqlar ictimailəşmənin üç əsas aspektdən ibarət olduğunu tanıyırlar: *kontekst, məzmun, proseslər və nəticələr.* Birincisi, **kontekst** bəlkə də sosiallaşmanın ən çox müəyyən xüsusiyyətidir. Çünki bu bir cəmiyyətin mədəniyyətinə, dilinə, sosial strukturlarına (digərləri arasında sinif, irq və cins) aiddir və onların içində bir ictimai yerə aiddir. Həm də tarixi prosesdə iştirak edən insanları və ictimai qurumları da əhatə edir. Bütün bunlar müəyyən bir sosial qrupun, cəmiyyətin və ya cəmiyyətin normaları, dəyərləri, adət-ənənələri, rolları və fərziyyələrini müəyyən etmək üçün birlikdə işləyir. Buna görə, birinin həyatının ictimai konteksti sosiallaşma prosesinin nə ilə nəticələnəcəyini, istənilən nəticəni və ya nəticəsini nə üçün edəcəyini müəyyənləşdirən bir faktordur. Məsələn, ailənin iqtisadi sinifləri valideynlərin uşaqlarını necə sərbəstləşdirmələrinə təsir edə bilər [2]. 1970-ci illərdə aparılan sosioloji tədqiqatlar valideynlərin iqtisadi sinifdə böyük hissəsi olan həyatlarını ehtimal edə biləcəyi ehtimalını nəzərə alaraq, uşaqlarına uğurlar qazanmaq üçün ən çox ehtimal olunan dəyər və davranışları vurğulamağa meyllidirlər.Eyni şəkildə, ABŞ cəmiyyətinin cinsi stereotipləri və patriarxal cinsi hiyerarxiyası soiallaşma proseslərinə güclü təsir göstərir. Cinsi rollar və cinsiyyətli davranışlar üçün mədəni gözləntilər doğumdan gələn uşaqlara rəngli kodlu paltarlar, qızlar üçün fiziki görünüşü və evcilliyi (oyun makyajı, Barbie kuklaları və oyun evləri kimi) vurğulayan oyuncaqlara, gücü, zəifliyi və erkək peşələri oğlanlar üçün (oyuncaq yanğın mühərrikləri və traktorları düşünün). Bundan əlavə, tədqiqat göstərir ki, qardaş qızlar valideynlər tərəfindən ev təsərrüfatlarının əməyindən razıdırlar və

beləliklə maddi mükafatlandırılmırlar, uşaqlar isə özləri tərəfindən gözlənilmədiyi kimi onu görmək üçün ictimailəşdirilir və beləliklə, öz işlərini yerinə yetirmək üçün, bacılar az ödənilir və ya olmasınlar. Məktəbdə, universitetdə olduqda uşaqlar, yeniyetmələr və hətta gənclər üçün sosial münasibətlərin vacib bir sahəsidir. Bu şəraitdə, dərslər və dərsləri məzmunu kimi düşünə bilər, amma həqiqətən, ictimailəşmə baxımından məzmunu necə davranmağı, qaydalara riayət etmə, səlahiyyətlərə hörmət, cədvəlləri yerinə yetirmə, məsuliyyət alma və son tarixə çatmaq. Bu məzmunun tədris prosesi müəllimlər, administratorlar və qaydalar və gözləntilərin yazılı şəkildə yerləşdirilməsi, müntəzəm olaraq icazə verildiyi və davranış qaydalarına və gözləntilərinə uyğun olmayan və ya olmamasına görə ödüllendirilir və ya cəzalandırılan tələbələr arasında sosial qarşılıqlı əlaqəni əhatə edir [1] . Bu proses sayəsində məktəbdəki tələbələrə normativ qayda davranışları öyrədilir. Lakin, sosioloqlara xüsusi maraq, məktəblərdə öyrədilən və sosyalləşmə proseslərində formalaşan rol oynayan "gizli tədris proqramlarıdır".

Sosiolog CJ Pasco, Amerika məktəblərində cins və cinsiyyətin gizli müfredatını açıqladı. Pascoe Kaliforniyada böyük bir orta məktəbdə dərin araşdırma edərək, müəllimlər, administratorlar, məşqçilər və pep mitinqləri və rəqslər kimi məktəb mərasimləri bir-birinə danışmaq, qarşılıqlı təsir və cinsi heteroseksual əlaqələrin norma olduğunu göstərmək üçün birlikdə işləyib necə göstərdi , oğlanların təcavüzkar və hiperseksual yollarla davranması məqsədəuyğundur və qara kişi cinselliyi ağ kişilərdən daha təhdidlidir [3]. Məktəb təcrübəsinin "rəsmi" hissəsi olmasa da, bu gizli tədris proqramı tələbələri cinsi, irqi və cinsiyyət əsaslı üstün sosial normalara və gözləntilərə səyləndirməyə xidmət edir.

***Sosiallaşma mərhələləri və formaları***

Sosioloqlar sosial əsasın iki əsas formasını və ya mərhələlərini tanıyır: ilk və orta.

*İlkin ictimailəşdirmə* doğumdan yeniyetməlik dövrünə aid olan mərhələdir. Ailənin və ibtidai qayğının, müəllimlərin, məşqçiləri və din xadimlərinin rəhbərliyi və ya onların bir qrupu.

Birincil sosializasiya təcrübəmizin bir hissəsi olmayan qruplar və vəziyyətlərlə qarşılaşdığımız kimi, *ikincil sosiallaşma* həyatımız boyunca baş verir. Bəziləri üçün kollec və ya universitet təcrübəsi daxildir, burada bir çoxları yeni və ya müxtəlif populyasiyalar, normalar, dəyərlər və davranışlarla qarşılaşırlar. olmağından asılı olmayaraq, heç bir yerə gəlmədikdə səyahət prosesinin tərkib hissəsidir.

**Nəticələr**

İctimailəşmə prosesinin nəticəsidir və bir insanın düşündüyü və davranışından sonra davranışına istinad edir. Sosiallaşmanin nəzərdə tutulan nəticələri və ya məqsədləri əlbəttə kontekst, məzmun və proses ilə fərqlənir. Məsələn, kiçik uşaqlarla sosiallaşma bioloji və emosional impulsların idarə olunmasına yönəlib. Məqsədlər və nəticələr tualetdən istifadə etməyi bilən və istəklərini hiss edən bir uşağı və ya istədiyindən başqa bir şey almadan əvvəl icazə istəyən bir uşağı ehtiva edə bilər.

Uşaqlıq və yeniyetməlik dövründə baş verən sosiallaşma barədə düşünmək, hədəflər və nəticələr, necə durmaq və bir növbədə gözləmək, hakimiyyət rəqəmlərinə, qaydalara və qanunlara riayət etməklə bilmək və birinin gündəlik həyatını cədvəlləri müəssisələr bir məktəb, universitet və ya iş yerləri kimi bir hissəsidir.

Sosiallaşmanin nəticələrini biz etdiyimiz hər şeydə, kişilərin üzlərini təraşdan və ya üz saçlarını qıraraq, qadınların ayaqlarını və arxa hissələrini tıraşlayan, moda meyllərindən sonra və ehtiyaclarımızı yerinə yetirmək üçün ticarət nöqtələrində alış-verişə gedən qadınlarla müqayisə edə bilərik.

**ƏDƏBİYYAT:**


1. Fazil Vahidov, Tahir Ağayev “Sosiologiya” Bakı 2005
2. E.Ə. Qəhrəmanov, Y.P. Əhmədov “ Sosial işin əsəasları” Bakı 2015
3. F.Q.Vahidov, T.B.Ağayev. “Sosiologiya” BDU 2013

**Azərbaycanda təhsil siyasəti və onun sosial inkişaf istiqamətləri**

**Hüseynov Rəsul**
**Sumqayıt Dövlət Universiteti**

Müasir dünyada istənilən bir ölkənin gələcəyi təhsilin səviyyəsi və onun inkişafı ilə ölçülür. Lakin tarixi dövrə nəzər salsaq görəriki ki, ibtidai insanların yeganə qayğısı yaşamaq naminə qida əldə etmək olmuşdur. Sonrakı tarixi dövrlərdə üzləşdikləri təbii fəlakətlərdən, vəhşi canlılardan qorunmaq, məişət ehtiyaclarını ödəmək kimi daha vacib həyati məsələlər dayanırdı. İnsanların maraq dünyası genişlənərək, onlar cansız aləmin, təbiət hadisələrinin sirlərini öyrənməyə can atdılar. Bu səbəbdən öyrənmə prosesi onlarda ictimai şüurun, idrakın, ictimai fikrin, ünsiyyətin formalaşmasına böyük təkan verdi. Bu öyrənmə prosesi insanların formalaşmasına böyük təsir etdi. Getdikcə əldə etdikləri tətbiqi bacarıqlar insanların ilk təhsillənmə fəaliyyətlərinin rüşeyimlərini yaratdı. Böyük bir tarixi zaman kəsiyində təhsilin məzmunu, forması cəmiyyətlərin inkişafında dəyişikliklərin fövqündə dayandı. Tarixi dəyişkənliklər getdikcə təlim-tərbiyə, öyrənmə, yəni təhsil anlayışının yaranmasının əsasını qoydu. Bu baxımdan bəşər sivilizasiyasının təşəkkülü, formalaşması və inkişafı bilavasitə təhsillə bağlıdır. Bəli, müasir həyatımızda da təhsil çox önəmli və vacib sahələrdən biridir. [1, 14 ]

Müasir cəmiyyətin tərəqqisinin vacib amilləri elm və mədəniyyətin, insanların intellektual potensialının formalaşması isə onun təhsil sistemi ilə təmin edilir. Əlbətdə tarixi keçmişimizin təhsillə bağlı səhifələrini vərəqlədikcə xüsusilə XIX - XX əsrlərdə bu sahədə irəliləyişlərin xeyli gücləndiyinin şahidi oluruq. Milli maarifçilik hərəkatının öncülləri olan Abbasqulu Ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Seyid Əzim Şirvani, Mirzə Şəfi Vazeh, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Məmməd Tağı Sidqi, Firudin bəy Köçərli, Həbib bəy Mahmudbəyov, Sultan Məcid Qənizadə, Nəriman Nərimanov və digər görkəmli şəxsiyyətlərin xalqımızın təhsillənməsi sahəsində gördükləri işlər, etdikləri fədakarlıq və vətənpərvərlik nümunəsi təhsilimizin böyük salnaməsidir. XX əsrdə Azərbaycanın siyasi, mənəvi inkişafının ən mühüm istiqaməti ölkədə müasir təhsil sisteminin yaradılması oldu. Heç şübhəsiz ki, hələ sovet hakimiyyəti illərində bütövlükdə Azərbaycanın, eləcə də ölkə təhsilinin, xüsusilə orta təhsilin vüsətli tərəqqisi ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrə təsadüf edir. İqtisadiyyat və sosial-mədəni sahələrdə inkişafla yanaşı, insanların mənəvi yüksəlişi ilə şərtlənən bu dövr ölkəmizin tarixinə, sözün əsl mənasında, "qızıl dövr", "intibah dövrü" kimi daxil olmuşdur. Dövlətçilik təcrübəsi olan, vətənpərvər və millətini hər şeydən üstün bilən ulu öndər Heydər Əliyev cəmiyyətin inkişafında təhsilin rolunu həmişə yüksək qiymətləndirərək bu sahədə islahatların tezliklə başlanmasını zəruri hesab edirdi. Ulu öndərin 1998-ci ildə təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması barədə sərəncamı, bir il sonra isə təsdiq etdiyi "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" müstəqil ölkəmizin təhsil salnaməsinə müstəsna əhəmiyyətə malik tarixi sənədlər, həm də inkişafa təkan kimi daxil olmuşdur. Bu gün müstəqil Azərbaycanın inkişaf səviyyəsinə yüksəlməsinə və dünya birliyində böyük nüfuz sahibi olmasında ulu öndər Heydər Əliyevin xidmətləri böyükdür. “Təhsil həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O milli məqsədlər, mənafelər əsasında qurulmalıdır” cümləsi ilə Ulu öndər Heydər Əliyev Azərbaycan təhsilinin nə qədər yüksək və mənəvi keyfiyyətlərə sahib olmasını vurğulayır. [ 2, 48 ]

Əlbətdə təhsil hər bir dövlətin siyasi-iqtisadi və sosial-mədəni inkişafını formalaşdırır. Müasir inkişaf tendensiyası təhsil sahəsində də hiss edilməkdədir. Qeyd etmək lazımdır ki, təhsil siyasəti dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Təhsil sahəsində aparılan islahatlar, Dövlət proqramları bunu deməyə əsas veririr ki, təhsilimiz dövlət başçısının daima diqqət mərkəzindədir. Prezident cənab İlham Əliyev müstəqil dövlətimizə rəhbərlik fəaliyyətinə başladığı 2003-cü ildən etibarən respublikanın sosial-iqtisadi, siyasi, mədəni və humanitar sahələrində inkişaf üçün fəaliyyət istiqamətlərini müəyyənləşdirmiş, bu istiqamətlər üzrə qarşıda dayanan prioritet vəzifələrin icrası məqsədilə bir sıra yeniliklərə imza atmışdır. Əlbətdə, demokratik inkişaf yolunu seçən Azərbaycan dövlətinin beynəlxalq aləmə inteqrasiyası, ümumilikdə dünyanın dəyişən tələbləri milli təhsilimizdə yeni istiqamətlərin ortaya çıxmasma gətirmişdir. Bu gün ali təhsilin bir sıra sahələrində islahatların aparılması, təsdiq olunmuş baza təhsil proqramının strukturuna müvafiq olaraq bir çox ixtisaslar üzrə yeni nəsil dövlət təhsil proqramlarının hazırlanması, Boloniya prosesi çərçivəsində Avropa təhsil sisteminə inteqrasiya istiqamətində silsilə tədbirlərin həyata keçirilməsi təhsilmizin inkişafıdır. Müasir standartlara cavab verən dövlət təhsil sistemində həm ümumtəhsilin, həm də ali təhsilin inkişafı istiqamətində yeni texnologiyaların mövcudluğu vacib məsələlərdən biridir. [3, 112 ]

Müstəqil Azərbaycan dövləti bu gün ən böyük yüksəliş tarixini yaşamaqdadır. Xalqımızın mədəni-intellektual potensialının artırılması istiqamətində ölkəmizdə mövcud olan həm iqtisadi, siyasi, həm də mədəni sahədə məqsədyönlü layihələr həyata keçirilir. Çünki təhsil insan şəxsiyyətinin formalaşmasında ən vacib və mühüm amildir. Ölkələrin və cəmiyyətlərin inkişaf etməsi o ölkənin və ya cəmiyyətin üzvlərinin yüksək təhsil almış insanlar olması gərəkdir. Bu gün Azərbaycan Respublikası təhsilə ən çox önəm verən ölkələr sırasındadır. Qloballaşan dünyamızda sürətlə gedən elmi-texnoloji dəyişikliklər təhsilin üzərinə böyük məsuliyyət və tələblər qoyur. Bu tələblər müasir dövrümüzdə əsas rol oynayan amilləri özündə əks etdirir. Artıq qlobal müstəvidə təhsil sahəsi yeni qapılar açmaqdadır. Zamanın tələbi istiqamətində təhsil davamlı iqtisadi inkişafı və bir başa cəmiyyətin rifahını təmin edir. Müasir təhsil innovativ təhsil sistemidir. Texnologiyaların inkişafı bütövlükdə təhsilin innovasiyalaşdırılmasına xidmət edir. Bu gün ölkəmizin təhsil müəssisələrinin bir çox xarici ölkələrlə sıx əlaqələri mövcuddur. Demək olar ki, Türkiyə, Rusiya, Dağıstan, Qazaxstan, Ukrayna, Polşa və digər ölkələrlə sıx əməkdaşlıq etməkdədir. Tarixən Azərbaycan mədəniyyətində elm və təhsilin çox böyük rolu olmuşdur. [ 4, 17 ]

Çox qürurla deyə bilərik ki, 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımız azad olaraq, yenidən həyatını yaşamağa başladı. Qəhrəman övladların vətənpərvərlik hissi, qəhrəmanlığı xalqımıza öz əzəli torpaqlarına qayıtmağı nəsib etdi. Artıq bu gün Şuşada, Füzulidə, Zəngilanda və digər rayonlarımızda bütün sahələrlə yanaşı təhsil müəssisələrində də böyük quruculuq işləri davam etdirilir. Zəngilanın Ağalı kəndində təhsil uğurla inkişaf edir. Dövlət başçısının xüsusi bir qayğısı nəticəsində inanırıq ki, bütün Qarabağımız tezliklə dirçələcək və tarixən sahib olduğu mədəniyyətinə qovuşacaq. Ölkəmizin yüksək təhsilli gəncləri xalqımızın gələcəynə böyük töhfələr verəcəklər. Gənclərimizə böyük dəstək olan Prezident İlham Əliyev həmişə “Müasir, vətənpərvər və mənəvi cəhətdən sağlam yeni nəsil ölkəmizin gələcəyini müəyyən edəcək” demişdir. [ 5 ] Əlbətdə qeyd etdiklərimiz Azərbaycan təhsilinin qısa təhlili idi. Təhsilimizin keçdiyi tarixi yola nəzər salmaq bu günkü

təhsilimizin yüksək sürətlə inkişafı deməkdir. Çünki, bir millətin həqiqi tarixi onun mədəniyyətindən, təhsilindən başlayır.

**ƏDƏBİYYAT:**


1. Balayeva G.E. "İBTİDAİ TƏHSİLİN MƏZMUNUNUN NƏZƏRİ-PEDAQOJİ PROBLEMLƏRİ". Bakı- 2012-ci il, "ELM və TƏHSİL" nəşriyyatı, 152 səh
2. Əhmədov H. H. "AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAF STRATEGİYASI" Bakı-2010-cu il, "ELM" Nəşriyyatı, 800 səh
3. Əsgərov Ş. Q. "Təhsilimiz: Dünən, bu gün, sabah", Bakı- 2003, 309 səh
4. Məmmədzadə R.H. "TƏHSİLDƏ KEYFİYYƏT APARICI İSTİQAMƏTLƏRDƏN BİRİ KİMİ " Bakı-2010, "Müəllim nəşriyyatı", 170 səh.
5. https//xalqqazeti.com>>news

## Autizmli şəxslər sosial qrup kimi

**Musayeva Dinar**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Elmi Rəhbər: Abbasov Kənan**

Autizm — üç yaşından əvvəl başlayan və ömür boyu sürən, ictimai qarşılıqlı təsirə və ünsiyyətə zərər verən, məhdud və təkrarlanan davranışlara gətirib çıxaran beyinin inkişafına maneə törədən bir pozğunluqdur Autizm pozğunluqları olan bir çox, bəlkə də əksər uşaqların sosial və ünsiyyət problemlərinin əlamətləri erkən körpəlik dövründən özünü büruzə verir. Lakin, onlar hərəkət edə bilmədiklərindən, körpə üçün mümkün olan davranış çeşidləri məhduddur. Bu səbəbdən, bu mərhələdə pozğunluqların əlamətləri aydın deyil və valideynlərin diqqətindən asanlıqla yayına bilər. Autizm davranışları yalnız uşaq müstəqil olaraq yeriməyə başlayandan sonra tam şəkildə meydana çıxır.

Autizmli insanlar bir çox halda əsas həyat bacarıqlarından məhrumdurlar. Bundan əlavə, bu sahələrdə başqalarından asılı olaraq həyatlarını davam etdirirlər. Bu bacarıqların olmamasına baxmayaraq, autizmli fərdlərin yaşadığı problemlər ümumiyyətlə fiziki olaraq özünü biruzə verməkdədir. Bu mənada heç bir ciddi əlillik və ya əlillik əlaməti yoxdur. Bununla belə, sosial cəhətdən davranışlarında belə bir çox problem yaşamaq və bu problemlərin xaricə əks olunması onlara fiziki baxımdan maneə ola bilməkdədir (Çopuroğlu və Mengi, 2014: 5).

ASD-nin müəyyən edilməsində valideynlər və səhiyyə mütəxəssislərinin müşahidə edə biləcəyi erkən simptomlar aşağıdakı kimidir (Kadak, 2019: 15):

• 12 aya qədər ad yönümlü deyil (məsələn, eşitmirmiş kimi görünür)

• 14 aya qədər obyektlərə maraq göstərməmək

• 18 aya qədər simvolik oyunlar oynamamaq (məsələn, körpənizi qidalandırmamaq), oyuncaqlarla düzgün oynamır

• Göz təmasından qaçınmaq və tək olmaq arzusu

• Danışıq və dil bacarıqlarında gecikmə, digər uşaqlarla münasibətdə çətinlik

• Başqalarının hisslərinə reaksiya verməK deyil və ya yalnız öz hissləri haqqında danış

• Təkrarlanan hərəkətlər etmək, həddindən artıq mobil və ya hərəkətsiz olmaq.

• Suallara yersiz cavablar vermək

• Kiçik dəyişikliklərə həddindən artıq reaksiya vermək

• Obsesif maraqların olması

• Əl çalmaq, arxaya dönmək, bədəninizi silkələmək / silkələmək

• Səslərə, qoxulara, dadlara anormallıq cavab verir və ya cavab vermir

• Səbəbsiz gülmək və ya ağlamaq

Yetkinlik yaşına çatdıqda, autizm davranışının nümayiş tərzlərində dəyişikliklər daha da artır. Pozğunluqların ən şiddətli olduğu şəxslər başqalarından tam asılıdır və hələ də uşaqlıqda müşahidə edilmiş autizmə xas xüsusiyyətləri nümayiş etdirirlər. Tərəzinin o biri tərəfində ən qabiliyyətli şəxslər müstəqil yaşayır və çalışır, bəziləri isə hətta ailə qurub oğul-uşaq sahibi olurlar. Yerdə qalan problemlər sosial münasibətlərin və ünsiyyətin incə çatışmazlıqlarıdır, lakin bəziləri təhsil almaqla və başqalarının nümunələrini izləməklə bu çatışmazlıqları kompensasiya edirlər. Bəzi insanlarda mənzərə psixiatrik xəstəliklə mürəkkəbləşir.

Bu günə qədər aparılan araşdırmalar nəticəsində autizm xəstəliyinin yaranmasının dəqiq səbəbi hələ də tapılmayıb. Genetik və bəzi ətraf mühit amillərinin (doğuşun ağırlaşması və virus infeksiyaları) autizm səbəbi olaraq düşünülmüş olsa da, lakin hələ də qəti şəkildə sübuta yetirilməmişdir. Bundan əlavə, autizmin beyin quruluşuna və fəaliyyətinə təsir edən sinir sistemindəki problemlərdən də qaynaqlandığı düşünülür. Autizm pozğunluqları olan insanların sayına dair bütün tədqiqatlarda uşaqlar və yeniyetmələr hesablanmışdır, lakin bu günə qədər bu tədqiqatlara yetkinlər daxil edilməmişdir (Akkuş və digərləri, 2021: 273).

Autizmli insanlar digər insanlarla müqayisədə sosial münasibətlərdə çətinlik çəkirlər. Onlar xüsusi maraq doğuran əlaqələri inkişaf etdirməlidirlər. Onların rahat və təhlükəsiz ola biləcəkləri mühiti seçmək imkanı yoxdur. Təqlid və social oyun bacarıqları ya qeyri-kafidir, ya da yoxdur. Onlar jestlərdən və mimikalardan istifadə etməkdə müəyyən çətinliklər yaşıyırlar. Təhlükə və qorxu hissi ya yoxdur, ya da çox həddindən artıqdır. Başqaları ilə ünsiyyət qurarkən məsafəni təyin edə bilmirlər. Danışarkən qeyri-adi səs keyfiyyətinə və vurğuya malikdirlər. Onlar fiziki təmasdan çəkinirlər.

Amerika Birləşmiş Ştatlarında aparılmış tədqiqatın nəticəsi kimi 2000-ci ildə autizmli uşaqların nisbəti 1/160, 2014-cü ildə 1/68, 2018-ci ildə isə 1/59 olaraq müəyyən edilmişdir. İnkişaf Etməmiş Ölkələrdə və yoxsul ölkələrdə autizmin doğru müəyyən edilməməsi nəticəsində autizmli şəxslərin sayının gerçəyi əks etdirmədiyi qənaətinə gəlinməkdədir (Demirkaya, 2019: 123).

Autizm diaqnozu üçün 10 əsas əlamət aşağıdaki kimidir:

1. Ona baxanlara nadir hallarda gülümsəyir;
2. Başqalarının səsləri və ya təbəssümləri kimi nadir hallarda hərəkətləri təqlid edir;
3. Səslərin çıxarılmasında gecikmə və ya nadir hallarda səslənmə çıxarılması;
4. 6-12 aylıq yaşda ada reaksiya verməmək;
5. 10-cu aydan etibarən əl işarələri ilə ünsiyyət qurmamaq;
6. Göz təması qura bilməmək;
7. Nadir hallarda diqqətinizi cəlb edir;
8. Əllərin, ayaqların, ayaqların və ya əllərin sərtliyi qeyri-adi bədən hərəkətləri, məsələn, biləklərinizi çevirmək və qeyri-adi duruş və digər təkrarlanan davranışlar;
9. Qaldırmaq istəyəndə sənə tərəf uzanmaz;
10. Yuvarlanma, sürünmə kimi hərəkətlər baxımından inkişafınləngiməsi.

Oğlanlarda qızlara nisbətən 3-5 dəfə çox rast gəlinir, qızlarda isə daha şiddətlidir. Autizm bütün sosial-iqtisadi siniflərdə, bütün etnik qruplarda və irqlərdə mövcuddur.

Autizmin səbəbləri ilə bağlı ilk araşdırmalar psixologiyada yaranıb. Buna görə də onun inkişafında psixoloji faktorlar günahlandırılsa da, son 50 ildə bu fikir öz təsdiqini tapmayıb. Psixologiyadan qaynaqlanan dar perspektiv öz yerini bəziləri irsi olan bioloji faktorların əhəmiyyətini dəstəkləyən dəlillərə və onlarla bağlı mübahisələrə getmişdir. Ailə və əkiz tədqiqatları autizmin ötürülməsində ailə faktorlarının əhəmiyyətini vurğulayır. Bir qardaşın autizmi varsa, autizm riski heç bir bacıda autizm olmadığından 75 dəfə yüksəkdir. Eyni əkizlərdə autizm nisbəti 60-91% arasında dəyişdiyi halda, qardaş əkizlərdə bu nisbət 20%-dən aşağıdır (hume və digərləri, 2021: 125).

**ƏDƏBİYYAT:**

1. AKKUŞ, P. Z., SAYGAN, B. B., BAHADUR, E. İ., Tuna, C. A. K., & ÖZMERT, E. (2021). Otizm spektrum bozukluğu tanısı ile yaşamak: Ailelerin deneyimleri. *Türkiye Çocuk Hastalıkları Dergisi*, *15*(4), 272-279.
2. Çopuroğlu, Y. C., & Mengi, A. (2014). TOPLUMSAL DIŞLANMA VE OTİZM. *Electronic Turkish Studies*, *9*(5).
3. Demirkaya, S. K. (2019). Otizm neden artışta?. *Klinik Psikiyatri Dergisi*, *22*(2), 123-124.
4. Hume, K., Steinbrenner, J. R., Odom, S. L., Morin, K. L., Nowell, S. W., Tomaszewski, B., ... & Savage, M. N. (2021). Evidence-based practices for children, youth, and young adults with autism: Third generation review. *Journal of autism and developmental disorders*.
5. Kadak, M. T. (2019). Otizm Spektrum Bozuklukları-Güncel Bilgilerimiz Neler?. *OSB*, *12*, 15.

# İslam öncəsi Ərəbistan

**Cavadova Minurə**
**Xəzər Universiteti**
**Elmi rəhbər. tar.f.d. Məmmədov Yaqub**

## 1. Giriş

Bildiyimiz kimi Ərəbistan çoxəsrlik tarixi kontekstdə qədim dövrdən orta əsrlərə keçid mərhələsini səciyyələndirən, ümumi bəşəri əhəmiyyət daşıyan tarixi bir epizod və tarixi dönüş nöqtəsidir. Ərəbistan nisbətən son dövrlərin tədqiqatları və onların nəticələri baxımından zəngin, qədim irsə malik vahid tarixi diyar kimi xarakterizə edilir.

İslamın 3 səmavi dinlərdən biri kimi burada təşəkkül tapması bizə əsas verir ki, Ərəbistan bölgəsinin tarixini və burada mövcud olmuş qədim dövlətləri tanıyaq.

## 2.Qədim Ərəbistan

Qədim Ərəbistan ərazisi müasir Səudiyyə Ərəbistanı ilə müqayisədə daha geniş olub, köçəri ərəb tayfalarının ən qədim dövlərdən məskunlaşdığı ərazilərdəndir. Erkən paleolit dövründə Ərəbistan yarımadası insanların bu ərazidən miqrasiyasının başlandığı ilk ərazidir **(3)**. Ərəb tayfaları ilkin dövrlərdə ərazinin şimal şərqində, e.ə II minillikdə isə Ərəbistan yarımadasının hər yerinə yayılmışdır.

## 3.Ərəblərin soyu

İbrahim peyğəmbərin İsmayıl və İshaq adında 2 oğlu olub. İslam ənənəsinə görə İslam dininin peyğəmbəri Məhəmməd ,ərəblərin atası isə İsmayıldır **(4)**. Yəhudi və Müsəlman qaynaqlarına görə, İshaqın oğlu Yaqubun soyundan gələnlər "İsrailoğulları"nı meydana gətirdilər. Mənbələrdə Yaqubun adı həm də İsrail verilir. Ərəblərin atası İsmayıl və Yəhudilərin atası İshaq fərqli analardan olan qardaşdırlar **(6)** Qədim Ərəblərin bir xalq deyil çox sayda krallıq və qəbilələr olduğunu unutmamalıyıq. Ərəbistan həm böyük şəhərlər inşa edənlərə, həm də köçərilərə ev sahibliyi edirdi. Bunlar da antik dönəmdə bir neçə dəfə böyük təsir qaynağı olmuşdur.

Ərəblərin adının ilk dəfə çəkilməsi tarixinə gəldikdə isə, onların adı ilk dəfə İncil və Tövratda bəhs edilib. Millətlər tablosunda Səba, Dedvan və Qedar haqqında bəhs edilir. Bunlardan ən məşhuru Qurani-Kərimdə bəhs edilən Süleymanı ziyarət edən əfsanəvi, zəngin Səbadır. Səba günümüzdə əski Səba ilə eyniləşib, o zaman və bu gün Yəməndəki lider gücdür. Onun qüdrəti şəhər mərkəzləri və görkəmli binaları ilə bilinirdi.

Qedar Assur mənbələrində minilliklər öncə 8-ci yüzildən etibarən xərac ödəməklə, həmçinin Aşşurbanipalın hakimiyyət dövründə Assurun düşməni olaraq bilinir. Assur mənbələrində adı keçən Mainlilər Qırmızı Dəniz bölgəsinin çoxunu idarə edən Misirlilərlə yaxın ticarət bağları olan tacirlər idilər.

## 4.Coğrafiyası

Qədim Ərəbistan, Ərəbistan yarımadasında yerləşirdi. Üç qitəyə yəni, Avropa, Asiya və Afrikaya gedən ticarət yollarının burda qovuşması, okeana birbaşa çıxışı olması buranın iqtisadi- coğrafi mövqeyini əlverişli edirdi. Qırmızı dənizin ən böyük hissəsi və Hind okeanının şimal sahilləri Ərəbistana düşürdü. Ərazi əsasən səhralıq olmuşdur.

5.**İqlimi**

Ərəbistan yarımadasının iqlimi üçün şimalda subtropik, cənubda tropik, kəskin kontinental və quru, çox isti yay, mülayim qış səciyyəvidir. Bəzi səhralıq ərazilərinə, ümumiyyətlə yağmur düşmür. Səhraları üçün mövsümi küləklər tipikdir. İsti və quru cənub küləkləri ilin başlanğıcında qumlu tufanlara tez-tez səbəb olurdu. Bu isə köçəri həyat yaşayan ərəblərə ciddi problemlər yaradırdı.

Ərəbistanda daimi çaylar və su hövzələri yoxdur, müvəqqəti su axınları isə intensiv yağıntılardan sonra yaranırdı. Əl-hasada oazisləri suvaran çoxlu bulaqlar, qrunt suları səthə yaxın və vadilərin altında yerləşirdi. Ərəbistanda primitiv səhra torpaqları üstünlük təşkil edir.

**6.İslamaqədərki ərəblərin sosial-siyasi-iqtisadi vəziyyəti**

Miladi tarixinin təxminən 4-cü əsrindən etibarən Ərəbistan yarımadasının müxtəlif hissələrində dövlətlər yaranmış və bir-birlərinin yerini əvəz etmişlər. Ərəbistanın şimalında və şərqində Nəbatiyyə ,Həzrə, Talmira, Hirə, cənubunda Səba (Saba) Main (Məin), Hadranurt, Qətban adlı dövlətlərlə təmsil olunmuş və yeni cəmiyyətlərin yarandığını göstərən proseslər müşahidə olunmuşdur. Bu proseslər onu göstərir ki, Ərəbistan iki mədəniyyət dairəsinə bölünüb:

1) Dili aramicə olan şimal mədəniyyəti
2) Dili qədim Ərəbistan dili olan cənub mədəniyyəti

Ərəbistan yarımadasında gedən proseslər əsasən bütün hadisələrdə Ellin mədəniyyətinin təsiri, ətriyyat və ədviyyat istehsalı, ticarətin xüsusi rolu ilə müşahidə olunurdu.

Miladi təqvimi ilk əsrlərindən başlayaraq köçəri bədəvilərin təsərrüfat fəaliyyəti, siyasi və mədəni rolu xeyli gücləndi. Həmin birliklər oturaq həyata keçmiş, köçərilərin başçılıq etdikləri şimalda və şimal-şərqdə Qəssarilər, Ləhmilər, daxili Ərəbistanda isə kindilər dövləti çərçivəsində köçəri və oturaq əhalinin qarşılıqlı əlaqəsinə əsaslanırdı.

Ərəbistanda tranzit ticarətinin zəifləməsi və daxili mal mübadiləsinin güclənməsi onunla səciyyələnirdi ki, yarımadanın ayrı-ayrı hissələrinin birləşməsi prosesi güclənirdi. Nəticədə Cənubi Ərəbistan ilk dəfə Himyərilər sülaləsinin hakimiyyəti altında birləşdi. Ərazilər əvvəlkinə nisbətən yekcins oldu ki, bu da ərəb tayfalarının bu dövr üçün siyasi aktivliyinin məntiqi nəticəsi idi. Bunu

Ərəbistanın islamaqədərki tarixində yer almış səhifələr də sübut edir. Həmin tarixi proseslərə retrospektiv nəzər yetirmək daha məqsədəuyğundur.

İslamaqədərki ərəblərin ictimai quruluşu ibtidai icma quruluşuna keçid mərhələsində idi. Bütün Ərəbistanda yəni, Yəməndə hələ qədim zamanlarda, eramızdan bir neçə əsr əvvəl əkinçilik inkişaf etmişdir. Sənətkarlıq və karvan ticarətinin mühüm məntəqələri yaranmışdı, yəni şəhərlər meydana gəlmişdi. Eramızın ilk əsrlərində bütün Ərəbistan dövlətlərində quldarlıq quruluşu üçün xarakterik olan ictimai-iqtisadi münasibətlər mövcud idi. Lakin, bununla belə, ibtidai icma və tayfa- qəbilə quruluşunun qalıqları hələ də davam etməkdə idi. Əkinçilikdə və maldarlıqda qul əməyi istifadə

edilirdi, bununla yanaşı icmalarda birləşmiş olan azad kəndlilərin də əməyinin mühüm əhəmiyyəti var idi.

**7.İslam öncəsi Ərəbistanda qurulan dövlətlər. Səba dövləti**

Ərəbistan ərazisində yaranan qədim dövlətlər Main, Səba, Himyərilər, və Nəbatilər olmuşdur. Ərəbistan yarımadasında qurulmuş ilk dövlət Main/Mina dövləti göstərilir. Bu dövlət Yəməndə e.ə X əsrdə qurulmuş və qısa müddət ərzində bütün Qırmızı dənizdə hegemon olmuşdur. Dövlətin ilk paytaxtı

Main, sonra isə Karna olmuşdur **(2;s177)**. Main dövləti minilliklər öncə VII əsrdə devrilmiş, hökmran olduğu torpaqlarda Səba (Saba) dövləti qurulmuşdur. Səba dövləti ticarətdə çox irəliləmiş və bu səbəblə Ərəbistanda önəmli yer tutmuşdur. Səba krallığının mərkəzi Məərib şəhəri olmuşdur.

Ərəb rəvayətlərinə əsasən, şəhərin əsası Nuh peyğəmbərin böyük oğlu Sam tərəfindən qoyulub. Əsrlər boyu krallıq Bab-əl-Məndəb boğazına nəzarət etmiş, Afrika sahillərində çoxlu sayda koloniyalar salmışdır. Abbisiniya (indiki Eritreya) krallığının da əsası Səba krallığı tərəfindən qoyulub. Eramızın 3-cü əsrinin sonuna yaxın Hadramaut da öz siyasi müstəqilliyini itirib və Səba krallığının tabeliyinə keçib. Bu dövrdə bütün cənub-qərbi Ərəbistanın idarəçiliyi Səba krallığının əlində olub. Eramızın 4- cü əsrinin ortalarında Səba krallığının müvəqqəti olaraq şərqi afrika sahillərindəki Aksum krallığı tərəfindən tənəzzülə uğradılıb. Lakin, əsrin sonunda öz gücünü yenidən bərpa edib. Bu müstəqillik də uzun sürməyib. M.ö 115 ilə qədər davam edən dövlət hökmdarları Maarib və Səba kralı adını alıblar. Daha sonra Himyərilər Səba dövlətini yıxmış, yerində m.ö 115-ci ildə qurulmuşdur. Main və Səba dövlətləri mövcud olduqları dövrlərdə bir-birinə bənzər özəlliklər daşıyıblar. Bu dövlətlər Yəməndəki əraziləri suvarmaq üçün böyük su kanalları düzəldib bu sayədə ölkələrində ziraat və ticarəti irəlilədiblər. Nəticədə ölkənin yaşayış rifahı yaxşılaşıb, xalq zənginləşib **(7)**. Yəməndə əraziləri suvaran Marəb səddi sel nəticəsində dağılmış, ticarət yolu dəyişmiş və yəmənlilər kasıb vəziyyətə düşmüşlər. Yəmən xalqı səfalətdən qurtarmaq üçün Məkkə, Mədinə, Suriyaya köç ediblər. Yəmənlilər bir neçə dəfə Həbəşlilərin hücumlarına məruz qalıb, Himyərilər bu hücumlar qarşısında iranlılardan yardım istəyiblər. İranlılar da gəmilərlə döyüşçülər göndərərək Həbəşliləri qovmuş, Yəməni İran torpaqlarına qatmışlar. Beləcə Yəmən bir müddət İrana bağlı vilayət halında idarə edilib. O sırada Yəmən valisi Bazan olub. İslam yeni yayıldığı dönəmdə Bazan öz xalqı ilə bərabər İslam dinini qəbul edib.

**8.Himyərilər**

Bəzi mənbələrdə Ərəbistanda İslam öncəsi qurulan Ərəb dövlətlərindən yalnız Himyərilər göstərilib. Onların yazı-yazmağı bacardıqları, inşaat işləri və heykəltəraşlıqla bağlı bacarıqları olması qeyd edilir. Ərəbistanda qurulan dövlətlər içərisində ən önəmli olanlar Main, Səba, Himyərilər,Nəbatilər göstərilir. Bunların arasında da tarixi daha çox məlum olan Himyərilərdir.




**Şəkil1.**

Himyərilər krallığı Yunanlar və Romalılarda Homerit krallığı adlandırılırdı. Yəmənin cənub yüksəkliklərində yerləşən bölgə miladdan öncə 110-cu ildə Qataban krallığına birləşdirilmiş, sonradan müstəqil krallıq kimi tanınmışdır. Miladdan öncə 115 və miladdan sonra 525-ci illər arası müddətdə Yəməndə hökm sürmüş qədim Ərəb xanədanlığı olmuşdur. Himyərilər güney Ərəbistanın bir çox hissəsini öz siyasi nüfuzları altına almışdılar. Bölgə Hind-Çin və Roma-Bizans arasındaki ticarət yollarının üzərində yerləşirdi, bu səbəbdən müxtəlif mədəniyyətlərin təsirinə açıq idi. Bu vəziyyət həm

də zaman-zaman qüdrətli hökmdarların meydana çıxmasına zəmin hazırlamışdır. Himyərilərdə sosial sinifləşmə mövcud idi. Sosisal siniflərə əsgərlər, maldarlar-bədəvilər, sənətkarlar və tüccarlar daxil idilər. Kral vəliəhd seçirdi. Əgər seçməmişdirsə, ölümündən sonra yerinə keçəcək vəliəhdi kral xanədanlığından seçirdilər. Köləlik var idi və burada həyatın dayanaqlarından birini kölələr təşkil edirdi. Himyərilərdə din digər Güney Ərəbistan xalqlarından fərqli deyildi. Onlar da Səba, Main əhalisi kimi Ay, Günəş, ulduzlara inanırdılar. Güney Ərəbistanda qədim dövrü günümüzə çatdıran yazılı qaynaqlar mövcud olub, o qaynaqlar tunc lövhələr və daş üzərində həkk edilmiş kitabələrdən ibarətdir. Bu qaynaqların ən əskiləri miladdan öncə 8-ci yüzilə qədər uzanan iki qrupa ayrılır:

1. Saba(Səba)
2. Main(Minaə)

Himyəri kitabələri Səba qrupuna daxildir. Himyərilər xristianlıq bölgəyə yayılmazdan öncə Səba krallığının ən təsirli qəbiləsi olub. E.ə VIII yüzilliyə qədərki kitabələrə Himyəri kitabələri, mədəniyyətə isə Himyəri mədəniyyəti deyilirmiş. İslam öncəsi Güney Ərəbistanda Himyəri dövləti ən uzun və ən möhtəşəm mədəniyyəti təmsil edib.

9.**Nəbati Krallığı**

O zamanki digər məşhur ərəb xalqları günümüzdəki Bəhreyndən gəlmiş və Hindistan ilə dəniz ticarət əlaqələri qurmuşdular. Quzeydən gələn digər tacirlər isə Nəbatilər idi. Nəbatilər minilliklər öncə birinci yüzillikdə Şama qədər yayılmışlar. Ərəblər Nəbatilərin dilindən, dinindən təsir almış, onların yazısından da istifadə etmişdirlər. Yazılı mənbələrdə Nabat,Nebit,Nubati,Nabati adlanan bu adın mənası "parlamaq" deməkdir. Akkadca Nabatu Tövratda Nabayot (Həzrət İsmayılın böyük oğlu) adından gəldiyi deyilir. İslam qaynaqlarında Ənbatüs-Səvad (İraq), Ənbatüs-Şam (Suriya) olaraq 2 cür halda bəhsi keçən Nəbatilər haqqında fərqli fikirlər ortaya atılıb. Bu fikirlər belədir:

1. Nəbatilər əslində Ərəbdir, lakin, yabancı xalqlarla birlikdə yaşamaq səbəbindən onlarla qaynayıb qarışmış və dilləri pozulmuşdur;
2. Səvad Nəbatiləri kökləri aramilərdir;
3. Danhaq İraqda bir şəhər qurmuş və Nəbatiləri bura yerləşdirmişdir;
4. Buhtunnəsr Ərəb əsirlərini Ənbarda toplamış, bu səbəbdən bura Ənbarül-Ərəb deyilmiş, sonra bu əsirlər də Nəbatilərlə qaynayıb qarışmışdır.

Nəbatilər haqqında ilk dəfə Assur hakimiyyəti altında olan şəhərləri, bölgələri işğal edən ərəblər üzərinə yürüşlər, səfərlər edən Aşşurbanipal (e.ə 668-627) öz kitabəsində Nəbatiləri "Nabaiate" kimi yazmışdır. Qeydinə görə Ərəblərin kralı Nəbatilərə sığınıb və onları da Assurlarla olan savaşın içinə çəkib. Aşşurbanipal daha öncə Assimbara boyun əyməyən Nəbatilərin onun hakimiyyətini qəbul etdiklərini yazmışdır **(8)**.

Yunan tarixçisi Siciliyali Diotros (m.ö birinci yüzillik) nəbatiləri çadırda yaşayan, maldarlıqla dolanan, içki içməyən, çöllərin sərt şərtlərinə alışıq, köçəri bir toplum olaraq tanıdır və onun bu məlumatları əski Ahiddəki Rəqabiləri xatırladır. Nəbatilər hücuma məruz qaldıqda yeri yalnız özlərinə məlum quyular olan çöl və səhraların içlərinə çəkilərək, düşmənlərə tələ, tuzaqlar qurur, kimsəyə asan boyun əyməzdilər. Bu səbəblə Böhtun Nəsrin (m.ö 605-652) Qüds və civarını ələ keçirib Yəhudiləri Babilə sürgün etməsindən sonra Edomluların Quzeyə köç etmələri baş verdi. Eyni vaxtda

onlar köçəriliyi atıb Arabia-Petraea (Arebiyyetus-Sahriyyə/əl-arabiyyətül-hacəriyyə) deyilən bugünki Ürdündə yerləşmişlər. Vadü-Musa adlanan bu yerdə yavaş-yavaş qayalar oyaraq ələ keçirilməsi imkansız Petra şəhərini qurmuşlar. Yunanca Petra qaya anlamına gəlir. Nəbati krallığının varlığı E.ə 4 cü yüzilliyin sonundan etibarən bilinir. Nəbati krallığının dəqiq quruluş tarixi bəlli deyil. Bu krallıq İsgəndərin ölümündən sonra Diadoklar dönəmində önəmli rol oynamış, bu dönəmdə Antigenosun iki dəfə Petra üzərinə yolladığı Suriya ordusunu məğlub etmişdir. E.ə 170 ci ildən sonrakı Nəbati krallarının adları və hökmranlıq illəri təsbit edilməmişdir. Bu krallardan tarixə məlum olanlar bunlardır:

1) İlk kralı I Arethas (Haris)
2) Ən böyükləri 4 cü Arethas
3) Sonuncu məlum olan isə 3 cü Malichas (Malik)
4) IV Aredhas e.ə 8-40 cı illər arasında Nil qıyılarından Quzey Hicazın böyük qismi daxil olmaqla Fərat çayına qədər torpaqlara hökm edib

Nəbati dövlətinin paytaxtı, baş şəhəri Petra, Roma tərəf tutulduqdan sonra krallıq çökmüş, bu tarixdən etibarən Nəbatilər Sinay yarımadası və doğu Ağ Dəniz qıyıları ilə Fərat çayı arasında yayılmış dağınıq şəkildə varlıqlarını sürdürmüşlər. Petranın tutulması zamanı Roma imperatoru İraianus olub. Müsəlmanların Antakiyanı fəthləri zamanı bölgədəki nəbati kəndlərindən və İraqdakı nəbatilərdən söz edilir. **(8)**

Nəbatilər Qırmızı Dənizdən keçən ipək yolunu və Ərəbistan üzərindən gələn yolun qərbə açıldığı son nöqtələri, dayanacaqlar saxlamışdılar. Uluslararası ticarət səbəbilə çox zəngin olmuşdular. Karvanlar, Hindistan və Uzaq qərbə gedən gəmilərin çoxu onlara aid idi.

Lüt gölü sahillərindən topladıqları mumyalama və gəmi işlərində istifadə olunan ziftin başda Misir olaraq satışından böyük qazanc əldə ediblər. Nəbatilərin zənginliyi Petraya yansımışdır.

**10.Petra haqqında**

Nəbatilərdən günümüzə çatan ən önəmli qalıntı Vadü-Musada qurulmuş olan Petra şəhəridir. Petra sərt qayalar arasında 1200 metr uzunluğu 3-6 metr enində dar keçidlə girilən, təbii ki, qala vəzifəsi yerinə yetirən dağların ortasında yer alan qala şəhəridir. Petrada tamamilə qayalarda oyularaq inşa edilmiş zərif saraylar, evlər, məzarlar Yunan-Roma və Mesopotamiya təsirilə yerli sənətin qarışmasından yansıtmalarıdır **(9)**. Təbii su qaynağı olmayıb, yağış sularının gizli qanad və borularla toplandığı çox sayda sarnıclar (hovuz tipli) düzəldilib. Şəhərin çevrəsindəki dağlarda böyük bölümü o dönəmin yayılmış dili Arami dilində yazılmış bir çox nəbati kitabəsi tapılıb. Bu tapıntı səbəbilə Nəbatilərin Arami əsilli olmaları fikri irəli sürülsə də, işlətdikləri dil və mədəniyyətlə ərəblərə daha yaxındırlar. Kral və kraliçalarının Haris, Malik, Zeyd, Übadə, Cəmilə kimi Ərəb adları ilə eyni olduğu görülməkdədir. Bugünki Ərəb yazısı da Nəbati yazısının inkişaf etdirilmiş, təkmilləşdirilmiş formasıdır.









**Şəkil 4.** https://islamansiklo
ped
isi.org.tr/nabatiler
Antik Petra, Nəbati
qaya məzarı-Ürdün

**Şəkil 5.** https://www.hurriyet.com.tr
/am
p/seyahat/yazarlar/arzu-
baloglu/petra-daginda-at-
binmek-40756131
Petraya dağ
yolu girişi. As-siq

**Şəkil 2.** **Şəkil 3.**
https://www.worldhistory.or
http://www.antiktarih.co g/image/10112/arabic-
m/2021/02/02/petra- inscription-from-petra/
antik-kenti/
Əhəngdaşı bloku-qəbir daşı Antik Petra
şəhərində
(Petra,Vadii-Musa)
qayalara
oyulmuş qızılı
teatr

11.**Nəbatilərin inancları**

İslamdan əvvəlki Ərəbistanda hakim din forması olan Ərəb Politeizmi müxtəlif tanrılara və ruhlara inam üzərində qurulmuşdu. Nəbatilər Duşara (Züş-Şara "Petranın şərqindəki dağlıq bölgə sahibi") adlı Allah'a və ikinci dərəcəli bir çox tanrıya inanmışdılar. Bunlardan ən önəmliləri “Cahiliyyə” ərəblərinin də inandıqları Lat, Menat, Hübəl, Uzza idi. Nəbatilərin Yunan allahlarını tanımaları, Yunan panteonundan təsirlənmələri nəticəsində bəzi hökmdarları ilahiləşdirmələri məlumdur. Həzrəti Məhəmməd peyğəmbər dönəmində bir qisim Nəbatilər karvanla Mədinəyə mal gətirirdilər. İbn Abbas Qüreyşin əslində Nəbati qəbiləsi olduğunu söyləyirdi.

Nəbatilər Ərəblərdə xor görülür, Nəbati (Nabti) sözü həqarət anlamını daşıyırdı. Həzrəti Ömər fəth üçün yola çıxan əsgərlərinə belə deyirdi "şəhərlərdə nəbatiləşməyin". Yəni, “Nəbatilərin elədikləri kimi şəhərlərə yerləşərək, mal-mülkə dəyər verib fəthə həvəsinizi qeyb etməyin” deyərdi **(8)**.



**Şəkil 6.** Əl-Lat (İslamdan öncə
https://ru.m.wikipedia.org/wi müharibəvə sülh allahı)
ki/%D0%9
0%D0%BB%D0%BB%D0%
B0%D1%8
2



**Şəkil 7.** https://ca.m.wikipedia.org/wiki/Al-Uzza Əl-Uzza(himayədarlıq vəsevgi allahı)



**Şəkil 8.** https://en.m.wikipedia.org/wiki/Relig ion_in_pre-Islamic_Arabia Yəməndən Alabaster nəzir heykəlcikləri

**12.Müasir Ərəbistan yarımadası minilliklər öncə**

Müasir Ərəbistan yarımadası ərazisində ibtidai icma quruluşu insanlığın izlərinin tədqiqi bu ərazidə yaşamın hələ e.ə VII minillikdə başladığını söyləməyə əsas verir. Bunun üçün elm Mərkəzi Ərəbistanda tapılmış qayaüstü rəsmlərin tədqiqi əldə olunmuş elmi qənaətə əsaslanır. Onu da qeyd etmək lazımdır ki, həmin dövrdə Ərəbistanın iqlimi hal-hazırki iqlimin əksinə olaraq daha mülayim və daha rütubətli olub ki, bu da qayaüstü rəsmlərdə öz əksini tapmış antilop, qaban, fil, öküz şəkilləri ilə izah edilir.

E.ə VI minillikdə isə Ərəbistanda ilk iqlim dəyişikliyi baş verib. Bu dəyişikliklər də, qayaüstü rəsmlərdə əksini tapıb. Belə ki, e.ə VI minilliyə aid edilən rəsmlərdə artıq meşə heyvanları-fil, qaban, zubr və s. heyvanların rəsmləri yoxdur. Daha çox iribuynuzlu mal-qaranın sürü şəklində təsvir edilməsi onu göstərir ki, e.ə VI minillikdə Ərəbistanda bu heyvanların əhilləşdirilməsinə başlanmış, insanlar maldarlıqla məşğul olmağa başlamış, köçəri həyat tərzi keçirməyə başlamışdır. Maraq doğuran məsələ budur ki, qayaüstü rəsmlərin tapılmış olduğu ərazilərdə bugünki günümüzdə insan yaşayışı qəti mümkün deyil. E.ə IV-III minilliklərə aid rəsmlərdə səhra və yarım-səhra heyvanlarının rəsmləri xarakterikdir. III minilliyin sonunda isə xırdabuynuzlu mal-qara iribuynuzlu mal-qaranı sıxışdırıb çıxarıb, insan həyatında daha əhəmiyyətli yer tutub ki, bu da həmin dövr insanların həyatında əks olunmuşdur. Məhz e.ə III minilliyin sonundan etibarən köçərilərin ilk qrupları formalaşmağa başlamış, bu dövrdən etibarən insanlar otlaqlar, su mənbələri axtarışlarına başlamışlar.

E.ə II minillik Ərəbistan yarımadasında və tarixində ən önəmli hadisə ilə yadda qalıb. Belə ki, bu dövrdə Ərəbistanda iqlim dəyişikliyi başa çatmış, dəvə əhilləşdirilmiş, onlardan ev heyvanı kimi istifadə olunmağa başlanmışdır.

Yuxarıda qeyd olunan sivilizasiya mərkəzləri daim köçərilərin diqqət mərkəzində olmuşdur. Köçərilər əsasən Suriya və Şimali Ərəbistandan işğalçı kimi gəlmiş, zəbt olunan ərazilərdə oturaq heyvandarlığa başlamışdır. Bu mənada ilk Ərəbistan köçəriləri Mesopotomiya və Misirdə e.ə 3500 il əvvəl özünə yer almışdır. Min il sonra isə Suriyada məskunlaşan Ərəbistan köçəriləri 2-ci köçü səciyyələndirmiş, e.ə 1500-1200 cü illərdə 3-cü Ərəbistan köçü baş vermiş, nəticədə Arameylər Dəməşq ətrafı rayonlarda məskunlaşmışlar. Qədim Ərəbistanda iqlimin mülayim olduğu dövrdə yaşayan akkadlar, arameylər, assuriyalılar, xaldeylər və yəhudilər iqlim dəyişikliyi ilə əlaqədar qədim sivilizasiya

mərkəzləri olan Mesopotomiya və Aralıq dənizi ətrafına səpələniblər. Bu xalqların əks köçü ilə əlaqədar elmi sübutlar fakt olaraq yoxdur.

VII-VIII əsr məlumatlarına əsasən cənub ərəblərinin əcdadı ərəblərin qəbul etdikləri Qəhtan hesab olunur. Şimal ərəbləri öz köklərini isə İsmayıl hesab edirlər. Hər iki qrup ərəblər çoxlu sayda qəbilələrdən ibarətdir ki, hər qəbilə öz adına malikdir. Daha böyük qəbilələr isə Ərəbistan yarımadası və ətrafa yayılaraq öz ayrı-ayrı tayfalarını formalaşdırmışdır və onların hər birinin də müstəqil adı olmuşdur. E.ə I minillikdə ərəb tayfaları Ərəbistan yarımadasının cənubundan Şimala doğru yayılmağa başlamış və Mesopotomiya, Suriya, Misirə qədər davam etmişdir. Ona görə də, cənub ərəbləri "əsl ərəb", şimal ərəbləri isə "ərəbləşdirilmiş ərəblər" adlandırılır.

Qədim ərəb tayfalarının qan qohumluğuna əsaslanan birlik olması fikirləri əsrlər boyu deyilsə də ingilis şərqşünası Robertson Smit uzun illərin axtarışlarının nəticəsində bunun əksini sübut etmişdir. Ərəblərdə başa düşülən nəsil qan qohumluğu deyil. Nəsil təmsil edən ərəblər bir-birini "qardaş" adlandırır, lakin, bu onların qan qohumluğuna işarə etmir. Məsələn, Məhəmməd Peyğəmbərin hədislərində belə buyurur ki, "bütün müsəlman qardaşlar". Bu mənada demək olmaz ki, bütün müəlmanlar qardaşdır. Ərəblərin ilkin vətəni elə Ərəbistan yarımadası olub. Qədim dövrə aid mənbələrdə ərəblər haqda məhz "Ərəbistan yarımadası sakinləri" kimi məlumat verilir.

**13.İslam öncəsi Hicaz və Kəbə, onların önəmi.**

Ərəbistan yarımadasında orta Ərəbistan adlanan yerdə Hicaz yerləşirdi. Hicaz bölgəsi Ərəbistan yarımadasının qərb hissəsində yerləşirdi. Qırmızı dənizə çıxışı vardı.Bu bölgədə Məkkə, Mədinə, Taif şəhərləri və Kəbə yer alırdı. Mədinənin o dövr adı Yəsrib idi. Şəhər əhalisinin bir qismi yəhudi qəbilələri idi. Məkkə şəhəri Mədinəyə 500-600 km məsafədə yerləşirdi və ətrafı dağlarla əhatəli idi.



**Şəkil 9.** https://www.google.com/imgres?imgurl=https://upload.wikimedia.org/wikipedia/commons/d/d3/Saudi_Arabia_-_Hejaz_region_locator.png&imgrefurl=https://az.wikipedia.org/wiki/Hicaz&tbnid=izH7CG7-zPnTPM&vet=1&docid=uaGu2DsJFEA5MM&w=2552&h=2116&hl=az-AZ&source=sh/x/im

Hicaz

Məkkə torpaqları əlverişli olmamasına baxmayaraq, Kəbə sayəsində Ərəbistanın ən önəmli mərkəzlərindən biri olmuşdur. Ayrıca, Məkkə önəmli ticarət yollarının üzərində yerləşirdi. Məkkəlilər Hindistandan gələn malları karvanlarla Suriyaya qədər aparır, beləcə dolanışıqlarını təmin edirdilər. Hicazda yerləşən Məkkə xristianlıq və iudaizmin müxtəlif axınlarının fəaliyyətdə olduğu şəhər idi. Burada Zəm-zəm quyusu, Kəbə məbədi və Qara daş yerləşirdi. Bu səbəbdən bura qədim dövrlərdən bədəvi tayfa və qəbilələrinin önəmli ziyarət yeri olmuşdur. Məkkəlilərin əsas məşğuliyyəti ticarət olub, ticarətlə yanaşı,sələmçilik də, geniş yayılmışdır. Bu iki əsas amil bu regionda ibtidai icma quruluşunun dağılma prosesini daha da sürətləndirmişdir. Şəhərdə müxtəlif qəbilələr məskunlaşmış, bunlardan xüsusilə "qüreyş" qəbiləsi seçilmişdir. Qüreyşlilərin əyan dairələri, xüsusilə də Haşimilər nəsli öz

sosial-iqtisadi inkişafı baxımından digər nəsilləri ötmüşdü. İslam dininin meydana gəldiyi Ərəb şəhərləri, Ərəbistanın həyatında mühüm rol oynamışdır. V-VI əsrlərdə xüsusi əhəmiyyət daşıyan şəhərlərdən biri Yəmənin Səna şəhəri idi. Geniş vadidə yerləşən Səna böyük ticarət məntəqəsi və hərbi-siyasi mərkəzə çevrilmişdi.Məkkəlilər Suriya, Yəmən, Həbəşistanla ticarət əlaqələri saxlamışlar. Hicazın digər mühüm şəhəri Yəsrib idi. Bu şəhər hələ e.ə 6 əsrdə yeni Babil padişahı Nəbonidin Ərəbistandaki mülklərinə daxil idi **(1;15)**. Şəhər əhalisi bir neçə qəbilədən ibarət idi. Bu qəbilələrdən böyük olanı Aus və Xəzrəc qəbilələri bütpərəst idilər. Digər 3 qəbilə Meynuqa, Nəzir, Bureyza isə yəhudiliyə etiqad edirdi. Yəsribdəki bu qəbilələr bir- birinə düşmənçilik edən qruplarda birləşirdilər.

Qüreyş tayfaları Məkkədən Mərkəzi və Qərbi Ərəbistana qədər uzanan ərazidə ağalıq edirdilər. Onlar Məkkədəki qədim müqəddəs Kəbədə nəzarəti ələ ala bilmişdilər.

İbadət Məkkədəki Kəbə kimi yerli ziyarətgah və məbədlərdə həyata keçirilirdi. Ərəblər həcc ziyarətləri və falçılıq, eləcə də ritual qurbanlıq daxil olmaqla müxtəlif ayinlər həyata keçirməklə tanrılara ehtiramlarını göstərirdilər.

İslam dininin Ərəbistan yarımadasında təşəkkül tapmasına qədərki dövrdə ərəblərin əksəriyyəti bidətçi idi **(1;s17)**. Qədim ərəb bütpərəstliyini ərəblər sonralar “cahiliyyə” dövrü adlandırmışlar. Kəbədəki Allah pantionları arasında Məkkə ətrafında yaşadığı güman edilən Qüreyş Allahı daha çox itaət edilən allah idi **(1;s17)**

**ƏDƏBİYYAT**


1. Gülxanım Qarayeva, Aynur Hacıqədirli, “Ərəb ölkələrinin orta əsrlər və yeni dövr tarixi” dərslik, Bakı, “Adiloğlu” 2008, s 9-17
2. Ömer Faruk Kirmit, “Lise Tarih Ders Kitaplarında İslamiyet öncesi Araplar” hakkındaki konu anlatımı (1923) Gönderim tarihi 12 eylül 2020 yayınlanma tarihi 18 kasım 2020
3. Цивилизация Древней Южной Аравии
4. Oxford Dictionary of English, 2003, Oxford University Press, Arab, İshmael, İsaac Ancient Near Eastern Texts, pages 298,299,300
5. İslamensiklopedisi.org.tr
6. Worldhistory.org Arabistan
7. Kayzen.az Qədim Ərəb Mədəniyyəti
8. Antiktarih.com Nebatiler arşivleri
9. Küçükdünya.com Petra

**Uşaqlarda aqressiyanın səbəbləri və onun qarşısının alınması üsulları**

**İmanova Xədicə**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Elmi rəhbər: Ağayeva Günay**

Aqressiya sözü latınca “aggressio” sözündən yaranıb və mənası hücüm deməkdir. Aqressiya başqa şəxsə (fiziki və mənəvi) zərər verə bilən hirs emosiyasını ifadə edən ən fəal formalarından biridir. Hər hansı digər emosiya kimi aqressiyanın da təzahür forması qadağan edilə bilməz. Bu halda uşaqlar öz təbii hisslərini büruzə verə bilmir və özlərini günahkar hiss edə bilərlər. İnsanın hər davranışının arxasında o davranışı istiqamətləndirən səbəblər var və aqressiyanı da istiqamətləndirən bir neçə səbəb var. Aqressiyanın əsasında qorxu hissi dayanır və həmin hiss çətin vəziyyət yaranan hallarda bir müdafiə üsulu kimi özünü ifadə edə bilər.Uşaq aqressiyası ilə həm kollektiv arasında olarkən, həm də uşağı fərdi qaydada müşahidə edərkən rastlaşmaq olar.(Bayramov,Əlizadə, 2003:67)

Uşağın aqressivliyi valideynlər üçün ən ağır imtahanlardan biridir. Uşaqlar çox vaxt öz aqressivliklərinin öhdəsindən gələ bilmirlər və böyüdükdə aqressiv davranışlarına nəzarət onlar üçün problem olaraq qalır. Aqressiya gizli və ya əksinə açıq şəkildə özünü göstərə bilər.

Psixoloqlar aqressiyanın iki formasını qeyd edirlər:

Zərərsiz aqressiya israrlı, aqressiv olmayan, özünü qoruyan bir davranışdır. Bu cür davranış təhlükə zamanı qeyd olunur və müdafiə xarakteri daşıyır. Təhlükə aradan qalxdıqdan sonra bu cür aqressiv təzahürlər yox olur. Zərərsiz aqressiya uşağın həyatının ilk aylarında aşkar edilə bilər. Bu cür aqressiya körpənin ətraf mühitə normal uyğunlaşmasına, dünyanı tanımasına və özünü təsdiqləməsinə kömək edir.Zərərli aqressiya digər insanlara zərər verən davranışdır. Əlbəttə ki, qəzəb, qisas almaq istəyi özünümüdafiə vasitəsi ola bilər, amma buna baxmayaraq başqalarına ziyan verə bilər. Zərərli aqressiya qəflətən baş verə bilər. Bu aqressiya forması uşaq doğulandan dərhal sonra görünmür, ona ağrı və ya xoşagəlməz həyəcanlar törədəndə aktiv olur. Bəzən, uşağın başqasına ağrı verəndə həzz aldığını görə bilərik.(Çələbiyev,2005:104)

Aqressiyanın müxtəlif növləri olur. Onların təsnifatı və əsasları müxtəlifdir. Dünya təcrübəsində A. Bass və A.Dark Amerika psixoloqlarının aqressiya təsnifatı istifadə edilir.(Bayramov,Əlizadə, 2003:53) O təsnifatda əsasən 5 növ aqressiya mövcuddur:

1. Fiziki aqressiya-fiziki təsir;
2. Dolayısı aqressiya-gizli yolla konkret şəxsə yönləndirilməyən aqressiya;
3. Qıcıqlandırma- xarici qıcıqlandırıcılara qarşı yüksək həssaslıq, qızğın emosional reaksiya;
4. Şifahi (verbal) aqressiya-neqativ hisslərin söz üsulu ilə büruzə verilməsi;
5. Neqativizm - qoyulmuş qaydalara qarşı passiv və ya aktiv şəkildə göstərilən əks reaksiya.

Aqressiv hərəkətlər uşaqlarda erkən yaşdan müşahidə edilə bilər. Həyatın ilk illərində qışqırıq, təpikləmə, dişləmə formasında təzahür edən aqressiya, demək olar ki, idarə olunmayan inadkarlıqla özünü büruzə verir.Üç yaşına çatdıqda uşağın inadkarlığı ilə bağlı şikayətlər daha çox səslənir. Bu yaşda aqressiyanın təzahürü əsasən valideynlərin uşaqların davranışına reaksiyasından asılıdır. Əgər valideyn və ya tərbiyəçi açıq aqressiyaya qarşı dözümsüz olarsa, bunun nəticəsində aqressiyanın simvolik formaları (inadkarlıq, itaətsizlik və s.) özünü göstərə bilər.Bu yaş dövründə uşağın öyrənmə arzusu daha da güclənir, ancaq uşaq eyni zamanda yeni qadağa və məhdudiyyətlərlə qarşılaşır. Uşağın marağı və valideynin “olmaz"ı arasında qarşıdurma yaranır. Bu münaqişənin həllini tapa bilmədikdə uşaqda qəzəb, ümidsizlik, aqressiya meyilləri

oyanır. 3-4 yaşında uşağın aqressiv davranışında "köçürmə" müşahidə olunur. Yəni uşaq qəzəbini açıq şəkildə anasına tökməyə cəsarət etmir, əvəzində və öz qəzəbini başqa, daha zərərsiz bir obyektdən çıxır.(Qədirov,2003:92)

Məktəbəqədər yaşda aqressivlik problemi "üç yaş böhranı"na bənzəyir. Üç yaş böhranı mahiyyət etibarilə ictimai münasibətlər zəminində yaranan münaqişələrin məcmusudur. Bu dövrdə uşaq böyüklər üçün "çətin" uşaq kimi görünür, çünki uşaq valideynlə dalaşır, əşyaları hirslə qırır ki, bu da uşağın müstəqilliyinin və fəallığının artmasını göstərir. "Mən özüm" fenomeni yalnız müstəqilliyin nümayiş etdirməsi deyil, eyni zamanda uşağın böyüklərdən qismən ayrılmasını da nəzərdə tutur. Uşaq bir tərəfdən müstəqil olmağa çalışır, amma digər tərəfdən isə özünü zəif tənzimləyir. Valideynlərə bu müddət ərzində uşağa daha diqqətli və anlayışla yanaşmaq tövsiyə olunur.

Aqressiyanın bütün formalarının ümumi bir cəhəti var. Bu özünü, ətrafını, o cümlədən yaxın insanları yaxşılaşdırmaq məqsədi ilə vəziyyəti idarə etmək və ona təsir göstərməkdir.

Hər bir uşaq öz ailəsinin güzgüsüdür. Uşağın problemi öz ailəsindən gələn problemdir. Uşaqlar ailədə aldıqları hər təcrübəni öz davranışlarında - məktəbdə, başqa kollektivlərdə sərgiləyirlər. Əgər məktəb kollektivi mehribandırsa, aqressiya ancaq on uşaqdan bir uşaqda büruzə verirsə, onda səbəb ailə ilə bağlıdır. Uşaq çalışır ki, ailədə olan çətinlikləri və problemləri təkbaşına həll etsin. Bu işdə ona heç kim kömək etmir, hətta bəzi hallarda ona heç diqqət də yetirmirlər.

Müasir dövrün öz gözəllikləri var. İnkişaf etmiş yeni texnologiyalar sayəsində uşaqlar faydalı informasiyalar alır, özləri yeniliklər əldə edir və yeni nəsə icad edə bilərlər. Bütün bunlarla yanaşı, medalın əks tərəfi də vardır. Yeni texnologiya və onun məhsulları uşaqlarda yaranan və inkişaf edən aqressiyanın əsas mənbəyidir. Kompüter oyunları, online-oyunlar uşaqlarda aqressiya yaradır. Uşaqlar məktəb yaşlarında çox sadəlövh olurlar, onların psixikası zədələnməyə meyillidir. Nəzərə almaq lazımdır ki, uşaqlar kompüter oyunlarının təsiri altına tez düşür, rəqibə qalib gəlmək üçün bütün vasitələrdən, hətta senzuradan kənar sözlərdən belə istifadə etməyə hazırdırlar. Görün, nə qədər uşağın psixikasına mənfi təsir edən amillər mövcuddur. Bütün bunları aradan qaldırmaq çox çətindir. Hər bir valideyn uşaq psixikasına təsir edən belə zərərli oyunlar haqqında məlumata sahib olmalıdır və vaxtında qarşısını almağı bacarmalıdır.

Valideynlər bilməlidirlər ki, aqressiyalı uşaqların öz aqressiyalarını büruzə vermələrinə mane olacaq bir faktor olmamalıdır. Bu, uşaqlarda əsəb sisteminin pozulmasına və somatik xəstəliklərin yaranmasına gətirib çıxara bilər. Buna görə də biz uşaqların bu hisslərini düzgün ifadə etməyi öyrətməliyik. Biz gözləməməliyik ki, bu aqressiya hissi bizim daxilimizi doldursun. Biz özümüzün və uşaqlarımızın davranışına nəzarət etməliyik. Onlarla sakit tərzdə danışmalıyıq. Əgər bizi nəsə qane etmirsə, onda biz səsimizin tonunu qaldırmalıyıq bir şərtlə ki, uşağın şəxsiyyətinə toxunmamalıyıq. Biz onun hərəkətlərini qiymətləndiririk, bizə xoş gəlməyən cəhətlərini göstəririk. Uşağın mənliyinə toxunmuruq. Bütün bunları onu sevilmədiyini bildirəcək şəkildə etməməliyik. Bunları bir neçə dəfə etməklə aqressiyanı konstruktiv yola yönləndirə bilərik.

Ümumiyyətlə, uşaqlarda aqressiya, gərginlik kimi hallar özlərini ifadə edə bilməyəndə, mühit dəyişkənliyi yaşayanda, yaxın adamı itirmə zamanı, stress, travma verə biləcək, onu sıxıntıya sala biləcək vəziyyətdə özünü daha çox biruzə verir. Məsələn: uşaqlar yay tətili bitib məktəb başlayan ərəfədə və ya gözünün qabağında pis bir hadisə baş verəndə , qardaşı əzilib, maşın qəzası keçirib və ya anası xəstələnib yəni, həyatını dəyişəcək faktorlar, məkan dəyişkənliyi, mühit dəyişikliyi onlarda neqativ hisslər yaradır. Ola bilər ki, otağını və ya evinizi dəyişmisiniz. Bu bizim üçün çox kiçik görünə bilər, amma onun üçün bir stress mənbəyidir.

Valideynlər çox zaman deyirlər ki, əvvəl evimiz çox balaca idi, amma indi əksinə çox genişdi bu onda necə aqresiyya yarada bilər ki?! Və yaxud da, ailə üzvlərindən birinin yerdəyişməsi, ailədən uzaqlaşması halları. Əvvəl nənə-baba ilə birlikdə yaşayarıdılarsa indi onlardan ayrılıblar, rəhmətə gediblər  və ya ata işləmək üçün uzaq bir yerə gedib. Bəs bütün bunlara uşaqlar necə reaksiya verir?

İnsanın komfort zonası var. Uşaqlar xüsusən mühit dəyişkənliyi zamanı bu komfort zonasından çıxırlar. Öyrəşdiyi əşyalar, evin qoxusu belə istər taktil, istər duysal, istər eşitsəl olaraq həmin mühitdən çıxır. Və çıxdığına görə də təbii ki bu onu narahat edib, əsəbi və gərgin edə bilir.Xüsusilə də, passiv və oturaq həyat tərzi aqressiyanı artıran səbəblərdəndir. Çünki, bizim bədənimizin günlük enerji bazası vardır. Biz onun birazını qab yumağa, birazını uşaqlar oyuncaq oynamağa, biraz öz dostları ilə oynamağa, biraz söhbət eləməyə sərf edirik. Hərəkətdə olanda bunları daha tez çıxara bilir. Amma uşaqlar passiv olanda, televizor, telefon, komputer  qarşısında oturanda bu enerji depolanır, davamlı şəkildə yığılır. Enerjisini sərf etmədiyinə görə anidən vulkan kimi partlamalar ola bilər. Ona görə də  televizor, planşet, elektron cihazlar passivliyi, ətaləti azaltdığına görə çox da məsləhət olunmur.Uşaqlarda aqressiyanın səbəbini həmdə gündəlik yaşamında axtarmalıyıq. Ola bilər ki, məktəbdə yaşadığı hər hansı bir hadisə, xüsusən də şəxsiyyətlərarası münasibətlərdə sıxıntılar yaşayan uşaqlar bunu kimləsə paylaşa bilmirlər. Təzyiq altında olan, travma yaşayan, hər hansısa hadisə olmuş ola bilir ki, biz çox vaxt onu evin daxilində axtarırıq, amma bu hər zaman ev, ailə daxilində olmaya da bilər.Ola bilər həyatdə hansısa hadisə baş verib, uşaqlardan hansısa biri çox ağır vəziyyətdə velosipeddən yıxılıb və əzilib, üzü qanayıb. Bunların şahidi olub, bu belə uşaqda zamanla aqressiya yarada bilir. Biz buna posttravmatik stress adlandırırıq.Uşaq aqressiyasının yaranmasında təsiredici  faktorlardan biri də ərköyünlükdür. Yəni, əslində uşaq əsəbi deyil,  sadəcə bu cür davranaraq istədiyini əldə etdiyini görəndə daha çox bu hərəkətləri təkrarlamağa başlayır. Məsələn, marketdə istədiyi bir şeyi ana almayanda qışqırır,  ağlayır,  özünü yerə çırpır və ana da ətrafdan utanaraq ona tabe olursa, uşaq da ananın bu zəifliyindən istifadə etməyə başlayır.Bu əsəbilik dediyimiz dırnaq arası hallarda   valideynlər çox zaman dərman müalicəsinə üz tuturlar. Sakitləşdirici versinlər ki, əsəbləri sakitləşsin.Bu addım heç vaxt gözlənilən nəticəni vermir. Çünki məsələnin kökündə psixoloji faktor dayanır.  Psixoloq yardımı burda çox vacib şərtdir.Bəzən uşaqların əsəbiliyi sırf uşaqla bağlı deyil, ətrafındakı mühitlə bağlıdır. Ailədaxili konfliktlər, uşaqlara qoyulan ağır tələblər də bu aqressiyanı yarada bilir.  Xüsusən də müəkəmməlliyyətçi valideynlər uşaq çox əsəbidir deyir amma nənəsigildə qalanda heç elə olmur, nənəsi deyir ki, çox rahat uşaqdır. Məktəbə gedir deyirlər heç əsəbi deyil, heç bunun kimi ideal uşaq yoxdur.Uşaq hansı mühitdə əsəbidirsə demək ki, həmin insanla o problemi yaşayır, həmin mühitlə o problemi yaşayır. Əsəbiliyi daha çox məktəbdə sərgiliyirsə demək ki, məktəbdə problemi var. Əsəbiliyi daha çox evdə sərgiləyirsə demək ki, evdə. Ortaq məxrəci tapmaq lazımdır və uşaqlardan onların potensialına görə tələblər etmək lazımdır.

Uşaqlarda aqressiyanı səngitmək üçün aşağıdakı tövsiyələr faydalı ola bilər:

1.Uşaqda baş qaldıran həddindən artıq narazılıq hissini dəf etməyə kömək edin. Bunun üçün ən uyğun vaxt aqressiyanın ilkin mərhələsidir.

2.Uşağın müəyyən bir həddə qədər müstəqil olmasına icazə verin.

3.Evi təhlükəsiz və uşağın maraq dairəsini təmin etmək üçün əlverişli edin.

4.Uşağa əsəbinin öhdəsindən gəlməyi, eyni zamanda əsəbi uyğun tərzdə və vasitələrlə ifadə etməyi öyrətmək də vacibdir. Çünki uşaqda aqressivliyin səbəbi öz hisslərini saxlaya bilməməsi və hissləri müvafiq tərzdə ifadə edə bilməməsidir.

**Nəticə.**Valideynlər və uşaq arasında düzgün münasibətin qurulması uşaqların sağlam emosional inkişafının əsas qarantıdır. Müasir dövrdə daha geniş yayılmış aqressiya , təssüf ki, uşaqlardan da yan keçmir. Bu problemi araşdırmaq və əldə olan imkanlarla həll yolları axtarmaq lazımdır.Uşaqlar cəmiyyətimizin əsasını təşkil edir və gələcəyimiz onların əlindədir. Onlara göstərdiyimiz hər bir diqqət, görməzdən gəlmədiyimiz bütün səhvlərlə , əslində biz , öz gələcəyimizi inşa edirik. Çalışaq ki, sağlam gələcəyimiz olsun.

**ƏDƏBİYYAT:**


**1.** Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: 2003

**2.** Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Dərslik. "QAPP poliqraf", 2003

**3.** Çələbiyev N.Z. Uşaq psixologiyası.Bakı,2005.

**4.** Qədirov Ə.Ə Yaş psixologiyası. Bakı, 2003.

## Qadın hüquqları

**Məmmədova Fatimə**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Elmi rəhbər: Mustafayeva Humeyrə**

Ölkəmizdə dövlət qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsinin və dövlət səviyyəsinə qaldırılmasının Ümummili Lider Heydər Əliyevin adı ilə bağlı olması tarixi faktdır. O, qadınların idarəetmə, qərar qəbuletmə və sosial həyatın bütün sahələrində irəli çəkilməsini vacib amil kimi hər zaman irəli sürmüşdür. Ümummilli liderin 1993-cü ildə xalqın istəyi ilə hakimiyyətə qayıdışından sonra qadınlarımızın ictimai-siyasi həyata transformasiyası, onların dövlət idarəçiliyində təmsilçiliyi, xanımların bütün sahələrdə kişilərlə bərabər hüquqlara malik olması dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Müstəqil Azərbaycan Respublikasının ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ilin 12 noyabrında qəbul edilmiş ilk Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiqləməklə, demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını yaratmışdır.

Qadın müqəddəs varlıq olduğundan, onun hüquqlarının qorunmasına əks cinsin nümayəndələrilə müqayisədə daha böyük ehtiyac var. Zaman-zaman bütün dünya miqyasında kişilər tərəfindən qadınlara qarşı zorakılıq halları baş verib.

Təəssüf ki, bir çox hallarda güclü cinsin nümayəndələri zərif məxduqlara münasibətdə insanlıqdan kənar davranışlar sərgiləməkdən belə çəkinməyib. **( Xalq qəzeti.- 2010.- 7 mart.- S. 4.)**Bu mənada qadınların müdafiəsi hər zaman aktual olaraq qalır. Uzun əsrlərdən bəri qadın hüquqlarının müdafiəsi sahəsində beynəlxalq səviyyələrdə çoxsaylı işlər görülüb.O cümlədən Azərbaycan Konstitusiyası, hər bir ölkə vətəndaşı kimi, qadınların da hüquqlarını qoruyur. Bizdə kişilər kimi, qadınlar da eyni hüquq və vəzifələrə sahibdir. Yəni kişi cinsindən olan insanların istifadə etdiyi hüquq və azadlıqlardan qadınlar da heç bir fərq qoyulmadan istifadə edə bilir.

Ölkə Konstitusiyasının 24-cü maddəsi məhz həmin məsələyə həsr olunub. Qadınlarla bağlı digər Konstitusiya aktı isə 25-ci maddədə öz əksini tapıb. Burada bərabərlik amili əks olunub. Həmin maddənin 1-ci bəndində göstərilir ki, hamı qanun və məhkəmə qarşısında bərabərdir.

Əməyə qiymət verilərkən də qanun qadınla kişiyə fərq qoymur. Qadın da istirahət, təhsil və mənzil sahibi olmaq kimi hüquqlara sahibdir. Onun təhsil almaq istəyinə qanunla heç kim maneə ola bilməz. Bundan başqa, 54-cü maddəyə uyğun olaraq nənəmiz Həvvanın davamçıları cəmiyyət və dövlətin siyasi-ictimai həyatında da kişilərlə yanaşı aktiv iştirak etmək həququna malikdir. Bir sözlə, Konstitusiyada vətəndaşlar üçün öz əksini tapan hüquq və azadlıqlar, güclü cins nümayəndələri kimi, eyni dərəcədə qadınlara da aiddir. XX əsrin əvvəllərinə kimi Azərbaycanda qadınlar əsasən hüquqsuz idi. Bir tərəfdən mövhumatçı İslam qaydaları qadınları hüquqsuz etmişdisə, digər tərəfdən qadınların maariflənməsi çar rejiminin ürəyincə deyildi.

Azərbaycanda qadın hüquqlarının qorunması, təbliğ olunması, qadınların dövlət siyasətinin həyata keçirilməsində və qanunların qəbul edilməsində iştirakının artırılması dövlət siyasətinin ayrılmaz tərkib hissəsidir.

Qadınlarla bağlı məsələlərin həlli üçün bir çox qanunların qəbul olunması, fərman və sərəncamların imzalanması, beynəlxalq təşkilatlara üzv olaraq mühüm sənədlərin ölkəmizdə tətbiq olunması qadın hüquqlarının reallaşması və təminatı istiqamətində inkişafın əldə olunmasına təkan vermişdir.

Qadın hüquqları — Bütün dünyada qadın və qız uşaqlarının sahib olduğu sosyoiqtisadi, siyasi və qanuni hüquqların məcmusuna verilən ad. Qadın hüquqları XIX əsrdə Avropadakı qadın hərəkatının və XX əsrdə baş verən feminizm hərəkatının təməli hesab olunur. Bəzi ölkələrdə bu hüquqlar qanunlara, yerli adət və ənənələrə görə özəlləşdirilsə də, digər bir qrup ölkələrdə isə ümumiyyətlə sayılmır. Ümumi insan və vətəndaş hüquqları kontekstində qadın hüquqlarının xüsusi vurğulanması təbii-fizioloji və sosial əsaslara malikdir. Təbii-fizioloji əsas bioloji varlıq kimi qadının xüsusiyyətləri, sosial əsas isə qadının cəmiyyətdə və ictimai-siyasi proseslərdə rolu və tarixən kişilərə münasibətdə daha az müdafiə edilən olmasıdır. Qadın cəmiyyətin bir üzvüdür. Qadınların cəmiyyətimizdə aparıcı mövqe tutması hər kəsə məlumdur. Əks cinsin nümayəndələri kimi qadınların da öz hüquqları var və qadın hüquqları toxunulmazdır. Kişilər kimi qadınların təhsil, əmək, sosial və sair bu kim hüquqları var. Təbii ki, qadın hüquqlarının toxunulmazlığına hər kəs riayət etməlidir.

1998-ci ilin 14 yanvarında isə ulu öndər Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması barədə fərman imzalamış, bu qurum geniş səlahiyyətlərlə təmin edilmiş, həmin il, eyni zamanda, müstəqil Azərbaycan Respublikasında qadınların ilk qurultayı keçirilmişdir. Ümummilli lider Heydər Əliyevin həmin qurultayda söylədiyi bu fikirlər isə qadınlarımıza verilən ən yüksək qiymətdir. “Qadınların adları və xidmətləri bizim tariximizin səhifələrində qızıl hərflərlə yazılmışdır.

Bu gün əksər ölkələrdə qadınlar cəmiyyət həyatında mühüm rola malikdirlər. Qadınların müxtəlif sahələrdə bacarıq və qabiliyyətlərini reallaşdırmaq imkanları xeyli genişlənib. İqtisadiyyat, biznes mühitində qadınların öz hüquqlarından yararlana bilməsi onların cəmiyyətin iqtisadi sütunlarının möhkəmlənməsində rolunu artırıb. Sosial həyatda qadınlara yaradılan geniş imkanlar isə öz nəticəsini bir çox sahələrdə göstərir. Qadınların kişilərlə bərabər təhsil imkanlarına sahib olması cəmiyyətin inkişafı baxımından olduqca böyük əhəmiyyətə malikdir. Təhsil hüquqlarından istifadə edən qadın sosial həyatın elm, təhsil, səhiyyə, idman, mədəniyyət və digər sahələrinin də inkişafına fayda verə bilir. Digər tərəfdən, yüksək intellektual, mədəni keyfiyyətlərə sahib olan qadınlar toplumun gələcəyi olan sağlam düşüncəli, yüksək dəyərlərin daşıyıcısı olan, savadlı yeni nəsil yetişdirirlər.

Bütün bunlara paralel olaraq, qadınların siyasi həyatdakı fəallığının artması da olduqca böyük əhəmiyyət daşıyır. Bu gün qadınlar seçib-seçilmək, dövlət strukturlarında aparıcı vəzifələri yerinə yetirmək hüququna sahibdirlər. Qadınların ictimai-siyasi həyatda rolunun artması cəmiyyətin müxtəlif sahələrində qadınların hüquqlarının bundan sonra da qorunması və genişləndirilməsi baxımından həlledici qərarların qəbuluna imkan yaradır.

Lakin bunlar heç də asanlıqla və birdən-birə baş verən proses olmayıb. Seçib-seçilmək, təhsil, iqtisadi mühit, iş imkanları, gəlir, ailə şəraitində vacib hüquqlara sahib olmaq uğrunda müxtəlif ölkələrdə qadınlar onilliklərlə davam edən gərgin mübarizə aparıblar. Məlum olduğu kimi, Avropada və Şimali Amerikada XIX əsrin sonu - XX əsrin əvvəllərində geniş vüsət alan qadın hərəkatının əsas tələbi qadınlara səsvermə hüququnun verilməsi idi.

Belə ki, Şərqdə ilk demokratik respublika quran Azərbaycanda qadınlara səsvermə hüququ 1918-ci ildə verilib. Müqayisə üçün bildirək ki, ABŞ-ın bütün ərazisində qadınlara səsvermə hüququ 1920, Böyük Britaniyada 1928, Fransa və İtaliyada 1945, Yunanıstanda 1952-ci ildə verilib. Tarixən də Azərbaycan qadını özünün cəsarəti, mərdliyi ilə seçilib. Qədim dastanlarımızdakı qadın obrazları da Azərbaycan qadınının nüfuzundan, siyasi-ictimai məsələlərdəki mühüm rolundan xəbər verir.

Sevindirici haldır ki, bu gün Azərbaycan Respublikasında həyata keçirilən gender siyasəti tarixi ənənələr və müasir dövrün tələbləri ilə uzlaşır. Azərbaycan bir sıra beynəlxalq təşkilatlara qoşularaq, konvensiyaları, protokolları qəbul etmiş və milli qanunvericilikdə qadınların hüquqları mövzusunu təkmilləşdirmişdir.Ölkəmiz 1995-ci ildə "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" BMT Konvensiyasını, həmçinin Beynəlxalq Əmək Təşkilatının (BƏT) qadın əməyi sahəsində qəbul etdiyi "Yeraltı işlərdə qadın əməyinin tətbiqi haqqında", "Bərabər əməyə görə kişilərə və qadınlara bərabər haqq verilməsi haqqında", "Analığın mühafizəsi haqqında", "Əmək və məşğulluq sahəsində ayrı-seçkilik haqqında" və "Ərdə olan qadının vətəndaşlığı haqqında" Konvensiyalarını qəbul etmişdir.

1995-ci ildə keçirilmiş IV Ümumdünya Qadın Konfransında dünyanın 189 ölkəsi kimi Azərbaycan da Pekin Bəyannaməsi və Fəaliyyət Platformasını qəbul etmişdir. Platformanın əsas məqsədi qadınların siyasi, iqtisadi və sosial vəziyyətlərinin yaxşılaşdırılmasıdır. Pekin Bəyannaməsi və Fəaliyyət Platforması bütün dünya qadınlarının hüquqlarının qorunacağını, sülhə və gender bərabərliyinə nail olmaq üçün inkişaf proseslərində yaxından iştiraklarına mane olan amillərin aradan qaldırılacağını bəyan etmişdir.

1998-ci ildə "Azərbaycanda qadınların rolunun artırılması haqqında" Fərman imzalanmış və Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Komitə qadın hüquqlarının müdafiəsi istiqamətində müstəsna əhəmiyyətli işlər görmüş, tədbirlər həyata keçirmişdir.

1998-ci ildən etibarən hər beş ildən bir Azərbaycan qadınlarının qurultayları keçirilir. Bu qurultaylar dövlət qadın siyasəti sahəsində ən əlamətdar və böyük hadisələrdən biri kimi qiymətləndirilir.

2000-ci ildə imzalanan "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Fərman ölkədə qadın siyasətinin daha da güclənməsinə gətirib çıxarmışdır. Fərmanın icrasını təmin etmək məqsədi ilə təsdiq edilmiş Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 26 sentyabr tarixli, 176 nömrəli Qərarına əsasən nazirlik, komitə, şirkət, konsern və digər dövlət müəssisə və təşkilatlarında daxili imkanlar çərçivəsində gender siyasəti tələblərinə uyğun olaraq gender məsələləri üzrə məsul şəxslər təyin edilmişdir. Bu Qərar bütün dövlət orqanları (qurumları) və digər təşkilatların gender bərabərliyinin təmin edilməsi ilə bağlı fəaliyyətinin təkmilləşdirilməsinə, həyata keçirdikləri siyasətlərə gender amilinin daxil edilməsinə imkan verir.

Qadın hüquqları eyni zamanda bir sıra məcəllələrlə (Ailə, Mülki, Cinayət, İnzibati Xətalar və s.) də təsbit olunmuşdrur. Qəbul olunmuş bir sıra dövlət proqramları, o cümlədən "2008-2015-ci illərdə Azərbaycan Respublikasında Yoxsulluğun Azaldılması və Davamlı İnkişaf Dövlət Proqramı", "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı", "Azərbaycan Respublikası Regionlarının Sosial-İqtisadi İnkişafı Dövlət Proqram"ları ölkənin siyasi, sosial, iqtisadi, mədəni həyatında qadınların rolunun artırılmasında mühüm əhəmiyyət kəsb edir.

Dövlət qadın siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən yeni meyarlarla zənginləşdirilərək yüksək səviyyədə davam etdirilir.Ölkə başçısının rəhbərliyi ilə yeni siyasi və iqtisadi sistemlə sürətlə inkişaf edərək bölgənin lider dövlətinə çevrilmiş Azərbaycan gender siyasətinin reallaşdırılması məsələsində də yeniliklərə imza atmışdır. Qadın hüquqlarının müdafiəsi, onlar üçün yaradılan bütün imkanların genişləndirilməsi Prezident İlham Əliyevin dövlət siyasətində müəyyən etdiyi prioritet istiqamətlərdəndir. 2006-cı ildə qadınlarla bağlı işlərin daha mütəşəkkil və ardıcıl şəkildə aparılması, ictimai həyatın bütün sahələrində bərabər hüquqların

təmin olunması sahəsində hüquqi bazanın təkmilləşdirilməsi üçün 2006-cı ildə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının qanunları qəbul olunmuşdur. Bu qanunların qəbul edilməsi insanların təfəkküründə yeni düşüncə tərzinin formalaşmasına təkan verərək bir çox stereotiplərin qırılmasına səbəb olmuşdur.

Hüquqi bazanın təkmilləşdirilməsi, bərabər hüquqların təmin edilməsi üçün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva öz geniş fəaliyyəti ilə həm ölkədə, həm də beynəlxalq aləmdə Azərbaycan qadının nüfuzunu daha da yüksəklərə qaldırır.

**ƏDƏBİYYAT:**


1. ("Azərbaycan" qəzeti, 13 fevral 2010-cu il, № 34, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, №2, maddə 70.
2. ("Azərbaycan" qəzeti, 29 noyabr 2013-cü il, № 263; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 11, maddə 1317).
3. https://e-qanun.az/framework/3292

**Hett / Het dövləti ,çarlığı ,dili , xalqı hərbi siyasi ,ictimai – iqtisadi munasibətləri.**

**Həsənova Nərmin**
**Xəzər Universiteti**
**Elmi rəhbər: tar.f.d.Məmmədov Yaqub**




Şəkil:1 Ön Asiyanın qədim siyasi xəritəsi.

**Het dovləti** –Anadolunun şimal-şərq hissəsində Halis (hazirda Qizil İrmaq)çayinin hovzəsində meydana gəlmişdi.(şəkil:1) Kiçik Asiya hələ qədim zamanlardan dovlətləri diqqəticəlb edirdi.E.ə III minilliyin ikinci yarisinda Akkad hokmdarlari Sarqon və Naram-Suen bu əraziyə hərbi yuruşlər təşkil etmişdilər .Həmin dovrdə burada ,gələcək Het dovlətinin ərazisində akkad və assur tacirləri məskən salmiş və metal ticarətinin əsasini qoymuşdular.Ticarətin mərkəzi Kaneş şəhəri idi.Ticarət məskənlərinin tacirləri həm yerli ,həm də Aşşur şəhərindən gəlmiş adamlardan ibarət olmuşdur. Aşşurlar buraya mixi yazi və akkad dilini gətirmişdilər.Ticarətə yerli əhalidə cəlb olunmuşdur.Təsərrufatin inkişafi ilə əlaqədər olaraq Anadolunun şərq hissəsində artiq e.ə III minillikdə bir sira siyasi birləşmələr meydana gəlmişdir.Bunlar şəhər dovləti şəklində movcud olmuşlar. Anadolunun Buruxsanda ,Nesa , Kussar və Hattuşa şəhər dovlətləri Aşşur tacirlərinin gətirdiyi mixi yazi və akkad dillindən istifadə edirdilər.

E.ə XVIII əsrin birinci yarisinda şəhər dovlətləri arasinda siyasi ağaliq uğrunda mubarizə gedirdi.Mubarizənin gedişində Kussura şəhəri ustunluk əldə etdi.Onun hokmdari Pitxana Nesa şəhərini tutdu .İşğalçiliq muharibələrini onun oğlu Anitta davam etdirdi . O , atasinin zəbt etdiyi Nesa şəhərini dovlətin paytaxti etdi , Het dovlətinin gələcək paytaxti Hattuşa şəhərini tutdu.

Anitta Het dovlətini birləşdirmək uçun ilk addimları  atdi . Onun vəfatindan  bir muddət keçəndən sonra qədim  Het padşahliği dovru başlandi. Het padşahlığı iki dövrə bölünür : Qədim het padşahlığı və yeni het padşahlığı. (1,258-259)(2,58-62)

Şəkil:2 Het dövlətinin qalasının bərpası

**Qədim Het Padşahlığı**: Bu dövrdə Het dövlətinin formlaşaması Kussaranın digər hökmdarı



Labarnanın hakimiyyəti illərində başa çatmışdı. Ənənələrə görə , Het dövlətinin əsasını Labarna qoymuşdu. O, hetlərin siyasi təsirini Qara dəniz və Aralıq dənizi sahillərinə kimi genişləndirmişdi. Labarnanın hakimiyyəti dövründə mövcud vərəsəlik  hüquqa görə , hakimiyyət atadan oğula yox , atadan qardaşoğluna və bacıoğluna keçməli idi. Lakin Labarna bu qanunu pozaraq hakimiyyəti öz oğlu I Hattuşiliyə vəsiyyət etdi.  Onun hakimiyyəti dövründə ölkənin paytaxtı Kussaradan Hattuşa şəhərinə keçdi. O , Kiçik Asiyada bir sıra  vilayətlər tutdu , işğal olunmuş şəhərlərə övladlarını hakim təyin etdi. Het padşahlığında mövcud olan hakimiyyətə vərəsəlik hüququna əsasən, I Hattuşili iki oğluna , sonra bacısı oğlunu özünə vərəsə təyin etmişdi. Lakin hakimiyyətə göz dikən qohumların sayı çox idi . Həmçinin hakimiyyət uğrunda mübarizədə vərəsələr kömdara qarşı qiyam təşkil edirdilər.Beləliklə , I Hattuşi onları hakimiyyətə vərəsəlikdən məhrum etdi və yeni vərəsəlik qaydası tərtib etdi. O, hakimiyyəti oğul adlandırdığı nəvəsinə vəsiyyət etdi. Həmçinin het dövlətində  pankus adlanan xalq yığıncağı mövcud idi. Xalq yığıncağında bütün həddi-buluğa çatmış oğlanlar və kişilər iştirak edirdilər.Həmçinin bu yığıncaq hakimiyyətə vərəəsə təyin etmək hüququna malik idilər. I Hattuşi özündən sonra hakimiyyətə vərəsə seçdiyi Mitanini e.ə XVI əsrdən baş qaldıraraq , Ön Asiyanın siyasi hadisələrinə münaqişə edirdi . E.ə XV əsrdə hurrilər  Anadoluya basqınlar edirdilər . Arsava və bir sıra əyalətlər hetlərin əlindən çıxdı. Xv əsrdə Het dövləti tənəzzül dövrü keçirirdi.(1,259-262)



Şəkil:3Het dövlətinin quruluşu , girişi

**Yeni Het Padşahlığı**-Het dövləti bu dövrdə öz əvvəlki qüdrətini bərpa etmək cəhdi göstərirdi. Hetlər bir neçə istiqamətdə işğalçılıq müharibələri aparır ,siyasi təsir dairəsini genişləndirmişdi. Het dövlətinin güclənməsi və Ön Asiyanın qüdrətli dövlətə çevrilməsində hökmdar I Suppiluliumun adı ilə bağlıdı. O, dövrünün görkəmli uzqgörən siyasi xadimi, diplomatiyadan bacarıqlı istifadə edən sərkərdəsi olmuşdur .Suppiluliumun hakimiyyəti illərində Misir ilə münasibətlər yaxşılaşırdı. Suppiluliumun dövründə Het padşahlığının qüdrəti daha da artdı. Het padşahlığı Ön Asiyanın ən güclü dövlətinə çevrildi. E.ə XIII əsrin sonunda İkiçiyarasının şimalında Assuriya dövləti yenidən işğalçılıq müharibələrinə başladı , hetlər Şərq torpaqlarından sıxışdırıldı. Eyni zamanda qərbdən " dəniz xalqları " adlanan tayfalar Het ərazisinə hücuma keçdilər. " Dəniz xalqları " müxtəlif tayfalardan ibarət idilər .E.ə1200-cü ildə hetlərin paytaxtı Hattuşa dağıdıldı və bununla da Het dövlətinin varlığına son qoyuldu.(1,262-264)

**Het dili** – Hetlər Kiçik Asiyaya gəlmə hesab edilirlər .Misir yazilarinda bu ad 'heta',Tovratda "hitti "şəklində əks olunmuşdur. Het mənbələrində " hatilli " het dilini bildirir .Assur mənbələri onlarin olkəsini "mat hati " yəni "hatti olkəsi " adlandırmışdı. Elam təsərrüfat mətnləri "hatibə "anlayışını işlətmişdi. "Het" anlayışı şərti olaraq Hatti ölkəsinin Hind-Avropa dilinə və etnosuna tətbiq olunmuşdu . Bəzən onu nesi (naşili ) dili də adlandırırlar . Hat dili barədə dini ibadət məqsədilə tərtib olunmuş qədim mətnlər təsəvvür yaradır.(Şəkil:4)Hat dili qədim dillərin heç birinə oxşamır. Ehtimal edilir ki , hat dili e.ə II minilliyin əvvəlində artıq ölü dillər cərgəsinə daxil idi. Hələ qədim hat mətnləri het dilinə tərcümə olunmuşdu. Hat dilinin qrammatikası tipoloji cəhətdən müasir abxaz-adıq dillərinin quruluşuna yaxın hesab edilir , lakin tipoloji oxşarlıq da dillərarası qohumluğu bildirən amil deyildir. (1,256-257)(2,66-67)



Şəkil:4 Het dili.

**Het xalqı** : Anadolunun qədim əhalisi barədə dəqiq məlumat yoxdur. Lakin ehtimal etmək olar ki , burada müxtəlif dillərdə danışan etnoslar yaşayırdı . Kiçik Asiyanın şimal –şərq hissəsində , Qara dəniz sahilində cənub-şərq istiqamətində uzanan ərazidə kaşk , yaxud kask tayfaları məskunlaşmışdılar . Etnonim və toponimlərə əsasən kaşk dilinin het dili ilə qohum olması ehtimalı irəli sürülmüşdü. Halis çayı hövzəsində və cənubda hat tayfaları yaşayırdı. Onları elmi ədəbiyyatda həmçinin protohet adlandırırlar . Lakin hat və het dilləri arasında heç bir genetik qohumluq əlaqəsi yoxdur . Buna görə "protohet " anlayışının het dilinə tətbiq edilməsi şərtidir . Bu tayfaların məskunlaşdığı ərazilər "Hatti ölkəsi " adını daşıyırdı . (1,254-255)

**İctimai-iqtisadi münasibətləri** – Hetlərin yaşadığı ərazidə əkinçilik və maıdarlığın inkişafı üçün münasib şərait vardı. Xüsusi bağçılıq geniş yayılmışdı . Hetlər müxtəlif ev heyvanları saxlayırdılar . Het padşahlığında müxtəlif torpaq sahibkarlığı formaları mövcud olmuşdur .Burada hökmdar, məbəd, və xüsusi torpaq sahibkarlığı vardı . Hökmdar və məbəd torpaqları dövlətə mənsub idi. Xüsusi torpaqlar dövlət təsərrüfatına daxil deyildi. Təsərrüfat əsasən quldarlıq xüsusiyyəti daşıyırdı. Het dövlətinin əhalisi müxtəlif ictimai təbəqələrə mənsub idi.(Şəkil:5) Dövlət mükəlləfiyyəti daşımayan və ümumiyyətlə , əmək fəaliyyəti ilə məşğul olmayan adamlar azadlar sırasına daxil idi. Belə adamlar Het cəmiyyətinin hakim təbəqəsini təşkil edirdilər. Əməklə bağlı olan bütün işlər məcburi əmək adamlarının üzərinə düşürdü. Onlar əmək mükəlləfiyyəti daşımalı idilər. Het cəmiyyətinin hüquq və iqtisadi həyatı Het qanunlarında öz əksini tapmışdı .Het qanunları sinfi xüsusiyyət daşıyırdı. Qanunlar xüsusi mülkiyyəti qoruyur , onun sahibi olan azad adamın hüququnu daha da möhkəmləndirirdi. Het qanunlarında qullara müxtəlif cəza tədbirləri nəzərdə tutmuşdular. Het cəmiyyətində sənətkarlıq inkişaf tapmışdı. Qanunlarda müxtəlif peşələrin adı çəkilmişdir . Alət , silah və başqa əşyalar hazırlamaq üçün mis və tuncdan istifadə edirdilər . Həmçinin , e.ə III-II minilliklərdə Anadoluda dəmirdən istifadə olunurdu . Hetlər dəmirdən müxtəlif əşyalar hazırlayırdılar . E.ə XIV-XIII əsrlərdə dəmirdən hazırlanmış əşyalar Het hökmdarları varidatı içərisində böyük sərvət hesab olunurdu.(1,264-267)

Şəkil:5 Het xalqı.

**Siyasi hərbi münasibətləri** – I Hattusilin və onun nəvəsi I Mursilinin hakimiyyəti



illərində Kiçik Asiyanın bütün xırda dövlətləri birləşdirildi və hürrilərin Suryiada və Şimali Mesopotamiyadakı böyük əraziləri istila edildi . E.ə 1954-cü ildə Babil tutulub,qarət edildi , nəticədə Hammurappinin sülaləsinin hakimiyyəti devrildi . I Suppiluliumasın hakimiyyəti illərində Mitanni çarı Tuşrattanın qoşunları darmadağın edilmişdi. Onların qüvvətlənməsi son hesabda maraqlarının Misirlə toqquşmasına gətirib çıxardı. II Ramzeslə Mutavallis arasında həll edici döyüş e.ə 1312-ci ildə Kadeş yaxınlığında baş vermişdi.(Şəkil:7)Şimali Suriyada hettlərin hakimiyyəti saxlanıldı və onlar hətta Dəməşqə qədər irəliləyə bildilər . Misirlə çəkişmələr Mutavalisin varisi III Hattusilinin dövründə e.ə 1282 ci ildə bütün ölkələrə sülh vəd edən məşhur ilk sülh müqaviləsi olan Kadeş sülh müqaviləsi ilə nəticələndi.(Şəkil:6) Bu , Hett çarlığının inkişafının ən zirvə nöqtəsi idi. Az sonra yeni rəqib peyda olur , onlar axeylər adlandırırdılar . Onlar Bosfor dənizi vasitəsilə şərqə və cənuba yeni miqrasiya dalğası ilə doluşdular . Misir mənbələrində "dəniz adamları adlandırılırdı . E.ə 1190 cı ilin dövründə Hattusas darmadağın edildi . Beləliklə het dövləti zəifləməyə başladı .(2,64-68)

Şəkil:6 Kadeş müqaviləsi



Şəkil :7 Kadeş döyüşü



**ƏDƏBİYYAT:**


1. 1.Yusif Yusifovun – Qədim  Şərq Tarixi kitabı (səh:254-268)
2. Solmaz Qaşqay – Ön Asiyada miqrasiya proseslərinə dair. (səh:58-68)
3. Şəkil:1 –https://images.app.goo.gl/oj24zJSjEJsxum8W6
4. Şəkil:2 –https://images.app.goo.gl/3FpEFCPNzv5hQxcq8
5. Şəkil:3 –https://images.app.goo.gl/5yD9jn8o2mNYhVH57
6. Şəkil:4 –https://images.app.goo.gl/zmjrLDkxU6WLuQPb8
7. Şəkil 5–https://images.app.goo.gl/ZX6DN886J9AGKUUEA
8. Şəkil:6 –https://images.app.goo.gl/S6pjEropGorSVrX6A
9. Şəkil:7 – https://images.app.goo.gl/raUAN1uXD9uR7vm16

## Qədim dünyanın koloniya sistemi

**Qasımova Nuranə**

**Elmi rəhbər:tar.f.d.Məmmədov Yaqub**

***Finikyanın koloniya sistemi***

Bu gün Finikiya bölgəsi, Asiya qitəsinin cənub-qərb bölgəsində Aralıq dənizinin şərq sahilində yerləşən, İsrail, İordaniya, Suriya və Livan sahillərini əhatə edən, sərhədləri Orontes və İordaniya tərəfindən çəkilən bir ərazidir. Finikiya sivilizasiyası bu bölgədə yaranıb və zamanla Aralıq dənizinin qərb sahillərinə, Cəbəllütariq boğazından o tərəfə, Portuqaliya və Afrikanın Atlantik okeanı sahillərinə qədər yayılıb.[1]

Yaşadıqları coğrafiyanın zərurətindən dənizçilik fəaliyyəti ilə məşğul olan Finikiyalılar qısa zamanda antik dünyanın ən yaxşı tacirlərinə çevrilmiş və ticarət şəbəkələrini Atlantik okeanı sahillərinə qədər genişləndirərək qısa müddətdə varlanmışlar və orada çoxlu koloniyalar yaratmışlar. Qədim dünyada gəmiqayırma üçün istifadə edilən Sidr meşələri kimi yerli sərvətlərə malik olmaları onların qısa müddətdə ticarət fəaliyyətlərinə başlamalarına səbəb olmuşdur; Bundan əlavə, ağac emalı və metal emalı kimi sənətlərdə çox müvəffəqiyyət qazanan Finikiyalılar, müxtəlif sivilizasiyaların kəsişməsində yerləşən coğrafi mövqeləri sayəsində bir çox xalqın yerli istehsallarını təqlid etsələr də, bir çox sənəti özündə ehtiva etdikləri üçün özünəməxsus bir mədəniyyətə sahib idilər.[2]

Aralıq dənizinin sahillərində, gəmilərin dayanması üçün əlverişli yerlərdə yerləşən beş şəhər Yaxın Şərqin əsas ticarət mərkəzlərinə çevrilib. Bunlar idi - Arvad, Uqarit, Sidon, Tir və Biblos ... Bu liman şəhərlərinin yaxşı təchiz olunmuş limanları və güclü istehkamları var idi.

Ticarətin rahatlığı üçün Finikiyalılar Aralıq dənizi sahillərində çoxsaylı koloniyalar qurdular. Eramızdan əvvəl 9-cu əsrdə. Tire'den gələn immiqrantlar quruldu Karfagen , tezliklə özü böyük bir ticarət şəhərinə çevrildi. Tədricən Karfagen güclü bir dövlətin mərkəzinə çevrilən ən zəngin şəhərə çevrildi. Tədricən təkcə qonşu Finikiya müstəmləkə şəhərləri deyil, Afrika və İspaniyada yaşayan bəzi xalqlar da ona tabe oldular.[10]

Finikiya koloniyaları bir çox xalqların görüş yerinə çevrilmişdir. Planşetlərdə tapılan dillərin müxtəlifliyi bunu sübut edir. Qərbə doğru hərəkət edən Finikiyalılar əcnəbilərə nifrət etmirdilər, buna görə də onların ticarəti bu qədər uğurlu olub və onların torpaqlarında bir çox millətlərin nümayəndələri məskunlaşıblar. Finikiya koloniyasına təkcə afrikalılar deyil, həm də italyanlar, etrusklar, yunanlar və yəqin ki, hətta misirlilər də sənətkarlıq və ticarətlə məşğul olmağa gəlirdilər.

Böyüklüyündən asılı olmayaraq bütün Finikiya şəhərləri və onların koloniyaları qala divarları ilə əhatə olunmuşdu. Gil və kərpicdən tikilmiş binalar əsasən iki mərtəbəli idi, baxmayaraq ki, altı mərtəbəli, möhtəşəm vanna otağı olan, döşəmələri kiçik mərmər kublarla kəsilmiş çəhrayı sementlə döşənmiş evlər də var idi. Şəhərlərdə möhtəşəm məbədlər, saraylar ucaldılırdı.[7]

***Assur koloniyaları***

Eramızdan əvvəl 1920 və 1750-ci illəri əhatə edən dövr Assuriya Ticarət Koloniyaları dövrü adlanır. Bu dövr həm də Anadolu torpaqlarında yazılı tarixin və Orta Tunc dövrünün başladığı tarixi ehtiva edir.

[1] http://w.w.w.izto.org.tr(27.03.2006)

Tunc istehsalı üçün lazım olan qalay Anadoluda az olduğundan, Mesopotamiya qalayına ehtiyac duyulurdu. Bu səbəbdən Asur tacirləri Anadoluya qalay gətirməyə başladılar. Zaman keçdikcə daşınan malların çeşidi də artıb.[2]

Mesopotamiya və Anadoluda Qədim Assur Dövləti arasında qurulan ticarət yolu zamanla inkişaf edərək hər iki coğrafiya arasında əsas ticarət yoluna çevrildi. Bu yolla Anadolu ticarət əlaqələri qurduğu sivilizasiyalarla qarşılıqlı əlaqədə olmuş və beləliklə, Mesopotamiyalıların silindrik möhürlər, dillər və mixi yazılar kimi mədəni elementlərini Anadoluya gətirmişdir. Anadoluda ortaya çıxan dulusçuluq isə Mesopotamiya təsirlərini əhatə edərək inkişaf etmişdir.[1]

Diyarbəkir, Malatya, Şanlıurfa, Kahramanmaraş və Adana qapılarından Anadoluya gələn tacirlər bu ticarət yolunda nəqliyyat üçün eşşək karvanlarından istifadə edirdilər. Ticarətlə də məşğul olan bu insanlar vergi və kirayə pulu da ödəyiblər. Ödənişləri müqabilində Anadoludakı bəylər tərəfindən ticarət yollarından keçərkən yollarını və mallarını qorumaq hüququ əldə etdilər.

Şəhərdən kənar bazarlarda məskunlaşan tacirlər "karum" adlanan bazarlardan alış-veriş edə bilirdilər. Karumların ən əhəmiyyətlisi Kültəpənin aşağısında qurulan "Poodle Karum" idi. Anadoludakı bütün karumlar Kaniş Karuma, o da Assuriyaya bağlı idi. Digər Karumlardan bəziləri; Bunları Hattuşas, Anes, Karahöyük və Əlişar kimi göstərmək olar.[3]

***Qədim yunan koloniyaları***

Qədim yunan treyderləri və dənizkənarı köçərilər, əsasən Yunanıstanın ərazisindən keçərək hərəkət etdilər. Onlar özlərini idarə edən müstəmləkələr kimi qurduqları ümumiyyətlə məhsuldar yerlərə, yaxşı limanlar, dost qonşuları və ticarət imkanları ilə məskunlaşmışlar. Daha sonra bu qızı koloniyalarının bəziləri öz kolonistlərini göndərdilər.

Koloniyalar eyni dili danışdılar və ana şəhəri kimi eyni tanrılara ibadət etdilər. Təsisçilər onlarla anası şəhərin ictimai ocağından (Prytaneumdan) götürülmüş müqəddəs bir atəş ilə daşındılar ki, onlar dükanı qurarkən eyni atəşdən istifadə edə bilərlər. Yeni bir koloniyanın qurulmasından əvvəl, onlar tez-tez Delphic Oracle ilə məsləhətləşdilər.[3][5]

Ədəbiyyat və arxeologiya bizə yunan koloniyaları haqqında çox şey öyrədir. Bu iki qaynaqdan ötrü bildiyimiz şeylərdən başqa, qadınlar müstəmləkəçi qrupların bir hissəsi olub-olmadığını və ya yunanların yerli əhali ilə nikah bağlamaq niyyətində olmadığı, niyə müəyyən yerlərin məskunlaşdıqları, başqaları yoxdursa müstəmləkəçiləri nəyə təşviq etdilər? Koloniyaların qurulması üçün verilənlər mənbəyə görə dəyişir, lakin yunan koloniyalarında yeni arxeoloji tapıntılar bu cür münaqişələri dəmir edə bilər, eyni zamanda Yunanıstan tarixinin itkin bitlərini təmin edir. Bir çox bilinməyənlərin olduğunu qəbul edərək, burada qədim yunanların müstəmləkə müəssisələrinə giriş nitqi var.[8]

***Finikya , Assur və Yunan koloniyalarının müqayisəli təhlili***

Finikiya və Yunan koloniyaları arasındakı ən əsas fərq onların koloniyaya baxışları ilə bağlıdır.Finikiyalılar müstəmləkələrinə daha praqmatik baxımdan yanaşaraq bölgədən maksimum geri dönüş almağa çalışırdılar. Finikiya müstəmləkələrinin çoxu yunanların emporiyalarına bənzəyirdi.Müstəmləkələşdirdikləri bölgənin içərilərinə soxulmağı ağlına belə gətirmir və bir-biri ilə barışmağa çalışaraq ticarəti mümkün qədər inkişaf etdirməyə çalışırdılar. yerli əhali ilə. Bütün bunlarla yanaşı, onların piratçılıq yolu ilə talançılıq fəaliyyəti ilə məşğul olduqları da məlumdur. Yunanlar isə emporiyalar kənarda qalarsa, müstəmləkə etdikləri bölgələri assimilyasiya etməyə

---

[2] KUHRT Amelie,Eski Çağ'da Yakındoğu Baskı, çev. Dilek Şendil, C: 2, İstanbul:Türkiye İş Bankası Yayınları, 2013.

[3] FERRO Marc,Sömürgecilik Tarihi, Baskı, çev. Muna Cedden, Ankara: İmge Kitabevi, 2017

çalışır və metropollardan müstəqil şəhər dövlətləri qurmağa nail olurlar. Beləliklə, qurulmuş müstəmləkələrdə yunan təsirləri daha qalıcı ola bilərdi.[4]

Yunanlar da, Finikiyalılar da Aralıq dənizində əsrlər boyu davam edəcək bir miras qoyublar. Finikiyalılar e.ə. 814-cü ildə Şimali Afrikada Karfagen şəhərini quraraq, uzun əsrlər boyu öz təsirlərini yaymağa nail oldular. Bu şəhər Romalılar tərəfindən dağıdılana qədər Aralıq dənizi ticarətinin ən mühüm güclərindən biri olaraq qalmağa davam etdi. Bundan başqa, dəniz qabığından çıxarılan bənövşəyi rəng, Romada zadəganlıq simvolunu təmsil etmək kontekstində, Finikiya şəhər dövlətlərinin sahillərindən istehsal və idxal edilən məhsullara daxil edilərək əsrlər boyu əhəmiyyətini qoruyub saxlamışdır. Bundan əlavə, Finikiyalılardan çox əvvəl inkişaf etdirilməsinə baxmayaraq, yelkənli və avarçəkən gəmilərin konstruksiyasının təkmilləşdirilməsi və gəmilərdə qoçların çox səmərəli istifadəsi onların gələcəyə qoyduqları ən mühüm mirasları təşkil edirdi. Ölkədəki meşə sərvətlərindən əlverişli istifadə imkanları ilə də məşhur olan Finikiyalılar, yəhudilərin xoşuna gəlməsələr də, Süleyman məbədinin tikintisi üçün taxta təmin etdikləri üçün Tövratda təriflənmişlər. Onların istehsal etdikləri mebel və toxuculuq məhsulları Aralıq dənizinin müxtəlif bölgələrinə də yayılıb. Bütün bunlarla yanaşı, Finikiyalılar bugünkü latın əlifbasının yaradıcısı və daşıyıcısı olması kontekstində bu gün dünya sivilizasiyasında öz təsirlərini davam etdirirlər.[4][6]

Yunanların mirası Finikiyalılarınkindən daha diqqət çəkən idi, çünki bu gün Qərb sivilizasiyası Yunan sivilizasiyasına əsaslanır. Xüsusilə ikinci koloniya hərəkatları ilə Aralıq dənizinin hər tərəfini müstəmləkə edən yunanlar fəlsəfə, ritorika, teatr kimi müxtəlif ədəbi janrları yaydılar. Yayılma zamanı başqa qəbilələrdən olan insanları tanıyaraq onları barbar adlandırmağa başladılar. Bu genişlənmədə Milet şəhərini xüsusilə qeyd etmək lazımdır.Fəlsəfənin başladığı yer kimi tarixdə özünəməxsus dəyəri olan şəhər doxsa yaxın koloniyalar qurmuşdur. Yunanların müxtəlif yerlərdə qurduqları bir çox koloniyaların adı bu gün də yaşamaqdadır. Sinop (Sinop), Trapezu (Trabzon) misal göstərmək olar. Müstəmləkəçilik hərəkətləri əsnasında və sonrasında Aralıq dənizinin hər tərəfini gəzmək imkanı əldə edən yunan səyyahları müxtəlif coğrafiyaları tanımaq fürsəti əldə etmiş və bu istiqamətdə araşdırmaların öncülləri olmuşlar. Bu kontekstdə ilk dünya xəritəsini çəkdiyi deyilən Hekataiosun (e.ə. 6-cı əsr) müstəmləkəçilik zamanı əldə etdiyi məlumatlardan bəhrələnmiş olması mümkündür. Müstəmləkəçilik nəticəsində yunanlar və digər tayfalar arasında mədəni qarşılıqlı əlaqə birtərəfli olmadı və digər tayfalar da yunanlara təsir etdi. Finikiyalılardan götürülmüş əlifba, Yunan hoplitlərinin hərbi texnikasına Assuriya təsiri və Yunan çəki ölçüsü minanın Akkad mənşəli olması bu mədəni qarşılıqlı əlaqənin ən yaxşı nümunələridir.[9]

## ƏDƏBİYYAT:


1. http://w.w.w.zazaki.de(28.03.2006)
2. http://w.w.w.360derece.info/antik_navigasyon.htm.(27.03.2006)
3. http://w.w.w.mezopotamya.tripod.com/ugarit_kenti.html.(08.04.2006)
4. http://w.w.w.kultur.gov.tr.(27.03.2006)
5. http://w.w.w.izto.org.tr(27.03.2006)
6. http://w.w.w.universite-toplum.org.(06.07.2006)
7. http://w.w.w.middeleeast.com.(13.05.2005)


[4] Özçelik, N. , İlkçağ Tarihi ve Uygarlıkları, Nobel Yayınları, Ankara 2002

8. http://w.w.w.phoniceia.org/trade.html (13-12-2005)
9. http://w.w.w.sidonexcavation.org/ht/ht (13.05.2005)
10. http://w.w.w.cedarland.org (13.05.2005

**Hərbiçi ailələri ilə sosial işin xüsusiyyətləri**

**Zəhra Əhmədzadə**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Elmi rəhbər: dos. Şabanov Zeynəddin**

"Hərbi qulluqçuların statusu" haqqında Qanun hərbi qulluqçuların ailələrinin sosial müdafiəsi haqqında bir sıra tədbirlər nəzərdə tutur (sosial müdafiə təminatları Qanunun 21-ci və 29-cu maddələrində nəzərdə tutulub).

Bu hərbi qulluqçular siyahısına zabitlər, gizirlər, miçmanlar və müddətdən artıq həqiqi hərbi xidmət keçən hərbi qulluqçular aiddir.

Bu təminatlar əmək hüquq münasibətlərində və sosial təminat məsələlərində nəzərdə tutulub."Hərbi qulluqçuların statusu" haqqında Qanuna əsasən əmək münasibətləri sahəsində hərbi qulluqçuların ailələri üçün nəzərdə tutulan təminatlar aşağıdakılardır:

1) işə qəbul olunmaq və işçilərin sayı və ya ştatı ixtisarı edilərkən işdə saxlanmaq üçün həmin şəxslərə üstünlük verilməsi;

Yerli icra hakimiyyəti başçıları, dövlət müəssisələrinin, idarələrinin və təşkilatlarının rəhbərləri, qarnizonların rəisləri, qoşun hissələrinin komandirləri hərbi qulluqçuların arvadlarının müraciət etdiyi andan ən geci bir ay keçənədək onların işə düzəldilməsi üçün tədbirlər görməlidirlər.

2) istehsalatdan ayrılmaqla hazırlıq və əlavə təhsil müəssisələrinə ilk növbədə göndərilmək və hansı vəzifə üçün hazırlanırlarsa, həmin vəzifəyə uyğun orta aylıq əmək haqqı almaq;

3) qoşun hissələrinin olduğu şəhərlərdə, qəsəbələrdə və kənd yaşayış məntəqələrində hərbi qulluqçuların ailə üzvlərini işə düzəltmək imkanı yoxdursa, hərbi komandanlığın xahişi ilə yerli icra hakimiyyəti başçıları, nazirliklər və baş idarələr, dövlət müəssisələri, idarələri və təşkilatları tərəfindən kiçik müəssisələr, filiallar, sexlər, sahələr (istehsalatlar) təşkil edilməsi;

4) hərbi qulluqçuların məzuniyyətdə olduğu dövrdə onların arvadlarına (arzuları ilə) hər il məzuniyyətlər verilməsi;

5) müvəqqəti əmək qabiliyyəti olmadığına görə hərbi qulluqçuların arvadlarına iş stajından asılı olmayaraq aldığı qazanc məbləğində Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 74-cü maddəsinə (tərəflərin iradəsindən asılı olmayan hallarda əmək müqaviləsinə xitam verilməsi əsasları) uyğun olaraq müavinətlər ödənilməsi.

Əmək Məcəlləsinin 74-cü maddəsinə əsasən əmək qabiliyyətini müvəqqəti itirmiş işçilərin iş yeri və vəzifəsi saxlanılmaqla onlara ilk 14 gün üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada və miqdarda işəgötürənin vəsaiti, qalan günlər üçün isə məcburi dövlət sosial sığorta haqları hesabına müavinət ödənilir.

6) ali və orta ixtisas məktəblərini bitirmiş hərbi qulluqçu arvadlarının (ərlərinin) öz ərinin (arvadının) xidmət yerinə göndərilməsi, belə imkan olmadıqda isə (yaxud özləri istəsələr) onların müstəqil surətdə işə düzəlməsi;

7) Müəssisə, idarə, təşkilat ləğv edilərkən yerli icra hakimiyyəti başçıları müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları arvadlarını müəssisənin, idarənin, təşkilatın ləğv edilməsindən ən geci **iki həftə** keçənədək işə düzəltməlidirlər (1).

"Hərbi qulluqçuların statusu" haqqında Qanuna əsasən hərbi qulluqçuların ailələrinə aşağıdakı əlavə sosial təminatlar nəzərdə tutulur:

– İxtisas üzrə işə düzəlmək imkanının olmadığı yerlərdə ər (arvad) ilə birlikdə yaşamağın bütün müddəti sığorta stajına daxildir.

– Hərbi qulluqçuların işləməyən arvadlarının öz ərlərinin xidmət yeri üzrə işə düzəlməsi mümkün olmadıqda onlara müəyyən edilmiş minimum əmək haqqı məbləğində aylıq pul müavinəti ödənilir.

– Yerli icra hakimiyyəti başçıları ailədə adambaşına gəlirləri müəyyən edilmiş dolanacaq minimumundan az olan müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ailələrinə Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilən məbləğdə və qaydada maddi yardım göstərir.

– Müddətli xidmət hərbi qulluqçularının, hərbi təhsil müəssisələri kursantlarının (müddətli xidmət hərbi qulluqçuları və mülki gənclər sırasından) uşaqlarına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məbləğdə pul müavinəti ödənilir.

– Yerli icra hakimiyyəti başçıları hərbi qulluqçuların uşaqlarını müraciət anından ən geci bir ay keçənədək idarə mənsubiyyətindən asılı olmayaraq yaşayış yeri üzrə uşaq bağçası-körpələr evlərinə, internat məktəblərə düzəltməlidirlər. Öz uşaqlarının məktəbəqədər tərbiyə müəssisələrində saxlanması haqqını ödəmək üçün hərbi qulluqçulara onların tabe olduqları müvafiq nazirliklər və baş idarələr tərəfindən müəyyən edilmiş qaydada və məbləğdə kompensasiya ödənilir.

– Hərbi qulluqçu və ya həqiqi hərbi xidmətdən buraxılmış şəxs həlak olduqda (vəfat etdikdə) onun ailəsi istifadə etdiyi güzəştlərə hüququnu saxlayır, bu şərtlə ki, Azərbaycan Respublikasının qanunvericiliyində başqa hal nəzərdə tutulmasın.

– Həlak olmuş (ölmüş) hərbi qulluqçuların ailələrinin yaşayış sahələri ilə təmin edilməsinə təminat verilir. Belə ki, hərbi xidmət vəzifələrinin icrası zamanı həlak olmuş (ölmüş) hərbi qulluqçunun ailəsinə, zərurət olduqda, hərbi qulluqçunun həlak olduğu (öldüyü) gündən ən geci 6 ay keçənədək dövlət mənzil fondu hesabına növbədənkənar abad mənzil almaq və ya mənzil şəraitini yaxşılaşdırmaq hüququ verilir, uşaqları yetkinlik yaşına çatanadək müvəqqəti mənzilin kirayəsi üçün kompensasiyanın ödənilməsi davam etdirilir.(7)

Türk alimi Tomanbayın fikrincə, hərbi sosial iş xüsusi şərtlər və qaydalara uyğun yaşayan hərbiçilərin və onların ailə üzvlərinin vəziyyət və şəraitlərindən irəli gələn problemləri aradan qaldırmaq, psixoloji təzyiqləri azaltmaq, sosial hərbi xidmət və s. kimi sosial xidmətlərin göstərilməsi üçün müəyyən edilmişdir. (6, s.184)

Tanınmış mütəxəssis Barker qeyd edir ki, hərbi sosial iş; həqiqi hərbi qulluqçular və onların ailə üzvləri üçün peşəkar sosial xidmətlər kimi müəyyən edilir. Bu müraciət forması ABŞ ordusuna aiddir bütün hərbi ocağları üçün sosial xidmət mütəxəssisləri tərəfindən həyata keçirilir. Zabit olmayan sosial işçilər də Ordu, Hava və Dəniz Qüvvələrində xidmət edə bilərlər. Hərbi sahəsindəki sosial işçilər; hərbi işçilərinin və onların ailələrinin emosional sıxıntılarının qiymətləndirilməsi, onların müalicəsi, onların sosial resurslara çıxışın təmin edilməsi və sosial resursların inkişafı, hərbi qulluqçular və mülki işçilər arasında və hətta onların ailələri arasında səmərəli ünsiyyət və qarşılıqlı əlaqəni təmin etmək kimi vəzifələri yerinə yetirməkdir. (4, s.303)

Hərbi sosial iş hərbi personalın, veteranların, onların ailələrinin problemlərinin müalicəvi, reabilitativ müalicəsi və onların həyat keyfiyyətini yaxşılaşdırmaq, eləcə də profilaktik tədbirlər görmək, siyasət və inzibati fəaliyyətlərini artırmaq tətbiq tələb edir (2,

s.10). Silahlı Qüvvələrdə çalışacaq olan sosial işçilərin ilk növbədə çalışacağı mühit və onların müştərilərinin sosial, psixoloji və demoqrafik xüsusiyyətlərini və ehtiyaclarını bilməlidir. Gənclərin niyə əsgərliyi seçib fərqli yol tutduğu haqda tədqiqat apararkən xüsusən bu dörd səbəbə rast gəlirik:

-Ailə ənənəsi (bir və ya bir neçə ailə üzvünün hərbi qulluqçu olması),

-Orduda xidmət etməyin üstünlükləri,

-Döyüşçü zehniyyətinin olması, müharibən şəraitində olmaq kişilər arasında kişiliyi sübut etmə kimi psixologiya yaradır.

-Bəzi gənclər mülki həyatda iş tapmaqdan və digər həyat təcrübələrindən qaçaraq, gələcəyi daha yaxşı görə bilirlər, qaydaları olan və iş itkisi yaşamayacaqları, həyat tərzini mənimsəmək, böyük bir ailənin üzvü olmaq və təhlükəsiz hiss etmək üçün orduda xidmət etməyi seçirlər(2, s.49).

Ordu mədəniyyətini mülki mədəniyyətdən fərqləndirmək üçün bir çox cəhətlər olsa da burada bir neçəsini qeyd etmək lazım gələ bilər.

-Vəzifə ilə əlaqədar tez-tez evdən getmək və evə qayıtmaq, ailədən uzaq olmaq.

-Təyinatla əlaqədar tez-tez bölgə dəyişmək.

-Ailələrini də hərbi yaşayış məntəqələrində ciddi nizam-intizam və sərt qaydalara uyğunlaşdırmaq öhdəliyi

-"Vəzifə həmişə birinci gəlir" anlayışı altında yaşamaq və buna uyğunlaşan ailələr təmin etmək öhdəliyi(5, s.124).

Hərbi sosial işçilərin mülki həmkarları ilə müqayisədə əlavə rolları var. Çətin şəraitdə hərbi sosial xidmət və sosial iş təcrübələri sınaqdan keçirilir və yeni texnikalardan istifadə edilir. Həmçinin sosial xidmət mütəxəssisinin bilik və bacarıqlarını inkişaf etdirən tətbiq sahələri var.

**ƏDƏBİYYAT:**


1. "Hərbi qulluqçuların statusu" haqqında Qanun. Bakı, 2021
2. Mahmudova N. Hərbi qulluqçuların ailələri ilə sosial iş texnoloiyaları. Bakı, 2022
3. Aktaş, A. M. (2002). Orduda sosyal hizmet. KHO Savunma Bilimleri Dergisi, 1, 97-107. http://www.kho.edu.tr/akademik/enstitu/savben_dergi/11/Makale4.pdfsosialhizmetuzmani.org/ordudasosyalhizmet.doc
4. Barker, R.L. (1999). The social work dictionary. Washington DC: NASW Press. ss. 303, 304
5. Guttmann, D. (2006) Ethics in social work- a context of caring, New York, The Haworth Press.
6. Tomanbay, İ. (1999). Sosyal çalışma sözlüğü. Ankara: Selvi Yayınevi.
7. https://benefisiar.org/huquqi-yardim/15466/h%C9%99rbicil%C9%99rin-ail%C9%99-uzvl%C9%99rinin-hansi-sosial-mudafi%C9%99-t%C9%99minatlari-var.html

## Azərbaycan və Türkiyə Türkcəsində istifadə olunan dərman bitkilərinin adlarının müqayisəli təhlili

**Enes Emre**
**Azərbaycan Tibb Universiteti**
**Elmi rəhbər: Ağayeva Zülfiyə**

Türkiyə Cümhuriyyətinin qurucusu, Mustafa Kemal Atatürkün də dediyi kimi "Milli hiss ilə dil arasındakı bağ çox qüvvətlidir. Dilin milli və zəngin olması milli hissin inkişafında başlıca müəssirdir. Türk dili, dillərin ən zənginlərindəndir; yeter ki bu dil şüurla işlənsin. Ölkəsini, yüksək istiqlalnı qorumasını bilən Türk milləti dilini də yabancı (əcnəbi/xarici) dillərin boyunduruğundan qurtarmalıdır".

Müasir dövrdə yaşadığımız dünyada baş verən qlobal sosial-siyasi hadisələrin nəticəsində xalqlar arasında inteqrasiya prosesi güclənməyə başlamışdır. Bu özünü türk xalqlarının arasında da göstərmişdir. Belə ki, müasir türk dövlətləri arasında ictimai-mənəvi, tarixi-mədəni və s. əlaqələr sürətlə artmağa, ardıcıl xarakter daşımağa başlamışdır. Bu sıx əməkdaşlıq özünü Türkiyə və Azərbaycan əlaqələrində də göstərməkdədir. ulu öndəri Heydər Əliyev haqda deyir: Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının əbədi və daimi olduğunu təcəssüm etdirən "Biz bir millət, iki dövlətik" müdrik kəlamı bu gün də hər iki dövlətin vətəndaşları üçün örnəkdir. Son illər baş verən hadisələr bir daha təsdiqlədi ki, iki qardaş ölkə arasındakı qırılmaz əlaqələr daha möhkəm və sarsılmazdır. Bu da öz növbəsində bu xalqların getdikcə ideoloji baxımdan bütövləşməsinə, dillərin bir-birinə yenidən yaxınlaşmasına gətirib çıxarmışdır. Qohum dillərin müqayisəli öyrənilməsi hər zaman dilçi alimlərin diqqət mərkəzində olmuşdur. Azərbaycan dili və Türk dili Türk dilləri ailəsinin üzvləridir.

Görkəmli türkoloq alim, professor F.Zeynalov qohum dillərin müqayisəsi haqqında yazırdı: "Bu və ya digər bir dili başqa qohum dil (və ya qohum dillər ailəsi) ilə müqayisə etdikdə nəzərdə tutmaq lazımdır ki, bu dillərin tamamilə bir-birinə uyğun gələn və ya tamamilə bir-birinin əksi olan sözlərinin müqayisəsi elmi nəticə çıxarmağa imkan verməz. Müqayisə zamanı birinci növbədə iki qohum dilin tarixən ümumi (eyni) olub, lakin tədricən dəyişikliyə uğramış materialları tutuşdurulmalı və bu əsasda da fikir söylənilməlidir" (Zeynalov F, 1959: 7). Biz də bu fikirdən yola çıxaraq ixtisasıma uyğun formada Azərbaycan və Türk dillərində istifadə edilən dərman bitkilərinin adlarını müqayisəyə cəlb etməyə çalışdıq.

Dərman bitkilərinin tarixinə gəlincə deyə bilərik ki, bu bitkilər qədim dövrlərdən bəri kəşf edilmiş və xalq təbabətində istifadə edilmişdir. Məlum olduğu üzrə, bitkilər həşəratlara, göbələklərə, xəstəliklərə və ot yeyən məməlilərə qarşı müdafiə və qorunma da daxil olmaqla, müxtəlif funksiyalar üçün yüzlərlə kimyəvi birləşmə sintez edir. Dərman bitkiləri haqqında ən erkən tarixi qeydlərə Şumer sivilizasiyasına məxsus olan e.ə. 3000-ci ilə aid gil lövhələrdə rast gəlinir. Bu qeydlərdə tiryək də daxil olmaqla yüzlərlə dərman bitkisi yer alır. Bir digər nümunə isə qədim Misirə məxsus olan e.ə. təxminən 1550-ci ilə aid Ebers papirusunda isə 850-dən çox dərman bitkisi təsvir edilmişdir. Roma ordusunda işləmiş yunan həkimi Dioskorid e.ə. təxminən 60-cı ildə "*De materia medica*" adlı əsərində 600-dən çox dərman bitkisinin istifadə edildiyi 1000-dən çox dərmanın reseptini sənədləşdirmişdir (5). Dərman kəşfləri ilə məşğul olan əczaçılar bəzən farmakoloji cəhətdən aktiv maddələrin axtarışı üçün etnobotanikadan istifadə edir və bu yanaşma nəticəsində yüzlərlə faydalı birləşmələr əldə edilmişdir. Bunlardan biri də adını hər birimizin bildiyi aspirindir.

Dərman bitkilərindən tibb sahəsində istifadəsi Azərbaycan və Türkiyə ərazisində yaşayan xalqlardan da yan keçməmişdir. Hətta, ortaq abidəmiz olan "Kitabi-Dədə Qorqud" dastanında biz bu hadisənin şahidi oluruq, birinci boyda "Xızır ölüm ayağında olan Buğacın yarasını sığallayaraq "sənə bu yaradan qorxma, oğlan, ölüm yoxdur; dağ çiçəyi ana südüylə sənin yarana məlhəmdir" deyir və Burla Xatun qırx incə belli qızın dağdan yığdığı çiçəklər ilə öz südünü qarışdıraraq məlhəm hazırlayır" (Gökyay, 1982: 42). Bu da onu göstərir ki, Azərbaycanda və Türkiyədə bir çox bitki və meyvələrin müalicəvi xüsusiyyətləri, təbabətdə istifadəsi, müalicə üsulları ilə insanlara çoxdan məlumdur. Azərbaycan və Türkiyə florasına daxil olan bitkilərin və meyvələrin bir çoxu dərman əhəmiyyətlidir. Müalicəvi dərman bitkilərindən: çobanyastığı, itburnu, limon, zəfəran, gicitkən, nanə, moruq, çay və s. göstərmək olar.

**Çobanyastığı** (Azərbaycan dili) – papatya (Türk dili) – Dünya florasının tərkibində çobanyastığının 50 növü yayılmışdır. Onun Qafqazda 3, o cümlədən Azərbaycanda 2 növünə təsadüf edilir. Çobanyastığı güclü mualicəvi təsirə malikdir, belə ki, bitki ilə bir çox xəstəlikləri, o cümlədən də "uşaqlığı" müalicə edirmişlər. Çobanyastığı sözü "Azərbaycan dilinin izahlı lüğəti"ndə bu şəkildə verilmişdir: "***Çobanyastığı*** – isim. Bot. Mürəkkəbçiçəklilər fəsiləsindən xırda sarı çiçəklər açan ot bitkisi. Məğrur lalə, xumar nərgiz, həsrət bənövşə, çobanyastığı və başqa çiçəklər səhər nəsminin ahəngilə yırğalanır.. (qəzetlərdən)" (ADİL, I cild, 2006: 490). Türkiyə Türkcəsində bu sözün qarşılığı papatyadır. Papatya sözünün "Tükçe Sözlük"də izahı belə verilib: "Papatya - *isim, bitki bilimi, (papa'tya), Rumca* - Birleşikgillerden, 20-50 santimetre yüksekliğinde, baharda çiçek açan, taç yaprakları beyaz, ortası sarı kömeçli, bir yıllık otsu bir bitki, yoğurt çiçeği (Matricaria chamomilla)" (TS, 2011: 1882). "Qədim romalılar isə çobanyastığına "chamaemelon" adı vermişlər. "Chamai" alçaq, "melon" isə "alma" mənalarını daşıyır. Bir sıra botaniklər çobanyastığının incə və xoş ətirli odluğunu, sanki ağacda yenicə yetişmiş almanın iyini xatırlatdığını qeyd edirlər. Lakin Dioskorid və Pliniyə görə isə təəssüflər olsun ki, bitkinin iyi almanın qoxusunu xatırlatmır. Bitkinin digər adı, yəni "romaşka" birinci dəfə XVIII əsrdə yaranmışdır. Orta əsrlərdə bitkinin latınca adı "Anthenus romana", bir qədər sonra "Chamaemeum romana" olmuşdur. Buradan da bizə aydın olur ki, "romaşka" sözü "romana" sözündən formalaşmışdır" (5). Çobanyastığı qiymətli dərman bitkisi kimi hələ qədim yunan və Roma, eləcə də orta əsr tibb alimlərinə məlum olmuşdur. İnqilaba qədər apteklərdən "çobanyastığı çiçəkləri" əldə etmək üçün insanlar uzun yollar qət edirmişlər. Dərman bitkilərinə yaxından bələd olan yazıçı M.B.Retov "Rus dərman bitkiləri" əsərində yazır ki, tacirlər dünyanın müxtəlif ölkələrindən külli miqdarda çobanyastığı toplayıb Almaniyaya, oradan da Rusiyaya gətirərək çox baha qiymətə satırmışlar.

**Gicitkən-** çoxillik ot bitkisidir. Dərman məqsədi ilə bitkinin yarpaqlarını yay fəslində toplayıb açıq havada qurudurlar. Gicitkən sözünün izahı ADİL-də belə verilib: "Gicitikən – isim, botanika - Gövdə və yarpaqlarında dalayıcı tükləri olan ot bitkisi; gəzənə. Böyük bir səadət isə bu yerlərin cincilim,gicitikən kimi otlarla dolu olması idi. S. Vəliyev (ADİL, II cild, 2006: 244). Türkiyə Türkcəsində isə bu bitki ısırgan otu olaraq adlandırılır və "Türkçe Sözlük"də izahı belə verilib: "Isırgan - isim, bitki bilimi - Isırgangillerden, her tarafı sert tüylerle kaplı, tüyleri kırıldığında karınca asidi denilen çok kaşındırıcı bir madde çıkartan bir ot (Urtica): "Bu ulu ağaç yerlerde sürüne sürüne kurudu ve etrafını dikenler, ısırganlar bürüdü." - Ahmet Hikmet Müftüoğlu. Isırgan ile taharet olmaz "kötü kişiden, iyilik beklenmez" anlamında kullanılan bir söz". (TS, 2011: 1127) Gicitkən vitaminlərlə zəngin dərman bitkisidir. Onun tərkibində karotin, "C" vitamini, $B_2$ və K vitaminləri, xlorofil, urtisin qlikozidi, üzvi turşular və s. vardır.

**İtburnu**- bu bitkiyə "dərgil" də deyilir. "Azərbaycan dilinin izahlı lüğətin"də itburnu sözünün açıqlaması bu şəkildə verilmişdir: "isim, botanika – Qızılgül fəsiləsindən tikanlı kol bitki və onun qırmızı meyvəsi. İtburnu kolu. İtburnu gülü. İtburnu – qışda yarpağı tökülən , iki metrə qədər hündürlükdə, tikanlı koldur. May ayında çiçəklənir, meyvəsi vitaminlə zəngindir, sentyabrda yetişir. H. Qədirov" (ADİL, II cild, 2006: 608). Respublikamızın ərazisində geniş yayılıb. Türk dilində itburnuya – kuşburnu deyilir. "Türkçe Sözlük"də kuşburnu sözünün izahı belə verilib: "Kuşburnu - (ku'şburnu) - 1. isim, bitki bilimi Çalılık ve ormanlık alanlarda yetişen, soluk pembe renkte çiçekler açan bir ağaç, yaban gülü ağacı (Rosa canina): "Kuşburnuyu budarlar / Işkın sürmesin diye" - Halk türküsü; 2. isim, bitki bilimi Bu ağacın parlak kırmızı renkli, içi tüylü ve çekirdekli meyvesi; 3. isim Bu meyveden yapılan içecek." (TS, 2011: 1544). İtburnunun tərkibi vitaminlərlə, şəkərlərlə, mikroelementlərlə olduqca zəngindir. Bitki aləmində yayılmış vitaminlərin hamısı, xüsusilə "C" vitamini itburnunun tərkibində daha çoxdur. Odur ki, onu təbii vitamin kompleksi adlandırırlar. Tərkibində olan qiymətli maddələrin zənginliyinə və bir sıra müalicəvi xüsusiyyətlərinə görə ondan xalq təbabətində geniş istifadə olunur.

**Limon** - "C" və "P" vitaminləri ilə çox zəngindir. Bu bitki həm Azərbaycan dilində, həm də Türkiyə Türkçəsində eyni fonetik tərkibdə istifadə edilir. "Azərbaycan dilinin izahlı lüğəti"ndə limon sözünün açıqlaması: "Limon – isim, botanika, yunanca – Subtropik yerlərdə bitən həmişəyaşıl sitrus ağacı və bu ağacın yumurtaşəkilli turşməzə, sarı meyvəsi. Çaya limon salmaq. Limon şirəsi" (ADİL, III cild, 2006: 265) şəklində verilmişdir. Türk dilində də limon şəklində istifadə edilir və "Türkçe Sözlük"də izahı belədir: "Limon - Rumca - 1. isim, bitki bilimi Turunçgillerden, 3-5 metre yüksekliğinde, kışın yapraklarını dökmeyen, beyaz çiçekli bir ağaç (Citrus limonum); 2. isim Bu ağacın sarı renkli, kabuğu kokulu, suyu ekşi meyvesi, sulu zırtlak." (TS, 2011: 1587). Təbabətdə bu qiymətli bitkinin ən çox meyvəsindən istifadə olunur. Limon meyvələrinin qabıq hissəsində 3-6%-ə kimi efir yağı vardır. Limon yağından təbabətdə geniş istifadə olunur, həmçinin limon meyvəsinin 8-9%-ni limon turşusu təşkil edir. Limondan angina və avitaminoz xəstəliklərində istifadə olunur.

**Çay**- tərkibində müxtəlif müalicəvi maddələr var. Bu söz də həm Azərbaycan dilində, həm də Türk dilində eyni şəkildə və eyni mənada istifadə olunur. ADİL-də çay sözü belə izah edilib: "Çay - is. [çin.] 1. Qurudulmuş yarpaqlarından ətirli içki hazırlanan həmişəyaşıl ağac və ya kol. Çay kolu. Çay plantasiyası; 2. Həmin bitkinin ətirli içki hazırlamaq üçün xüsusi surətdə qurudulmuş yarpaqları; 3. Həmin yarpaqlardan dəmlənib hazırlanan ətirli içki. Şirin çay. Tünd çay. Barışdırmaq rəsmini tamam edəndən sonra qonaqlar şüru elədilər çay içməyə. Ə.Haqverdiyev. Əsmər xala bir stəkan çay süzüb qa- bağına qoydu. Q.İlkin. // Müxtəlif bitkilər-dən, ədviyyatdan dəmlənib hazırlanan içki, yaxud çayı əvəz edən hər hansı bir surroqat. Kəklikotu çayı. Zəncəfil çayı. - [İbrahim:] Bala, yoxsa sənə soyuq dəyib, sənin üçün bu saat darçın çayı bişirərəm. Ə.Haqverdiyev; 4. Çay içmə, çay süfrəsi. Çaya dəvət etmək. Çaydan sonra Nənəxanım Yetərlə çarşaba bürünüb, qız axtarmağa getdilər. Çəmənzəminli. Bir yerdə çay içdik, çaydan sonra mən yatdım. Ə.Haqverdiyev." (ADİL, I cild, 2006: 453). "Türkçe Sözlük"də isə sözün izahı belədir: "Çay - Çince - 1. isim, bitki bilimi Çaygillerden, nemli iklimlerde yetişen bir ağaççık (Thea chinensis); 2. isim, bitki bilimi Bu ağaççığın özel işlemlerle kurutulan yaprağı; 3. isim Bu yaprağın demlenmesiyle elde edilen güzel kokulu ve sarımtırak kırmızı renkli içecek: "Bize çay ikram ettiler." - Ahmet Kabaklı; 4. isim Çeşitli bitkilerin yaprak veya çiçeklerinin demlenmesiyle elde edilen bir içecek türü; 5. isim Konukların içecek ve börek, pasta vb. yiyeceklerle ağırlandığı toplantı: "Sana bir şey söyleyeyim mi, artık çay davetlerinden bıktım." - Peyami Safa; 6. isim

Müzikli toplantı: "Gittiği zengin arkadaşlarının çayından allak bullak gelir." - Haldun Taner" (TS, 2011: 507). Yaxşı dəmlənmiş pürrəngi çay maliyariya xəstəliklərinin, böyrək və öd kisəsi xəstəliklərinin və s. dərmanıdır. Fiziki və zehni yorğunluq zamanı da çay çox fayda göstərir. Həddindən artıq çay içmək məsləhət görülmür, hətta zərərlidir. Yaşıl çay da vitaminlərlə zəngindir və sağlamlığa faydalıdır.

Azərbaycan ədəbi dilinin Türk ədəbi dili ilə müqayisəsi qohum olan bu iki dildə ortaq işlənən bitki adlarını müəyyən etməyə imkan verir. Azərbaycan və Türk dillərində eyni, bəzən kiçik fonetik dəyişmələrlə, bəzənsə təmamilə fərqli fonoformalarda istifadə edilən bitki adlarının olması bu dillərin türk dilləri ailəsinin, oğuz qrupuna aid olmasının, eyni bir kök dildən törəməsinin bariz göstəricisidir.

**ƏDƏBİYYAT:**


1. Azərbaycan dilinin izahlı lüğəti. (2006). 4 cilddə. Bakı: Şərq-qərb, I c. - 740 s.; II c. - 791s; III c. – 671 s.; IV c. – 709 s.
2. Gökyay O.Ş Dedem Korkut Kitabene İngilisce Çevireleri. Destersuz Bağa Girenler (1982). Derganan yayinları. İstanbul, s.210-217
3. Zevnalov F.R. Türk dilərinin müqayisəli qrammatikası (Oçerklər). (1959). Bakı, s. 7.
4. Türkçe Sözlük, Ankara (2011), s. 2763.
5. İnternet resursu: https://az.wikipedia.org/wiki/%C3%87obanyast%C4%B1%C4%9F%C4%B1

# Əqli mülkiyyət hüquqi

**Orucova Vəfa**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Elmi rəhbər: Qəhrəmanova Nailə**

**Əqli mülkiyyət** – qanunvericilik aktları ilə müəyyən edilmiş hallarda və qaydada vətəndaşın, yaxud hüquqi şəxsin intellektual yaradıcılığın nəticələrinə, yaxud ona bərabər tutulan məhsulların, yerinə yetirilən iş və xidmət növlərinə (firma adı, əmtəə nişanı, xidməti nişan və s.) müstəsna hüquqdur.

**Əqli mülkiyyət hüquqları** – müəlliflik hüququnun obyekti olan əsərlərə, ifalara, fonoqramlara, yayım təşkilatlarının verilişlərinə, inteqral sxem topologiyalarına, məlumat toplularına, folklor nümunələrinə (ənənəvi mədəni nümunələrə), ixtiralara, faydalı modellərə, sənaye nümunələrinə, əmtəə nişanlarına, coğrafi göstəricilərə hüquqlar.

Azərbaycanda dövlət siyasətinin mərkəzində **vətəndaş amili**, **əhalinin yüksək rifahı və layiqli həyat səviyyəs**i dayanır. Yeni dövrdə isə dövlət müasir əmək bazarının tələblərinə uyğun bilik və bacarıqların inkişaf etdirilməsi, rəqabətli insan kapitalının formalaşması, cəmiyyətin yüksək rəqəmsal mədəniyyətə və bacarıqlara sahib olması və innovativ texnologiyalara əsaslanan iqtisadiyyatın formalaşdırılması yolu ilə sosial rifahı yüksəltməyi hədəfləyir. Azərbaycan dünyada **artan rəqabətə uyğun insan kapitalı** formalaşdırmaqla rifaha nail olmağı prioritet kimi müəyyən edib. Bu baxımdan ölkəmizdə rəqəmsal iqtisadiyyatın və texnologiyaların inkişafi üçün əlverişli infrastrukturun formalaşdırılması istiqamətində fəal iş aparılır. Azərbaycan Respublikası Prezidentinin 6 yanvar 2021-ci il tarixli Fərmanı ilə Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin, Azərbaycanda Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Afiləedilmiş Mərkəzinin yaradılması da ölkəmizi yeni texnoloji rəqabət mühitində önə çıxarmaq məqsədindən irəli gəlir.

Bununla yanaşı, idarəetmə sahəsində daim təkmilləşmə və effektivlilik əsas götürülərək insan kapitalının, kadr potensialının formalaşması, bacarıqlı kadrların önə çıxarılması məqsədilə də **yeni layihələr həyata keçirməkdədir**. Məsələn, "Yüksəliş" müsabiqəsi intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri, yeni dövrə uyğun bilik və vərdişləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi və ölkədə kadr bankının yaradılmasını təmin etmək məqsədilə atılmış mühüm addımdır. Bununla yanaşı, İqtisadiyyat Nazirliyində yüksək potensiallı ehtiyat kadrlar bazasının formalaşdırılmasında mövcud potensialdan səmərəli istifadə, peşəkarlıq səviyyəsinin artırılması, rotasiyasının, hərtərəfli inkişaf üçün şəraitin yaradılmasının təmin edilməsi, eləcə də idarəetmə sahəsində təcrübə mübadiləsinin təşkil edilməsində "Uğur yolu" karyera inkişaf proqramının həyata keçirilməsi xüsusi önəm kəsb edir.

İnsan kapitalının həlledici rolunu nəzərə alaraq, innovasiyaların davamlı inkişafı fonunda bu sahəyə diqqət getdikcə artacaq. Bu məqsədlə şərait və mühit daha da əlverişli hala gətiriləcək. Təhsilin keyfiyyətinin yüksəldilməsi, innovasiyaları təşviq edən münbit şəraitin yaradılması, ölkəni rəqabətdə irəli aparmaq üçün cəmiyyətin yaradıcılığını və innovativliyini stimullaşdıran ekosistemin qurulması, dövlətin vahid rəqəmsal platformasının yaradılması kimi tədbirlər də buna xidmət edəcək.

Əqli mülkiyyətin bütün sahələrində olduğu kimi müəlliflik hüququ da insan zəkasının işini qorumaqla məşğuldur. Müəlliflik hüququnun sahəsi ədəbi və incəsənət əsərlərinin qorunmasıdır. Bunlara yazılar, musiqi və təsviri sənət əsərləri, məsələn, rəsm və heykəltəraşlıq əsərləri, kompüter proqramları və elektron verilənlər bazası kimi texnologiyaya əsaslanan əsərlər daxildir. Qeyd edək

ki, müəllif hüquqları əsərləri qoruyur, yəni fikirlərin deyil, fikirlərin ifadəsidir. Beləliklə, bir süjet təsəvvür edirsinizsə, bu, beləliklə qorunmur. Məsələn, ailə və ‘kasta maneələrinə baxmayaraq bir-birini sevən gənc kişi və qadınların hekayəsindən ibarət bir süjet qorunmazdı. Fərqli yazıçılar oxşar süjet əsasında hekayələr qura bilərlər. Amma onu konspektdə və ya məsələn, povestdə, tamaşada ifadə edəndə həmin hekayədəki süjetin ifadəsi qorunacaq. Buna görə də, məsələn, Şekspirin “Romeo və Cülyetta” pyesi həmin süjetin yaradıcı ifadəsi sayılacaqdır. Yenə də digər yazıçılar oxşar süjet əsasında yeni hekayələr qura bilərlər. Ədəbi-bədii əsərin yaxşı və ya bədii (əlamətli) olması tələbi yoxdur. Bununla belə, orijinal olmalıdır. Bu tələbin dəqiq mənası ölkədən ölkəyə dəyişir və bu, çox vaxt məhkəmə təcrübəsi ilə müəyyən edilir. Ümumi terminlərlə demək olar ki, ümumi hüquq ənənəsinə mənsub ölkələrdə çox az şey tələb olunur, bundan başqa əsər başqa bir əsərin surəti olmamalıdır və müəllif ərsəyə gətirməkdə minimum bacarıq, əmək və mülahizə nümayiş etdirməlidir. Mülki hüquq ənənəsinə mənsub olan ölkələrdə tələb çox vaxt daha güclü olur, məsələn, əsərdə müəllifin şəxsiyyətinin möhürü olmalıdır. Müəllifdən sadəcə bacarıq, əmək və ya mühakimədən kənara çıxa biləcək yaradıcı səy tələb olunacaq. Müəlliflik hüququ, Bern Konvensiyasının başlığında göstərildiyi kimi ədəbi və incəsənət əsərlərini qoruyur. Bu iki anlayışı çox geniş mənada götürmək lazımdır.

Dövlət başçısı cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət bütün sferalarda köklü dəyişikliklər əldə olunmasına imkan vermişdir. O post-neft dövründə qeyri-neft sənayesinin inkişafını prioritet məsələlərdən biri kimi qarşıya qoymuşdur. Bu baxımdan neft kapitalını insan kapitalına çevirmək siyasəti aparılan elmi tədqiqatlarda da özünü göstərməkdədir. Heç şübhəbiz ki, biz iqtisadçılar da bu məsələdə öz töhfəmizi verə bilərik. Dünya təcrübəsi göstərir ki, insan kapitalının inkişafı ölkənin, əhalinin gəlirlərinin artımına gətirib çıxarır. Müasir tələblər baxımından insan kapitalının formalaşmasının, iqtisadi səmərəliliyinin ölçülməsi və ondan istifadənin yaxşılaşdırılması problemi aktual əhəmiyyət kəsb edir.İnsan kapitalının səmərəliliyi metodları
Səmərəliliyin təhlilinə keçməzdən öncə səmərəlilik anlayışını nəzərdən keçirək. Səmərəlilik nisbi kəmiyyət olub, əldə edilmiş nəticənin onun əldə edilməsi üçün sərf olunan xərclərə nisbəti kimi hesablanır. Hazırda insan kapitalından istifadənin səmərəliliyinin ölçülməsinin çoxlu yanaşma və metodları mövcuddur. Onlardan əsaslarını nəzərdən keçirək.
Təcrübədə istifadə olunan əsas qiymətləndirmə metodlarını üç qrupa bölmək olar: kəmiyyət, keyfiyyət (təsviredici) və kombinələşdirilmiş (və ya aralıq).
Kəmiyyət metodlarına bal, əmsal, sıralama qaydası metodu, müqayisə cütlükləri metodu, qrafik profil sistemi, “eksperiment” metodu və i. a. aiddir. Keyfiyyət (təsviredici) metodlarına şifahi və yazılı xasiyyətnamələr, etalon metodu, matris və bioqrafik metodlar, qrup halında diskussiya metodu aiddir.

Kombinələşdirilmiş metodlara həvəsləndirici qiymətləndirmələr, işçilərin qruplaşdırılması, testləşdirmə misal ola bilər. Kombinələşdirilmiş metodlar müəyyən mənada kəmiyyət və keyfiyyət qiymətləndirmələrini özündə cəmləşdirir.
İnsanın real iş şəraitində fəaliyyəti və onun işgüzar keyfiyyətləri haqqında məlumatların toplanması “360 dərəcə” qiymətləndirmə adlanır. Belə informasiyalar isə bu insanla müxtəlif səviyyələrdə ünsiyyətdə olan insanlardan (müdir, həmkarlar, tabeliyində olanlar, müştərilər) toplanılır. Qiymətləndirilən ilə işdə ünsiyyətdə olan insanlardan informasiyanın toplanması “360 dərəcə” qiymətləndirməni kifayət qədər etibarlı alətə çevirir. Bu işdə ekspert kimi iddiaçının özü də cəlb oluna bilər. Sonradan bu məlumatlardan istifadə etmək və qiymətləndirilənlə bərabər

onun fərdi inkişaf planının hazırlanması üçün ondan iş davranışını və peşəkar keyfiyyətlərini qiymətləndirmək xahiş olunur.Bir çox qərbyönümlü şirkətlər heyətin işgüzar keyfiyyətlərini qiymətləndirmək üçün beş ballıq sistemdən istifadə edirlər:

5 - ən mürəkkəb şəraitdə iş keyfiyyətlərini nümayiş etdirməyə, onları inkişaf etdirməyə və digərlərini öyrətməyə imkan verən ustalıq səviyyəsi;

4 – iş keyfiyyətlərini təkcə standart deyil, eyni zamanda mürəkkəb şəraitdə də nümayiş etdirməyə imlan verən genişləndirilmiş təcrübə səviyyəsi;

3 – bir çox iş şəraitində iş keyfiyyətlərini nümayiş etdirməyə imkan verən baza təcrübəsi səviyyəsi;

2 – işgüzar keyfiyyətin həmişə nümayiş olunmadığı inkişaf səviyyəsi, lakin bu zaman əməkdaş onu nümayiş etdirməyin vacibliyini başa düşür və onu inkişaf etdirməyə çalışır;

1- heç bir iş keyfiyyəti yoxdur (4).

Həlledici vəziyyət üzrə qiymətləndirmə metodundan istifadə üçün qiymətləndirmə mütəxəssisləri həlledici vəziyyətlərdə işçilərin "düzgün" və "düzgün olmayan" davranışlarının siyahısını hazırlayırlar. Bu təsvirlər işin xarakterinə müvafiq olaraq rubrikalara paylanır. Sonra qiymətləndirici şəxs qiymətləndirilən hər bir işçi üçün qeyd jurnalı hazırlayır və oraya hər bir rubrika üzrə davranış nümunələri yazır. Sonradan əməkdaşın iş keyfiyyətləri qiymətləndirilərkən bu jurnaldan istifadə olunur. Adətən bu metoddan rəhbərlər istifadə edirlər.

Davranış parametrlərini qiymətləndirmə metodu həlledici vəziyyətlərdən istifadəyə əsaslanır. Bu zaman işçinin tələb olunan işgüzar və şəxsi keyfiyyətləri götürülür və onlar qiymətləndirmə meyarına çevrilir. Qiymətləndirici reytinq anketindəki hər hansı bir qiymətləndirmə meyarının (məsələn, mühəndislik qabiliyyəti) təsvirini oxuyur və qiymətləndirilənin səviyyəsinə müvafiq olaraq şkalada qeyd aparır. Bu baha başa gələn və əməktutumlu metod olsa da, işçilərə aydın və əlçatandır.

Davranışın müşahidə edilməsi metodu əvvəlkinə oxşayır, lakin həlledici vəziyyətdə işçinin davranışını müəyyən etmək əvəzinə qiymətləndirici işçinin özünü bu və ya digər spesifik şəkildə apardığı halların sayını şkalada qeydə alır. Metod əməktutumludur və əhəmiyyətli maddi xərc tələb edir. Anket və müqayisəli anket metodu işçinin davranışının təsvirini daxil edir. Qiymətləndirici onun fikrincə işçiyə xas olan keyfiyyətin qarşısında işarə qoyur, əks halda oranı boş qoyur. İşarələrin cəmi işçinin anketinin ümumi reytinqini verir. Rəhbərlik, həmkarlar və tabeliyində olanlar tərəfindən qiymətləndirmə üçün istifadə olunur. Müsahibə metodu heyətlə iş şöbələri tərəfindən sosiologiyadan götürülüb və ölçmə zamanı təşkilatda aktual olan qiymətləndirmə istiqamətlərini özündə cəmləşdirir. Özünü qiymətləndirmə prosesi vasitəsilə insanlar öz səmərəliliyini, bacarıqlarını, qabiliyyətlərini və digər keyfiyyətlərini ölçür. Şirkətlər özünü qiymətləndirmə metodundan işin səmərəliliyinin qiymətləndirilməsi, "360 dərəcə" qiymətləndirmə metodlarının bir hissəsi kimi, hətta seçim zamanı istifadə edirlər. Amerika şirkətlərinin təxminən 5%-i özünü qiymətləndirmənin bəzi növlərindən öz əməkdaşlarının səmərəliliyini qiymətləndirərkən istifadə edirlər. Məsələn, bəzi şirkətlərdə özünü qiymətləndirmə metodundan əməkdaşların işinin səmərəliyini qiymətləndirən rəhbər üçün onlar haqqında informasiya toplanması məqsədilə istifadə olunur. Digər şirkətlər əməkdaşların özünü qiymətləndirmə və rəhbərlərin əməkdaşları qiymətləndirmə nəticələrini müqayisə edirlər.

Ümumiyyətlə isə bütün bu qiymətləndirmə metodları içərisində ən geniş yayılmışları kəmiyyət metodlarıdır (xüsusilə, bal, əmsal, bal-əmsal). Onların üstünlüyü obyektivlik, ekspertin

mütəxəssisə şəxsi münasibətindən asılı olmamaq, nəticələrin sistemləşdirilməsi, parametrlərin müqayisəsi, riyazi metodlardan istifadə imkanıdır. İqtisadi səmərəlilik işçi tərəfindən görülən işin həcmindən, tamlığından, keyfiyyətindən və s. asılıdır. Səmərəlilik səviyyəsini müəyyən etmək üçün müvafiq meyar və göstəricilər lazımdır. İqtisadi səmərəliliyin komponentlərini nəzərdən keçirək:

- işçinin gördüyü işin nəticələrinin ona çəkilən məsrəflərə nisbəti;
- işçinin təşkilatın uzunmüddətli perspektivdə inkişafına verdiyi töhfə komponentləri. Onlara aiddir:

kadr tərkibinin varisliyində, onlara verilmiş tapşırıqların yerinə yetirilməsinin etibarlılığında, gərginlik və münaqişələrin olmamasında təcəssüm edən sabitlik; heyətin yeni şəraitə uyğunlaşma, təşkilati dəyişikliklərə fəal dəstək olma və lazım gəldikdə innovasiya konsepsiyalarının reallaşması üçün münaqişələrə hazır olma qabiliyyətini bildirən çeviklik.

**İnsan kapitalının keyfiyyətinin yüksəldilməsi**

Ümumiyyətlə, təşkilatın uğurlu fəaliyyəti bütün mövcud resurslardan, xüsusilə insan kapitalından daha səmərəli istifadə etmək qabiliyyətindən asılıdır. Lakin insan kapitalının səmərəliliyinin artırılması üsulları digər resurslardan köklü surətdə fərqlənir. Belə ki, o insanların motivasiyası və ya onların məqsədlərinə təsir etməklə təmin olunur. İntellektual işçilərin motivasiyasının spesifikası ondan ibarətdir ki, onların məqsəd və maraqları həm iqtisadi, həmçinin yaradıcı tərkibə malikdir. İntellektual işçinin motivasiyası onun səmərəliliyindən, başqa sözlə qarşıya qoyulmuş məqsədə çatmasından asılıdır. Əgər onun işi səmərəli deyilsə, onda tezliklə işləmək və fayda vermək həvəsi öləcək. Bununla əlaqədar olaraq insan kapitalından istifadənin səmərəliliyinin yüksəldilməsi müasir iqtisadiyyatın prioritetinə çevrilməlidir. Çünki gələcək inkişaf insan kapitalından asılı olacaqdır.

İnsan kapitalının səmərəliliyinin ölçülməsinin mürəkkəbliyi onun fiziki kapitaldan fərqliliyi ilə əlaqədardır. Belə ki, fiziki əmək sahibinin fəaliyyəti istehsal olunmuş məhsulun kəmiyyət və keyfiyyətinə görə qiymətləndirilir. İntellektual işçi məhsul istehsal etmir. İntellektual işçinin məhsulu – bilik və ideyadır. Bu əmtəənin reallaşması konkret nəticələr əldə etmək üçün ondan istifadə edərkən baş verir. Başqa sözlə, intellektual fəaliyyətlə məşğul olan işçi işə səmərəlilik (özü də təkcə özünün deyil, həmçinin həmkarlarının işinə də) gətirməlidir. Öz növbəsində, təşkilatın insan kapitalını təşkil edən intellektual işçinin səmərəliliyi onun aktual məsələləri həll etmək bacarığında əksini tapır. Təşkilatın uğurlarını yüksəltməyin üsulu belə işçilərin əməyinin səmərəliliyini artırmaqdan ibarətdir.

Səmərəlilik keyfiyyət meyarıdır. Əmək məhsuldarlığı insan kapitalının səmərəliliyinin ənənəvi göstəricisidir. Belə ki, intellektual işçinin məhsuldarlığı aşağıdakı amillərlə müəyyən edilir:

1. Məhsuldarlıq istehsal tapşırığının nədən ibarət olması sualına cavab tələb edir. Çünki intellektual əməyin xüsusiyyəti yekun nəticə ilə müəyyən olunur. Başqa sözlə, o özü üçün istehsal vəzifəsi müəyyən etməlidir.

2. Məhsuldarlığa görə məsuliyyət bütövlükdə işçinin öz üzərinə qoyulur. İntellektual işçilər özləri özlərini idarə etməlidirlər, həmçinin vəzifə öhdəliklərini yerinə yetirərkən onlara müstəqillik lazımdır.

3. Fasiləsiz innovasiya fəaliyyəti əqli işin ayrılmaz hissəsi olmalı və əqli əmək sahibinin istehsal vəzifəsinə daxil edilməlidir; o yeniliklərin tətbiqinə görə cavabdeh olmalıdır. Çünki dəyişiklik, təkmilləşdirmə yaradıcı fəaliyyət hesab olunur.

4. Əqli əmək sahibi bir tərəfdən həmişə öyrənir, digər tərəfdən isə həmişə öyrədir. Birincinin səbəbi özünü təkmilləşdirmə və inkişaf motivasiyası, ikincininki isə, təşkilatda intellektual işçinin bilik səviyyəsini yüksəltmək və məhsuldarlığın artırılması üçün biliklərinin bir qismini həmkarlarına ötürməsidir.

5. Əqli əmək sahibinin məhsuldarlığı kəmiyyət və ya həcmlə ölçülmür. Ən azından bu əsas göstərici deyil. İntellektual işçinin məhsuldarlığının əsas göstəricisi qarşıya qoyulmuş vəzifənin yerinə yetirilməsininkeyfiyyətidir.

Karyeranın idarəedilməsi bəsit mənada insanların iş həyatları ilə bağlı planların qurulmasıdır. Karyeranın planlaşdırılması insanın fərdi biliyi, bacarığı, marağı, güclü və zəif tərəflərinin qiymətləndirilməsi nəticəsində onun dəyərləri ilə iş təcrübəsi arasında ən uyğun münasibəti qurmağa istiqamətlənən prosesdir. Bu proses gələcəyini ehtimal edə bilən, məqsədini ona görə müəyyən edən, yüksək motivasiyaya sahib olan işçilər formalaşdırır və onların fəaliyyətlərində daha da səmərəli olmaları üçün şərait yaradır. Zənnimizcə, insan kapitalının davamlı və hər şeydən öncə dayanıqlı inkişaf mexaizmini qurmaqdan ötrü aşağıdakı tədbirlərin görülməsi məqsədəuyğun olardı: insan kapitalının səmərəli dövlət tənzimlənmə mexanizminin yaradılması; dövlətlə işgüzar dairələr arasında qarşılıqlı əlaqə modelinin qurulması; kadrlara olan tələbatın kadr hazırlıqlarının dövlət sifarişi əsasında həm ümumdövlət və həm də regional baxımdan proqnozlaşdırılması; kadrların ixtisasartırma və yenidən hazırlanması sisteminin müasir tələblər baxımından təşkil edilməsi; məşğulluq xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi. Sonda onu qeyd etmək olar ki, istənilən xalqın rifahı və dayanıqlı inkişafı insan kapitalından asılıdır. Ona görə də istər müəssisə, istərsə də bütövlükdə ölkə səviyyəsində insan resurslarının inkişafı və insan kapitalına balanslaşdırılmış investisiyalar sahəsində düşünülmüş və ardıcıl siyasətə ehtiyac vardır.

**ƏDƏBİYYAT:**


1. https://www.google.com/url?sa=t&source=web&rct=j&url=https://www.e-qanun.az/framework/23895&ved=2ahUKEwinoIe938b-AhVLSPEDHbEMAkcQFnoECBEQAQ&usg=AOvVaw25ZZl4hTD925u29KNU3Rmx
2. https://www.google.com/url?sa=t&source=web&rct=j&url=https://legalaid.az/az/blog/36-eqli-mulkiyyet-huquqlari&ved=2ahUKEwinoIe938b-AhVLSPEDHbEMAkcQFnoECAsQAQ&usg=AOvVaw0236yq6Psfr-wR0R5DekZS
3. https://www.google.com/url?sa=t&source=web&rct=j&url=https://az.m.wikipedia.org/wiki/%25C6%258Fqli_m%25C3%25BClkiyy%25C9%2599t&ved=2ahUKEwinoIe938b-AhVLSPEDHbEMAkcQFnoECAwQAQ&usg=AOvVaw1vycJV59b0eCG1ymZm_RRX
4. https://www.google.com/url?sa=t&source=web&rct=j&url=https://copat.gov.az/docs/Nesrler/AZE/%25C6%258Fqli%2520M%25C3%25BClkiyy%25C9%2599t/Eqli_Mulkiyyet_muasir_merhelede.PDF%3F_t%3D1591605272&ved=2ahUKEwinoIe938b-AhVLSPEDHbEMAkcQFnoECEMQAQ&usg=AOvVaw2FvmYH5zqhfJPHDQu--1eQ

**Balkan ölkələrində tibbi genetika təhsili problemləri**

**Cavadzadə Nərgiz**

**Azərbaycan Dillər Univesteti**

**Elmi rəhbər : müəllimə Xəyalə Ağayeva**

Balkanların etnik mənsubiyyəti, dili və dinindəki mürəkkəbliyi illər ərzində müxtəlif şərtlərlə izah edilmişdir. Digər tərəfdən, uzunmüddətli siyasət və strategiyada bütövlükdə Cənubi Balkanlar haqqında sinoptik düşünmək vacibdir. Bunun üçün isə, Balkan ölkələrinin necə olduğuna diqqət etmək lazımdır. Albaniya, Bosniya və Hersoqavina, Xorvatiya, Yunanıstan, Makedoniya, Monteneqro və Serbiya bu ölkələrin imicinə mənfi təsir göstərən millətçilik damğasını bir kənara qoyaraq, təhsillə bağlı beynəlxalq konvensiyalar və məqsədlər vasitəsilə əməkdaşlıqlarını inkişaf etdirirlər. Bu ölkələrdə beynəlxalq qurumların mövcudluğu ölkə və region səviyyəsində təhsilə müsbət təsir göstərir. Avropa İttifaqı faktiki vəziyyətdən asılı olmayaraq, standartı təyin etməklə bu 7 ölkə üçün əsas aktor və məqsəddir (Klemencic, 2021:5). Bununla belə, bu araşdırmada bütün ölkələr üçün əsas rəy: “ Təhsil yüksək riskli sektor olaraq qalırdı”. Xüsusilə ali təshildə korrupsiya və siyasi təsirə açıq şəkildə özünü büruzə verir.

Tibbi genetika həyatın və orqanlar sistemlərinin bütün mərhələlərini əhatə edən ən mürəkkəb, hərtərəfli və çoxşaxəli tibbi ixtisaslardan biridir və eyni zamanda genetik tetin etik , hüquqi və sosial nəticələrinə xüsusi diqqət yetirir. Üstəlik genetik və geonomik test üsullarının inkişafındakı heyrətamiz irəliləyişlərin tibbin müxtəlif hissələrinə inteqrasiyası sürətlə baş verir. Buna görə də Avropanın əksər ölkələri uzun müddətdir ki, tibbi və laboratoriya genetikasının ayrı-ayrı tibb ixtisasları kimi tətbiq edilməsinin vacibliyini dərk edir, həm də gələcək səhiyyə işçiləri kimi tibb tələbələri arasında genetik savadlılığın səviyyəsini yüksəltməyə səy göstərirlər. Balkan ərazisi Avropa qitəsinin cənub-şərq hissəsində müxtəlif mədəni və tarixi təsnifatlarla əlaqəli coğrafi bölgədir. Slavyan dilləri olan ölkələrə Bosniya və Hersoqavina , Bolqarıstan , Xorvatiya , Monteneqro , Şimali Makedoniya , Serbiya və Sloveniya daxildir. Əslində bu ölkələr təkcə slavyan dili ilə deyil , həm də oxşar təhsil və səhiyyə sistemləri ilə əlaqələndirilir (Zgaga, 2018:16). Təəssüflər olsun ki, slavyan dilli Balkan ölkələri həm tibbi həm də laboratoriya genetikasının tibbi ixtisaslar kimi təqdim edilməsində əhəmiyyətli gecikmələrə səbəb olan bir çox tarixi maneələrlə üzləşmişlər, həm də tibb fakültələrində genetik təhsili gələcək həkimlər üçün əvəzedilməz vasitə kimi qəbul etmişlər. XX əsr nəticə etibarı ilə beynəlxalq miqyasda tibbi genetikadakı irəliləyişlər həmişə klinik pratikada adekvat səviyyədə tətbiq olunma və ya Balkanlarda yerli tibb tələbələri arasında genetik savadlılığın artırılması ilə müşayiət olunmuşdur.

Bundan əlavə, əksər ölkələr hələ də tibbi və ya laboratoriya genetikasını tibbi ixtisaslar kimi təqdim etməyiblər ki, bu da istər-istəməz genetik təhsilin inteqrasiya olunmuş bakalavr və magistratura tibb təhsili sistemində zəif mövqeyini əks etdirir. Tibb tələbələrinin genetik təhsili genetik xəstəlikləri olan xəstələrə lazımi qayğı göstərmək üçün vacib şərtdir. Tibbi genetika həm əsas elm, həm də klinik ixtisas olduğu üçün tibb fakültəsi tələbələrinin müvafiq genetik təhsili insan genetikası üzrə əsas anlayışlar, eləcə də tibbi genetika üzrə klinik anlayışlar üzrə savadlılığı əhatə etməlidir. Bununla belə, yuxarıda adı çəkilən Balkan ölkələrində tibb fakültələrində tibb tələbələri üçün genetik təhsil imkanları üçün mövcud vəziyyət slavyan dilləri ilə sadəcə coğrafi sərhədlərlə ayrılanda daha çox oxşarlıqlarla əlaqələndirilir.

Tibbi genetika üzrə məcburi klinik kurslarla bağlı mövcud vəziyyət insan genetikası üzrə əsas kurslardan tamamilə fərqlənir . Ümumiyyətlə , Balkan ölkələrində tibbi genetika üzrə klinik kurslar çox az təmsil olunur. Xorvatiyada üç, Monteneqroda bir tibb fakültəsi

daxil olmaqla yalnız iki ölkədə dörd məcburi klinik kurs təklif olunur. Maraqlıdır ki , heç bir ölkə tibbi və ya laboratoriya genetikası təklif etmir. Bundan əlavə , bu kurslar təhsilin ilinin mövqeyinə ( beşinci və ya altıncı kurs ) , əlaqə saatlarının sayına (45-60) , AKTS(3-4) və məzmununa görə oxşar olsa də, məqsəd və öyrənmə baxımından əhəmiyyətli dərəcədə fərqlənir. Nəticələr, dərslərin növləri , dərs növlərinin nisbəti, tədris metodları və tələbələrin qiymətləndirilməsi metodları kurslar təkcə Xorvatiya və Monteneqro arasında deyil, həm də Xorvatiyadakı tibb fakültəsinin pediatriya fakütəsində yalnız pratikada iştirak edirlər. Osijek universtetinin tibb fakültəsində isətələbələrin pratiki məşğələləri ümumiyyətlə yoxdur. Digər tərəfdən , Rijeka universtetinin tibb fakültəsində kurs kliniki əsaslandırmaya əsaslanır və Avropa İnsan Genetikası Cəmiyyəti tərəfindən xüsusi olaraq həkimlər üçün nəşr olunan Avropada Sağlamlıq Peşəkarları üçün Genetika üzrə əsas səlahiyyətlərə uyğun olaraq uyğunlaşdırılıb. Kursun məzmunu, tədris metodları (ilk növbədə vəziyyətə əsaslanan əsaslandırma) və qiymətləndirmə üsulları tibb tələbələrinin iki nəsli üzərində ətraflı təhlil edilmiş və əvvəllər dərc edilmiş nəticələr ehtiyaclara əsaslanan təhsilin olduğunu təsdiqləmişdir, nəinki tibb tələbələrinin biliklərini artırır, həm də xəstələrə düzgün qulluq üçün çox vacib olan münasibət və özünəinamın inkişafına kömək edir. Qeyd etmək lazımdır ki, eyni tibb fakültəsindən eyni kurs bir neçə il əvvəl bütün tibbi araşdırmadan ən problemli kurslardan biri idi və tələbələrdən daim mənfi rəylər alırdı. Tələbələrin bu tənqidinin əsas səbəbi çox haqlı idi, çünki kursdan əsasən insan və laboratoriya genetikası üzrə əsas mövzular, məsələn, metodologiyanın ətraflı təsviri və hətta genetiki müayinənin molekulyar-genetik üsullarının icrası kimi istiqamətlər gələcək həkimlər üçün əhəmiyyət kəsb etmirdi (Bennett, 2017:23). Bütün bunlar motivasiya və məzmunun məqsədyönlüyünün vacib olduğu böyüklərin öyrənmə nəzəriyyəsinə uyğundur. Bununla belə, kurs yeni kurs koordinatoru ilə tamamilə dəyişdirildi və indi inteqrasiya olunmuş bakalavr və magistr təhsilinin sonunda tibb mütəxəsislərinin faktiki tələblərinə uyğundur.

İnsan genetikası üzrə əsas kurslar baxımından , onlar kağız üzərində çox oxşar olsalar da (gözlənildiyi kimi , tələbənin qiymətləndirilməsi metodlarında ən böyük fərqlərə görə) , gələcək tədqiqatlar kursun nəticələrinin təhlilini tələb edəcəkdir. Buna görə də, gələcək tədqiqatlar məzmunun tələbələrə ötürülməsinin, xüsusən də kursun məqsədlərinə və təlim nəticələrinə nail olunmasının təhlili konteksində, eləcə də tətbiqi tədris və təlim metodlarının (məsələn ,tətbiqi aktiv öyrənmə üsulları və klinik kurslarla daha yaxşı üfüqi inteqrasiya). Gələcək tədqiqatlar həmçinin kurikulumda yenilənmələrə imkan vermək üçün klinik kurslarla şaquli inteqrasiyanı təhlil etməlidir. Həmçinin, tələbələrin kursların qiymətləndirilməsi ilə bağlı rəylər nəzərə alınmalıdır, çünki tələbə rəyi hər hansı kurikulum və ya proqramın inkişafı üçün çox vacibdir. Klinik kurslar üçün Balkan ölkələri tibbi genetikanın sürətli inkişafı və onun müasir tibbin bütün sahələrinə inteqrasiyası nəticəsində bu kursları daha yüksək təhsil illərinə təqdim etməyə çox ehtiyac duyurlar. Bununla belə kurs koordinatorları nəzərə almalıdırlar ki, onların kurslarının gələcək həkimlər üçün minimum əsas səriştələrə uyğun olması və təhsilin ehtiyaclara əsaslanması çox vacibdir. Əks halda, tibb tələbələri gələcək klinik pratikalarında kursun məzmunun faydlığını, məqsədyönümlülüyünü və tətbiqini görməzlərsə, əks arzuolunmaz təsirlər yarada bilər. Buna görə də böyüklər üçün öyrənmə nəzəriyyəsi qaydalarına riayət etmək və aktiv öyrənmə metodlarını ( məsələn klinik əsaslandırma) və tənqidi düşüncəsi maksimum dərəcədə tətbiq etmək vacib olardı. Bütün altı ölkənin nümayəndələri milli və ya regional Balkan kurikulumu şəklində konsensusun tibb fakültələrinə fayda verə biləcəyi ilə razılaşsalar da, hər bir kurs koordinatoruna kursu milli və yerli xüsusiyyətlərə uyğunlaşdırmaq azadlığına icazə vermək vacibdir. Bundan əlavə, tibbi

genetikanın digər tibb ixtisasları vasitəsilə genetikanın əhəmiyyətinin tibb tələbələri üçün davamlı vurğulanması onların müasir tibbdə genetikanın əhəmiyyətini dərk etmək üçün zəruridir (Turnpenny, 2020:19). Beləliklə, digər ixtisasların klinisyenlərinin genetik təhsili bu maneəni aşmağa kömək edə bilər. Nəhayət, yalnız iki ölkə tibbi və laboratoriya genetikasını tibb ixtisası kimi təklif edir ( Şimali Makedoniya və Sloveniya) və tibb tələbələri və klinisistlər üçün məcburi genetik təhsilin tətbiqi ilə yanaşı, qalan ölkələr aspirantlar üçün hər iki ixtisasın tətbiqinə diqqət yetirilməlidir.

**ƏDƏBİYYAT:**


1. Bennett.R, Waggoner.D, Blitzer.M. Medical Genetics and Genomics Education, 2017
2. Klemencic.M. Higher Education in the Western Balkans: reforms, developments, trends. Ljubljana 2021
3. Turnpenny.P. Elements of Medical Genetics, 14th edition, Elsvier Livingstone, 2020
4. Zgaga.P. Higer Education Research and Higher education Policy in the South-Eastern Europe. European Journal of Higher Education. Vol.3 No-3. 2018

## Elektron təhsil

**Əzizov Kənan**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**

**Elmi rəhbər: Vəliyeva Təranə**

İctimai inkişafın hər bir mərhələsində cəmiyyətin təhsillə bağlılığı olmuşdur və təhsil bir anlayış kimi, biliklərin, müvafiq bacarıq və səriştələrin məcmusudur. **Təhsil** dedikdə, yalnız məktəb və ya universitet təhsili deyil, həyatın bütün sahələrində uzunmüddətli və çoxşaxəli öyrənmə prosesi nəzərdə tutulur. Məsələn, insan həyata ilk addımını atanda oxunu, yazını və hesabı bilmir, əxlaq normaları və mədəni nailiyyətlər haqqında xəbərsiz olur. Müəllimin səyi və ailədəki təlim-tərbiyənin, müasir dövrdə kütləvi media vasitələrindən və internetdən irəli gələn imkanlar sayəsində oxumağı, yazmağı, hesablamağı, öz ətraf mühitini, əxlaq-davranış normalarını öyrənir.

Təhsil- insan inkişafının ən mühüm tərkib hissəsidir və onun bilik, bacarıq əldə etməsində böyük rol oynayır. Müasir təhsil isə cəmiyyətin mədəni irsinin nəsildən nəslə ötürülməsinə şərait yaradır, iqtisadi və sosial statusları müəyyən edir. Təhsil müddətində uşaq və yeniyetmələrdə davranış, ətraf aləm haqqında rəy və təsəvvürlər formalaşır, insanın imkanları əhəmiyyətli dərəcədə genişlənir. Onun sayəsində elmi biliklər və sosial qaydalar toplanaraq gənc nəsillərə ötürülərək cəmiyyətin və dövlətin intellektual potensialı formalaşır.

XX əsrdə müasir həyat iki dinamika ilə -*informasiya texnologiyalarının tətbiq olunması* və *iqtisadi qloballaşm*a ilə müşahidə edilir. Yaşadığımız informasiya dövründə yeni faktlar və bilgilər sürətlə həyatımıza daxil olur, dünyagörüşümüzü kökündən dəyişə biləcək yeni biliklər meydana çıxır, bu biliklər insanın imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir.

Elmi-texniki kəşflərin sürətli artımı elmi biliklərin rolunun dəyişməsinin göstəricisidir. Yeni bilgilərin və yeni tətbiq metodlarının axtarışı (“ixtiralar və innovasiyalar”) müasir cəmiyyətlərdə fəaliyyətin mühüm bir sahəsinə çevrilmişdir. Təhsil hər bir ölkənin insan inkişafı və dövlətin gələcəyi üçün vacibdir. Sürətlə dəyişən dövrdə təhsil sahəsində atılan addımlar müasir tələblərlə deyil, gələcəyin perspektivləri üzərində köklənir və kəmiyyətə deyil, keyfiyyətə yönəlir.

İndiki dövrdə təhsilin rolu və əhəmiyyəti daha fərqlidir. Yaşadığımız informasiya dövründə yeni faktlar və bilgilər çox sürətlə dəyişərək insanların ideoloji baxışları, ictimai münasibətləri, yeni yaşayış formalarına adaptasiyaları və sosial həyatın prinsiplərinin öyrənilməsi ictimai şüurda, praktikada möhkəmlənir və insan təhsilin rolunu, onun həlledici mahiyyətini aşağıdakı kimi qəbul edir:

* təhsil bütün sosial sferalarla əlaqəli infrastrukturdur və ictimai mühitin inkişafını təmin edir;

* təhsil insanların həyat tərzini və yaşam qaydalarını, onların ümumi həyatının dəyərlərini qoruyub saxlayır;

* təhsil cəmiyyətin ictimai-siyasi, tarixi-mədəni dəyərlərini formalaşdıran və inkişafetdirən vasitədir;

* təhsil insan şəxsiyyətinin və mədəniyyətinin formalaşmasında, tərbiyəsində, bacarıqlarının dərinləşməsində həlledici rol oynayır.

Artıq ənənəvi təhsil sistemi dövrünü başa vuraraq, yeni təkamül yolu ilə dəyişərək, öz yerini yeni təhsil sisteminə vermişdir. Bu sistemdə İKT əsas rol oynayır. Yeni təhsil sisetmində dərsdə psixoloji, sosial- pedaqoji xidmətlər inkişaf etdirilir, təhsilalanlar arasında dioloq rejimində münasibətlərə üstünlük verilir, sağlamlığı qoruyan mühit yaradılır, çoxlu sayda informasiya mənimsədilir, dərslərdə informasiyaların yadda saxlanılması deyil, başa düşülməsi nəzərə alınır, pedaqoji kadrlar müasir tələblərə cavab verən səviyyədə formalaşdırılır, pedaqoji fəaliyyətdə bacarıqlı müəllimlərə tələbat artır, dərslərdə

rəqabət genişlənir və motivasiya *(problem situasiyanın yaradılması, fərziyyələrin irəli sürülməsi)* yüksəlir, müasir dünyagörüşün inkişafı təmin olunur, interaktiv təlim metodlarından istfadə edilir və s.

Müasir təlim prosesində *informatlaşma prinsipindən* istifadə olunur. Bu prinsip informatika, informasiya və İKT texnologiyalarının nailiyyətlərindən idarəetmədə və pedaqoji tədqiqatlarda geniş istifadəni nəzərdə tutur, müxtəlif informasiyaların kompüter vasitəsilə yaddaşa alınması, saxlanılması, təhlili və təqdiminə əsaslanır. Ən mühüm informasiya kommunikasiya texnologiyaları aşağıdakılardır:

- kompüterdə pedaqoji testləşdirmə;
- dərsin müxtəlif informasiyalarla (pedaqoji məzmunlu yeni texnologiyalara dair məlumatlar) təmin edilməsi;
- tədris materialının əyaniliyini, onların videokeyfiyyətini yüksəldən, görüntüləri nümayiş etdirən kompüter multimedia sistemlərindən istifadə edilməsi.

İKT əsasında təhsil sahəsinin inkişafı əsas prioritet sayılır. Təhsilin inkişafı əhalinin rifahının yaxşılaşması, həyatının daha yüksək səviyyədə qurulması, insanlara müasir texnologiyaların çevik mənimsədilməsi, əmək bazarında layiqli yer tutmsı, sağlam həyat tərzinin seçilməsi və ətraf mühitə münasibətdə düzgün mövqe tutması üçün zəmin yaradır. Təhsil hər bir təhsilalanın bilik və bacarıqlara yiyələnməsi, etik-əxlaqi norma və dəyərlər əldə etməsi, nümunəvi vətəndaşa çevrilməsi üçün boyük rol oynayır. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması və Avropa standartlarına uyğunlaşdırılması üçün təhsilin idarəetmə sistemini yenidən qurmaq, bu sahədə insan resurslarını inkişaf etdirmək və müəllim peşəsinin nüfuzunu artırmaq lazımdır. Qabaqcıl texnologiyalara əsaslanan təhsil sistemini yaratmaq üçün aşağıdakı bir neçə tədbirləri həyata keçirmək nəzərdə tutulmuşdur:

- təhsilin bütün pillələri üzrə kurikulumların inkişafı;
- insan resurslarının müasirləşdirilməsi;
- innovativ təlim metodlarının tətbiq edilməsi;
- təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən təcrübəli təhsilverənin formalaşdırılması;
- təhsildə şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılması;
- təhsil müəssisələrində tənzimləmə və idarəetmənin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsi;
- təhsilin keyfiyyətinin təminatı və idarə olunması üzrə yeni məlumat və hesabat sistemlərinin yaradılması;
- təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması, distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsilin inkişafı;
- təhsilin maliyyələşdirmə mexanizminin təkmilləşdirilməsi;
- Təhsilin İnkişafı Fondunun yaradılması və s.

Cəmiyyət üzvlərinin keyfiyyətli baza təhsili alması, onların arzu və tələbatına uyğun istənilən vaxt, istənilən yerdən fasiləsiz təhsil sisteminin yaradılması zəruri məsələlərdəndir. Belə bir sistem **elektron təhsil(e-təhsil)** texnologiyalarının tətbiqinə əsaslanan təhsil sistemidir. E-təhsil texnologiyaları insanların yeni növ təhsilə istiqamətləndirilməsi və gələcəkdə də təhsil almaq üçün bilik və bacarıqların inkişaf etdirilməsi üçün vasitədir. Bu vasitə təhsilin bütün səviyyələrində İKT-dən istifadənin əsas tendensiyasıdır. Tendensiya İKT-nin tətbiqi ilə müasir tədris metodlarını, tədris materiallarının elektron yolla çatdırılmasını əhatə edir və “on-layn təhsil” terminini ifadə edir.

E-təhsil mühitinin əsasını müxtəlif proqram vasitələrindən istifadə etməklə müxtəlif formatda və müxtəlif texnologiyalar əsasında yaradılan **elektron tədris resursları** təşkil edir. Bu resurslar bir neçə

qrupa bölünür: müəllif sistemləri, təhsili idarəetmə sistemləri, tədris kontentini idarəetmə sistemləri. Bunların əsas xüsusiyyətləri təhsil alanların təhsilinin idarə edilməsini təmin etmək, tədris funksiyalarının həyata keçirilməsinə imkan verməkdir. E-təhsil texnologiyasını zəruri edən əsas amil isə elm və texnikanın müasir vəziyyətinin dərsliklərdə əks etdirilməsi, təhsil alanların onlara lazım olan tədris materiallarını asanlıqla tapa bilmələri, elektron tədris kurslarının yaradılması, kurs müəlliflərinin ayrı-ayrı layihələrdə iştirak etmə imkanlarının olması, mediakomponentlərindən istifadə edərək müxtəlif tədris materialları hazırlaya və onun üzərində əlavə və dəyişikliklər edə bilmələridir.

E-təhsil mühitində müxtəlif elmlərə aid bilikləri əldə etmək üçün tədris obyektlərinin rəqəmsal yaradılması vacibdir. Obyektlərin rəqəmsal rejimdə yaradılması müxtəlif meyarların tənzimlənməsinə imkan verir ki, meyarlar da bunlardır: müxtəlif fənlər, ixtisaslar və tədris prosesilərinin informasiya mənbələrini vahid sistem çərçivəsində birləşdirmək, sistemin inkişafını daim təmin etmək, tədris prosesində bilik və tələbatlara uyğun informasiya təqdim etmək, elektron mühitdə istifadə üçün dərsliklər, dərs vəsaitləri, tədris-metodiki komplekslər yaratmaq. Bu meyarlar çoxistifadəli, axtarış üçün əlverişli tədris obyektlərinin yaradılmasına şərait yaradır.

E-təhsil sistemi təhsil prosesinin bütün mərhələlərinə inteqrasiya edərək elektron təhsil informasiya resurslarının yaradılması, müəllimlərin kompüter biliklərinin artırılması, e-təhsil və distant təhsil sisteminin müasir tələblərə uyğun inkişaf etdirilməsi, fasiləsiz təhsil konsepsiyasının formalaşdırılması və inkişaf etdirilməsi kimi məsələləri əhatə edir. Bu inkişafın dəstəklənməsi və yüksək səviyyədə saxlanılması yeni texnologiyaların istehsalı və istifadəsinə yönələn müasir sahələrin inkişafına əsaslanır. Müasir tələbatlara cavab verən təhsil sisteminin yaradılması aşağıdakı şərtləri əsaslandırır:

- gənclərin müasir cəmiyyətdə yaşaması və işləməsi üçün bilik və təcrübələrinin artırılması;
- yeni təhsil forma və metodlarından istifadə etməklə təhsilin keyfiyyətinin yüksəldilməsi;
- yaşından asılı olmayaraq insanlara təhsillərini artırmaq imkanının verilməsi;
- biliklərə əsaslanan İC-nə adaptasiyanın təmin olunması.

İC-də təhsil müəssisələrinin İKT avadanlıqları ilə təminatı geniş şəkildə tətbiq olunur. Bir neçə il əvvəl təhsil müəssisələrində kompüterlərin azlığı informasiyalaşdırma proseslərinin ləngidilməsinin əsas səbəbi olduğu halda, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 15 ayqust 2004-cü il tarixli sərəncam ilə "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı"nın təsdiq edilməsi bu problemləri həll etmişdir, bu da İKT savadlılığının aradan qaldırılması deməkdir. Proqram çərçivəsində yerlı kompüter istehsal olunmuş, elektron dərsliklər, təhsil elektron portallar yaradılmış, bütün təhsil müəssisələrinin İnternetə çıxışının təmin edilməsi nəzərdə tutulmuşdur. İT-larının təhsildə tətbiqi Azərbaycan təhsilinin beynəlxalq təhsil sisteminə inteqrasiyasını təmin edir, təhsil sisteminin inkişafı üçün tədris-metodiki, elmi və informasiya infrastrukturunu yaradır.

İKT-nin həyatın bütün sferalarında tətbiqi e-hökumət, e-biznes, e-təhsil, e-səhiyyə, e-məşğulluq, e-ətraf mühit, e-kənd təsərrüfatı kimi sahələri əhatə edir. İC ideyaları qeyd olunmuş fəaliyyət sahələri elmdə də uğurla həyata keçirilir. Elmi fəaliyyətdə və elmin idarə edilməsində informasiya texnologiyalarının tətbiqi e-təhsil layihəsi çərçivəsində reallaşdırılır. Layihədə e-təhsillə bağlı müxtəlif standartlar və dövlət proqramları, informasiya-kommunikasiya infrastrukturuna malik, yüksək sürətli İnternet şəbəkəsi vasitəsi ilə elmi araşdırmalarla məşğul olan mütəxəssislərin işləri təmin edilir, aktual məsələlərin araşdırılması məqsəd kimi qarşıya qoyulur. E-təhsil elmi mühitin İC-nın tələblərinə uyğun yenidən qurulması və İKT-nın həmin mühitə tətbiqi məsələlərinin həllinə əsaslanır. Azərbaycanda e-təhsilin əsası XX əsrin 80-cı illərində qoyulmuşdur.

E-təhsil elmi fəaliyyətdə İKT-nin idarə olunması və bu idarə olmanın elmi-nəzəri əsaslarının işlənilməsi və praktiki reallaşdırılması, bu məqsədlə dünya təcrübəsinin öyrənilməsi, informasiya təhlükəsizliyinin təmin edilməsi, elmin informasiyalaşdırılmasının tənzimləşdirilməsi və hüquqi-normativ bazasının təkmilləşdirilməsi kimi kompleks məsələlərin ardıcıl həllinu nəzərdə tutur.

E-təhsil kommunikasiya-şəbəkə infrastrukturunun formalaşmasında mühüm rol oynyır. Bu da maddi-texniki bazanın təminatı, elmi təşkilatların lokal şəbəkələrinin yaradılması və sürətli İnternet çıxışının təminatı, elmi qurumları birləşdirən vahid şəbəkənin yaradılması, təhlükəsizlik strategiyasının işlənməsi və beynəlxalq elmi şəbəkələrlə inteqrasiyanı həyata keçirir.

Təlim fəaliyyətinin həyata keçirilməsində əsas məsələ təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün imkan yaradan və elektron cihazların köməyi ilə istifadə olunan dərs materiallarıdır. Bu materiallar **elektron təhsil resursları (ETR)** adlanır. ETR- informasiya, texniki, proqram təminatı və elektron nəşrlər toplusudur. Müasir və səmərli təhsil üçün lazım olan ETR-lər kompüter vasitəsilə yaradılır. Ən sadə elektron təhsil resursları – qrafik mətnlərdir. Onlar kitablardan mətn və illüstrasiyaların təqdimat formasına görə fərqlənir, məlumatlar kağız üzərində deyil, kompüter ekranında təqdim olunur və ekrandakı görüntünü kağız üzərinə köçürmək, çap etmək  çox asan olur.

Elektron resurslar adətən vizual və ya audio fraqmentlərdən ibarət olur. Bunlar, təhsil üçün yaradılan ən güclü və maraqlı məhsullardır. Buraya mətn, şəkil, video, audio və digər rəqəmsal funksiyalar daxildir, əsas üstünlükləri müəllimin tələbənin fərdi öyrənməyini təmin etməyidir. Belə ki, multimedia sistemindən istifadə edərək, müəllimlər öz təlim kursları və müəllif hüquqları olan fərdi təhsil proqramlarını yaradırlar.

Elektron resurslar bunlardır:

***1.Elektron dərsliklər*** - təhsilalanları təhsil prosesində fəallaşdırır, onların İKT-dən səmərəli istifadə etməsinə, dərslikləri elektron formatda oxumasına imkan yaratdır.Bu sistem  dərsliklərdən istifadəyə mobillik yaradaraq istənilən vaxt və məkanda dərsliklərə müraciət edə bilmək şəraitini təmin edir. İstifadəçilər dərslikləri elektron versiyada oxumaq, onlayn rejimdə dərsliyin istənilən səhifəsində lazımi elektron qeydlər aparmaq imkanı qazanır, öyrənmə psosesinin fərdiləşməsinə şərait yaradılır.

***2.E-test***- elektron formada dövlət qulluğuna, qəbul imtahanlarına, sınaq imtahanlarına qəbulla bağlı bilik və bacarıq səviyyəsinin müəyyənləşdirilib üzə çıxarılması, qiymətləndirilməsi üsuludur.

***3.Video dərslər*** hazır görünüş nümunələri olmaqla  istifadəçi üçün dərs prosesinin gedişini izah edir, əyani göstərir, başqa mənbələr axtarmağa ehtiyac qalmır. Bu da  vaxta qənaət etməyə imkan yaradır. Video dərslər problemin birbaşa həll yollarını və onu öyrənməyin sadə alqoritmini izah edir, elektron mühazirə və

ətnlər, elektron tədris vəsaitləri  portalda yerləşdirilir.

***4. E- tapşırıq*** — Müəllim tərəfindən şagirdə  (tələbəyə) dərsdən  sonra  elektron  formada müstəqil şəkildə həll etmək və ya öyrənmək üçün verilən tapşırıq. Bu tapşırığın verilməsində məqsəd yeni keçilən mövzunun yadda saxlanmasına nail olmaqdır.

***5. E-sinif*** “öyrətmək və öyrənmək” üçün elektron formada -öyrədən tərəfindən öyrənənlərin çalışma çətinliklərinin aradan qaldırılması, düzgün başa salınması, biliyin öyrədilməsi prosesinin həyata keçirilməsidir.

Azərbaycanda Elm vbə Təhsil Nazirliyinin hazırladığı elektron resursları bir mənbədə yerləşdirmək üçün www.e-resurs.edu.az portalı yaradılıb. Bu  portal vasitəsilə hər bir istifadəçi elektron dərsliklər, video dərslər, müsabiqələr, elektron tapşırıqlar, müxtəlif oyunlar dan istifadə etmək üçün  bu portaldan istifadə edə bilirlər.Portalda təcrübəli təlimçilərin iştirakı ilə hazırlanmış video dərslər yerləşdirilib. İstifadəçilər burada  elektron qaydada müzakirələr aparmaq, fikirlərini bölüşmək, suallar vermək və şərhlər yazmaq imkanı əldə edirlər.

